# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## SƏKSƏN YEDDİNCİ KİTAB

## MAY 2018 - İYUN 2018

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Türkiyə Respublikasına və Rusiya Federasiyasına səfəri, həmçinin Serbiya Respublikası Prezidentinin ölkəmizə səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanmışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Kitabda, həmçinin dövlət başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda, Əskişəhərdə TANAP layihəsinin, Səngəçal terminalında «Cənub Qaz Dəhlizi»nin açılışı mərasimlərində və bir sıra yerli və beynəlxalq tədbirlərdəki çıxış və nitqləri oxucuların ixtiyarına verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## «DİNAMO» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*11 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 11-də Bakının Səbail rayonunda «Dinamo» hotelinin açılışı mərasimində iştirak etmişlər.*

*Hotelin baş meneceri Alberto Matos və dizayneri Linda Pinto burada aparılan əsaslı təmir və yenidən qurulma işləri barədə Prezident İlham Əliyevə məlumat verdilər.*

*Dövlət başçısı və xanımı hotelin rəmzi açılışını bildirən lenti kəsdilər və hoteldə yaradılan şəraitlə tanış oldular.*

*Nəfis tərtibatla qurulan hotelin interyeri müasirliyi ilə diqqəti cəlb edir. Burada aparılan yenidən qurulma işləri nəticəsində qonaqların qalması, yüksək səviyyədə istirahət etməsi, vaxtlarını səmərəli keçirməsi üçün maksimum imkanlar yaradılıb. İdmançıların və atletlərin arenası olan bu məkan öz yeni konsepti ilə dinamik və müasir həyat tərzi axtaranlar üçün də ideal məkandır. Hotel restoranlarının nadir bədii konsepti diqqət çəkir. Restoranlarda hotelin qonaqlarının və müştərilərin zövqünə uyğun xidmət göstərmək üçün hərtərəfli şərait vardır. Burada qonaqlara milli və dünya mətbəxinin nəfis təamları təqdim ediləcəkdir.*

*Mehmanxananın idman zalında müasir qurğular quraşdırılıb, qonaqların və atletlərin idmanla məşğul olmaları üçün geniş imkanlar yaradılıbdır. Bundan başqa, hoteldə üzgüçülük hovuzu və SPA xidməti də qonaqların ixtiyarına veriləcəkdir.*

*Ümumi sahəsi 7500 kvadratmetrə yaxın olan hotelin paytaxtın əsas işgüzar və mədəni mərkəzlərinə yaxın olması qonaqlara*

*vaxtlarını daha səmərəli keçirmək üçün hərtərəfli imkan yaradır.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, turizm sektorunun əsas xidmət istiqamətlərindən olan müasir hotel sisteminin yaradılması baxımından son illərdə çox mühüm işlər görülüb. «Dinamo» hotelində müxtəlif kateqoriyalara uyğun 28 otaq vardır. Otaqların interyeri tərtib edilərkən qonaqların zövqünü oxşaması və rahatlıq əsas meyar kimi seçilibdir.*

*Hotelldə yaradılan şəraitlə tanışlıqdan sonra Azərbaycan Prezidenti kollektivlə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Mən sizi Bakıda yeni hotelin açılışı münasibətilə təbrik edirəm, çox gözəl hadisədir. «Dinamo» hoteli çox gözəl səviyyədə tikilib istifadəyə verilir. Bildiyiniz kimi, bu hotel tarixi binada yerləşir. Bu binanın böyük tarixi var və çox şadam ki, binanın tarixi memarlığı tam qorunub saxlanılıb və daxili dizaynı da göz oxşayır. Burada istirahət edən qonaqlar özlərini evlərindəki kimi hiss edəcəklər. Çox gözəl dizayn işləri görülüb. Xanım Pintoya xüsusi minnətdarlığımı bildirirəm ki, doğrudan da dizayn göz oxşayır. Burada bütün işlər çox müasir və yüksək səviyyədə görülübdür. Hotelin yerləşməsi də çox əlverişlidir, şəhərin mərkəzidir. Burada qalan qonaqlar şəhərin ən baxımlı yerlərinə piyada rahat gedib çata bilərlər. Turistlər buradan həm bulvara, həm İçərişəhərə, həm də şəhərimizin mərkəzi yerlərinə çox rahat gedib çıxa bilərlər.

Əlbəttə, bu hotelin fəaliyyəti ölkəmizdə turizmin inkişafına təkan verəcək. Çünki bu indi bizim üçün əsas istiqamətlərdən biridir, turistlərin sayı ölkəmizdə artır. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə isə 20 faiz artıbdır. Bu ilin 4 ayında Azərbaycana gələn turistlərin sayı 13 faiz artıbdır. İndi «ASAN viza» rejimindən istifadə edərək, 90-dan çox ölkədən turistlər gələ bilərlər. Bizim 7 aeroportumuz var, gözəl infrastruktur layihələri icra edilir. Bu yaxınlarda turizm üzrə Dövlət

Agentliyi yaradılıb. Əlbəttə, bu agentlik turizmin inkişafına təkan verəcək və Azərbaycanda müasir turizm sənayesi yaradılacaqdır.

Eyni zamanda, bu hotelin fəaliyyətə başlaması ölkəmizin ümumi inkişafını göstərir. Şəhərimizin gözəlliyi bu gün artıq dünya birliyi tərəfindən tanınır. Ölkəmizdə keçirilmiş böyük tədbirlər, idman tədbirləri, onların sırasında, əlbəttə ki, «Formula-1» yarışı dünyanın diqqətini Azərbaycana cəlb edir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biri kimi, öz qapılarını dostlarının üzünə açır.

*Sonra çıxışını ingilis dilində davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dedi:*

– Mən həqiqətən də çox şadam ki, biz bu gün şəhərimizin tarixi binasında yerləşən «Dinamo» hotelinin rəsmi açılışı mərasimində iştirak edirik. Çox şadam ki, binanın memarlıq üslubu tamamilə qorunub saxlanılmışdır. Bu binanın böyük tarixi vardır. Çox sevindirici haldır ki, biz bu binanı inşa olunduğu üslubda qoruyub saxlaya bilmişik. Bunun vacibliyini xüsusilə qeyd etmək istəyirəm. Çünki bilirəm ki, bu binanın sökülməsi və onun yerinə yeni göydələnin tikintisi planları var idi. Lakin mən bu barədə məlumat alan kimi, əlbəttə, bunun qarşısını aldım. Çünki biz tariximizi, memarlığımızı qorumalıyıq və Bakı şəhərinin memarlığının inkişafını qorumalıyıq.

Əlbəttə, şəhər genişlənməlidir, inkişaf etməlidir, hündürmərtəbəli binalar, göydələnlər də olmalıdır. Lakin tarixi keçmişimiz və müasir tələblərimiz arasında harmoniya da olmalıdır. Hesab edirəm ki, Bakı bu iki vacib elementi özündə birləşdirən dünyanın azsaylı şəhərlərindən biridir. Biz qədim tariximizi qoruyuruq və eyni zamanda, Bakıda inşa olunmuş müasir binalar şəhərin ümumi görünüşü ilə ziddiyyət təşkil etmir. Buna görə də Bakı öz qonaqları və şəhərin sakinləri üçün xoş və rahat nadir ab-havanı qoruyub saxlayır. «Dinamo» hotelinin açılışı əlamətdar hadisədir. Çünki biz burada xanım Pintonun rəhbərlik etdiyi qrupun, dünyaca məşhur şirkətin sənət əsərini görürük.

Biz sizin verdiyiniz töhfəni yüksək qiymətləndiririk. Sizin adınız qonaqları mütləq buraya cəlb edəcək. Hotelin müxtəlif yerlərinə baxarkən biz bir daha görürük ki, sizin şirkətin belə yüksək beynəlxalq standarta malik olması təsadüfi deyil. Buna görə minnətdarlığımı bildirirəm. Əminəm ki, hoteldə qalanlar, nahar yeməyi üçün buraya gələnlər və ya yaxşı vaxt keçirmək istəyənlər özlərini həqiqətən də çox xüsusi bir mühitdə hiss edəcəklər.

Şəhər sürətlə inkişaf edir. Hesab edirəm ki, bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və biz irsimizi qorumalıyıq, burada yaşayan insanlar və qonaqlarımız üçün daha da yaxşı şərait qurmalıyıq.

Sizə uğurlar arzulayıram. Şadam ki, «Dinamo» adı və keçmişin rəmzləri qalıb. Bu bir daha onu nümayiş etdirir ki, biz tariximizin bütün dövrlərinə hörmətlə yanaşırıq. Bu bizi daha güclü edir və bu həqiqətdir.

Bir daha sizi təbrik edirəm. Azərbaycanı regionumuzun ən cəlbedici turizm məkanlarından birinə çevirməyə kömək etmək işinizdə sizə çox məhsuldar fəaliyyət arzu edirəm. Çox sağ olun.

* * *

*Bakıda yeni müasir hotellərin, mehmanxana komplekslərinin istifadəyə verilməsi paytaxtımızın turizm potensialını tam nümayiş etdirməyə şərait yaradır. Bununla yanaşı, bu tədbirlər ölkəmizdə mühüm sosial infrastruktur layihələrinin icrasının davamlı olduğunu və müxtəlif sahələri əhatə etdiyini göstərir. Belə layihələrin uğurla həyata keçirilməsi sübut edir ki, Azərbaycanda başlanılan bütün işlər vaxtında və keyfiyyətlə yerinə yetirilir.*

## «HEYDƏR ƏLİYEV: ŞƏXSİYYƏT, MİSSİYA, İRS» TARİXİ SƏNƏDLİ SƏRGİNİN İŞTİRAKÇILARINA

Əziz dostlar!

Əlamətdar tarixə – Azərbaycanın ümummilli liderinin anadan olmasının 95 illiyinə həsr edilmiş «Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs» tarixi sənədli sərginin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm.

Heydər Əliyev təkcə postsovet məkanında deyil, bütün dünyada yüksək nüfuz qazanmış görkəmli dövlət və siyasi xadimdir. Uzun illər ərzində Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri, Azərbaycan SSR-in rəhbəri, daha sonra SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini vəzifələrində qazandığı zəngin dövlət idarəçiliyi təcrübəsi və yüksək təşkilatçılıq qabiliyyəti ona ən mürəkkəb bir dövrdə müstəqil Azərbaycana başçılıq etmək, ölkəni dərin böhran vəziyyətindən davamlı inkişaf yoluna çıxarmaq imkanı verdi.

Müasir mərhələdə strateji səciyyə daşıyan Azərbaycan–Rusiya münasibətlərinin möhkəmlənməsində Heydər Əliyevin xüsusi xidməti olub. Müstəqillik illərində dövlətlərimiz əvvəlki nəsillərin miras qoyduğu mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq ənənələrini nəinki qoruyub saxlamağa, həm də artırmağa nail olubdur.

Əlamətdar haldır ki, Bakıda keçirilən sərgidə həm Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü görməyə, həm də onun irsi ilə təmasda olmağa imkan verən çoxsaylı arxiv sənədləri və fotoşəkillər təqdim edilir. Ürəkdən şadam ki, əlamətdar hadisə münasibətilə hazırlanmış nəfis kataloqda əsası ümummilli lider tərəfindən qoyulmuş siyasi kursun varisliyi aşkar izlənilir.

Ümidvaram ki, bu nəşr əksər kitabxanaların fondlarında layiqli yer tutacaqdır.

Layihənin təşəbbüskarı olan Rusiya tərəfinə dərin minnətdarlığımı bildirmək, habelə hər iki ölkənin tarixçilərinə və arxiv mütəxəssislərinə təşəkkür etmək istərdim. Əminəm ki, sərgi xalqlarımız arasında dostluğun möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 may 2018-ci il*

## «HEYDƏR ƏLİYEV: ŞƏXSİYYƏT, MİSSİYA, İRS» TARİXİ SƏNƏDLİ SƏRGİNİN İŞTİRAKÇILARINA VƏ QONAQLARINA

Əziz dostlar!

«Heydər Əliyev: Şəxsiyyət, Missiya, İrs» tarixi sənədli sərginin açılışı münasibətilə Sizi ürəkdən salamlayıram. Bu sərgi görkəmli şəxsiyyətin, öz Vətəninin sədaqətli oğlunun, həqiqi vətənpərvərin anadan olmasının 95 illiyinə həsr edilibdir.

Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi, ən mürəkkəb məsələlərin mahiyyətinə varmaq bacarığı, böyük təşkilatçılıq istedadı ona həmvətənləri arasında və xaricdə yüksək nüfuz qazandırıb. Son dərəcə mürəkkəb tarixi dövrdə müstəqil Azərbaycana rəhbərlik edən Heydər Əliyev Azərbaycan cəmiyyətinin birləşdirilməsi üçün çox işlər görüb, xalqın həqiqi liderinə çevrilibdir.

Qeyd etməliyəm ki, Heydər Əliyev Azərbaycanın uğurlu inkişafının mühüm şərtlərindən birini Rusiya ilə dostluq, mehriban qonşuluq əlaqələrinin yaradılmasında, qarşılıqlı faydalı əməkdaşlığı və ölkələrimiz arasında konstruktiv tərəfdaşlığı möhkəmlətməkdə görürdü. Sevindirici haldır ki, Azərbaycan Respublikasının indiki Prezidenti İlham Əliyev bu kursu ləyaqətlə davam etdirir.

Bu genişmiqyaslı sərgi tarixçilərin, arxiv mütəxəssislərinin və dövlət nümayəndələrinin birgə səylərinin nəticəsidir. Sərginin hazırlanmasında iştirak edənlərin hamısına təşəkkürümü bildirmək, ekspozisiyanın ziyarətçilərinə isə parlaq, unudulmaz təəssüratlar arzu etmək istərdim.

**VLADİMİR PUTİN**
**Rusiya Federasiyasının Prezidenti**

Bakı, *12 may 2018-ci il*

**MALAYZİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**MAHATHIR MƏHƏMMƏDƏ**

Hörmətli cənab Baş Nazir!

Malayziyanın Baş Naziri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Malayziya arasındakı dostluq əlaqələri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bakıdakı görüşümüzü ən xoş təəssüratlarla xatırlayır, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Malayziya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2018-ci il*

**NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA**

Əlahəzrət!

Norveç Krallığının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Norveç xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 may 2018-ci il*

## QARADAĞ RAYONUNUN ƏLƏT QƏSƏBƏSİNDƏ BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*14 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak etmişdir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısına burada görülən işlər barədə məlumat verdi. Bildirildi ki, bu liman 1-ci kateqoriya limanlar üçün müəyyən edilmiş texniki tələblərə uyğun layihələndirilib və inşa olunubdur.*

*Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tranzit potensialının artırılması, beynəlxalq daşımaları təmin edən müasir infrastrukturun yaradılması və nəqliyyat parkının yeniləndirilməsi üzrə işlər daha intensiv xarakter alıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası kimi mühüm əhəmiyyət kəsb edən layihələrin icrası Azərbaycanın iqtisadi qüdrətini artırmaqla yanaşı, beynəlxalq mövqelərini də möhkəmləndirir.*

*Prezident İlham Əliyevin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, ölkəmizin tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri Azərbaycanın sosial-iqtisadi inkişafına mühüm töhfə verir. Son dövrlərdə iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafında mühüm rolu olan nəqliyyat infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi üçün önəmli işlər görülür, müasir nəqliyyat infrastrukturu yaradılır, tranzit potensialı artırılır. Bütün bunlar Azərbaycana böyük siyasi və iqtisadi dividendlər gətirir,*

*ölkəmizin dünyada və regionda mövqeyini daha da möhkəmləndirir, dövlətimizin siyasi və strateji əhəmiyyətini artırır. Bu baxımdan, dövlət başçısının Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir.*

*Bu limanın inşası üçün ərazi təsadüfi olaraq seçilməyib. Ələt qəsəbəsi respublikanın ərazisindən keçən avtomobil və dəmir yollarının kəsişməsində yerləşir və buraya su yollarının da əlavə olunmasından sonra həmin ərazinin potensial ixrac imkanlarına malik beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün zəmin yaranır. Beləliklə, Avrasiya məkanında önəmli geostrateji mövqeyə, çoxşaxəli iqtisadi və ticarət əlaqələrinə malik Azərbaycan bu gün dəniz nəqliyyatının inkişafının yeni, müasir inkişaf mərhələsinə qədəm qoyur.*

*Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinə Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamın icrası olaraq başlanılıb. 2010-cu ilin noyabrında dövlət başçısının iştirakı ilə yeni liman kompleksinin təməli qoyulub. 2014-cü ilin sentyabrında liman qurğularından biri – 2 körpüdən ibarət bərə terminalı, bu ilin yanvarında isə 2 körpüdən ibarət olan Ro-Ro terminalı istifadəyə verilib. Liman 117 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır. Müasir dövrün ən son mühəndislik yeniliklərindən olan dəmir-beton konstruksiyalı istinad divarının uzunluğu 1777 metr təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün 1 körpü inşa edilib. 2-ci Ro-Ro körpüsü və bərə körpüləri hidravlik sistemli asqılı pandusla təchiz edilib ki, bu*

*da suyun səviyyəsinin müəyyən hədlərdə enib-qalxmasından asılı olmayaraq, gəmilərin körpüyə təhlükəsiz yan almasını təmin edir. Limanda xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metr təşkil edir və bura eyni zamanda 11 gəmi yan ala bilər. Burada ümumi sayı 2502 olmaqla, uzunluğu 45 kilometr, orta dərinliyi 26 metr təşkil edən müxtəlif diametrli svay işləri aparılıb. Limanın yerüstü infrastrukturu bu svaylar üzərində qurulub. Kompleksin qərb istiqamətində olan sahil xəttinin yuyulmasının qarşısının alınması məqsədilə 1077 metr uzunluğunda xüsusi struktura malik müdafiə divarı inşa edilibdir.*

*Liman akvatoriyasında dibdərinləşdirmə işləri aparılıb, uzunluğu 7,5 kilometr, dönmə dairəsinin diametri 450 metr olan giriş kanalı inşa olunubdur. Bu kanal və dönmə akvatoriyası Xəzər dənizində üzən bütün növ gəmilərin limana təhlükəsiz və sərbəst yanalmasını təmin etmək imkanı verir. Hazırda limana çəkisi 7000–8000 tona qədər olan gəmilər daxil olur ki, mövcud dərinlik bunun üçün kifayət edir. Layihələndirmə zamanı liman akvatoriyasında dərinliyin artırılma imkanı da nəzərə alınıb ki, bu da gələcəkdə daha böyük gəmilərin də sərbəst yanalmasını təmin edəcəkdir.*

*Kompleksdə yükləmə-boşaltma əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi məqsədilə Almaniya istehsalı olan 80, 40 və 32 tonluq 6 yeni portal kran quraşdırılıb, 2 mövcud portal kranın isə modernləşdirilərək quraşdırılması işləri davam etdirilir.*

*Layihə çərçivəsində limanın əməliyyat binası, yük sahələri və anbarlar, sərhəd və gömrük xidməti məntəqələri, bütövlükdə 72 müxtəlif təyinatlı bina və qurğular inşa olunub, sərnişinlər üçün beynəlxalq terminalın layihələndirilməsi davam etdirilir. Burada qapalı və açıq anbarlar yaradılıb. Konteyner meydançasında eyni zamanda 1040 konteynerin yerləşdirilməsi, 64 soyuducu konteynerə xidmət göstərilməsi üçün xüsusi infrastruktur yaradılıbdır.*

*Dövlət başçısı Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışını bildirən düyməni basdı.*

*Prezident İlham Əliyevin «Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinin sürətləndirilməsi sahəsində əlavə tədbirlər barədə» 2017-ci il 13 aprel tarixli Sərəncamına əsasən bu kompleksin tikintisi üzrə layihənin davam etdirilməsi və yekunlaşdırılması üçün görüləcək işlərin sifarişçisi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi təyin edilib. Bu istiqamətdə dövlət başçısının qarşıya qoyduğu vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün işlərin başlanma və tamamlanma tarixləri göstərilməklə, Tədbirlər Planı hazırlanıb. Bu planla müəyyən edilən hədəflərə nail olmaq üçün seqmentlər üzrə inşaat işlərində ikinövbəli iş rejimi tətbiq olunub. Atılan addımların nəticəsində işlərin dinamikasının əvvəlki dövrlərlə müqayisədə 5 dəfə artırılmasına nail olunub. Tikinti prosesinə 1500-ə yaxın işçi qüvvəsi və 300-dək müxtəlif təyinatlı texnika cəlb edilibdir.*

*Yeni liman kompleksinin baş planı və ümumi layihəsi beynəlxalq açıq tenderin qalibi, Niderlandın «Royal Haskoninq» şirkəti tərəfindən hazırlanıb. İnşaat işləri liman ərazisinin 2 hissəsində – quru və dəniz seqmentlərində aparılıb. Kompleksin ərazisində tikinti işləri yerli şirkət olan «Evrascon» ASC tərəfindən yerinə yetirilibdir.*

*Burada əməliyyatların səmərəli idarə olunmasını təmin edəcək Liman İdarəetmə və İnformasiya Sistemi və digər İT komponentləri tətbiq olunub. Gəmilərin və Liman Vasitələrinin Mühafizəsi üzrə Beynəlxalq Kodeksin tələblərinə uyğun mühafizə sistemi, müasir kameralar quraşdırılıb, sərhəd və gömrük nəzarəti zonalarının ayrılması məqsədilə 1 idxal və 2 ixrac sahəsindən ibarət zonalar yaradılıbdır.*

*Yüklərin sürətli və səmərəli yüklənib-boşaldılması üçün Liman Əməliyyat İnformasiya Sistemi vasitəsilə əraziyə daxil olan bütün yüklərin – konteyner, TIR vasitəsilə gətirilən quru yüklərin gəmilərə yüklənmə və boşaldılma vaxtı müəyyən edilir*

*və proseslər həmin qrafikə uyğun həyata keçirilir. İnternetlə işləyən bu əməliyyat sistemi yük sahibinə yükün Bakı limanına daxil olması və limandan çıxması barədə dərhal məlumat verir. Tətbiq edilən ən son müasir texnoloji və mühəndis həlləri kompleksi regionda beynəlxalq tələblərə cavab verən ən müasir və rahat yükaşırma mərkəzinə çevirir, mühüm nəqliyyat qovşağı kimi, onun tranzit və daşıma imkanlarını artırır.*

*«Yaşıl liman» konsepsiyasının tələblərinə uyğun olaraq kompleksin inşası zamanı ən yüksək ekoloji tələblər nəzərə alınıb, çirkab suların təmizlənməsi üçün 3 müxtəlif qurğu inşa edilibdir. Limanın elektrik enerjisi ilə təminatı Ələt elektrik yarımstansiyası və Səngəçal modul elektrik stansiyasından olmaqla, 2 mənbədən yerinə yetirilir. Layihənin ümumi elektrik gücü 18 meqavat təşkil edir. Bununla yanaşı, limanın fasiləsiz elektrik enerjisi ilə təminatı üçün 2 generatordan ibarət dizel generator stansiyası da qurulub. İçməli su təchizatının təmin edilməsi məqsədilə ərazidə su rezervuarı inşa edilibdir.*

*Dövlət başçısına ölkəyə daxil olan yük axınlarının həcminin artım dinamikasına uyğun olaraq, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilmə potensialı, bu çərçivədə daxil olan yük axınlarının çeşidlərinə və intensivliyinə uyğun olaraq, limanın genişləndirilmə seqmentində görülməsi nəzərdə tutulan tədbirlər, yükaşırma həcmlərinin artacağı təqdirdə yaranacaq əlavə imkanlar barədə məlumat verildi.*

*Ölkəmizin Şimal–Cənub və Şərq–Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi yeni liman üçün zəngin tranzit potensialı yaratmaqla, ölkəyə daxil olan, ölkədən çıxan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verərək, Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin edəcəkdir. Bu kompleks Bakı–Tbilisi–Qars dəmir yolu xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcəkdir. Beləliklə, şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində*

*cəmlənərək, buradan Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə şərq istiqamətində nəql edilməsini təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaq. Yeni limanın ərazisi də daxil olmaqla, ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi, limanı daha geniş tranzit və daşıma imkanları ilə təmin edəcəkdir.*

*Komplekslə tanışlıqdan sonra dövlət başçısı limanın əməkdaşları və inşaat şirkətlərinin nümayəndələri ilə görüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Əminəm ki, yeni Bakı limani ölkəmizin nəqliyyat potensialının möhkəmləndirilməsində önəmli rol oynayacaqdır.

Mən bir neçə il bundan əvvəl limanın tikintisi ilə bağlı qərar qəbul etmişdim. Bilirdim ki, Azərbaycanın çox böyük nəqliyyat və tranzit potensialı olacaq, ölkəmiz sürətlə inkişaf edəcəkdir. Bu qərarın qəbul edilməsi bir daha göstərdi ki, bizim siyasətimiz uzaqgörən düşünülmüş siyasətdir.

Tikinti işləri başlandı və biz bu tikinti işlərini mərhələlərə böldük. 2014-cü ildə bərə terminalı, bu ilin əvvəlində Ro-Ro terminalı istifadəyə verildi, bu gün isə liman tam fəaliyyətə hazırdır. 15 milyon ton yükaşırma, o cümlədən 100 min konteyner yükaşırma qabiliyyəti olan liman bizim nəqliyyat infrastrukturumuzun möhkəmlənməsində, əlbəttə ki, önəmli rol oynayacaqdır. Bundan sonrakı mərhələ yükaşırma qabiliyyətini 25 milyon tona çatdırmağa hesablanıb. Bax, burada yerlər də hazırdır. Bu gün təqdimatda, o cümlədən limanın

genişləndirilmə işləri ilə bağlı planlar haqqında da məruzə edildi və konteynerlərin həcmi ildə 500 min ədədə hesablanıbdır.

Limanın inşasında yerli və xarici mütəxəssislər, işçilər iştirak ediblər. Gördükləri işlərə görə onlara minnətdarlığımı bildirmək istəyirəm. Limanın tikintisi ilə bağlı işlərə mən şəxsən nəzarət etmişəm. Şadam ki, bu gün burada ən yüksək standartlar tətbiq olunur, bütün avadanlıq, lazım olan texniki vasitələr, ən müasir kranlar alınıb quraşdırılıbdır. Beləliklə, biz Azərbaycanda çox güclü nəqliyyat Logistika Mərkəzini yaratdıq.

Ələtin seçilməsi də təsadüfi deyildir. Çünki mövcud Bakı Dəniz Limanı bizim tələbatımıza artıq uyğun deyildi, şəhərin mərkəzində yerləşirdi və artan yükləri qəbul etmək imkanları çox məhdud idi. Ələt isə coğrafi baxımdan çox əlverişli yerdir və həm qərb, həm cənub istiqamətinə buradan açılan yollar, o cümlədən avtomobil, dəmir yolları bu yerin seçilməsində əsas rol oynamışdır. Əlbəttə ki, Ələt qəsəbəsinin də inkişafı böyük dərəcədə burada yaradılan logistika və nəqliyyat infrastrukturu ilə bağlı olacaq. Əlavə etsək ki, biz yaxın gələcəkdə Ələt Azad İqtisadi Zonasının yaradılmasına başlayacağıq, o zaman Bakı şəhərinin bu ərazisi gələcəkdə çox sürətlə inkişaf edəcək, çoxsaylı iş yerləri yaradılacaqdır. Ələt ölkəmizin iqtisadi nəqliyyat potensialının inkişafında, əlbəttə ki, önəmli yer tutacaqdır.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanının istifadəyə verilməsi deməyə əsas verir ki, biz nəqliyyat infrastrukturumuzla bağlı qarşımızda duran bütün vəzifələri icra etdik. Bu günə qədər bu istiqamətdə çox böyük işlər görülübdür. Xəzərdə bizim ən böyük donanmamız, 260-dan çox gəmimiz vardır. Mənə verilən məlumata görə, son bir neçə il ərzində əlavə 18 gəmi alınıbdır. Mənim təşəbbüsümlə Bakıda Gəmiqayırma zavodu tikilibdir. Biz bütün növ gəmiləri istehsal edə bilərik, istehsal edirik və xarici tərəfdaşlardan asılılığı aradan qaldırmışıq.

Son 15 il ərzində ölkəmizdə 15 min kilometr avtomobil yolu salınıb. Bizim bütün qonşu dövlətlərlə sərhədimizə qədər gedən yollar istifadəyə verilib, şəhərlərarası, kənd yolları, yəni bu

infrastruktur da yaradılıbdır. Bu illər ərzində 7 aeroport tikilibdir. Onlardan 6-sı beynəlxalq aeroportdur. Azərbaycanın ən müasir təyyarə parkı vardır. Heydər Əliyev Beynəlxalq Aeroportu bu yaxınlarda beşulduzlu statusu alıbdır. Məlumat üçün demək istərdim ki, dünyada cəmi 9 aeroportun beşulduzlu statusu var, onlardan biri də Heydər Əliyev Beynəlxalq Aeroportudur.

Biz dəmir yolu infrastrukturumuzu müasirləşdiririk, mövcud dəmir yolu xətlərini təzələyirik. Yeni dəmir yolu xətləri çəkilir ki, sürət artsın. Lokomotivlər, vaqonlar alınır. Bakı–Tbilisi–Qars dəmir yolu keçən ilin oktyabr ayında bu ərazidə istifadəyə verilmişdir. Azərbaycan bu layihənin təşəbbüskarı idi və bu layihənin həyata keçirilməsi üçün böyük vəsait ayırmışdır. Biz Bakını Avropaya dəmir yolu xətti ilə birləşdirdik. Əslində Asiyanı Avropa ilə birləşdirən Azərbaycan oldu. Bu nəqliyyat dəhlizi uzun illər bundan sonra da bizə böyük gəlirlər gətirəcək, xalqımıza böyük fayda verəcəkdir. Bakı–Tbilisi–Qars dəmir yolu tarixi layihədir. Bu layihənin uğurla icra edilməsi nəticəsində Azərbaycan bu bölgədə öz mövqeyini daha da gücləndirəcəkdir.

Biz hazırda Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması ilə məşğuluq və öz ərazimizdə bütün lazımi işləri başa çatdırmışıq. Beləliklə, həm şimaldan cənuba, həm şərqdən qərbə gedən yollar Azərbaycan ərazisindən keçir və keçəcəkdir. Şimal–Cənub nəqliyyat dəhlizinin tam başa çatması üçün biz əlavə vəsait ayırdıq və əminəm ki, yaxın bir neçə il ərzində bu dəmir yolu tam istifadəyə veriləcəkdir. Beləliklə, Avrasiya məkanında açıq dənizə çıxışı olmayan Azərbaycan nəqliyyat və logistika mərkəzinə çevriləcək. Artıq biz bunu görürük və biz bu funksiyanı yerinə yetiririk.

Düşünmək olardı ki, biz artıq bununla işimizi başa çatmış hesab edə bilərik. Ancaq biz gələcəyə baxmalıyıq və baxırıq. Hazırda Cənub–Qərb nəqliyyat dəhlizinin işə salınması ilə məşğuluq. Bu da çox önəmli nəqliyyat dəhlizidir və mənə verilən məlumata görə, birinci sınaq qatarı artıq bu yolla hərəkət edib. Beləliklə, biz böyük nəqliyyat infrastrukturu yaratmaqla,

Azərbaycanın geosiyasi, geoiqtisadi önəmini qat-qat artırmış oluruq. Eyni zamanda, bu layihələr beynəlxalq əməkdaşlığı genişləndirir, gücləndirir. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərində iştirak edən ölkələrin sayına, onların gücünə baxsaq görərik ki, bu doğrudan da genişmiqyaslı beynəlxalq əməkdaşlıq formatıdır. Şərq–Qərb nəqliyyat dəhlizi Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və ondan sonra Avropa ölkələrini birləşdirir. Şimal–Cənub nəqliyyat dəhlizi Pakistan, Hindistan, İran, Azərbaycan, Rusiya, Şimali Avropa ölkələrini birləşdirir. Cənub–Qərb dəhlizi isə daha geniş formatda ölkələri birləşdirir. Bütün bu layihələrdə iştirak edən ölkə Azərbaycandır. Biz bu layihələrin həyata keçirilməsi üçün çox böyük səylər qoyduq, çox böyük siyasi addımlar atdıq. Yəni bu layihələrin həyata keçirilməsi üçün məqsədyönlü, düşünülmüş şəkildə işlədik, çalışdıq. Nəhayət, bunun nəticəsini görürük.

Bir daha demək istəyirəm ki, bu layihələrin həyata keçirilməsi təkcə bizə iqtisadi mənfəət gətirməyəcək. Halbuki biz nəqliyyat potensialımızdan çox böyük səmərə ilə istifadə edərək, öz iqtisadi vəziyyətimizi daha da yaxşılaşdıracağıq. Bu layihələr Azərbaycanın geosiyasi önəmini də yüksək dərəcədə artırır. Azərbaycan Avrasiya məkanında regional əməkdaşlıq üçün əvəzolunmaz ölkə kimi, öz fəaliyyətini davam etdirəcəkdir. Onsuz da dünyada bizə böyük hörmət, rəğbət vardır. Azərbaycan çox etibarlı tərəfdaş, çox qabiliyyətli ölkə kimi tanınır. Bizim artan iqtisadi gücümüz imkan verir ki, belə tarixi layihələri icra edək. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi Azərbaycanın dövlət büdcəsi hesabına həyata keçirilən önəmli layihələrdən biridir və bu gün bizim tariximizdə yaddaqalan və önəmli bir gün kimi qalacaqdır.

Mən bu limanın tikintisində iştirak edən bütün insanları bir daha salamlayıram, onlara təşəkkürümü bildirirəm. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını bir daha təbrik edirəm. Sağ olun.

* * *

**V ə f a  S ə f ə r l i-A b d u l l a z a d ə** *(«Bakı Beynəlxalq Dəniz Ticarət Limanı» Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı):* Möhtərəm cənab Prezident, Sizi Bakı limanının kollektivi adından bir daha salamlayır və bizə göstərdiyiniz daimi diqqət və qayğıya görə minnətdarlığımızı bildirirəm. İlk növbədə, fürsətdən istifadə edərək, Prezident seçkilərində parlaq qələbəniz münasibətilə Sizi təbrik edirik və Azərbaycanın rifahı naminə fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq.

Siz çıxışınızda qeyd etdiniz ki, yeni Bakı limanının fəaliyyətə başlaması təkcə ölkəmizin deyil, eyni zamanda, region ölkələrinin iqtisadiyyatının inkişafına böyük təkan verəcəkdir. Bu vacib, strateji əhəmiyyətli kompleksin yaradılmasına göstərdiyiniz böyük dəstəyə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Rəhbərliyinizlə ölkəmizdə həyata keçirilən digər layihələrdə olduğu kimi, yeni Bakı limanında da müasir innovativ texnologiya tətbiq edilir. Bu o deməkdir ki, biz Bakı limanının kollektivi olaraq, daim yeni texnologiyaları öyrənir, yeni avadanlıqlardan istifadə edir, bilik və bacarıqlarımızı inkişaf etdiririk. Yeni Bakı limanının yaradılması həm də mənim kimi yüzlərlə gənc üçün yeni iş yeri deməkdir. Bu imkanı yaratdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk.

**İ l h a m  Ə l i y e v**: Sağ olun, təşəkkür edirəm.

## HEYDƏR ƏLİYEV ADINA MÜASİR TƏHSİL KOMPLEKSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 15-də Bakıda Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binasının açılışı mərasimində iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi.*

*2001-ci ildən fəaliyyət göstərən Müasir Təhsil Kompleksi Azərbaycanın ilk özəl təhsil müəssisələrindən biridir. Son illərdə bu təhsil ocağına maraq artıb və məktəbə gələn şagirdlərin sayında da böyük artım olubdur. Bu da təbii ki, təhsilin keyfiyyətinə təsirsiz ötüşməyib və məktəb üçün yeni binanın tikintisi artıq zərurətə çevrilibdir. Buna görə də əvvəlkindən daha böyük, müasir və dünya standartlarına uyğun yeni bina inşa edilibdir.*

*Kompleksdə müasir tələblərə cavab verən yüksəkkeyfiyyətli maddi-texniki baza yaradılıb. Heydər Əliyev adına Müasir Təhsil Kompleksi indi paytaxtımızın memarlıq baxımından zövq oxşayan ən yaraşıqlı binalarından biridir.*

*Dövlət başçısı və xanımı təhsil ocağında yaradılan şəraitlə tanış oldular.*

*Müasir Təhsil Kompleksi şagirdlərin milli dəyərlərə sadiq, yüksək təhsilli, dövrün tələblərinə uyğun bilik və bacarıqlara sahib şəxsiyyət kimi yetişmələri üçün hər cür şərait yaradır. Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin abidəsi*

*qoyulub. Xalqımızın ümummilli lideri Heydər Əliyev 2001-ci il sentyabrın 1-də bu kompleksin təntənəli açılışında iştirak edib. Elə o vaxtdan bu təhsil ocağı ulu öndərin açılış mərasimində verdiyi tövsiyələrə əsaslanaraq, uğurla çalışır. Məktəbdə Heydər Əliyev guşəsi də yaradılıb. Müxtəlif fotostendlər, əyani vəsaitlər ulu öndər Heydər Əliyevin siyasi irsinin və zəngin dövlətçilik fəaliyyətinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Kompleksdə Prezident İlham Əliyevin təhsilə diqqət və qayğısını əks etdirən guşə də yaradılıb. Təhsil ocağı 3 hissədən – uşaq bağçası, orta məktəb və orta ümumtəhsil məktəbindən ibarətdir və onların hər birində 3 bölmə – Azərbaycan, rus və ingilis bölmələri fəaliyyət göstərir. Ən müasir avadanlıqlarla təchiz olunmuş funksional bina tədrisin keyfiyyətli təşkili üçün hər cür şəraitə malikdir. Kompleksin akt zalında təhsillə bağlı müxtəlif tədbirlərin keçirilməsi üçün bütün imkanlar vardır. Sinif otaqlarının, fənn kabinetlərinin hamısı ən müasir tələblər səviyyəsində qurulub. Şagirdlərin nəzəri biliklərinin fizika, kimya və biologiya laboratoriyalarında tətbiqi üçün də zəruri avadanlıqlar quraşdırılıb. Kompleksin əsas məqsədlərindən biri sağlam təhsil mühiti yaratmaq və şagirdlərin hərtərəfli inkişafını təmin etməkdir. Məktəbdə dərslər şagirdlərin mükəmməl təhsili ilə yanaşı, həmçinin onların sosial və mənəvi inkişafına da yönəldilib. Qarşıya qoyulan məqsədlərdən biri də təhsil sistemində bilikli şagird yetişdirməklə yanaşı, onların həm də sosial həyata hazırlanmasını təmin etməkdir. Bu məqsədlə «Sosial-fəal məktəb» konsepsiyasını əsas götürən Heydər Əliyev adına Müasir Təhsil Kompleksində sosial yönümlü şəxsin yetişdirilməsi üçün lazımi mühit yaradılıb. Bu model şagirdlərin istənilən şəraitə sərbəst və tez uyğunlaşması, sosial həyatlarının daha maraqlı və zəngin olmasına imkan yaratmaqla yanaşı, hər bir şagirdin fərdi qabiliyyətinin və potensialının üzə çıxarılmasına kömək edir. Məktəbdə olimpiada qrupları, şagird elmi cəmiyyəti, şagird parlamenti fəaliyyət göstərir. Şagirdlər olimpiadalarda, bilik yarışlarında yüksək yerlər*

*qazanırlar, konfranslarda uğurla çıxış edirlər. Bu təhsil ocağında ən qabaqcıl, yüksəkixtisaslı müəllimlər fəaliyyət göstərirlər. İngilis bölməsində dərslər «Cambridge» proqramı əsasında keçirilir. «Cambridge» «checkpoint» vasitəsilə müəllimlər şagirdlərin davamlı inkişafını qiymətləndirir, onların güclü və ya zəif cəhətlərini müəyyən edirlər. Proqramı bitirən şagirdlərə dünyanın bütün ölkələrində tanınan və yüksək səviyyədə qiymətləndirilən IGCSE sertifikatları verilir. Məktəbdə zəngin kitabxana fəaliyyət göstərir. Kompleksin açıq idman meydançaları da yüksək standartlara uyğun şəkildə qurulubdur.*

*Müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür. Təhsildəki nailiyyətlər hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də neft gəlirləri Azərbaycanda həm də təhsilin, elmin inkişafına yönəldilib. Heydər Əliyev adına Müasir Təhsil Kompleksində yaradılan şərait isə bir daha təsdiqləyir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları uğurlu nəticələr verir. Bu da şagirdlərin yüksək səviyyədə təhsil almalarına, onların elmin sirlərinə daha dərindən yiyələnmələrinə hərtərəfli imkanlar açır.*

*Dövlət başçısı və xanımı kompleksin bağçasında yaradılan şəraitlə də tanış oldular. 112 yerlik bağçada uşaqların gələcəyin sağlam vətəndaşı kimi yetişmələri üçün hərtərəfli şərait yaradılıb. Burada qruplar yaradılarkən müasir təlim-tərbiyə qaydaları rəhbər tutulub. Uşaqların istirahəti və əyləncəsi üçün geniş imkanlar açılıb. Bağçada balacaların intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması diqqət mərkəzində saxlanılacaqdır.*

*Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri vardır. Fondun «Yeniləşən Azərbaycana yeni məktəb», «Təhsilə dəstək», «Uşaq evləri və internat məktəblərinin inkişafı» proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.*

*Müasir Təhsil Kompleksində yaradılan şərait onu göstərir ki, Azərbaycanda təhsilin və elmin inkişafına ən yüksək səviyyədə dövlət qayğısı vardır. Çünki dövlətin yürütdüyü siyasətin prioritetlərindən biri də insan kapitalının daha da inkişaf etdirilməsidir. Bu baxımdan təhsil sahəsinə qoyulan investisiyalar mühüm əhəmiyyət kəsb edir.*

## NİDERLAND–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*15 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Niderland Krallığı Senatının sabiq Sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq Prezidenti, Niderland–Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul etmişdir.*

*Rene Van der Linden dövlətimizin başçısına Prezident seçkilərində qələbəsi münasibətilə və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar təbriklərini çatdırdı.*

*Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.*

*Rene Van der Linden ADA Universiteti ilə birgə hazırlanmış və Azərbaycanın regionlarının inkişafı, investisiya qoyuluşu, kənd təsərrüfatı, energetika, təcrübə mübadiləsi, turizm sahələrində əməkdaşlığı nəzərdə tutan master planın həyata keçirilməsi ilə bağlı görülən işlər barədə məlumat verdi.*

*Prezident İlham Əliyev bu işlərin önəmini vurğulayaraq, əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*16 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlət başçısını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşıladı.*

*Aeroportda Prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçısı Naxçıvan Muxtar Respublikası Hökumətinin üzvləri ilə görüşdü.*

### Ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşdur.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına abidənin ətrafında aparılan abadlıq və yenidən qurulma tədbirləri barədə məlumat verdi.*

## «Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin birinci mərhələsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da «Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin birinci mərhələsinin açılışında iştirak etmişdir.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına layihə ilə bağlı görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildən başlanılıb. Layihəyə əsasən Şərur şəhərinə, Mahmudkənd kəndinə və Zeyvə kəndinin bir hissəsinə su şəbəkəsi, Şərur şəhərinə isə kanalizasiya şəbəkəsi çəkilib və ev birləşmələri aparılıbdır. Layihənin birinci mərhələsi ötən ilin dekabrında başa çatdırılıb. Layihəyə əsasən Arpaçay subölüşdürücüsündə gölün dibindən 6 metr dərinlikdə qalereya tikilib. Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Buradan su anbarlarına qədər diametri 900 millimetr olan plastik boru ilə 1500 metr xətt çəkilib. Xətt üzərində bir ədəd suboşaldıcı inşa olunub. Qalereyadan gələn su dezinfeksiya olunaraq, su anbarlarına yığılır və öz axını ilə əhaliyə fasiləsiz ötürülür. Layihə çərçivəsində hər birinin tutumu 10 min kubmetr olan 2 ədəd və tutumu 7500 kubmetr olan 1 ədəd, cəmi tutumu 27500 kubmetr olan su anbarları tikilib. Su anbarlarından Şərur şəhərinədək 9,5 kilometr uzunluğunda xəttin tikintisi aparılıbdır.*

*Layihə ərazisində diametri 63 millimetrdən 560 millimetrə qədər plastik borularla 59,4 kilometr içməli su xətti çəkilib, 2500 ev su şəbəkəsinə qoşularaq, sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 7 yanğın hidrantı tikilib. Yerin relyefindən asılı olaraq mənzillərə su 2–5 bar arasında təzyiqlə verilir. Şərur şəhərində diametri 200 millimetrdən 400 millimetrə qədər olan*

*borularla 19 kilometrdən çox daxili kanalizasiya şəbəkəsi çəkilib və 1500 ədəd ev kanalizasiya xəttinə qoşulub. Kanalizasiya sularının kənarlaşdırılması üçün diametri 400 millimetrdən 600 millimetrə qədər plastik borularla 7,3 kilometr uzunluğunda ana xəttin inşası aparılıbdır.*

*Bununla da Şərur şəhərində, Mahmudkənd kəndində və Zeyvə kəndinin bir hissəsində 13500 nəfər Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq sutkaboyu təmin ediləcəklər.*

*Sonra dövlət başçısı «Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin birinci mərhələsinin açılışını bildirən düyməni basdı.*

**İ l h a m Ə l i y e v:** Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Şərur şəhərinin içməli su problemi öz həllini tapıbdır. Gözəl, əlamətdar hadisədir. Mənə verilən məlumata görə, indi bir neçə kənd də içməli su ilə təmin olunur. Bu çox vacib sosial layihədir. Naxçıvanın hər bir şəhərində içməli su-kanalizasiya layihələri icra edilir. Artıq Şərur Naxçıvan, Culfa, Şahbuz şəhərlərindən sonra 4-cü şəhərdir ki, bu məsələ öz həllini tam tapıbdır.

Siz yaxşı bilirsiniz ki, əvvəlki dövrlərdə içməli su məsələsi həmişə çox ciddi problem kimi, insanları narahat edib. Ancaq bu gün Şərur şəhərinə təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun içməli su verilibdir. Digər şəhərlərdə layihələr icra edilir və icra ediləcəkdir. Yaxın gələcəkdə Naxçıvanın bütün şəhərlərinin içməli su-kanalizasiya layihələri tam başa çatacaqdır. Bu, ölkəmizin gücünü, qüdrətini, bizim sosial siyasətimizi göstərir. Həmişə demişəm, bu gün də demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü iradə də, imkanlar da var və görülən işlər bizim siyasətimizi əks etdirir.

Naxçıvan Muxtar Respublikasında sosial sahənin inkişafı üçün çox böyük işlər görülüb, xəstəxanalar, məktəblər tikilib, içməli su və digər infrastruktur layihələri icra edilir. Əlbəttə, bu məsələlər insanların rahat yaşaması üçün əsas şərtdir. İçməli su insan sağlamlığı üçün əsas məsələdir və biz bu məsələni ölkə üzrə hər bir yerdə həll edirik. Azərbaycanın hər bir yerində içməli su-kanalizasiya layihələri icra edilir və qarşıya vəzifə qoyulubdur ki, bütün şəhərlərin su şəbəkəsi, kanalizasiya xətləri yenidən qurulsun. İşlərin böyük əksəriyyəti, demək olar ki, öz həllini tapıbdır. O cümlədən Naxçıvan Muxtar Respublikasında da bu işlərə böyük diqqət göstərilir və beləliklə, bu önəmli sosial məsələ öz həllini tapmış olur.

Sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

**V a s i f  T a l ı b o v** (*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri*): Möhtərəm Prezident, rayon ictimaiyyəti adından Sizə minnətdarlığımı bildirirəm ki, belə əhəmiyyətli məsələyə diqqət yetirirsiniz. Artıq muxtar respublika əhalisinin, demək olar ki, 50 faizdən çoxu Ümumdünya Səhiyyə Təşkilatının normalarına uyğun yüksək səviyyəli su alır. Sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox gözəl!

# MÜƏLLİMLƏR İNSTİTUTUNUN YENİ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NAXÇIVAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycanda ali təhsilin inkişafı diqqətdə saxlanılır. Prezident İlham Əliyev ali təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirir. Ölkədə mövcud olan ali məktəblərin sırası genişləndirilir. Bu sırada Naxçıvan Müəllimlər İnstitutu da mühüm yer tutur. Belə ki, 2003-cü il avqustun 26-da Naxçıvan Müəllimlər İnstitutu kimi fəaliyyətə başlayan bu təhsil ocağı ötən dövrdə öz fəaliyyətini genişləndirib, ali təhsilli kadrların hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edib. Ötən dövrdə institut ixtisaslı müəllim kadrları ilə də təmin olunub, lazımi tədris şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib, yeni ixtisaslar açılıbdır. Bütün bunlar Azərbaycanda ali təhsilin yeni inkişaf mərhələsinin göstəriciləridir. Dövlət başçısının Azərbaycanın ali təhsil müəssisələrinin dünyanın inkişaf etmiş ali təhsil məkanına inteqrasiyasının təmin olunması ilə bağlı tədbirləri bu sahədə yeni keyfiyyət dəyişikliyinin əldə olunmasına şərait yaradıbdır.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına məlumat verdi ki, 6 mərtəbədən ibarət*

*olan bu ali təhsil ocağında ümumilikdə 23 auditoriya vardır. Binada 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu, eləcə də elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları vardır. Təsviri incəsənət, coğrafiya, musiqi, hərbi, tibb, Azərbaycan dili, ali riyaziyyat və informatika otaqları tələbələrin biliklərinin artırılması üçün bütün zəruri inventarlarla təchiz edilib. Binada psixologiya laboratoriyası, müəllim və tələbələr üçün bufet də yaradılıb. Tələbələrin ixtiyarına verilən idman zalında müasir qurğular quraşdırılıb. Binada 132 və 20 yerlik iclas zalları da vardır. Bu zallarda təhsil müəssisəsinin həyatında baş verən əlamətdar hadisələrlə bağlı müxtəlif tədbirlər keçirmək mümkündür.*

*Naxçıvan Müəllimlər İnstitutunun yeni binasında yaradılan şərait bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsinin inkişafı istiqamətində atılan addımların nəticəsində muxtar respublikada böyük işlər görülüb. Bütün bunlar Azərbaycanda insan kapitalının inkişafı istiqamətində dövlətimizin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir.*

*Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

İlk növbədə, sizi Müəllimlər İnstitutunun yeni binasının açılışı münasibətilə təbrik etmək istəyirəm. Gözəl binadır, çox gözəl şərait yaradılıb. Memarlıq baxımından da Naxçıvan şəhərini daha da gözəlləşdirir. Bu binanın tikilməsi onu göstərir ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülübdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edir. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu 10 dəfəyə yaxın artıbdır. Bu məncə,

dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm.

Naxçıvan şəhəri, bütün şəhərlər abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Yolboyu vaxtilə əkilmiş ağaclar indi böyüyüb, çox gözəl mənzərə yaradır. Binalar təmir olunur, yeni gözəl binalar tikilir. Bir sözlə, Naxçıvanın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının istəyinə bağlı olan məsələdir. Çünki Naxçıvan bizim tarixi diyarımızdır, qədim Azərbaycan torpağıdır, tarixi yerdir. Burada yerləşən tarixi abidələr Azərbaycan xalqının istedadını göstərir. Onu göstərir ki, Azərbaycan xalqı əsrlərboyu bu diyarda yaşayıb-yaratmışdır.

Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. Ötən əsrin 90-cı illərinin əvvəllərində – Naxçıvan üçün ən ağır illərdə ulu öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Onlar Naxçıvana qarşı silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşərək, düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar.

O illərdə Naxçıvan üçün və ümumiyyətlə, Azərbaycan üçün həlledici məsələlər öz həllini tapmışdı. Ulu öndərin rəhbərliyi ilə Naxçıvan o ağır illərdən şərəflə çıxa bilmişdi. Ölkəmizin müstəqilliyi işində Naxçıvanın çox böyük rolu vardır. Məhz o illərdə ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Naxçıvanda rəsmi bayraq kimi təsdiq etmiş və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırmışdı ki, bu bayraq Dövlət bayrağı kimi qəbul edilsin. Ancaq ovaxtkı Azərbaycan rəhbərliyi buna imkan verməmişdi.

O vaxt Naxçıvan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası adlanırdı və ulu öndərin təklifi ilə bu addan sovet sosialist sözləri çıxarıldı. Bu, sovet dövründə baş vermişdir. Sovet İttifaqının saxlanılmasına dair referendum Naxçıvanda keçirilmədi. Bütün bu işlər böyük cəsarət tələb edirdi. Bütün bu işlər onu göstərirdi ki, ulu öndər həmişə müstəqillik arzuları ilə yaşayırdı. Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsində ulu öndərin və naxçıvanlıların çox böyük rolu vardır.

Ondan sonrakı dövrdə də ulu öndər Azərbaycan Prezidenti kimi, həmişə Naxçıvana diqqət, qayğı göstərirdi. Naxçıvana tez-tez səfərlər edirdi. Bu yaxınlarda ulu öndərin 95 illiyinə həsr edilmiş təntənəli mərasimdə çıxış edərkən, o cümlədən onun Naxçıvan dövrü haqqında söz açmışdım. Bildirmişdim ki, Heydər Əliyev siyasəti bu gün də Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır. Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da görürük. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin.

Mən də ulu öndərin siyasi xəttinə sadiq qalaraq, bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirirəm. Bu səfər mənim Prezident kimi, Naxçıvana sayca 14-cü səfərimdir. Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl – 2004-cü ilin may ayında gəlmişdim. Bu 14 il ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa biz onu da edirik.

İlk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön

planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilibdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın, demək olar ki, əksər növləri Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun olaraq buraya göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir.

Əlbəttə, bu, imkan verir ki, Naxçıvan uğurla, sürətlə inkişaf etsin. Burada böyük infrastruktur layihələri icra edilibdir. 10 ildən çoxdur ki, Naxçıvan Muxtar Respublikasının qazlaşdırılması ilə bağlı məsələlər öz həllini tapıb. Qazlaşdırılma 100 faiz təmin edilibdir. Biz hələ Azərbaycanın ümumi qazlaşdırılmasını təqribən 93-94 faiz səviyyəsində təmin edə bilmişik, bu ilin sonuna qədər 95 faizə çatacaqdır. Ancaq Naxçıvan Muxtar Respublikasında artıq 10 ildən çoxdur ki, qazlaşdırılma 100 faiz təmin edilibdir.

Elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapıb. Mənim yadımdadır, keçən əsrin 90-cı illərinin əvvəllərində atamın yanına gələrkən qaranlıqda yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni biz o günləri yaxşı xatırlayırıq. Bu gün elektrik enerjisi ilə bağlı bütün problemlər həll olunub. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su-Elektrik Stansiyası işə düşəndən sonra Naxçıvan Muxtar Respublikası öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcək. Bu, dünya miqyasında bəlkə də yeganə belə bir hal olacaqdır.

Bu gün Naxçıvan elektrik enerjisini ixrac edə bilər. Şadam ki, o cümlədən günəş elektrik stansiyası tikilib, su-elektrik stansiyaları tikilir və Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır. Naxçıvanın əhalisi artır, sənaye istehsalı bundan sonra da artacaqdır. Ona görə bu məsələyə biz daim diqqət göstərməliyik. İçməli su layihələri uğurla icra edilir. Bu gün biz Şərur şəhərinin içməli su layihəsini rəsmi olaraq açdıq. Ondan əvvəl Naxçıvan, Şahbuz, Culfa şəhərlərinin içməli su layihələri başa çatmışdır. Digər şəhərlərdə işlər gedir və bütün şəhərlərin içməli su-kanalizasiya problemləri həll olunacaqdır.

Avtomobil yolları salınır. Hazırda Culfa–Ordubad avtomobil yolu salınır və bu yol şəhərlərarası yollar arasında sonuncu layihədir. Bundan əvvəl bütün digər şəhərlərarası yollar – Naxçıvan–Sədərək, Naxçıvan–Şahbuz, Naxçıvan–Culfa yolları tam təmir olunub, salınıb və istifadəyə verilibdir.

Yəni bütün bu infrastruktur artıq Naxçıvanın güclü potensialını təmin edir. Sosial məsələlərin həlli, tikilən xəstəxanalar, məktəblər, olimpiya mərkəzləri, mədəniyyət ocaqları – son illər ərzində görülən bütün bu işlər, əlbəttə ki, respublikanın potensialını artırır. Naxçıvan Şəhər Xəstəxanası, Doğum Mərkəzi, Müalicə-Diaqnostika Mərkəzi, bütün şəhərlərin Mərkəzi Rayon xəstəxanaları tikilibdir. Yəni böyük quruculuq işləri aparılır.

Əlbəttə, iqtisadiyyatın real sektorunun inkişafına da böyük diqqət göstərilir. Sənaye müəssisələri yaradılır, ixrac imkanları artır, kənd təsərrüfatı uğurla inkişaf edir. Naxçıvan özünü taxılla təmin edir. Qəbul edilmiş son qərarlar kənd təsərrüfatının inkişafına daha da böyük təkan verəcəkdir. Bitkiçiliklə bağlı pivot suvarma sistemlərinin quraşdırılması nəzərdə tutulur. Heyvandarlıqla bağlı süni mayalanma mərkəzi yaradılır ki, potensial daha da böyük olsun.

Bildiyiniz kimi, Azərbaycan hazırda Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğuldur. Azərbaycan

ərazisində bu layihə ilə bağlı bütün işlər görülüb. Biz bu layihənin tam başa çatması üçün böyük maliyyə vəsaiti ayırmışıq. Ümid edirəm ki, gələcək 3 il ərzində bu layihə tam istifadəyə veriləcəkdir. Hər halda, planımız bundan ibarətdir. Belə olan halda, Naxçıvan dəmir yolu ilə Azərbaycanın əsas hissəsi ilə birləşəcək və beləliklə, blokadadan, mühasirədən canını qurtaracaqdır.

Yəni bu mühüm işlərin görülməsi bir daha onu göstərir ki, Naxçıvanın çox böyük potensialı vardır. Bir daha demək istəyirəm ki, burada görülən işlər çox böyük qiymətə layiqdir. Onu da bildirmək istəyirəm ki, bu il Naxçıvan bütün islam dünyasında artıq özünü göstərəcəkdir. Çünki bu il Naxçıvan «İslam mədəniyyətinin paytaxtı» kimi şərəfli adı daşıyır. Bir neçə il bundan əvvəl Bakı da bu ada layiq görülmüşdür və biz o vaxt Azərbaycanın ikinci şəhəri – məhz Naxçıvanın bu ada layiq görülməsi barədə İSESKO-ya müraciət etmişdik. Çünki Naxçıvan buna layiqdir. Bilirəm ki, bu gözəl hadisə ilə bağlı təntənəli tədbirlər keçiriləcək, çoxlu qonaqlar gələcək, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan vardır. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkan vardır – bu məkanın adı Naxçıvandır.

Sizi bir daha salamlayıram, bütün uğurlar münasibətilə təbrik edirəm, yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

**Xəzər Hüseynov** (*rayon sakini*): Möhtərəm Prezident!

Ötən ilin əvvəlində Naxçıvan Muxtar Respublikasına səfəriniz zamanı qeyd etmişdiniz ki, ulu öndər Heydər Əliyev həmişə Naxçıvana diqqətlə yanaşırdı, problemlərin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Siz də bu siyasəti davam etdirirsiniz.

*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə Prezident İlham Əliyevi Naxçıvan ictimaiyyəti adından təbrik edən Xəzər Hüseynov bildirdi ki, dövlət başçısının ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfər etməsi, 135-dən çox obyektin açılışında iştirakı naxçıvanlıların quruculuq əzmini daha da artırıb. O qeyd etdi ki, hazırda Naxçıvan Muxtar Respublikası ulu öndərin arzuladığı kimi, uğurlu və hərtərəfli sosial-iqtisadi inkişafını davam etdirir.*

*Xəzər Hüseynov doğma Azərbaycanımızın tərəqqisi naminə müəyyənləşdirilən dövlət siyasətinin həyata keçirilməsində naxçıvanlıların bundan sonra da fəal iştirak edəcəklərini vurğuladı, Naxçıvan Muxtar Respublikasının inkişafına göstərdiyi hərtərəfli qayğıya görə Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirdi.*

## Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak etmişdir.*

*Son illərdə ölkəmizin ərazisində yeni kollektor və xətlərin, tullantı sutəmizləyici qurğuların tikintisi, mövcud xətlərin yenidən qurulması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası sayəsində bu sahədə də əhəmiyyətli nəticələr əldə olunub. Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə, əhalinin rahat yaşayışının təminatı ön planda saxlanılır. Son illərdə Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin yaradılması istiqamətində görülən işlər bunu deməyə*

*əsas verir. Bu layihə bir tərəfdən, ekoloji sahədə görülən tədbirləri əks etdirir, digər tərəfdən də yeni infrastruktur layihələrinin səmərəli istifadəsi üçün geniş imkanlar açır.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına kompleks barədə məlumat verdi.*

*Bildirildi ki, kompleks giriş nasos stansiyasından, hovuzlardan, inzibati, transformator, kompressor binalarından, suvarma üçün nəzərdə tutulan su hovuzundan ibarətdir. Burada, həmçinin iri tullantı tutucu, qum və yağtutma, membran tipli təmizləyici, palçıqqurutma, havatəmizləyici qurğular quraşdırılıb. Ümumilikdə, bu qurğunun fəaliyyəti 121 min istifadəçini əhatə edir. İcrasına 2014-cü ildə başlanılan layihə ötən ilin oktyabrında tamamlanıb. Qurğunun xidmət sahəsi Naxçıvan şəhəri, Qaraxanbəyli, Qaraçuq, Bulqan, Hacıniyyət, Tumbul, Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini əhatə edir. Bu qurğunun gücü gündə 32 min kubmetr və ya saniyədə 370 litrə bərabərdir. Kompleksdə bioloji fosfor təmizləmə hovuzu, oksigensiz hovuz, havalandırma hovuzu, suvarma su hovuzu inşa edilib. Buradakı hovuzların tutumu 25650 kubmetrdir. Təmizləyici Qurğular Kompleksinin yerləşdiyi sahə 2,62 hektardır ki, bunun da 2 hektarı tullantıların saxlanması və qurudulması sahəsinə aiddir. Burada bioreaktor və membran tipli təmizləyici qurğu quraşdırılıb. Çirkab sutəmizləyici qurğu 3 mərhələli təmizləmə sistemindən ibarətdir. Kompleksdə təmizləmə prosesi fiziki, bioloji və membran təmizləmə üsulları ilə aparılır. Təmizlənmiş su isə ozonla dezinfeksiya olunaraq, suvarma hovuzuna verilir. Layihənin icrası nəticəsində 500 hektar torpağın suvarılması mümkün olacaqdır.*

*Prezident İlham Əliyev kompleksi işə saldı.*

## Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird-yerlik 6 saylı tam orta məktəbin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird-yerlik 6 saylı tam orta məktəbin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin «Neft Azərbaycanın milli sərvətidir» deyimi yeni yüzillikdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tarixində başqa bir modeldə həqiqətə çevrildi. Azərbaycan Prezidentinin dünya ictimaiyyətinə ünvanladığı «qara qızılı» insan kapitalına çevirmək» mesajı 2003-cü ildən başlayaraq, dövlət siyasətinin mühüm tərkib hissəsi oldu. Çünki müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür.*

*Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsildəki nailiyyətlər göz qabağındadır. Bu nailiyyətlər istər bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsində, istərsə də yeni təhsil müəssisələrinin inşasında özünü daha aydın göstərir. Təhsil sahəsi hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçibdir.*

*Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə tanış oldu.*

*Məktəbin binası üçmərtəbəlidir. Binada 2 kompüter sinfi, 3 elektron lövhəli sinif, fizika, kimya və biologiya laboratoriyaları, 2 şahmat sinfi, hərbi kabinet, 24 ümumi sinif otağı, müəllimlər otağı və idman zalı vardır. Məktəbin həyətində qazanxana quraşdırılıb. Bir sözlə, burada şagirdlərin təlim-tərbiyəsi*

*ilə məşğul olmaq üçün hərtərəfli imkanlar mövcuddur. Son illərdə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da yeni-yeni təhsil ocaqlarının yaradılması, mövcudlarının əsaslı şəkildə müasir səviyyədə yenidən qurulması dövlət səviyyəsində təhsil sahəsinə olan diqqətin təzahürüdür. Bütün bunlar gələcək nəslin bilikli, savadlı və intellektual səviyyəyə malik bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Ümumilikdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda təhsilin, elmin inkişafına istiqamətlənən çox mühüm layihələr icra olunub. Təsadüfi deyil ki, son illərdə ölkə ərazisində 3000-dən çox məktəb tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunubdur. Bununla da təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Bütün bunlar isə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsilin keyfiyyətinə müsbət təsir göstəribdir.*

## Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mayın 16-da Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olmuşdur.*

*Üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə 1992-ci il avqustun 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılması, şimal və şimal-qərb sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılması, Dövlət Sərhəd Xidmətinin təşkili – bütün bu proseslər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin Sərhəd Qoşunlarının formalaşdırılması istiqamətində verdiyi qərarların nəticəsində Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olan ölkəyə çevrildi. Müstəqil dövlətimizin sərhədlərinin etibarlı qorunma-*

*sının yüksək səviyyədə təşkili sonrakı dövrdə də prioritet oldu. Ulu öndərin siyasətini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğunun əsas istiqamətlərindən olan Sərhəd Qoşunlarını da dövlət qayğısı ilə əhatə etdi. Ali Baş Komandanın ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürünə çevrildi. Təsadüfi deyil ki, son illərdə Dövlət Sərhəd Xidmətinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Xidmətin maddi-texniki bazasının gücləndirilməsi, yeni sərhəd dəstələri və zastavalarında müasir şəraitin yaradılması Sərhəd Qoşunlarının inkişafına göstərilən qayğının bariz nümunəsidir.*

*Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının komandiri Asəf Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Bildirildi ki, Əmiraslan Əliyev adına Sərhəd Dəstəsinin qərargah və yataqxana binası 3 mərtəbədən ibarətdir. Binada rabitə, xidmət, silah, yataq otaqları, mətbəx, əsgər və zabit yeməkxanası yaradılıb. Binanın 2-ci mərtəbəsində hərbçilər üçün 16 yerlik yataqxana, 48 yerlik əsgər yataqxanası və 4 yerlik zabit yataqxanası yerləşir. Burada ərzaq mağazası və əsgərlər üçün əlavə ləvazimatların satışı dükanı da hərbçilərə xidmət göstərəcəkdir. Binada, həmçinin ikiotaqlı 4 mənzil də vardır.*

*Dövlət başçısı ölkədə sərhəd xidmətinin təkmilləşdirilməsinə dair kompleks tədbirlərin həyata keçirilməsini və sərhəd dəstələrinin fəaliyyətinin ən müasir tələblər səviyyəsində qurulmasını daim diqqət mərkəzində saxlayır. Havada, suda və quruda sərhədlərin etibarlı şəkildə qorunmasını təşkil etmək üçün bütün zəruri tədbirlər görülür. Bu işlərlə yanaşı, sərhədçilərin mənzil-məişət, sosial məsələlərinin həllinə də daim diqqət göstərilir.*

*Zastavanın texniki binasında əsgərlər üçün müasir səviyyədə hamam və camaşırxana, ərzaq, əşya və silah anbarları, avtomobillərin saxlanılması üçün qaraj da yaradılıb. Kinoloji xidmət üçün 7 yerlik və atların saxlanılması üçün 12 yerlik tövlə*

*binası tikilib. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Burada hərbçilərin idmanla məşğul olmaları üçün hər cür şərait yaradılıbdır.*

**Əlahiddə Ümumqoşun Ordusunun «N» saylı hərbi hissəsində yaradılan şəraitlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mayın 16-da Naxçıvanda Əlahiddə Ümumqoşun Ordusunun «N» saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olmuşdur.*

*Ölkəmizdə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında da böyük əhəmiyyətə malik layihələr icra olunub. Bu gün muxtar respublikanın müdafiə potensialı və gücü durmadan artır. Ümumilikdə ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədədir, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin olunması ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıbdır. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və həmin təlimlərdə ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilibdir. Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlət başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə*

*Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır.*

*Azərbaycan Respublikası Müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Azərbaycan Prezidenti silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu.*

*Ali Baş Komandana «Orbiter-3B» pilotsuz uçuş aparatı təqdim edildi. Bildirildi ki, cəmi 28 kiloqram çəkisi olan bu aparatla 5500 metr maksimal hündürlükdə canlı yayımda gecə və gündüz şəraitində düşmən ərazisində havadan kəşfiyyat aparmaq, aşkar edilmiş hədəflərin koordinatlarını təyin etmək mümkündür. Sürəti saatda 93 kilometr olan aparatın maksimal uçuş məsafəsi 120 kilometr, uçuş müddəti isə 7 saatdır.*

*Qarnizonun arsenalına yeni qəbul olunmuş 60, 82 və 120 millimetrlik minaatanlar üçün simulyator dəsti döyüş mərmilərini sərf etmədən, komplektində olan pnevmatik mərmilərlə praktiki atəş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin olunub. Komplektə 20 pnevmatik mərmi və 100 partlayıcı maddə daxildir.*

*Ali Baş Komandana təqdim olunan 82 millimetrlik minaatan batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti 5 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün hesabatların aparılması üçün nəzərdə tutulub. 120 millimetrlik minaatan və 122 millimetrlik «D-30» haubitsalı artilleriya batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti isə 15–20 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün qurğuların hesablanmasına təyin olunubdur.*

*«Su-25» hücum təyyarəsi gündüz və gecə, adi və mürəkkəb hava şəraitlərində yerüstü və hava hədəflərini məhv etmək və bilavasitə döyüş meydanında quru qoşunlarına dəstək vermək üçün yaradılıb. Saatda 1000 kilometrədək sürət yığan bu döyüş təyyarəsi 7 kilometrə qədər yüksəklikdə uça bilir.*

*Dövlət başçısı «S-125-2 TM» zenit-raket kompleksinin nəqliyyat doldurucu maşınının da texniki-taktiki göstəriciləri ilə tanış oldu. Üzərində kran quraşdırılmış nəqliyyat doldurucu maşın idarəolunan zenit raketlərin konteynerdə və açıq vəziyyətdə daşınması, buraxıcı qurğuya doldurulub-boşaldılması üçün nəzərdə tutulub. Bu texnika ilə 4 ədəd raket daşımaq mümkündür.*

*Prezident İlham Əliyevə «Sand Cat» zirehli avtomobilinin taktiki-texniki göstəriciləri barədə də məlumat verildi. Bildirildi ki, bu zirehli yüngül avtomobil komanda heyətinin, silahlı bölmələrin, onlara aid avadanlığın və silah sistemlərinin daşınması, düşmənin canlı qüvvəsinin, zirehli texnikalarının və möhkəmləndirilmiş atəş mövqelərinin məhv edilməsi üçün təyin olunub. Avtomobil 12,7 millimetrlik pulemyot, 2 raketdən ibarət «Spiker-LR» tank əleyhinə idarə olunan kompleks və 120 millimetrlik minaatanla təchiz edilibdir.*

*152 millimetrlik «Qiasint-B» topu düşmənin canlı qüvvəsini, atəş vasitələrini və marş zamanı döyüş texnikalarını, cəmləşmə rayonlarını, dayaq məntəqələrini məhv etmək və susdurmaq imkanlarına malikdir. Bu qurğunun maksimal atış məsafəsi aktiv-reaktiv mərmi ilə 35,5, adi mərmi ilə 28,6 kilometrdir.*

*Müasir döyüş maşınlarından sayılan «BTR-82A» zirehli transportyor döyüş meydanında fəaliyyət göstərən piyadanın mobilliyini, silahlanmasını və müdafiəsini yüksəltmək, düşmənin canlı qüvvəsini, tank əleyhinə vasitələrini və yüngül zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulur. Döyüş maşınında 30 millimetrlik top və 7,62 millimetrlik pulemyot quraşdırılıbdır.*

*Burada nümayiş olunan «TOS-1A» ağır odatan yaylım atəş sistemi düşmənin taqım dayaq məntəqələrini, həmlə edən bölüklərini, artilleriya və minaatan batareyalarının atəş mövqelərini və marşda olan avtomobil kolonlarını məhv etmək iqtidarına malikdir. 220 millimetrlik sistemin 24 istiqamətləndiricisi var və maksimal atəş məsafəsi 6000 metrdir.*

*«Xrizantema-S» özüyeriyən tank əleyhinə raket kompleksi dinamik örtüklə təchiz edilmiş tankları, piyadaların döyüş maşınlarını və digər yüngül zirehli hədəfləri, fortifikasiya qurğularını və uzunmüddətli atəş nöqtələrini, alçaqdan uçan təyyarə və helikopterləri məhv etmək imkanlarına malikdir. Batareya komandirinin idarəetmə maşını düşmənin güc və vasitələrinin aşkar edilməsi, taqım və heyətlər arasında hədəflərin bölüşdürülməsi üçün təyin olunubdur.*

*Bütün bunlar göstərir ki, 100 illiyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan Silahlı Qüvvələrinin bu gün dünyanın ən güclü 50 ordusu sırasında olması heç də təsadüfi deyil. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində ordumuzun arsenalı dünyanın aparıcı ölkələrinin istehsalı olan silah və sursatla genişlənir və bu işdə Azərbaycanın milli müdafiə sənayesi kompleksinin imkanları mühüm rol oynayır.*

*Sonra Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun «N» saylı hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışında iştirak etdi.*

*Dövlət başçısı xəstəxana binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş üçmərtəbəli yeni xəstəxana binasında poliklinika-qəbul, terapiya, cərrahiyyə, anesteziologiya və reanimotologiya, təminat və inzibati bölmələr mövcuddur. Xəstəxananın poliklinika-qəbul bölməsində oftalmologiya, ginekologiya, lor, ultrasəs və elektroqrafiya kabinələri və laboratoriya fəaliyyət göstərəcəkdir. 60 çarpayılıq xəstəxana binasında şəxsi heyətə*

*ilkin tibbi yardım göstərmək üçün sarğı, prosedur və təxirəsalınmaz yardım otaqları da yaradılıb. Burada şəxsi heyətin tibbi biliklərinin daha da artırılması məqsədilə hərbi tibbi hazırlıq üzrə məşğələlər keçmək üçün müasir tədris vəsaitləri ilə təmin edilən sinif və mühazirə zalı mövcuddur. Buradakı laboratoriya müasir avadanlıqlarla təchiz olunub. Bu isə laborator müayinələri operativ və yüksək dəqiqliklə yerinə yetirməyə imkan verir. Bir sözlə, xəstəxanada əsgər və zabitlərə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hərtərəfli şərait yaradılıb. Bu tibb müəssisəsinin müasir avadanlıqlarla təchiz olunması Azərbaycanda ordu quruculuğu sahəsinin inkişafına göstərilən dövlət qayğısının əyani təzahürüdür. Bütün bunlar bir daha sübut edir ki, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev əsgər və zabitlərin sağlamlığının qorunmasına, həmçinin sosial məsələlərinin həllinə xüsusi həssaslıqla yanaşır və bu istiqamətdə mühüm işlər görür.*

*Yeni yaradılan hərbi hissədə əsgər yataqxanaları, əsgəri-məişət kompleksi, təlim-tədris mərkəzi, qərargah binası, xəstəxana inşa olunub, sıra meydanı, idman şəhərciyi salınıbdır.*

*Əlahiddə Ümumqoşun Ordusunun Təlim-Tədris Mərkəzində taktiki simulyasiya, trenajor, mədəni-kütləvi işin təşkili bölmələri, sənədli və tədris filmləri kinostudiyası, hərbi mətbəə yerləşir. Ümumi sahəsi 7500 kvadratmetr olan üçmərtəbəli binada, həmçinin zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı sinif otaqları, kitabxana, xarici dillər kabineti və 700 yerlik tədbirlər zalı vardır. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulubdur. Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə 18 trenajor quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və*

*döyüş zamanı onlardan atəş açılması öyrədilir. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması isə şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verir. Simulyasiya mərkəzində artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarə olunan və xüsusi proqram təminatına malik 100 kompüter və proyektor quraşdırılıbdır. Atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif şəraitdə atəşin idarəolunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyini müqayisə etmək mümkündür. Mərkəzin kitabxanasında Azərbaycan və dünya ədəbiyyatı nümunələri, eləcə də ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən 16 mindən çox kitab, qəzet və jurnal materialları toplanılıb. Burada şəxsi heyətin gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı vardır. Hərbi sahəyə dövlətimizin göstərdiyi diqqətin nəticəsidir ki, bu gün Əlahiddə Ümumqoşun Ordusunda gənc əsgərlərin peşəkar döyüşçü kimi hazırlığı da daxil olmaqla, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir və zabit hazırlığı kursları təşkil edilir, zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri mayın 16-da başa çatdı.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlət başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və hökumətin üzvləri yola saldılar.*

## XXIV AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ XII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*16 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq qida sənayesi «WorldFood Azerbaijan–2018» və XII Azərbaycan Beynəlxalq kənd təsərrüfatı «Caspian Aqro–2018» sərgiləri ilə tanış olmuşdur.*

*Kənd Təsərrüfatı naziri İnam Kərimov dövlət başçısına sərgilərlə bağlı məlumat verdi.*

*Bildirildi ki, ötən illə müqayisədə bu il «WorldFood Azerbaijan» və «Caspian Aqro» sərgiləri həm iştirakçıların sayı, həm də ekspozisiya sahəsi baxımından 12 faiz artım nümayiş etdirib. Sərgilərə dünyanın 34 ölkəsindən 402 şirkət qatılıb və bu şirkətlərin 70 faizini xarici, 30 faizini isə yerli istehsalçı və distribüterlər təşkil edir. Bu ölkələrin ticarət və sənaye palatalarının dəstəyilə şirkətlərin böyük milli qruplarla iştirakı sərginin vizit kartına çevrilib. Bu il sərgilərdə dünyanın 10 ölkəsini təmsil edən 12 milli və regional qrup iştirak edir.*

*Prezident İlham Əliyev «Azərsun Holdinq» şirkətlər qrupunun stendi ilə tanış oldu. Diqqətə çatdırıldı ki, 1991-ci ildən etibarən Azərbaycanda fəaliyyətə başlayan şirkət qida sektorunda əhəmiyyətli paya malikdir. Şirkətin zavodlarında geniş ixracat şəbəkəsi mövcuddur. Ölkə iqtisadiyyatına xeyli sərmayə*

*qoyan «Azərsun Holdinq» bu müddət ərzində istehlakçıların rəğbətini qazana bilibdir.*

*«Grou Group Azerbaijan» şirkətinin stendi ilə tanışlıq zamanı məlumat verildi ki, istixanaların satışı və quraşdırılması sahəsində ixtisaslaşan şirkətin məhsulları ən son standartlara cavab verməklə yanaşı, tam avtomatlaşdırılmış müasir plastik və şüşə istixana komplekslərinin hazırlanmasını əhatə edir. «Grou Group Azerbaijan» 2009-cu ildən başlayaraq, beynəlxalq şirkətlərlə əməkdaşlıq şəraitində dünyanın 80-dən çox ölkəsində müasir standartlara cavab verən məhsulları ilə diqqəti cəlb edir.*

*Sərgidə iştirak edən digər şirkət – «Grand Motors» MMC Azərbaycan bazarının tikinti, kənd təsərrüfatı, istirahət və əyləncə sektorunu hədəf götürüb və fəaliyyətini bu istiqamətdə qurubdur. Bu baxımdan, «Grand Motors» MMC ağır texnika və yük avtomobillərinin Azərbaycan Respublikasına idxalını və satışını həyata keçirir. Dünyada tanınmış 14 istehsalçının Azərbaycanda rəsmi təmsilçisidir. Bu istehsalçılardan biri də «Nyu Holland»dır. «Nyu Holland» müştərilərə məhsuldarlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsini vəd edir.*

*«Maschio Gaspardo» şirkəti torpaq və qruntun işlənilməsi, əkin aqreqatları, ot biçini və yığımı, gübrələrin verilməsi üçün nəzərdə tutulan kənd təsərrüfatı avadanlıqlarının istehsalı üzrə liderdir. Şirkət 10 iri istehsal mərkəzindən ibarətdir və dünyada bir sıra kommersiya filialları ilə təmsil olunur.*

*150 illik tarixə malik «Göygöl Şərab zavodu» ASC Azərbaycanın ən qədim şərab emalı müəssisəsidir. 1860-cı ildə yaradılmış müəssisənin 507 hektarlıq üzüm təsərrüfatı vardır. Zavodda istehsal olunan şərab xüsusi materialdan hazırlanan çənlərdə standartlara uyğun şəkildə saxlanılır. Şirkət müxtəlif növ spirtli və alkoqolsuz sərinləşdirici içkilər istehsalı ilə bazarda önəmli yer tutur.*

*Sərgidə xüsusi pavilyonla təmsil olunan Gürcüstan bu tədbirə öz kənd təsərrüfatı məhsullarını təşviq etmək və onların*

*beynəlxalq miqyasda tanıdılması baxımından böyük əhəmiyyət verir. Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi bu sərgidə ilk dəfə 2015-ci ildə iştirak edib və «Ən yaxşı ölkə təqdimatı» sertifikatına layiq görülübdür. Builki sərgidə Gürcüstanı 10-a yaxın şirkət təmsil edir.*

*Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası 2016-cı ildə fəaliyyətə başlayıb. Ölkəmizdə narçılığın inkişaf etdirilməsini, narın xarici bazarlara çıxarılmasını və ixrac miqyasının yeni bazarlar hesabına genişləndirilməsini qarşıya məqsəd qoyan assosiasiya hazırda «Made in Azerbaijan» brendi ilə məhsul istehsalını təşviq edir.*

*İtaliyanın «Antonio Carraro» şirkəti istehsal etdiyi kənd təsərrüfatı texnikası satışının dünya bazarında stimullaşdırılması ilə bağlı tədbirlər görür. Bakıda keçirilən builki sərgiyə şirkətin göstərdiyi maraq da məhz bundan qaynaqlanıb.*

*Yerli şirkətlərdən olan «Gilan Pivot» MMC-nin fəaliyyəti də maraq doğurur. Neftçala Sənaye Məhəlləsinin ərazisində yerləşən MMC-də investisiya dəyəri 1 milyon manat olan istehsal sahəsi yaradılıb. Bu müəssisədə ildə 400 ədəd suvarma sistemi istehsal edilə bilər. Bu isə 20 min hektar əkin sahəsinin suvarılması deməkdir.*

*Rusiyanın «Rostselmaş» şirkəti də builki sərgidə fəal iştirak edir. Eyni ad altında avadanlıq istehsal edən 13 müəssisədən ibarət olan şirkətin məhsul xəttinə 24 növ texnika və 150-dən çox model və modifikasiya daxildir.*

*Sərginin fəal iştirakçıları sırasında olan «Fruit Life» şirkəti Avropa İttifaqı və Yunanıstanın köməyi ilə maliyyələşdirilən kompaniyadır və Avropa İttifaqı standartlarına uyğun məhsulların bazara çıxarılmasını təmin edir.*

*Belarus Respublikası da bu sərgidə bir neçə şirkətlə təmsil olunub. «Belinterekspo» bu ölkənin milli ekspozisiya və pavilyonlarının rəsmi operatorudur. Sərgidə Belarusun kənd təsərrüfatı və qida sənayesində ixtisaslaşmış şirkətləri öz məhsullarını təqdim edir. Bura Azərbaycanda da fəaliyyət göstərən*

*«Belaruski» ticarət şəbəkəsinin, Belarusun ən iri özəl baytarlıq preparatları hazırlayan «Beleko-texnika» şirkətini də daxil etmək olar.*

*Altay diyarı Rusiyada ekoloji təmiz qida məhsullarının ən böyük istehsalçısıdır. Sərgidə ayrıca stendi olan bu diyarın məhsulları ixrac üçün nəzərdə tutulub və bütün beynəlxalq tələblərə uyğundur.*

*2016-cı ildən fəaliyyətə başlayan «Balxurma» müəssisəsi quru və yarım-quru meyvələrin istehsalı sahəsində öndə gedən, avtomatlaşdırılmış texniki avadanlıqlarla təchiz olunan, nəzdində yuyulma, soyulma, soyutma və qablaşdırılma sexləri fəaliyyət göstərən, müasir standartlara cavab verən müəssisədir.*

*Avropa bazarında kifayət qədər tanınan Latviya Mərkəzi Südçülər Assosiasiyasının «Milk River» kompaniyasının məqsədi Avropa İttifaqı ölkələrində istehsal olunan süd məhsullarının rəqabətqabliyyətliliyinin təşviqi və ABŞ, Birləşmiş Ərəb Əmirliyi, İsrail, Azərbaycan və Çin kimi ölkələrdə bazar payının artırılmasıdır.*

*İtaliya builki sərgidə bir çox şirkətlə təmsil olunub. Dünyada kənd təsərrüfatı sahəsində məşhur olan İtaliya şirkətləri sərgidə öz kənd təsərrüfatı texnikalarını və məhsullarını təqdim edirlər. Bu ölkənin stendində qida məhsullarının emalı, soyuducu, yuyucu, təmizləyici avandanlıq istehsalı üzrə ixtisaslaşan italyan şirkətləri barədə də geniş məlumat almaq mümkündür.*

*Türkiyə həmişəki kimi, sərgidə daha çox şirkətlə təmsil olunan ölkələrdən biridir. Qardaş ölkə builki sərgiyə kənd təsərrüfatının və qida sənayesinin bir çox spektrlərini əhatə edən şirkətlərin məhsullarını çıxarıb. Plastik qablaşdırma sahəsində ixtisaslaşan Türkiyənin «Polipa» şirkətinin məhsulları sərgidə xeyli maraq doğurub. «Tekno-Ser» şirkəti isə irriqasiya və istixana komplekslərinin geniş çeşidini təqdim edir.*

*Sərginin «Holland pavilyonu»nda Niderland Krallığının kənd təsərrüfatı və qida sektorunda fəaliyyət göstərən bir neçə*

*şirkəti təmsil olunub. Onlar öz məhsullarını sərgi ziyarətçilərinə təqdim edirlər.*

*«ASAN xidmət»in nəzdində fəaliyyət göstərən ABAD publik hüquqi şəxs Prezident İlham Əliyevin fərmanı ilə 2006-cı ildə yaradılıb. Ölkəmizin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək olan ABAD mərkəzlərinin yaradılması istiqamətində görülən işlər artıq öz bəhrəsini verib. Ailə biznesini dəstəkləyən bu mərkəzlər istehsal olunan məhsulların ölkədə və xaricdə satışını həyata keçirməyə xidmət edir.*

*Fəaliyyət göstərdiyi sahədə vahid dövlət siyasətinin hazırlanmasını və reallaşdırılmasını təmin edən Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni, risklərin təhlilini, qida məhsullarının qablaşdırma materiallarının dövlət qeydiyyatına alınmasını və digər funksiyaları həyata keçirir. Əsas diqqət genetik seleksiyaya məruz qalmış məhsulların istehlakdan kənarlaşdırılmasıdır.*

*Yerli «Amoris» MMC meyvə və tərəvəz məhsullarının yetişdirilməsi sahəsində ixtisaslaşıb. Çoxillik təcrübəyə malik olan şirkət yeni bitki növlərinin yetişdirilməsi və BİS markası altında müştərilərə çatdırılmasını qarşıya hədəf qoyubdur.*

*Litvanın «Svalya» şirkəti Baltikyanı regionda aparıcı mövqe tutur. Avropa İttifaqı və MDB məkanında böyük nüfuz qazanmış şirkət süd və süd məhsullarının geniş çeşidinin istehsalı ilə məşğuldur.*

*Kənd təsərrüfatı texnikalarının ekspozisiyası həm Bakı Ekspo Mərkəzinin daxilində, həm də sərgi kompleksinin açıq platformasında yerləşir.*

*Sərgidə ölkəmizin kənd təsərrüfatının əsas istiqamətlərindən biri olan heyvandarlıq sahəsindəki nailiyyətləri də nümayiş olunur. «Gilan Kənd Təsərrüfatı» şirkətinin fəaliyyəti və şirkə-*

*tin müəssisələrində yetişdirilən heyvan cinsləri məhsuldarlığı ilə diqqəti cəlb edir.*

*«Aqrolizinq» ASC-nin məqsədi kənd təsərrüfatı məhsulu istehsalçılarının maddi-texniki bazasını yaratmaq, sahibkarları lizinq yolu ilə texnika, mineral gübrə, damazlıq heyvanlar, texnoloji avadanlıq, suvarma sistemi ilə təmin etmək, məhsul istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslərə güzəştli qiymətlərlə aqroservis xidmətlərini göstərməkdir.*

*«Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyi müxtəlif modifikasiyalı Belarus traktorları, MAZ və KAMAZ yük avtomobilləri, avtomobil kranları, müxtəlif təyinatlı qoşqular, ekskavatorlar, xüsusi traktorlar və digər məhsulları ilə Azərbaycanda və xarici bazarda böyük nüfuz qazanıbdır.*

*İtaliyanın «Landini» şirkəti də kənd təsərrüfatı traktorlarının geniş çeşidini təqdim edir. Müəssisənin Almaniya, Fransa, Cənubi Afrika, Kanada və ABŞ-da filialları fəaliyyət göstərir.*

*Sərgidə Yunanıstan ayrıca stendlə təmsil olunub.*

*Prezident İlham Əliyev adları yuxarıda qeyd olunan şirkətlərin və ölkələrin stendləri ilə tanış oldu.*

*Beləliklə, «VorldFood Azerbaijan» və «Caspian Aqro» sərgiləri bir daha aqrar sənaye kompleksinin mütəxəssisləri üçün növbəti görüş yerinə çevrildi.*

*Hər iki sərgi keçirildiyi illər ərzində qida sənayesi üzrə avadanlığın, məhsul və xidmətlərin nümayiş olunduğu, eləcə də müştərilər tapmaq, biznes tərəfdaşları ilə mövcud əlaqələri möhkəmləndirmək və yeni satış bazarlarına çıxmaq üçün imkanların yaradıldığı etibarlı platforma kimi özünü doğrultmağa müvəffəq olub.*

*Sərgilər mayın 18-dək davam edəcəkdir.*

**KAMERUN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB POL BİYAYA**

Hörmətli cənab Prezident!

Kamerun Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 may 2018-ci il*

## YENİ AZƏRBAYCAN PARTİYASININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*18 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Bakıda Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov dövlət başçısına görülən işlər barədə məlumat verdi. Qeyd edildi ki, binanın inşasına 2016-cı ilin iyununda başlanılıb, bu ilin mayında isə başa çatdırılıbdır. Tikinti işləri yüksək səviyyədə həyata keçirilib, ən müasir avadanlıqlar quraşdırılıb. Yeni binanın ümumi sahəsi 11000 kvadratmetrdir. İndi partiyanın yeni binası paytaxtımızın müasir və memarlıq baxımından göz oxşayan ən yaraşıqlı binalarından biridir.*

*Dövlət başçısı yeni inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin binanın foyesində yerləşən abidəsinin önünə gül dəstəsi qoydu.*

*Yeni Azərbaycan Partiyasının yeni binasında Heydər Əliyev Muzeyi yaradılıb. Muzeydəki müxtəlif fotostendlər, əyani vəsaitlər ulu öndər Heydər Əliyevin siyasi irsinin və zəngin dövlətçilik fəaliyyətinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Burada ümummilli lider Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı gördüyü işləri əks etdirən fotoguşələr vardır.*

*Prezident İlham Əliyev binada yaradılan şəraitlə yaxından tanış oldu. Məlumat verildi ki, ümumilikdə inzibati bina 50 otaq, müşavirə, konfrans və akt zallarından ibarətdir. Hər mərtəbədə*

*iş otaqları ilə yanaşı, kiçik müşavirə zalları da vardır. Konfrans zalı 100 yerlikdir. Buradakı 268 yerlik böyük akt zalında respublika əhəmiyyətli və partiyanın fəaliyyəti ilə bağlı müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. Binadakı bütün otaqlarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi də diqqətdə saxlanılıb. Belə ki, binada Azərbaycanda informasiya-kommunikasiya və proqram təminatı sahəsində 15 ildən artıq fəaliyyət göstərən yerli CASPEL şirkəti tərəfindən müasir, beynəlxalq tələblərə cavab verən infrastruktur qurulub, intellektual kamera-mühafizə sistemi təşkil edilibdir. Şirkət tərəfindən partiyanın bütün iş proseslərini, üzvlərin qeydiy-yatını idarə edən proqram təminatı yazılıb və inzibati binanın bütün otaqları müasir kompüter, pereferiya avadanlığı ilə təc-hiz olunubdur. Yeni Azərbaycan Partiyasının bütün rayon təşki-latları vahid kommunikasiya məkanında birləşdirilibdir.*

*Qeyd edək ki, Azərbaycanın aparıcı siyasi qüvvəsi olan, milli maraqların müdafiəsi və təmin edilməsi istiqamətində uğurla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının yaradılmasından artıq 26 il ötür. Partiya bu gün ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, respublikamızın tərəqqisinə mühüm töhfələr verir. Partiya Azərbaycanın müasir və dinamik inkişaf edən ölkə kimi, nüfuzunun daim artmasında mühüm rol oynayır, ümummilli lider Heydər Əliyevin ideya və arzularını yüksək səviyyədə həyata keçirir. Son illərdə keçirilən Prezident və parlament seçkilərində böyük səs çoxluğu ilə qalib gələn Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi kimi, Azərbaycan cəmiyyətində yüksək etimad, hörmət və nüfuz qazanıb. Hazırda Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox üzvü birləşdirir. Onların 38 faizini gənclər, 47 faizini isə qadınlar təşkil edir. Partiyanın Gənclər Birliyi və Qadınlar Şurası da təşkilatın aparıcı qüvvəsi kimi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir.*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ**
**VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİGEL DİAS-KANEL BERMUDESƏ**

Hörmətli cənab Sədr!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Kuba xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 may 2018-ci il*

# BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATININ BAŞ DİREKTORU QAY RAYDERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Beynəlxalq Əmək Təşkilatının baş direktoru Qay Rayderin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Beynəlxalq Əmək Təşkilatının baş direktorunun Azərbaycana ilk dəfədir səfər etdiyini qeyd edən Qay Rayder bu səfəri həyata keçirməyindən dərin məmnunluq hissi duyduğunu vurğuladı. Dövlət başçısını yenidən Prezident seçilməsi münasibətilə təbrik edən Qay Rayder Prezident İlham Əliyevin inauqurasiya mərasimindəki çıxışını diqqətlə izlədiyini qeyd edərək, orada əmək və sosial məsələlərlə bağlı söylənilən fikirlərin çox böyük maraq doğurduğunu bildirdi. O vurğuladı ki, Prezident İlham Əliyevin əhalinin rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi, iş yerlərinin yaradılması ilə bağlı söylədiyi fikirlər mühüm əhəmiyyət daşıyır. Qay Rayder rəhbərlik etdiyi təşkilatın Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirdiyini, bu səfərin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Təbrikə və xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Bakıda keçirilən «Dayanıqlı inkişaf məqsədlərinə doğru davamlı inkişafın və layiqli əməyin təbliği» mövzusunda Beynəlxalq konfransın əhəmiyyətini qeyd etdi. Dövlət başçısı son illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafı, o cümlədən əhalinin əmək və sosial təminatı istiqamə-*

*tində mühüm işlər görüldüyünü, xüsusilə işsizliyin sürətlə azaldılması ilə bağlı böyük uğurların əldə edildiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycanda ənənəvi olan və sürətli iqtisadi inkişaf nəticəsində baş verən demoqrafik artımla əlaqədar gələcəkdə yeni iş yerlərinin yaradılması kimi mühüm vəzifənin ölkə qarşısında durduğunu bildirdi və bu istiqamətdə müvafiq tədbirlərin həyata keçirildiyini vurğuladı. Dövlət başçısı Beynəlxalq Əmək Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın önəminə toxunaraq, bu əməkdaşlığın uğurla davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

# SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR VUÇİÇİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*21 may 2018-ci il*

*Azərbaycan Respublikasında rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin mayın 21-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Serbiya Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Serbiya Prezidenti Aleksandr Vuçiçi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Serbiya Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Prezident Aleksandr Vuçiç Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Serbiya Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Serbiya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Aleksandr Vuçiçə, Serbiya nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycan və Serbiya prezidentləri rəsmi foto çəkdirdilər.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR VUÇİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*21 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç ilə mayın 21-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimiz arasındakı əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi. Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın inkişafına töhfə verəcəyi diqqətə çatdırıldı.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*21 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin nümayəndə heyətlərinin iştirakı ilə mayın 21-də təkbətək görüş başa çatdıqdan sonra geniş tərkibdə görüşü olmuşdur.*

*Prezidentlər görüşdə çıxış etdilər.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Biz sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, səfər çox uğurlu keçəcək və Serbiya–Azərbaycan əlaqələrinin inkişafı üçün böyük dəstək olacaqdır.

Bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Biz dostuq, strateji tərəfdaşıq. Son illər ərzində əldə edilmiş uğurlar deməyə əsas verir ki, Serbiya–Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcəkdir. Biz beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik, iqtisadi sahədə əməkdaşlıq aparılır. Əminəm ki, bu gün aparılan danışıqlar nəticəsində bu sahəyə də yeni təkan veriləcəkdir. Humanitar sahədə çox gözəl əməkdaşlıq vardır.

Əlbəttə, bölgədə gedən proseslərlə bağlı biz bu gün Sizinlə fikir mübadiləsi apardıq. Əminəm ki, belə məsləhətləşmələrin çox böyük əhəmiyyəti vardır. Biz gələcəkdə energetika, nəqliyyat sahələrində daha fəal əməkdaşlıq edə bilərik. Bu məsələlərlə bağlı bizim fikirlərimiz vardır. Belə olan halda, bizim münasibətlərimiz yeni mərhələyə, yeni pilləyə qalxacaqdır.

Bir sözlə, biz münasibətlərimizin inkişafı ilə bağlı bir fikirdəyik. Hesab edirəm ki, bu münasibətlərin çox böyük gələcəyi

vardır. Serbiya bizim üçün dost ölkədir və əminəm ki, bu dostluq əlaqələri bundan sonra da davam etdiriləcəkdir.

Sizə uğurlu səfər arzulayıram. Əminəm ki, səfər zamanı əldə edilmiş razılaşmalar gələcək uğurlu əməkdaşlığımızı daha da möhkəmləndirəcəkdir. Bir daha xoş gəlmisiniz!

**Aleksandr Vuçiç**: Hörmətli cənab Prezident!

İlk növbədə, Sizi Prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə təbrik edirəm və Azərbaycan xalqına firavanlıq arzulayıram. Eyni zamanda, Sizi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə də təbrik etmək istəyirəm.

Sizi əmin edirəm ki, Serbiya Azərbaycan üçün dost ölkədir. Biz burada – Azərbaycanda, Bakı şəhərində özümüzü ən yaxın dostlarımızın evindəki kimi hiss edirik.

Cənab Prezident, mən Sizin fəaliyyətinizə xüsusilə böyük önəm verirəm. Siz çox böyük səylər göstərirsiniz ki, ölkənizin suverenliyini və müstəqilliyini qoruyub saxlayasınız. Çünki hazırkı çox gərgin bir şəraitdə Siz ölkənizi firavanlıq yolu ilə irəli aparırsınız. Bununla yanaşı, Sizin siyasətinizi dəstəkləyən bütün ölkələrlə yaxşı münasibətlər qurmusunuz. Bu, olduqca çətin bir məsələdir. Biz Serbiya olaraq bu siyasətə böyük önəm verir və hörmət bəsləyirik.

Hesab edirəm ki, bizim birgə görəcəyimiz işlər kifayət qədərdir. Azərbaycanın maraqları baxımından Serbiyada görüləcək bir çox işlər vardır. Eyni zamanda, bizim də burada görə biləcəyimiz işlər çoxdur. Düşünürəm ki, iqtisadiyyatımız gücləndikcə, serb şirkətləri Azərbaycana cəlb oluna bilər.

Məlumat vermək istərdim ki, bu il bizim iqtisadi artımımız 4,5 faiz olubdur. Məndə olan məlumata görə, Sizin də qeyri-neft sektorunda 3 faiz artım olubdur. Bu münasibətlə də Sizi səmimi-qəlbdən təbrik edirəm.

* * *

*Görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Xəzər dənizinin və Bakının mənzərəsini seyr etdilər.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*21 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin iştirakı ilə mayın 21-də geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı»nı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç imzaladılar.*

*«Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Serbiya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycan Respublikasının Səhiyyə naziri Oqtay Şirəliyev və Serbiya Respublikasının Səhiyyə naziri Zlatibor Lonçar imzaladılar.*

*«Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Serbiya Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum»u Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov və Serbiya Respublikasının Ədliyyə naziri Nela Kuburoviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov və Serbiya Respublikası Baş Nazirinin müavini, Tikinti, Nəqliyyat və İnfrastruktur üzrə nazir Zorana Mihayloviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobildaşımaları haq-*

*qında Saziş»i Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Serbiya Respublikası Baş Nazirinin müavini, Tikinti, Nəqliyyat və İnfrastruktur üzrə nazir Zorana Mihayloviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqələri haqqında Saziş»i Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Serbiya Respublikası Baş Nazirinin müavini, Tikinti, Nəqliyyat və İnfrastruktur üzrə nazir Zorana Mihayloviç imzaladılar.*

## SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR VUÇİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*21 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 21-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, ilk növbədə, bir daha Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əminəm ki, səfərin nəticələri Serbiya–Azərbaycan dostluq və strateji tərəfdaşlıq əlaqələrinin inkişafı üçün yeni imkanlar açacaqdır.

Biz strateji tərəfdaşıq və bu gün imzalanan sənədlər arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı imzalanmışdır. Bu çox geniş və əhəmiyyətli sənəddir. Bu sənəddə bizim gələcək əməkdaşlığımızla bağlı bütün önəmli məsələlər öz əksini tapıbdır.

Biz beynəlxalq təşkilatlar çərçivəsində bütün önəmli məsələlərdə, ölkələrimizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı məsələlərdə bütün beynəlxalq təşkilatlarda bir-birimizi daim dəstəkləyirik. Üzləşdiyimiz münaqişələr beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkələrimizin ərazi bütövlüyü, BMT Təhlükəsizlik Şurasının

müvafiq qətnamələri çərçivəsində öz həllini tapmalıdır. Bu məsələ ilə bağlı biz daim bir-birimizə qarşılıqlı dəstək göstəririk və bundan sonra da göstərəcəyik.

Bu gün müzakirə olunan məsələlər arasında iqtisadi əməkdaşlıq məsələləri də geniş yer alıb. Biz bu istiqamətdə atılan addımları yüksək qiymətləndiririk. Ancaq eyni zamanda, tam əminik ki, mövcud ticarət dövriyyəsi bizim iqtisadi potensialımızı tam əks etdirmir. Artım var, ancaq mütləq rəqəmlər hələ də çox aşağıdır. Ona görə əminəm ki, səfər zamanı müzakirə olunan və olunacaq məsələlər gələcəkdə ticarət dövriyyəsinin artırılmasına gətirib çıxaracaq, bunun üçün yaxşı imkanlar vardır.

Energetika sahəsində əməkdaşlıq üçün perspektivlər ümidvericidir. Bu məsələ imzalanan Birgə Fəaliyyət Planında öz əksini tapıbdır. Azərbaycan nəhəng enerji layihələrinin təşəbbüskarıdır və fəal iştirakçısıdır. Onların arasında «Cənub Qaz Dəhlizi» layihəsi xüsusi yer tutur. Yaxın günlər ərzində biz artıq «Şahdəniz-2» layihəsinin başa çatmasını qeyd edəcəyik. Gələn ay TANAP layihəsi istismara verilməlidir. Beləliklə, «Cənub Qaz Dəhlizi»nin əsas layihələri artıq başa çatmış olacaqdır. Bu, enerji təhlükəsizliyi məsələlərinə Azərbaycanın növbəti töhfəsidir. Bu nəhəng enerji layihəsi geniş beynəlxalq əməkdaşlıq məsələlərinin həllinə də öz müsbət təsirini göstəribdir. Hazırda bizim regionumuzda enerji sahəsində əməkdaşlıq yeni səviyyəyə qalxır.

Ötən ilin oktyabrında Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsi ilə bağlı Bakıda mərasim keçirilmişdir. Bu yol da çox böyük əhəmiyyətə malikdir. Bu yolun fəaliyyətə başlaması nəticəsində Asiya ilə Avropa arasında bağlantı yaranır. Bu, Asiyadan Avropaya və əks istiqamətə ən qısa yoldur. Yüklər artıq bu yol vasitəsilə daşınır və yüklərin həcmi getdikcə daha da artacaqdır. Əlbəttə ki, biz Serbiyanı bu dəmir yolunun fəal iştirakçısı kimi görürük. Hesab edirəm ki, bizim müvafiq qurumlarımız bu məsələ ilə bağlı artıq danışıqlara

başlaya bilər. Beləliklə, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən enerji və nəqliyyat layihələri geniş əməkdaşlıq üçün yeni imkanlar açır. Bu, turizmin inkişafına təkan verəcək, qarşılıqlı ticarət dövriyyəsini artıracaq və beləliklə, bölgəmizdə, Avrasiya məkanında sabitliyi möhkəmləndirəcək, təhlükəsizliyi təmin edəcəkdir.

Serbiya ilə Azərbaycan arasındakı əlaqələrdə humanitar sahə çox önəmli yer tutur. Cənab Prezident, bilirəm ki, Siz Azərbaycan Dillər Universitetində «Serb Dili və Mədəniyyəti Mərkəzi»nin açılışında da iştirak edəcəksiniz. Əminəm, bilirsiniz və görəcəksiniz ki, Sizin xalqınıza, xalqınızın mədəniyyətinə, ədəbiyyatına Azərbaycanda çox böyük maraq, böyük hörmət vardır. Humanitar sahədə mövcud olan əlaqələr xalqlararası əlaqələrin inkişafında mühüm yer tutur.

Hesab edirəm ki, turizm sahəsinin qarşılıqlı şəkildə inkişaf etdirilməsi həm ölkələrimizə gəlir gətirəcək, həm də insanlar bir-birini daha yaxından tanıyacaqlar, dost olacaqlar. Bizim ölkələrimiz dost ölkələrdir, qeyd etdiyim kimi, strateji tərəfdaşlardır. Əminəm ki, səfərdən sonra əlaqələrimizə yeni dinamika, yeni təkan veriləcək və Serbiya ilə Azərbaycan daim bir-birini dəstəkləyən, bir-birinə kömək edən ölkələr kimi fəaliyyət göstərəcəkdir.

Sizin apardığınız siyasəti biz yüksək qiymətləndiririk. Siz ölkənizi inamla idarə edirsiniz. Serbiya xalqı Sizə böyük dəstək göstərir, Sizin siyasətinizi yüksək qiymətləndirir. Biz sizin dostlarınız kimi, buna sevinirik. Əminik ki, Serbiya–Azərbaycan əlaqələri bundan sonra da Sizin gündəliyinizdə önəmli yer tutacaqdır. Serbiya ilə əlaqələr bizim üçün çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, gələcəkdə bu əlaqələrin uğurlu inkişafı üçün bütün imkanlar, şərait, ən əsası isə güclü qarşılıqlı iradə vardır. Hesab edirəm ki, biz gələcək illəri də bu arzularla yaşayacağıq, Serbiya–Azərbaycan əlaqələrini inkişaf etdirəcəyik. Sağ olun.

## Serbiya Prezidenti Aleksandr Vuçiçin bəyanatı

Hörmətli cənab Prezident, əziz dostum cənab Əliyev!

Sizə bu səmimi və xoş sözlərinizə görə təşəkkür etmək istəyirəm. Azərbaycan ilə Serbiya arasında əlaqələrin inkişafı baxımından gördüyünüz bütün işlərə görə Sizə təşəkkürümü ifadə etmək istəyirəm.

Düşünürəm ki, mən Sizin Prezident seçilməyinizdən sonra ölkənizə səfər edən ilk dövlət başçısıyam. Bu mənim üçün böyük şərəfdir. Azərbaycan ilə dostluq münasibətlərinin inkişafı bizim üçün çox vacibdir. Bu bizim dövlətlərimizin və xalqlarımızın maraqlarına tam uyğundur. Bizim əməkdaşlığımız üçün çox böyük meydan vardır. Məhz bu səbəbdən də mən bizim hökumətimizin, demək olar ki, tam yarısı ilə Azərbaycana səfərə gəlmişəm. Çünki biz Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığı inkişaf etdirmək əzmindəyik.

Ölkəmizin müstəqilliyinin və suverenliyinin dəstəklənməsinə görə minnətdarıq. Biz də öz növbəmizdə, Azərbaycanın müstəqilliyini və suverenliyini dəstəkləyirik. Hər iki ölkənin bu mövqeyi dəyişməz olaraq qalacaqdır. Cənab Prezident, biz Sizin siyasətinizi çox yüksək qiymətləndiririk. Siz elə bir şəxsiyyətsiniz ki, ölkənizin müstəqilliyini, azadlığını qoruyursunuz və vətəndaşların firavanlığı naminə əlinizdən gələni edirsiniz. Çünki Sizin ölkəniz olduqca mürəkkəb regionda, müxtəlif regionların kəsişməsində yerləşir və Siz ölkənizi nümunəvi şəkildə qoruyub saxlaya bilmisiniz.

Eyni zamanda, iqtisadi maraqlarınız da təmin edilir. Münasibətlərimizin təkmilləşdirilməsində bizim böyük potensialımız vardır. Bu yaxınlarda bizim hökumətlərarası birgə Komissiyanın iclası olacaqdır. Sonuncu iclas 2015-ci ildə olmuşdur. Düşünürəm ki, müxtəlif nəqliyyat layihələrinin icrasında fəal əməkdaşlıq edə bilərik. Azərbaycan şirkəti Serbiyada yol tikintisində uğurla fəaliyyət göstərir. Bununla yanaşı, müxtəlif kənd təsərrüfatı məhsullarının alqı-satqısı, mədəniyyət, idman

və digər sahələrdə də daha böyük nailiyyətlər əldə edə bilərik. Təbii ki, bizim hərbi-texniki və hərbi təhsil sahələrində də böyük potensialımız vardır. Düşünürəm ki, bunlar da çox vacib sahələrdir.

Çox müsbət haldır ki, ölkələrimiz arasında heç bir mübahisəli məsələ yoxdur. Biz müxtəlif beynəlxalq təşkilatlarda bir-birimizi tam şəkildə dəstəkləyirik.

Cənab Prezident, fürsətdən istifadə edərək, Sizi burada, media qarşısında Serbiyaya rəsmi səfərə dəvət edirik. Siz orada bizim xalqın qonaqpərvərliyinin, həm Sizə, həm də ölkənizə olan rəğbət və ehtiramın şahidi olacaqsınız. Azərbaycan bizə dost ölkədir və tezliklə Sizi Belqradda görmək ümidindəyik.

Ölkənizin qeyri-neft sektorunda 3 faizlik artımın qeydə alınması münasibətilə Sizi təbrik edirəm. Görürəm ki, Siz iqtisadiyyatın şaxələndirilməsinə böyük önəm verirsiniz. Bu da əsl siyasi rəhbərə xas olan bir xüsusiyyətdir. Bizim yaxşı münasibətlərimiz vardır. Artıq 3 ildir ki, bizim büdcəmizdə artım müşahidə olunur. Bu da bizə daha yüksək səviyyədə qarşılıqlı sərmayə qoyuluşu baxımından yaxşı imkanlar yaradır.

Cənab Prezident, səmimi dostluğa görə Sizə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*21 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin şərəfinə mayın 21-də rəsmi ziyafət verilmişdir.*

*Prezident İlham Əliyev Serbiya Prezidenti ilə keçirdiyi görüşlərin ölkələrimiz arasında xüsusi əməkdaşlıq formatı yaratdığını bildirdi. Dost və strateji tərəfdaş olan ölkələrimiz arasında bir neçə il öncə imzalanan strateji tərəfdaşlıq haqqında Bəyannamənin və bu səfər çərçivəsində imzalanan strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin çox güclü təməl üzərində qurulduğunu qeyd etdi. Prezident İlham Əliyev bundan sonra da Azərbaycan ilə Serbiya arasında müxtəlif sahələr üzrə məsləhətləşmələrin davam etdiriləcəyinə əminliyini ifadə etdi, ölkələrimizin qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan əlaqələrinin əhəmiyyətini vurğuladı.*

*Serbiya Prezidenti Aleksandr Vuçiç yüksək qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür etdi. Ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu diqqətə çatdıran Serbiya Prezidenti bu münasibətlərin qarşılıqlı inama və etimada söykəndiyini bildirdi. Qeyd etdi ki, ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün yaxşı imkanlar vardır.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən möhtəşəm işlərin şahidi olduğunu ifadə edən Aleksandr Vuçiç Azərbaycan ilə Serbiya arasında siyasi, iqtisadi,*

*mədəni, humanitar və digər sahələrdə əlaqələrin dərinləşdirilməsi üçün münbit şəraitin yaranmasının əhəmiyyətini vurğuladı.*

*Sonda Serbiya dövlətinin başçısı ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan xalqına bir daha minnətdarlığını bildirdi.*

## YÜKSƏKGƏRGİNLİKLİ AVADANLIQLAR ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*22 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 22-də Bakının Suraxanı rayonunda «ATEF Şirkətlər Qrupu»nun Yüksəkgərginlikli Avadanlıqlar zavodunun açılışı mərasimində iştirak etmişdir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev şirkətlər qrupunun yaranması və fəaliyyəti barədə dövlət başçısına məlumat verdi. Bildirildi ki, «ATEF Şirkətlər Qrupu» innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabliyyətli sənaye məhsulları istehsal edən müəssisələrdən biridir və son illərdə ölkədə sənayenin inkişafı sahəsində görülən işləri təcəssüm etdirir.*

*Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq həyata keçirilən iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb, yüzlərlə müasir sənaye müəssisəsi açılıbdır. 2017-ci ildə ötən illə müqayisədə qeyri-neft sənaye məhsulları istehsalı 3,7 faiz artıb. Bu dinamika bu ilin birinci rübündə də davam edib, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artıma nail olunubdur.*

*«ATEF Şirkətlər Qrupu»nun rəhbəri Talıb Əlixanbəyov şirkətin Əmircan qəsəbəsindəki Bakı Yağ Transformatorları zavodu, Hövsandakı Metal Konstruksiya zavodu, Qaraçuxur qəsəbəsində İriqabaritli Transformatorlar və Elektrotexniki Avadanlıqlar zavodları barədə məlumat verdi. Bildirildi ki, dövlətin güzəştli kreditlərindən istifadə etməklə, Qaraçuxur*

*qəsəbəsində inşa olunmuş İriqabaritli Transformatorlar zavodu 2016-cı ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib, həmin ərazidə Yüksəkgərginlikli Avadanlıqlar zavodunun təməli qoyulubdur.*

*Ümumi investisiya dəyəri 29,7 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bundan başqa, müəssisəyə nazirlik tərəfindən investisiya təşviqi sənədi verilib ki, nəticədə 4,2 milyon manat vəsaitə qənaət olunaraq, investisiya kimi, layihənin icrasına yönəldilibdir. Müasir texnologiyalar əsasında yaradılan bu zavod inkişaf etmiş ölkələrin istehsalı olan avadanlıqlarla təchiz edilib. Eyni zamanda, «ATEF Şirkətlər Qrupu»nun ümumi dəyəri 20 milyon manat olan İriqabaritli Transformatorlar və Elektrotexniki Avadanlıqlar və Metal Konstruksiyalar zavodlarının yaradılmasına verilən 5 milyon manat güzəştli kredit vəsaitindən istifadə olunub və tam geri qaytarılıbdır.*

*Prezident İlham Əliyev Yüksəkgərginlikli Avadanlıqlar zavodunu işə saldı.*

*Dövlət başçısı istehsal prosesi ilə tanış oldu.*

*Bildirildi ki, ümumi sahəsi 18 min kvadratmetr olan zavod 7 istehsal sahəsindən – bərk izolyasiya, kabel və mis anod istehsalı, əritmə və ekstruziya, mexaniki emal, yığma və sınaq sahələrindən ibarətdir. Zavodda illik 5300 ədəd müxtəlif növ elektrotexniki avadanlıqların, o cümlədən güc transformatorları üçün izolyasiya detalları, yüksəkgərginlikli vakuum və eleqaz tipli açarlar, ayırıcılar, torpaqlayıcılar, ölçü transformatorları, kabellər və transformator buraxılışında istifadə olunan digər hissələrin istehsalı mümkündür. Qeyd olundu ki, bu məhsulların istehsalı üçün tələb olunan xammal və köməkçi detallar əvvəllər xarici bazarlardan alınırdı. Zavodun sınaq laboratoriyası da müasir səviyyədədir. Burada yerli mütəxəssislər beynəlxalq təcrübəyə əsaslanan intellektual biliklərdən istifadə edirlər.*

*Yüksəkgərginlikli Avadanlıqlar zavodunun fəaliyyətə başlaması ilə transformator, yarımstansiya və digər elektrik avadanlıqlarının istehsalında yerli materiallardan istifadə olunması nəticəsində lokalizasiya səviyyəsi 70–90 faizə çatacaqdır ki, bu da buraxılan məhsulların maya dəyərinin aşağı düşməsinə, idxaldan asılılığın və ölkədən valyuta axınının qarşısının alınmasına səbəb olacaqdır. Zavodda 310 yeni iş yeri açılıbdır.*

*Diqqətə çatdırıldı ki, «ATEF Şirkətlər Qrupu» 2018-ci ildə 160 milyon dollar – ölkə daxilində 5 milyon, xarici ölkələrdə isə 155 milyon dollar dəyərində layihələrin həyata keçirilməsini qarşıya məqsəd qoyub. Xarici ölkələrdə layihələrin həyata keçirilməsi zamanı şirkətin istehsal etdiyi 95 milyon dollar dəyərində məhsulların ixracı nəzərdə tutulur. Hazırda şirkətlər qrupu xarici ölkələrdə nəzərdə tutulan bu layihələr üzrə dəyəri 100 milyon dollarıdək olan tenderlərdə iştirak edir.*

*2017-ci ildə dünyanın aparıcı sınaq laboratoriyalarından olan İtaliyanın CESİ laboratoriyasında «ATEF Şirkətlər Qrupu»nun Yüksəkgərginlikli Avadanlıqlar zavodunda istehsal edilən dünya standartlarının tələbinə cavab verən yüksəkkeyfiyyətli yağ və quru tipli paylayıcı transformatorlar uğurla sınaqdan keçirilib, beynəlxalq sertifikatlar alınıbdır.*

*Dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni sənaye məhsulları istehsalı sahələrinin yaradılması istiqamətində mühüm işlər görülür. Belə müəssisələrin yaradılması göstərir ki, ölkəmizin sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam edir. Dövlətin hərtərəfli dəstəyi ilə yaradılan bu müəssisələrin müasir texnologiyalardan istifadə yolu ilə istehsal etdiyi məhsulların ixrac coğrafiyası və həcmi isə ildən-ilə artır. Belə ki, 2013-cü ildə 5 milyon dollar dəyərində məhsul ixrac olunduğu halda, 2017-ci ildə 27 milyon dollar dəyərində məh-*

*sul ixrac edilib. Bu ilin ilk 4 ayında isə 16 milyon dollar dəyə-rində məhsul ixrac olunub. Qeyd edək ki, hazırda «ATEF Şirkətlər Qrupu»nun müəssisələrində ümumilikdə 2400 nəfər işlə təmin olunubdur.*

## «QAFQAZDA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR: 100 İL ƏVVƏL VƏ MÜASİR DÖVR» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi ürəkdən salamlayır, «Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr» mövzusunda Beynəlxalq konfransın işə başlaması münasibətilə təbrik edirəm.

Qafqaz dövlətləri arasında münasibətlərin hərtərəfli tədqiqi, obyektiv elmi nəticələrin çıxarılması və geniş yayılması mühüm praktiki əhəmiyyət kəsb edir. Bu bölgə əsrlərdən bəri müxtəlif xalqların və mədəniyyətlərin qaynayıb qarışdığı, özünəməxsus zəngin mədəni irsə və ənənələrə malik nadir bir məkandır. Strateji əhəmiyyətinə görə hər zaman müxtəlif güc mərkəzlərinin maraq dairəsində olması regionda dövlətlərarası əlaqələrə və xalqlar arasında münasibətlərin xarakterinə böyük təsir göstərmişdir. Bir əsr əvvəl yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin və digər qonşu respublikaların tarixi, habelə müasir müstəqillik dövrünün təcrübəsi göstərir ki, Qafqaz xalqlarının istiqlaliyyəti, əmin-amanlığı və rifahı ilk növbədə, onların qarşılıqlı hörmətə və ortaq maraqlara əsaslanan əməkdaşlığından asılıdır. Təəssüf ki, ötən əsrin əvvəllərində olduğu kimi, indiki Ermənistan dövləti də qonşu ölkələr, xüsusilə Azərbaycan hesabına öz ərazilərini genişləndirmək məqsədilə təcavüzkar siyasət yürüdür, işğal, soyqırımı və etnik təmizləmələr həyata keçirir. Bu isə bölgədə sülhə, sabitliyə və ölkələrin tərəqqisinə əngəl yaradır.

Azərbaycanın və dünyanın tanınmış elmi mərkəzlərini təmsil edən 200-dək tədqiqatçının iştirakı ilə keçirilən belə Beynəlxalq konfranslar tarixi təcrübəni, geosiyasi prosesləri öyrənməklə,

nəticələri dərindən qiymətləndirməyə, habelə müvafiq elmi-tədqiqat institutları və mütəxəssislər arasında ikitərəfli əməkdaşlığın qurulmasına və inkişafına kömək edir. Şübhə yoxdur ki, Azərbaycan bundan sonra da müxtəlif ölkələrin qafqazşünas alimlərinin qarşılıqlı əlaqələrinin genişləndirilməsinə öz töhfəsini əsirgəməyəcəkdir.

Ümidvaram ki, konfrans çərçivəsində aparacağınız müzakirələr, irəli sürəcəyiniz tövsiyə və təkliflər qafqazşünaslığın aktual problemlərinin həllində əhəmiyyətli addım olacaq, beynəlxalq elmi əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinə və bütövlükdə regionda sülhün, əmin-amanlığın möhkəmləndirilməsinə təkan verəcəkdir.

Hamınıza bu yolda böyük nailiyyətlər, şəxsi həyatınızda möhkəm cansağlığı və səadət arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2018-ci il*

**İORDANİYA KRALI ƏLAHƏZRƏT**
**II ABDULLAH İBN HÜSEYNƏ**

Əlahəzrət!

Əziz qardaşım!

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş İordaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 may 2018-ci il*

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik Günü və Gürcüstan dövlətçiliyinin bərpasının 100 illiyi münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

1918-ci ilin mayında Azərbaycan və Gürcüstanın dövlətçilik tarixində mühüm hadisə baş vermiş, tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış xalqlarımız öz müstəqilliyini bəyan etmişlər.

Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, müstəqilliyimizin hazırkı mərhələsində ölkələrimiz arasında qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

İnanıram ki, müvəffəqiyyətlə həyata keçirdiyimiz enerji, nəqliyyat layihələri, hərtərəfli və dinamik inkişaf edən əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına, ölkələrimizin çiçəklənməsinə mühüm töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Gürcüstan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 may 2018-ci il*

## QARADAĞ RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ «QOBU PARK» YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*24 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 24-də Bakı şəhəri Qaradağ rayonu Lökbatan qəsəbəsinin şimal-şərqində Lökbatan–Qobu yolunun 3 kilometr şərq hissəsində məcburi köçkünlər üçün salınmış «Qobu Park» yaşayış kompleksinin açılışında iştirak etmişlər.*

*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və «Paşa Holdinq» şirkətinin nümayəndəsi, layihə rəhbəri Kamil Əliyev kompleksdə görülən işlərlə bağlı dövlət başçısına məlumat verdilər.*

*Bildirildi ki, yaşayış kompleksinin ümumi sahəsi 6,4 hektardır. Layihənin sifarişçisi «Paşa Holdinq», podratçısı isə «Kristal Abşeron» MTK-dır. Yaşayış kompleksinin təməli 2017-ci il mayın 30-da Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Tikinti işləri yüksək səviyyədə həyata keçirilib və bu ilin may ayında başa çatdırılıbdır.*

*Layihə üzrə hər biri 2 bloklu, 9 mərtəbəli, 1026 mənzilli 11 yaşayış binası inşa olunub. Yaşayış kompleksinə 3 mərtəbəli məktəb binası və uşaq bağçası daxildir. Yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri – 350 yerlik mərasim evi, poçt, tibb, polis məntəqələri və mənzil-istismar idarəsi yaradılıb. Ərazidə 35 min kilovatlıq yarımstansiya inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıbdır. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və*

*suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib, kanalizasiya şəbəkəsi yaradılıb. Dövlət başçısına məlumat verildi ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 98-ci şəhərcikdir. Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər, bu kateqoriyadan olan soydaşlarımızın müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqət və qayğının təzahürüdür. Qaçqınların və məcburi köçkünlərin maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülübdür.*

*Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilmiş müşavirənin keçirilməsi oldu. Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilmiş «Ümid» yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, buradakı mənzillərdən 108-i birotaqlı, 396-sı ikiotaqlı, 360-ı üçotaqlı, 162-si isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 73 min kvadratmetrdir. Bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunubdur. Yeni yaşayış*

*kompleksində hazırda qəzalı binalarda məskunlaşmış 1026 məcburi köçkün ailəsi mənzillə təmin olunacaqdır.*

*Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqınlar və məcburi köçkünlər üçün indiyədək 3,2 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İndiyədək 52500 ailənin və ya 265 mindən çox qaçqının və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Bu işə 2,3 milyard manat vəsait sərf olunub. Bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 6,6 milyard manat vəsait xərclənib. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə 2000 məcburi köçkün sahibkara 40 milyon manat güzəştli kredit verilib. Ötən dövrdə 200 min məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilib. Bununla da məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıbdır.*

*Sonra dövlət başçısı və xanımı 222 yerlik «Şirin bala» uşaq bağçasında yaradılan şəraitlə də tanış oldular.*

*Qeyd edildi ki, burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar vardır. 11 qrupun fəaliyyət göstərəcəyi bağça uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcəkdir. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Binada videomüşahidə, yanğın xəbərverici sistemlər quraşdırılıb, uşaq bağçası zəruri mebel-inventar və avadanlıqlarla təchiz edilibdir. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilibdir.*

*Daha sonra yaşayış kompleksində tikilmiş tam orta məktəbdə yaradılmış şəraitlə tanış olan Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, bu təhsil ocağı*

*624 şagird-yerlikdir. Yüksək səviyyəli şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcəklər. İdman zalı da zəruri avadanlıqlarla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan vardır. Akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür.*

*Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət edir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə öz nadirliyi ilə seçilir.*

*Məktəblə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məcburi köçkünlərlə görüşdülər.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Əziz dostlar, mən sizi «Qobu Park» yaşayış kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl hadisə bir daha onu göstərir ki, Azərbaycan vətəndaşı, ağır vəziyyətdə yaşayan soydaşlarımız, məcburi köçkünlər daim diqqət mərkəzindədirlər.

Bu kompleksin yaradılması Azərbaycan dövlətinin siyasətini göstərir, köçkünlərə olan qayğının təzahürüdür. Cəmi 1 il ərzində bu gözəl yaşayış kompleksi yaradılıbdır. Düz 1 il bundan əvvəl bu kompleksin təməli qoyulmuşdur. O vaxt Mehriban Əliyeva təməlqoyma mərasimində iştirak etmişdir. Cəmi 1 il ərzində gözəl yaşayış kompleksi yaradılıb. Bu gün açılışına toplaşdığımız kompleksin bütün infrastrukturu yaradılıb. Elektrik, su, qaz xətləri, bütün infrastruktur məsələləri həll olunub, yollar çəkilib, həm

qəsəbədaxili, həm də magistral yola çıxış yolu salınıbdır. Doqquzmərtəbəli 11 yaşayış binası tikilib, gözəl şərait yaradılıb. Mən indi mənzillərlə tanış oldum. Mənzillərin ümumi sahəsi 73 min kvadratmetrdir. 624 şagird yerlik gözəl məktəb, 220 nəfərlik uşaq bağçası, tibb məntəqəsi, məntəqələri, yəni yaşamaq üçün ən yüksək səviyyədə bütün şərait yaradılıbdır. Gözəl ictimai zonalar yaradılıb. ağaclar əkilib, parklar salınıbdır. Hesab edirəm ki, bu, köçkün şəhərciklərinin arasında öz gözəlliyi və şəraiti ilə seçilən mərkəzlərdən biridir.

Bu şəhərciyin özəlliyi ondan ibarətdir ki, onun tikintisində özəl sektor fəal iştirak edib, əslində bunun təşəbbüskarı, icraçısı olubdur. Son vaxtlar sahibkarlar bir çox sosial layihələr icra edirlər. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikrimi bildirmişəm – sahibkarların sosial məsuliyyəti artmalıdır. Sahibkarlara Azərbaycanda gözəl şərait yaradılıb. Azərbaycan sahibkarlıq üçün çox gözəl ölkədir. Gözəl investisiya iqlimi yaradılır. Sabitlik, əmin-amanlıq hökm sürür. Biznesin inkişafı bizim dövlət siyasətimizdir. Bizim ümumi daxili məhsulumuzun 80 faizi özəl sektorda formalaşır. Belə olan halda, mən sahibkarlara müraciət edərək tövsiyə etmişdim ki, onlar sosial layihələrə daha böyük diqqət göstərsinlər. Bu sahədə görülən işlər sırasında ən genişmiqyaslı layihə budur. Bu günə qədər sahibkarlar məktəb, uşaq bağçası tikintisi ilə fəal məşğul olmuşlar. Ancaq məcburi köçkünlər üçün bu ölçüdə, bu miqyasda yaşayış mərkəzinin yaradılması ilk dəfə baş verir.

Bu yaşayış kompleksinin maliyyələşməsində də sahibkarlar iştirak ediblər. Dövlət bu kompleksin yaradılmasına vəsait ayırmayıb. Buna görə bu işi görən «Paşa Holding» şirkətinə öz təşəkkürümü bildirmək istəyirəm. «Paşa Holding» Azərbaycanda böyük quruculuq işləri ilə məşğuldur, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə böyük investisiyalar qoyur, minlərlə iş yerinin yaradılmasına çalışıb və nail olubdur. Bu gün bu şirkətin sosial məsuliyyəti göz qabağındadır.

Hesab edirəm ki, bu gözəl təşəbbüs digər böyük şirkətlər üçün də nümunə olmalıdır. Əminəm ki, növbəti illərdə məcburi köçkünlər üçün tikiləcək yeni yaşayış şəhərciklərində, mərkəzlərində özəl sektor da fəal iştirak edəcək. Ancaq təbii ki, əsas məsələni, əsas işləri dövlət öz üzərinə götürüb. Son illərdə dövlət xətti ilə köçkünlər üçün 100-ə yaxın şəhərcik salınıbdır, istifadəyə verilibdir. Mən onların bir çoxunun açılışında şəxsən iştirak etmişəm.

Biz hər il minlərlə köçkünü evlərlə təmin edirik. Bu il 20 min köçkün yeni mənzillərlə, evlərlə təmin ediləcək. Bu yaşayış kompleksində 1026 mənzil vardır. Burada 1026 ailə yaşayacaq və yaxşı şəraitdə yaşayacaqdır.

Məcburi köçkünlərin problemlərinin həlli və yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üzrə Dövlət Proqramı uğurla icra edilir. Bu məqsədlərə dövlət milyardlarla manat vəsait ayırıb. Hər il minlərlə ailə evlərlə təmin olunur. Bu ilin sonuna qədər, ümumiyyətlə, son illər ərzində görülmüş işlər nəticəsində 285 min köçkün artıq evlərlə təmin olunacaq. Bu il onlardan təqribən 20 mini yeni evlərə köçəcəkdir.

Dövlət bu istiqamətdə öz siyasətini davam etdirir. Qeyd etdiyim kimi, özəl sektor da bu işlərə qoşulub. Bu da təbiidir. İmkanı olan şirkətlər ehtiyac içində yaşayanlar üçün gərək şərait yaratsınlar. Bu gözəl təşəbbüs əminəm ki, Azərbaycanda geniş vüsət alacaq. Dövlət isə öz tərəfindən bundan sonra da məcburi köçkünlərin problemlərinin həlli üçün çalışacaq. Həm bu il, həm gələn il sosial layihələr icra ediləcək. Biz, qeyd etdiyim kimi, bu işlərdə böyük uğurlara nail ola bilmişik. Salınan şəhərciklər arasında Cocuq Mərcanlı qəsəbəsinin bərpasını mən xüsusilə qeyd etmək istərdim. Keçən il o qəsəbənin yenidən qurulmasının açılışında iştirak etmişəm. Orada hazırda 150 ev, məktəb, uşaq bağçası, məscid tikilib. Ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz Cocuq Mərcanlıda inşa etdik.

Cocuq Mərcanlı kəndinin bərpası Azərbaycan xalqının əyilməz ruhunun göstəricisidir. Bu bir daha göstərir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Bu, bir daha onu göstərir ki, bütün məcburi köçkünlər bir arzu ilə – öz doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşayırlar. Əminəm ki, biz buna nail olacağıq. Cocuq Mərcanlı kəndinin yenidən qurulması aprel döyüşlərinin nəticəsindən, bizim parlaq qələbəmizdən sonra mümkün olmuşdur. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının ərazilərinin bir hissəsi işğalçılardan təmizlənəndən sonra bu qəsəbənin bərpası mümkün olmuşdur. Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi. Azərbaycan xalqı bir daha göstərdi ki, heç vaxt işğalla barışmayacaq və nəyin bahasına olursa olsun öz doğma torpaqlarına qayıdacaq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəkdir. Bir daha demək istəyirəm ki, biz bu qəsəbənin timsalında köçkünlərin arzularını, niyyətlərini görürük. Cocuq Mərcanlıdan olan vətəndaşlar, uzun illər müxtəlif yerlərdə yaşamış insanlar imkan olan kimi dərhal öz kəndinə gəlməyə üstünlük verirlər. İndi orada həyat canlanır, şərait yaradılır, həm yaşamaq üçün, həm işləmək üçün bütün infrastruktur yaradılıbdır.

Bu bir daha onu göstərir ki, biz bu gün dağılmış vəziyyətdə olan bütün şəhərlərimizi işğaldan azad edəndən sonra tezliklə bərpa edəcəyik. İşğal altında olan bütün ərazilərimizdəki tarixi abidələrimiz, məscidlərimiz, muzeylərimiz mənfur qonşular tərəfindən dağıdılıb, talan edilibdir. Bütün şəhərlərimiz dağıdılıb. Bu, misli görünməmiş vəhşilikdir. Dağıdılmış bu binaların, evlərin, məscidlərin görüntüləri erməni vəhşiliyinin yırtıcı xislətini göstərir. Ancaq biz torpaqlarımıza qayıdacağıq. Buna heç kimdə şübhə yoxdur, necə ki, Cocuq Mərcanlıya, Şıxarx qəsəbəsinə qayıtdıq. Şıxarx qəsəbəsinin, işğaldan azad edilmiş torpaqlarda yerləşən bu böyük qəsəbənin salınması bir daha göstərdi ki, biz torpaqlarımızı işğalçılardan azad edəndən sonra o torpaqlara dərhal yeni həyat gəlir. Əminəm ki, Azərbaycan dövlətinin gücü, Azərbaycan xalqının iradəsi nəticəsində işğaldan sonra bütün şəhərlərimizi bərpa edəcəyik və

o şəhərlərdə insanlar yaşayacaq, quracaq, ölkəmizin inkişafını təmin edəcəklər.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ən böyük ədalətsizlikdir. Bu işğal nəticəsində bizim vətəndaşlarımız məcburi köçkün həyatı yaşayırlar. Bütün beynəlxalq hüquq normalarını pozan Ermənistan vəhşilik törədib. Erməni faşizminin yırtıcı sifəti bu münaqişənin nəticələrində özünü büruzə verib. Ancaq Azərbaycan xalqı tam əmindir ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik, bunu etməliyik. Həm beynəlxalq hüquq, həm də haqq-ədalət bizim tərəfimizdədir. Tarixi həqiqət bizim tərəfimizdədir və güc bizim tərəfimizdədir. Bu gün dünya miqyasında güc amili ön plana çıxır və güclü ölkələr öz istəyinə nail ola bilirlər. Azərbaycan da güclü ölkədir. Güclü ordumuz, güclü iqtisadiyyatımız və düşünülmüş siyasətimiz vardır.

Bu yaşayış kompleksi sizin üçün müvəqqəti yaşayış yeridir. Lakin biz istəyirik ki, müvəqqəti də olsa, şərait yaxşı olsun. Ancaq biz işğaldan sonra belə gözəl şəhərcikləri bu gün işğal altında olan torpaqlarda mütləq yaradacağıq.

Sizi bu gözəl hadisə münasibətilə bir daha təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram.

* * *

**V ə s i l ə  X ə l i l o v a** *(Şuşalı məcburi köçkün)*: Möhtərəm cənab Prezident! Hörmətli Birinci vitse-prezident! Bu gün bütün məcburi köçkünlər adından Sizin qarşınızda çıxış etməkdən sonsuz qürur hissi keçirirəm.

Hörmətli cənab Prezident, icazə verin, əvvəlcə Sizi yenidən Prezident seçilməyiniz münasibətilə bütün məcburi köçkünlər adından bir daha səmimi-qəlbdən təbrik edim. Bu, Azərbaycan xalqının qələbəsi idi. Aprelin 11-də keçirilən seçkilər xalqın Sizə olan böyük inamını, sevgisini, yüksək etimadını bir daha sübut etdi. Sizin mükəmməl inkişaf konsepsiyanız nəticəsində Azərbaycan sürətlə inkişaf edərək, regionda lider dövlətə çevrilibdir.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan məcburi köçkünlərə dövlət qayğısı bu gün onun siyasi kursunun layiqli davamçısı olan Sizin tərəfinizdən uğurla həyata keçirilir.

2003-cü ildə Siz Prezident seçkiləri ərəfəsində ilk görüşünüzü də məhz məcburi köçkünlərlə keçirdiniz. Biləsuvar rayonu ərazisində onlar üçün salınmış yeni qəsəbənin açılışında Siz ölkədə bir dənə də olsun çadır şəhərciyinin qalmayacağını bəyan etdiniz və buna da nail oldunuz. Çadır şəhərcikləri artıq tarixə dönüb. Dünyanın heç bir yerində məcburi köçkünlər üçün bu qədər yeni mənzillər tikilib istifadəyə verilməyibdir.

2016-cı ilin aprelində Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyat zamanı torpaqlarımızın bir hissəsinin, o cümlədən Cocuq Mərcanlı kəndinin işğaldan azad edilməsi xalqımızda böyük ruh yüksəkliyi yaratdı. Sizin tapşırığınıza əsasən Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscidin tikilməsi biz şuşalıların qəlbində ümid çırağını bir daha alovlandırdı.

Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyətində qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həllinə qayğı göstərdiyi xüsusi yer tutur. Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri kimi fəaliyyət göstərdiyi bu illər ərzində Mehriban xanım mərhəmət, nəciblik, xeyirxahlıq kimi dəyərləri özündə birləşdirərək, cəmiyyətin həssas təbəqələrindən sayılan məcburi köçkünlərin sosial problemlərinin aradan qaldırılması üçün bir sıra mühüm layihələrin müəllifi olubdur. Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanımın, Fondun vitse-prezidenti Leyla Əliyevanın zəhməti danılmazdır.

Hörmətli Birinci vitse-prezident! Ötən ilin mayında – müqəddəs Ramazan ayında Siz bu yaşayış kompleksinin təməlini qoydunuz. O vaxt yalnız maketini gördüyümüz bu yaşayış kompleksi gözlənildiyindən də yüksək səviyyədə vaxtından əvvəl tikilib istifadəyə verildi. Artıq bu gün minlərlə məcburi köçkün burada doğma ev-eşiyinə qayıdanadək yeni və rahat mənzillərlə təmin

olunacaq. Bu illər ərzində Sizin bizə göstərdiyiniz böyük diqqət və qayğı Vətən həsrəti ilə yanan qəlbimizdə bir təsəlli olmuş, gələcəyə nikbin baxmaq üçün bizə qol-qanad vermişdir.

Hörmətli cənab Prezident, biz inanırıq ki, düşmən əsarətində olan torpaqlarımız Sizin uğurlu daxili və xarici siyasətiniz nəticəsində tezliklə işğaldan azad olunacaq, məcburi köçkün adı xalqımız üçün tarixə çevriləcək və Sizin bəyan etdiyiniz kimi, Azərbaycanın üçrəngli bayrağı Xankəndidə, Şuşada, işğaldan azad olunmuş digər torpaqlarımızda dalğalanacaqdır.

Mənim bir müqəddəs arzum da var, cənab Prezident. O gün olsun ki, Siz və Mehriban xanım doğma Qarabağımızda, gözəl Şuşamızda evlərimizin ən əziz qonağı olasınız. Uca Yaradan Sizi qorusun.

**M ö h ü b b ə t H ə s ə n o v** *(Laçın rayonundan məcburi köçkün)*: Möhtərəm cənab Prezident! İcazə verin, ilk növbədə, Sizi və Mehriban xanımı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edək. Bu əziz gündə məcburi köçkün ailələrinə, onların övladlarına bu yaşayış kompleksini təqdim etdiyinizə görə məcburi köçkünlər adından Sizə dərin təşəkkürümüzü bildiririk. Çox sağ olun, Sizə minnətdarıq.

## QARADAĞ RAYONUNDA ƏSASLI TƏMİRDƏN SONRA LÖKBATAN–QOBU AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*24 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Qaradağ rayonunda yenidən qurulan Lökbatan–Qobu avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlət başçısına layihənin texniki göstəriciləri barədə məlumat verildi.*

*Qeyd edək ki, 47 min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən, yük və sərnişin daşımasının yaxşılaşdırılmasına xidmət edən Lökbatan–Qobu avtomobil yolunun tikintisi üçün 2016-cı ilin iyul ayında Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən 2 milyon manat vəsait ayrılıb. Layihənin icrası yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib. Lökbatan–Qobu avtomobil yolunun uzunluğu 7 kilometrdən çoxdur. Layihəyə əsasən yol əsaslı şəkildə yenidən qurulub. Yolun hərəkət hissəsinin eni 7 metr təşkil edir. Bundan başqa, yolboyu 450 metr uzunluğunda istinad divarları inşa olunub, bütün infrastruktur yaradılıb. Yolun yenidən qurulması Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həyata keçirilib. Eyni zamanda, «Avtomobil Yolları» Məqsədli Büdcə Fondu vəsaiti hesabına Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Qobu–Hökməli avtomobil yolunun 11,5 kilometrlik hissəsinin yenidən qurulması da başa çatdırılıb. Yolun eni 11 metrə yaxındır. Bundan başqa, bu ərazidə məcburi köçkünlər üçün yeni tikilən «Qobu Park» yaşayış kompleksinə gedən 700 metr uzunluğunda avtomobil*

*yolunun tikintisi işləri də yekunlaşıb. Bununla da Qobu qəsəbəsində məcburi köçkünlər üçün yeni salınan şəhərcikdən yola birbaşa çıxış təmin olunubdur.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial yönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Son 15 ildə bu sahədə çox mühüm uğurlar əldə olunub və bu istiqamətdə layihələrin icrası davam etməkdədir. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır.*

**EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MULATU TEŞOMEYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 may 2018-ci il*

## ADA UNİVERSİTETİNDƏ KEÇİRİLƏN MƏZUN GÜNÜNDƏ İŞTİRAK

*26 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva mayın 26-da ADA Universitetində keçirilən məzun günündə iştirak etmişlər.*

*ADA Universitetinin rektoru, Xarici İşlər nazirinin müavini Hafiz Paşayev dövlət başçısına bu təhsil ocağının fəaliyyətinin genişləndirilməsi layihəsi ilə bağlı məlumat verdi.*

*Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən ingilisdilli dövlət ali təhsil müəssisəsi olan ADA Universiteti müasir təhsil standartlarını əsas tutaraq, qabaqcıl dünya təcrübəsini tətbiq edir, innovativ və qlobal dünyagörüşünə malik kadrlar hazırlayır.*

*ADA Universitetinin prorektoru Fariz İsmayılzadə daha bir tədris ilinin uğurla başa çatdığını qeyd edərək bildirdi ki, bu gün universitetin məzunlarının nailiyyətləri, vətənpərvərlik ruhu təntənə ilə qeyd edilir.*

*Məzun günü təhsil müəssisəsinin professor-müəllim heyətinin səhnəyə çıxması ilə başlandı.*

*ADA Universitetində tələbə, müəllim və işçi heyətini 46 müxtəlif ölkədən olan insanların təşkil etməsi burada beynəlmiləl mühitin yaradılmasına böyük töhfə verir. Tələbələr bu təhsil ocağında müasir tələbə şəhərciyi mühitindən, fəal və maraqlı tələbə həyatından, yüksək akademik göstəricilərlə oxuyan tələbələrə təhsil haqqında güzəştlərdən və dünyanın 60 aparıcı universiteti ilə təhsil mübadiləsi imkanlarından yararlanırlar.*

*Sonra universitetdə təhsil alan əcnəbi tələbələr öz Dövlət bayraqlarını gətirdilər.*

*Burada 41 ölkədən 2200 tələbə təhsil alır ki, onlardan da 85 faizi bakalavr, 15 faizi isə magistr pilləsindədir. Təhsil müəssisəsində ictimai və beynəlxalq münasibətlər, biznes, informasiya texnologiyaları və mühəndislik fakültələri fəaliyyət göstərir. ADA-da tələbələr bakalavr pilləsi üzrə beynəlxalq münasibətlər, dövlət və ictimai münasibətlər, hüquqşünaslıq, biznesin idarə edilməsi, iqtisadiyyat, kompüter mühəndisliyi, kompüter elmləri, informasiya texnologiyaları, magistr pilləsi üzrə isə diplomatiya və beynəlxalq münasibətlər, dövlət idarəetməsi, biznesin idarə olunması, MBA, təhsil menecmenti ixtisasları üzrə təhsil alırlar.*

*Daha sonra Fəxri qarovul dəstəsi Azərbaycanın Dövlət bayrağını gətirdi.*

*Dövlət himni səsləndirildi.*

*Azərbaycan Prezidenti İlham Əliyev məzun günündə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, bu gün ADA Universitetində məzun günüdür. Bu münasibətlə bütün məzunları ürəkdən təbrik edirəm, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

Məzunlar üçün yeni dövr başlayır. Mən əminəm ki, universitetdə aldıqları biliklər onlara həyatda layiqli yer tutmaq üçün kömək edəcəkdir. ADA Universiteti Azərbaycanın aparıcı ali məktəblərindən biridir. Bu universitetdə təhsilin səviyyəsi çox yüksəkdir. Universitet həm ölkəmizdə, həm xaricdə böyük nüfuz qazanıb və bu gün burada səsləndirildi ki, universitetdə 41 ölkədən tələbələr oxuyur. Bu özlüyündə bir göstəricidir və ADA Universitetinin qısa müddət ərzində çox yüksək nüfuz qazanaraq, ölkəmizin aparıcı ali məktəblərindən birinə çevrilməsini göstərir.

ADA-da təhsil alan tələbələr əminəm ki, gələcəkdə ölkəmizin həyatında fəal rol oynayacaq, ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verəcəklər. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycan tələbələrinin xaricdə təhsil almaları üçün müvafiq proqramlar qəbul edildi, vəsait ayrıldı və bizim gənclərimiz dünyanın aparıcı ali məktəblərinə ezam olundular. Bu proqramların çox böyük faydası oldu, minlərlə Azərbaycan gənci xaricdə yüksək təhsil alaraq, Vətənə qayıdıblar və bu gün ölkəmizin inkişafında fəal rol oynayırlar. Əsas vəzifəmiz ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsilin səviyyəsi artsın və beynəlxalq standartlara cavab versin. ADA Universitetinin yaradılması bu məqsədi güdürdü. Bu gün tam əminliklə demək olar ki, burada tələbələrə verilən biliklər, təhsil ən yüksək standartlara uyğundur. Mən ADA-nın bütün professor-müəllim heyətinə, universitetin rəhbərliyinə gördükləri işlərə görə minnətdarlığımı bildirmək və onlara gələcək fəaliyyətlərində yeni uğurlar arzulamaq istəyirəm.

Təhsil hər bir dövlətin gələcəyidir. Bu sözlər dəfələrlə müxtəlif kürsülərdən səsləndirilib. Yəqin ona görə ki, bu həqiqətdir, bu doğrudan da belədir. Əgər biz inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır. Təbii resurslar yox, məhz biliklərdir. Ona görə biz də çalışırıq və bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da qalxsın. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab versin. Əgər biz buna nail ola bilsək – mən inanıram ki, buna nail olacağıq – onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir. Bizim gənclərimiz bilikli, peşəkar və vətənpərvər olmalıdırlar. Bax, bu amillərin sintezi bizim ölkəmizin gələcək uğurlu inkişafını şərtləndirəcəkdir. Mən əminəm ki, bizim gənclərimiz məhz bu istiqamətdə öz fəaliyyətlərini davam etdirəcəklər. Mən bilirəm ki, bizim gənclərimizin mütləq əksəriyyəti dediyim meyarlara tam uyğundur.

Ölkəmizdə savadlılığın səviyyəsi təxminən 100 faizə yaxındır. Təhsillə bağlı olan islahatlar, yeniliklər öz nəticəsini verəcək və verir. Buna müəyyən vaxt, zaman lazımdır. Ancaq biz düzgün yoldayıq və əminəm ki, ölkəmizin uğurlu inkişafını güclü kadr potensialı təmin edəcək. Əsas məqsəd bundan ibarətdir və biz ADA-nın timsalında, digər aparıcı ali məktəblərimizin timsalında bunu görürük. Azərbaycanda təhsil ölkəmizin dinamik inkişafı ilə addımlamalıdır. Təhsilə göstərilən diqqət bizim büdcə xərclərimizdə də özünü büruzə verir. Büdcə xərclərimizin əsas hissəsi təhsillə və müdafiə potensialımızla bağlıdır. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq və müdafiə xərcləri, əlbəttə ki, prioritet məsələ olmalıdır. Bu gün Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Ümid edirəm ki, təhsilimizin səviyyəsi də bu hədəfə yaxınlaşacaqdır.

Bildiyiniz kimi, ADA Azərbaycan Diplomatik Akademiyası kimi yaradılmışdır və bu, adında da öz əksini tapır. Əlbəttə, burada sonradan digər fənlər üzrə tədris proqramları tərtib edilib, universitetin maddi-texniki bazası möhkəmləndirilibdir. Bakının bu gözəl guşəsində indi gözəl universitet şəhərciyi yaradılıbdır. Buraya gələrkən mənə yeni korpusların tikintisi ilə bağlı məlumat verildi. Mən çox şadam ki, şəhərimizdə belə müasir təhsil şəhərciyi vardır. Mən ADA-nın gələcək genişləndirmə proqramını da bəyənirəm. Azərbaycan dövləti, əlbəttə, bu məsələlərin həllinə diqqət yetirəcək və lazımi vəsait də ayrılacaq ki, bu işlər davam etdirilsin.

Ancaq nəzərə alsaq ki, ADA Universitetinin əsas məqsədi xarici siyasətlə bağlı kadrlar hazırlamaqdır, mən xarici siyasətimizlə bağlı bir neçə fikrimi bildirmək istəyirəm. Azərbaycanın xarici siyasəti prinsipial və müstəqil siyasətdir. Hesab edirəm ki, buna görə biz beynəlxalq aləmdə böyük nüfuza malikik və bu gün Azərbaycan dünya miqyasında çox etibarlı tərəfdaş, ləyaqətli dövlət kimi tanınır. Bizimlə hesablaşırlar, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır və bütün beynəlxalq arenalarda Azərbaycan öz milli maraqlarını

müdafiə edir. Xarici siyasətimiz daxili siyasətimizin davamıdır və ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına və iqtisadi maraqlarımızın təmin edilməsi istiqamətinə hesablanan siyasətdir.

Müstəqil siyasət aparmaq, xüsusilə bizim bölgəmizdə və indiki şəraitdə o qədər də asan məsələ deyil. Ancaq bizim mövqemiz həmişə ondan ibarət olub ki, biz müstəqil siyasətimizlə xalqımızın maraqlarını təmin etməliyik. Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür. Məhz buna görə hesab edirəm ki, biz böyük hörmətə nail ola bilmişik və bunun əyani təzahürü BMT Təhlükəsizlik Şurasına seçilməyimizdir. 155 ölkə Azərbaycana etimad göstərərək, bizi dünyanın ən mötəbər qurumu olan Təhlükəsizlik Şurasına üzv seçmişdir. Bu bizim beynəlxalq nüfuzumuzun bariz nümunəsidir. O gündən artıq bir neçə il keçibdir. Mən tam əminəm ki, bu gün Azərbaycan beynəlxalq müstəvidə daha da möhkəm dayaqlara və hörmətə layiq ölkədir.

Xarici siyasətimizin əsas məsələsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Biz prinsipial mövqemizdən bir addım belə, geri dönmürük və dönməyəcəyik. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, bizim tarixi torpağımızdır. Beynəlxalq hüquq normaları da bu ərazini Azərbaycanın ayrılmaz hissəsi kimi təsdiqləyir və bu məsələ ilə bağlı mötəbər beynəlxalq təşkilatların bir çox qərar və qətnamələri vardır. Onların arasında BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və digər mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri bizim mövqemizi daha da gücləndirir və münaqişənin həlli üçün hüquqi əsaslar yaradır. Son vaxtlar «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ECO və digər təşkilatlar tərəfindən məsələ ilə bağlı qərarlar qəbul edilib. Bu məsələ ancaq və ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyü

qeyd-şərtsiz bərpa edilməlidir, BMT Təhlükəsizlik Şurasının qətnamələri qeyd-şərtsiz və dərhal icra olunmalıdır.

Biz bu məsələ ilə bağlı bundan sonra da prinsipial siyasət aparacağıq. Ancaq bunu da yaxşı bilirik ki, bugünkü dünyada beynəlxalq hüquq heç də hər zaman işləmir. Son vaxtlar, ümumiyyətlə, işləmir. Bu reallıqdır. Biz real dünyada yaşayırıq və əlbəttə ki, öz siyasətimizi dünyada mövcud olan real vəziyyətə uyğunlaşdırmalıyıq. Bundan sonra da həm iqtisadi sahədə, həm ordu quruculuğu sahəsində, həm də digər sahələrdə öz gücümüzü artıraraq, münaqişənin həllini yaxınlaşdırmalıyıq.

Bu gün dünyada güc amili ön plana çıxır. Biz bunu, demək olar ki, hər gün görürük. Əlbəttə, biz bu istiqamətdə də öz addımlarımızı atmışıq və atacağıq. Son illər ərzində ordu quruculuğuna göstərdiyimiz diqqət və ayırdığımız vəsait bu yolu davam etdirəcəyimizin təzahürüdür.

Azərbaycan regional əməkdaşlıq formatında çox fəal çalışır. Biz regional əməkdaşlıq formatlarının yaradılmasına çalışmışıq və demək olar ki, buna nail ola bilmişik. Bizim təşəbbüsümüzlə hazırda bölgədə 4 üçtərəfli və dördtərəfli regional əməkdaşlıq formatları mövcuddur. Biz bu əməkdaşlıq formatlarının təşəbbüskarı olmuşuq. Onların çox praktiki mənası vardır. Bu əməkdaşlıq bu formatlarda iştirak edən bütün ölkələr üçün faydalıdır. Biz bu işi davam etdirəcəyik. Biz bu bölgədə yaşayırıq və bölgədə sülhün, sabitliyin təmin edilməsi beynəlxalq əməkdaşlıqdan asılıdır. İşğalçı Ermənistandan başqa, bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Əksinə, bizim bütün ölkələrlə əlaqələrimiz inkişaf edir. Bu əlaqələr bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq əsasında formalaşan əlaqələrdir. Biz heç vaxt heç bir ölkənin daxili işinə qarışmamışıq və qarışmırıq. Eyni yanaşmanı bütün ölkələrdən gözləyirik və bunu təmin edirik. Regional çərçivədə əməkdaşlıq, əlbəttə ki, ikitərəfli əlaqələrin üzərində qurulubdur. Biz bu ikitərəfli əlaqələri çoxtərəfli əlaqələrə çevirə bilmişik.

Bu gün bizim təşəbbüsümüzlə həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələrinin uğurla icra edilməsi, o cümlədən regional vəziyyətdən də asılıdır. Biz bu vəziyyəti müsbətə doğru özümüz dəyişdiririk. Bizim xarici siyasət konsepsiyamızda qarşılıqlı faydalı əməkdaşlıq xüsusi yer tutur. Biz hesab edirik ki, qonşu, dost ölkələr bir-birinə dəstək olmalı, bir-birinin problemlərini qəbul etməli və birgə səylərlə problemlərin həlli işində çalışmalıdırlar.

Biz çox uğurlu enerji diplomatiyası aparırıq. Bizim nəhəng enerji layihələrimiz yüksək dərəcədə diplomatik səylər nəticəsində mümkün olub. Əlbəttə ki, burada bir neçə amil öz rolunu oynayır – həm iqtisadi baxımdan Azərbaycanda mövcud olan gözəl investisiya iqlimi, sabitlik, əmin-amanlıq, beynəlxalq əməkdaşlıq və həm də bizim diplomatik səylərimiz. Çünki biz enerji layihələrimizi ancaq qonşu və dost ölkələrlə birlikdə icra edə bilərik. Bizim açıq dənizə çıxışımız yoxdur. Ona görə istənilən enerji layihəsi beynəlxalq əməkdaşlıq tələb edir. Bu səbəbdən enerji diplomatiyamız da çox uğurludur və bu gün bunu bütün dünya etiraf edir. Biz nəinki regionun, eləcə də Avrasiyanın enerji xəritəsini yenidən tərtib etmişik. Bir neçə gündən sonra rəsmi açılışı olacaq «Cənub Qaz Dəhlizi» bizim tarixi nailiyyətimiz, tarixi qələbəmizdir.

Biz nəqliyyat diplomatiyasını uğurla icra edirik. Demək olar ki, enerji dəhlizlərinin marşrutu ilə inkişaf edən nəqliyyat marşrutları, o cümlədən çox ciddi diplomatik səylər nəticəsində mümkün olub. Biz Avrasiyanın nəqliyyat xəritəsini də yenidən tərtib etmişik və bu işlərdə uğurlar qazanmışıq. Deyə bilərəm ki, enerji, nəqliyyat diplomatiyası ilə bağlı bizim bütün təşəbbüslərimiz, bütün addımlarımız uğurlu olub və bu həm bizə, həm də bizimlə bərabər işləyən ölkələrə böyük dividendlər gətirir və bizi bundan sonra da böyük mənfəət gözləyir. Bu gün icra edilən layihələr ölkəmizin qüdrətini, dayanıqlı inkişafını təmin edəcək. Əlbəttə, bu layihələrin icrasında diplomatik səylər böyük rol oynayır.

Biz təbii resurslarımızdan səmərəli şəkildə istifadə edərək, ölkəmizi inkişaf etdirdik, gücləndirdik. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir. Azərbaycanda böyük quruculuq işləri aparılır. Mən bilirəm ki, ADA Universitetində biznes fənlərə, iqtisadi fənlərə böyük diqqət göstərilir. Hesab edirəm ki, biz bu sahədə də böyük nailiyyətlərə imza atmışıq. Bu gün Azərbaycan iqtisadiyyatı tam daxili resurslar üzərində qurulmuş, heç bir xarici maliyyə institutundan, yaxud da ki, xarici ölkədən asılı olmayan iqtisadiyyatdır. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə böyükdür. Biz istənilən vaxtda bütün borcları ödəyə bilərik.

Biz gözəl sərmayə iqlimi yaradaraq, ölkəmizə son 15 il ərzində 230 milyard dollar sərmayə cəlb edə bilmişik. Yoxsulluqla, işsizliklə bağlı atılan addımlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Biz gənc müstəqil dövlətik. Ancaq rəqabətqabliyyətliliyinə görə dünya miqyasında 35-ci yerdəyik. Biz dünya miqyasında inklüziv inkişaf indeksinə görə inkişafda olan ölkələr arasında 3-cü yerdəyik. Yəni bütün bu rəqəmlər dediyim sözlərin əyani təsdiqidir.

Əminəm ki, bu gün ölkə qarşısında duran vəzifələr uğurla icra ediləcək. Çünki bizim güclü iqtisadi potensialımız, çox müsbət beynəlxalq nüfuzumuz, dinamik cəmiyyətimiz, fəal gənclərimiz, bilikli vətəndaşlarımız və güclü siyasi iradəmiz vardır. Əsas vəzifə ondan ibarətdir ki, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin edilsin. Bu isə, bax, bu gün burada əyləşən və bizim başqa ali məktəblərdə eyni tədbiri keçirən gənclərdən asılıdır. Bir daha demək istəyirəm ki, gənclər bizim gələcəyimizdir. Gələcəkdə ölkəmizin taleyi, müstəqilliyi, xoşbəxtliyi gənclərdən asılı olacaqdır. Ona görə gənclər daim Vətən sevgisi ilə yaşamalıdırlar, peşəkar, bilikli, Vətənə bağlı olmalıdırlar. Əminəm ki, bizim gənclərimiz bu yüksək meyarlara daim cavab verəcəklər.

Əziz gənclər, mən bir daha sizi məzun günü münasibətilə təbrik etmək istəyirəm. Demək istəyirəm ki, sizin qarşınızda bütün imkanlar mövcuddur. Siz gözəl, qüdrətli ölkədə yaşayırsınız, gözəl təhsil almısınız, xarici dilləri bilirsiniz. Əminəm ki, siz tam yetişmiş peşəkarlar kimi, istənilən sahədə işləyə bilərsiniz. Mən arzu edirəm ki, siz bu gözəl şansı əldən verməyəsiniz, həyatda layiqli yer tutasınız və ölkəmizin inkişafına öz dəyərli töhfənizi verəsiniz. Bir daha təbrik edirəm və uğurlar arzulayıram. Sağ olun.

* * *

*Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təhsil ocağında builki məzun gününün mövzusu «100 ilin təfəkkürü, maarifi və dəyərləri»dir.*

*Tədbirdə ADA məzunlarına həsr olunmuş videoçarx nümayiş olundu.*

*Sonra universitetin məzunu, Biznes fakültəsinin iqtisadiyyat üzrə bakalavrı Azər Əliyev çıxış etdi. O bu tədbirdə bütün məzunlar adından çıxış etməkdən şərəf hissi keçirdiyini bildirdi.*

**A z ə r Ə l i y e v:** ADA Universitetində keçirdiyim tələbəlik illəri çox maraqlı, sevincli və həyəcanlı olubdur.

Mən 4 il əvvəl həyatımın ən önəmli qərarını verməklə, təhsil almaq üçün ADA Universitetini seçdim. Həyatımızın bu çətin mərhələsində bizə dəstək olan insanlara hamımız minnətdar olmalıyıq. Burada çıxış etməyimin əsas səbəblərindən biri də odur ki, universitetimizin professor-müəllim heyətinə minnətdarlıq edim. Əziz müəllimlər, mən məzunlar adından sizə bizə göstərdiyiniz səylərə görə minnətdarlığımı bildirirəm. Sizin bilik və təşəbbüsləriniz sayəsində mənim və bir çoxlarının öz ixtisaslarına olan maraqları artıbdır.

Tələbəlik illəri, təhsil-tədris və imtahan proseslərindən xoş təəssüratlarla ayrılıram. ADA-da vətənpərvər, bilikli və peşəkar kadr kimi yetişmək üçün hərtərəfli şərait vardır. Sonda bildirmək istəyirəm ki, ADA Universiteti həyatımızın ən yüksək

zirvəsinə çatmaq üçün bizə möhkəm əsas verib. Sabahın liderlərinə çevrilmək üçün bizim böyük potensialımız vardır. Bizdə məsuliyyətli vətəndaş olmaq üçün güclü bir hiss də formalaşıbdır.

**V ə f a K a z d a l** *(ADA-nın tədris işləri üzrə prorektoru):* Cənab Prezident, bu gün bizimlə ən sevincli günümüzü bölüşməyiniz əslində bir daha onun sübutudur ki, Siz daim bizə öz dəstəyinizi, qayğınızı və etimadınızı göstərmisiniz. ADA Universiteti məhz bu dəstəyə və bu qayğıya arxalanaraq, təhsil sahəsində bir neçə mühüm islahatlara imza atıb və imza atmaqda davam edəcəkdir. Mən hər birimizin adından bizə göstərilən bu etimada, qayğıya və dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

*Vəfa Kazdal ADA Universitetinin və tələbələrin uğurlarından söhbət açdı, ADA-da təhsil aldıqları vaxtda tələbələrin fikirlərini bölüşərək bildirdi:*

– ADA tələbələri, bizim uğurumuz sizsiniz, sizə inamımız sonsuzdur. Biz çox sevinirik ki, siz ADA Universitetinin əsas missiyasını anlayır, ona dəyər verirsiniz. Mən hətta deyərdim ki, siz onu artıq təmsil etməyə başlamısınız.

Universitetimizin müəllim və tələbələrini bütöv edən məhz ADA-nın missiyası və dəyərləridir. Çünki bütün bunları tələbələrə öz nümunələrində aşılayan bizim müəllimlərimizdir. ADA Universitetinin çox gözəl bir ənənəsi vardır. Hər il may ayının əvvəlində bizdə sosial məsuliyyət və vətəndaşlıq günü keçirilir. Burada tələbələr özləri sosial məsuliyyət layihələri hazırlayır və həyata keçirirlər. Sosial məsuliyyət günündə o layihələrdən 3 ən əhəmiyyətlisi qalib elan olunur və mükafatlandırılır. Bu il çox maraqlı bir istiqamət var idi. Tələbələrin təqdim etdikləri layihələrin əksəriyyəti onların universitetdə öyrəndiklərini orta məktəblərdə bölüşməklə bağlı idi.

ADA-nın missiyası beynəlxalq səviyyəli universitet olmaqla, milli ruhlu, savadlı və səriştəli, bəşəri vətəndaşlar yetişdirməkdir. Akademik mükəmməllik, cavabdehlik, şərəf,

şəffaflıq, müxtəliflik, əməkdaşlıq, ünsiyyət və sosial məsuliyyət ADA Universitetinin missiyasının müəyyən olunmuş çox mühüm dəyərləridir. Ümumilikdə bu fəlsəfə və dəyərlərimiz irsimizin, milli mənlik şüurumuzun və müasirliyimizin vəhdətini özündə əks etdirir. Bizim tələbələrimiz ADA-nın missiya və dəyərlərini, həmçinin pedaqoji fəlsəfəsini orta məktəblərdə yayırdılar. Bu ilk növbədə, bizim alim və müəllimlərimizin öz işlərinə vəzifə kimi deyil, bir sənət kimi yanaşmalarının nəticəsidir. Bu bir pedaqoq kimi, tələbəyə inanaraq, onun təşəbbüs və yaradıcılığını önə çəkərək, həvəsləndirilməsinin nəticəsidir.

ADA-nın alim və müəllimləri Amerika Birləşmiş Ştatları, Almaniya, İngiltərə, Türkiyə, İtaliya kimi ölkələrin qabaqcıl təhsil ocaqlarında bilik və təcrübə əldə ediblər. Lakin onlar təcrübələrini bu gün burada, Azərbaycanda öz gənclərimizlə bölüşürlər. Onların tədqiqat işləri bu gün dünya miqyaslı jurnallarda nəşr olunur. Bizim müəllim və alimlərimiz Sabir, Zərdabi, Mirzə Cəlil kimi maarifpərvər təfəkkürlü və dəyərlərə sadiq tələbələrimizə nümunədirlər.

Müəllim heyətimizin bir hissəsi də əcnəbi professorlardır. Gənclərimizin savadlı, cəmiyyətə faydalı vətəndaş kimi yetişməsində onların da xüsusi rolu vardır. Onlar bizim universitetə xüsusi bir ruh qatırlar. Biz qürurla deyə bilərik ki, bu gün ADA-nın müəllim və alim heyəti ölkəmizdə prioritet olan müasir düşüncəli və bacarıqlı insan kapitalı yetişdirir. Xalqımızın böyük oğlu Heydər Əliyev deyirdi: «Mən dünyada müəllimdən yüksək ad tanımıram». Əziz tələbələrim, mən bilirəm və bir neçə dəfə şahidi də olmuşam ki, siz gözəl keçən dərsi alqışlamısınız. Amma mən istərdim ki, siz son dəfə öz müəllimlərinizi bir daha səmimiqəlbdən alqışlayasınız.

*ADA Universitetinin rektoru, Xarici İşlər nazirinin müavini Hafiz Paşayev məzun günündə dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Bunun hər bir məzunun həyatında unudulmaz xatirə kimi qalacağına əminliyi-*

*ni ifadə etdi. Dövlət başçısının 2012-ci ildə ilk dəfə ADA-ya gəldiyini, burada yeni kampusun açılışında iştirak etdiyini, təhsil ocağının fəaliyyət istiqamətlərinin genişləndirilməsi ilə bağlı tövsiyələr verdiyini xatırlatdı.*

**H a f i z  P a ş a y e v:** Həmin gün Prezidentimiz cəmi bir ixtisas üzrə 14 məzunu təbrik etmişdir. Bu gün isə o, təbrik sözlərini 11 ixtisas üzrə təhsilini bitirən 530 məzuna ünvanladı. O zamanla müqayisədə tələbələrimizin sayını 115-dən 2200-ə çatdırmışıq. Bunların arasında 380 tələbə qaçqın və məcburi köçkün ailələrindəndir, 500 tələbəmiz isə Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş gənclərdir. Biz əsl beynəlmiləl ali məktəb yarada bilmişik – dünyanın 41 ölkəsinin nümayəndəsi burada təhsil alır. Mübadilə proqramı ilə tələbələrimiz ADA-nın 60-dan çox xarici tərəfdaş universitetlərinə gedə bilirlər. Biz fəxr edirik ki, dövlət başçısının etimadını doğrultmaqdayıq.

ADA Universitetinin tələbə və məzunlarının məşğulluq göstəricisi 90 faizdən çoxdur. Xüsusilə qeyd etmək istərdim ki, bu gün İnformasiya Texnologiyaları və Mühəndislik fakültəsini bitirən ilk məzunlar «Azərkosmos», «ASAN innovasiyalar» Mərkəzi, «Azercell» və digər dövlət və özəl qurumlarda artıq öz biliklərini tətbiq edirlər. Bu statistikadan kənar qalanlar isə ölkəmizdə və dünyanın mötəbər universitetlərində ali təhsillərini davam etdirəcəklər.

*Rektor Hafiz Paşayev əmin olduğunu bildirdi ki, universitetin məzunları bilik və bacarıqlarını Vətən uğrunda şərəf və ləyaqətlə tətbiq edəcək, Azərbaycanın ərazi bütövlüyü naminə dövlət başçısının apardığı qətiyyətli siyasətə güc qatacaqlar.*

*Təhsil müəssisəsinin infrastrukturunun genişləndiyini, yeni akademik proqramların üzərində işin getdiyini, növbəti tədris ilindən hüquqşünaslıq üzrə bakalavr təhsilinə başlanılacağını deyən Hafiz Paşayev son illərdə universitetdəki elmi mərkəzlərin sayının artdığını, Xəzər Enerji və Ətraf Mühit Mərkəzi ilə yanaşı, Data Təhlilinin Tədqiqat Mərkəzinin, Avropa İttifaqı*

*üzrə Bilik Mərkəzinin, ADA İnnovasiya və Startap mərkəzinin tələbələrə ölkədə strateji sahələri daha yaxından öyrənməyə imkan yaratdığını bildirdi. Bu il universiteti bakalavr pilləsinin 4 ixtisası, magistr pilləsinin isə 1 ixtisası üzrə məzunların bitirdiyini diqqətə çatdırdı. Tədbirin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi ərəfəsində keçirildiyini və «100 ilin təfəkkürü, maarifi və dəyərləri» mövzusuna həsr olunduğunu qeyd edən rektor ötən əsrin əvvəllərində Azərbaycan mütəfəkkirlərinin və maarifçilərinin azad demokratik dövlət qurmaq yolunda səylər göstərdiyini bildirdi, milli kadrların hazırlanması üçün 1919-cu ildə ilk universitetin təsis edildiyini, 100-ə yaxın tələbənin ali təhsil almaq üçün Avropa və Rusiya universitetlərinə göndərildiyini vurğuladı. 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi kimi, təkcə onun rəmzlərini deyil, həm də bu müstəqilliyi daimi edəcək dövlət quruculuğu siyasətini də yürütməyə başladığını deyən Hafiz Paşayev müstəqil ölkəmizin inkişafında ulu öndər Heydər Əliyevin xidmətlərini diqqətə çatdırdı.*

– Azərbaycanın ictimai-siyasi və iqtisadi intibahının memarı Heydər Əliyev elm və təhsilin inkişafı üçün hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə ciddi addımlar atmışdır. O zaman ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış, ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Respublikaya rəhbərlik etdiyi illərdə Heydər Əliyevin himayəsi ilə dünyanın qabaqcıl məktəblərində minlərlə kadr yetişmişdir.

Bu gün Heydər Əliyev siyasətinin davamçısı Prezident İlham Əliyev də təhsilin müasirləşməsinə və inkişafına böyük diqqət yetirir. Onun təşəbbüsü ilə xüsusi Dövlət Proqramı həyata keçirilib. 2007–2015-ci illərdə minlərlə gənc Dövlət Neft Fondu hesabına xaricdə təhsil alıb. Bu proqramın məzunlarından bəziləri ADA Universitetində akademik fəaliyyətə cəlb edilərək, müəllim kimi çalışırlar.

Məhz bu Dövlət Proqramı hesabına ADA Universitetinin Maastrixt Menecment Məktəbi ilə birgə təklif etdiyi Biznesin

İdarə Edilməsi ixtisasında tələbələrimiz hər iki universitetin beynəlxalq akkreditə olunmuş diplomunu almaqdadırlar.

Cənab Prezident, 2006-cı ildə Azərbaycan Diplomatik Akademiyasını yaradarkən, Siz yeni təhsil ocağında təkcə humanitar elmləri deyil, digər istiqamətləri, xüsusilə də dəqiq elmləri inkişaf etdirməyi bizə tapşırmışdınız. Buna cavab olaraq, ilk addım 2013-cü ildə İnformasiya Texnologiyaları və Mühəndislik fakültəsinin yaradılması oldu.

*Universitetin rektoru Hafiz Paşayev onu da qeyd etdi ki, hər bir ali məktəbin müvəffəqiyyəti onun müəllimlərinin təhsil keyfiyyətindən asılıdır. Bu isə «Xaricdə təhsil» Dövlət Proqramını yeni formada bərpa etmək zərurətini ortaya qoyur. Belə ki, istedadlı gənclərin dünyanın ən aparıcı universitetlərində magistr və doktorantura pillələrində təhsil alıb alim və müəllim kimi Vətənə dönmələri ölkə universitetlərinin uğurlu gələcəyini təmin edə bilər.*

*Daha sonra rektor valideynlərə müraciət etdi:*

– Bilirəm ki, tələbələrimizin bugünkü uğurlarının arxasında həm də valideynlərin dəstəyi, yuxusuz gecələri, imtahan nəticələrini övladları ilə birgə gözləmək həyəcanı dururdu. Prezident İlham Əliyev bu gün burada yalnız mötəbər qonaq qismində iştirak etmir. O, Mehriban xanımla birlikdə həm də bir valideyn kimi buradadır. İcazə verin, oğlunuz Heydərin bugünkü akademik zirvəsi münasibətilə Sizi, cənab Prezident, Mehriban xanımı və bütün ailənizi universitetimiz adından təbrik edim.

Valideynlərin sevincinə şərik oluruq. Sizi təbrik edərək, eyni zamanda, sizə təşəkkürümü bildirmək istəyirəm ki, bizə inanıb, övladlarınızı universitetimizə etibar etmisiniz. Əminəm ki, əziz valideynlər, övladlarınız sizin və bizim ümidlərimizi həyat boyunca həmişə doğruldacaqlar. Valideynlərin sevincindən heç də az olmayan sevinc hisslərini müəllimlərimiz də keçirir.

Əziz müəllimlər, günbəgün sinif otaqlarına girib bilik və təcrübənizi tələbələrlə bölüşdüyünüzə, fədakar əməyinizə görə sizə xüsusi təşəkkürümü bildirmək istəyirəm.

Cənab Prezident, ADA Universitetinə yarandığı gündən göstərdiyiniz etimada, Azərbaycanın istedadlı gənclərinə Vətəni tərk etmədən müasir ali təhsil almağa imkan verən məktəb qurmaqda bizə dəstək olduğunuza görə Sizə minnətdarıq. Diqqətinizə görə sağ olun.

İndi isə məzun günümüzün ən həyəcanlı hissəsinə keçirik – diplomların təqdim olunmasına. Bu mərasimi başlamaq üçün mən səhnəyə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi dəvət edirəm.

*Sonra diplomların təqdim edilməsi mərasimi başlandı. Prezident İlham Əliyev məzunların bir qrupuna diplomları təqdim etdi.*

*Qeyd edək ki, bu tədris ilində ADA Universitetində 11 ixtisas üzrə 530 tələbə məzun adını qazanıb. Bu il ilk məzunlarını buraxan ixtisaslar isə bakalavr pilləsi üzrə Dövlət və İctimai Münasibətlər, İqtisadiyyat, İnformasiya Texnologiyaları və Sistem Mühəndisliyi, Kompüter Elmləri, magistr pilləsində isə Təhsil üzrə Menecment fakültələridir.*

*Fəaliyyət göstərdiyi illər ərzində ADA Universiteti yüksək səviyyədə təhsil verməklə yanaşı, tələbələr arasında sıx münasibətlərin qurulması, müəllim–tələbə münasibətləri, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmək baxımından da nümunəvi fəaliyyəti ilə seçilir. Bu təhsil ocağının məzunları yüksəkixtisaslı peşəkarlar kimi yetişməklə yanaşı, çalışdıqları sahələrdə əsl vətənpərvər şəxsiyyət kimi, ölkəmizin ümumi inkişafına təkan verir, Azərbaycanın tərəqqisinin davamlılığını təmin etmək üçün əllərindən gələni edirlər. Universitetin məzunları hökumət və ictimai qurumlarda, biznes və konsaltinq xidmətlərində, maliyyə və bank, neft və qaz, QHT sektorlarında və istehsal sənayesi sahələrində çalışırlar.*

## FRANSA RESPUBLİKASININ AVROPA VƏ XARİCİ İŞLƏR NAZİRİ JAN-İV LÖ DRİAN İLƏ GÖRÜŞ

*27 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Fransa Respublikasının Avropa və Xarici İşlər naziri Jan-İv Lö Drianı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında dostluq əlaqələrinin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, fransız şirkətlərinin ölkəmizdə uzun illər səmərəli fəaliyyət göstərdikləri, Azərbaycanda nəqliyyat, kosmik sənaye, infrastruktur, kənd təsərrüfatı və digər sahələrdə bir çox layihələri uğurla icra etdikləri qeyd olundu. Fransız şirkətlərinin Azərbaycanda fəaliyyətlərindən razılıq hissi keçirdikləri diqqətə çatdırıldı.*

*Söhbət zamanı energetika sahəsində əməkdaşlıq məsələləri də müzakirə edildi. «Cənub Qaz Dəhlizi»nin icrasının önəmi qeyd olundu, SOCAR-la Total S.A. şirkəti arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Humanitar sahədə əməkdaşlıq məsələlərinə də toxunularaq, Bakıda Fransız liseyinin fəaliyyətinin bu sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.*

*Fransanın Avropa və Xarici İşlər naziri Jan-İv Lö Drian Fransız–Azərbaycan Universitetinin yaradılmasına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini diqqətə çatdıraraq qeyd etdi ki, Azərbaycanın mövqeyi*

*münaqişənin beynəlxalq hüquq və norma prinsipləri əsasında ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllindən ibarətdir.*

*Səmimi keçən görüşdə Azərbaycan ilə Fransa arasında gələcək çoxşaxəli əməkdaşlığın müxtəlif aspektləri müzakirə edildi.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*28 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət etmişdir.*

*Abidənin ətrafında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçısı abidənin önünə əklil qoydu.*

*Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

* * *

*Düz 100 il bundan əvvəl – 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən – Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.*

*Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniy-*

*yətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.*

*Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək, irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi, dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.*

*XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.*

*Ulu öndər dəfələrlə bildirmişdir ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi ki, ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu bizim milli bayramımızdır.*

*Ümummilli liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında sərəncam imzalaması, 2018-ci ili ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan etməsi onun milli dövlətçilik tariximizə diqqət və qayğısının göstəricisidir.*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASININ 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ QƏBULDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*28 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişlər.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlət başçısı rəsmi qəbulda nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır.

Bu bir daha göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının

xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılıbdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirilibdir. Bu il isə Azərbaycanda «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan olunub və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək, biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu qısa müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmiş, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır.

Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili – ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsın və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu bizim böyük faciəmizdir.

Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən

inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi mövqeyimiz imkan verirdi ki, bu təbii resurslardan səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilirdi.

Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də həmin tarixdən 70 il sonra Naxçıvan Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırdı. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edildi.

XX əsrdə Azərbaycan 2 dəfə müstəqilliyə qovuşmuşdur, 1918 və 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başladı. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qalıb. Azərbaycan rəhbərliyində olan qüvvələr ötən əsrin 91–93-cü illərində ölkəmizi lazımi səviyyədə idarə edə bilmədilər. Onların üzərinə düşən yüksək məsuliyyəti dərk etmədilər və gənc müstəqil dövləti, demək olar ki, idarəolunmaz vəziyyətə saldılar. Ötən əsrin 91–93-cü illərində Azərbaycanda yaşanan xoşagəlməz hadisələr, hallar ölkəmizin müstəqilliyini sual altına qoymuşdur.

Xüsusilə 1992-ci ildə AXC–Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyətin güc yolu ilə zəbt edilməsindən sonra vəziyyət daha da ağırlaşdı. Ölkəmizdə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. AXC–Müsavat hakimiyyəti talançılıqla məşğul idi. Torpaqlarımız işğal altına düşmüşdür və bununla bağlı çoxsaylı qaçqın və köçkünümüz vardır. AXC–Müsavat hakimiyyəti qardaş qanı axıtdı, vətəndaş müharibəsinə start verdi və bu, xalqımızın böyük faciəsi idi.

Bir sözlə, o illər bizim tariximizdə qara ləkədir, rüsvayçılıq illəridir. Azərbaycan xalqı cəmi 1 il o anti-milli hakimiyyətə dözə bildi və 1 ildən sonra o hakimiyyəti tarixin arxivinə göndərdi.

Azərbaycan xalqı öz liderinə – Heydər Əliyevə müraciət edərək, onu hakimiyyətə dəvət etdi və nə qədər müdrik xalq olduğunu bir daha sübuta yetirdi. Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə, onun Azərbaycanın rəhbəri kimi, keçən əsrin 70–80-ci illərinin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır. Məhz onun rəhbərliyi ilə ötən əsrin 70-ci illərində Azərbaycan sovet məkanında ən geridə qalmış yerdən ən qabaqcıl yerə yüksəlmişdir.

Digər səbəb ondan ibarətdir ki, Heydər Əliyev xalqımız üçün ən ağır məqamlarda daim xalqla birlikdə olmuş, böyük müdriklik, cəsarət göstərmişdir. Qanlı Yanvar faciəsindən dərhal sonra – 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, sovet hakimiyyətini, Kommunist Partiyasını törətdiyi cinayətə görə pisləmiş, tənqid etmiş, o qanlı faciəni qınamışdır, Azərbaycan xalqının ağrılarını bütün dünyaya çatdırmışdır. O vaxt AXC–Müsavat təşkilatı, demək olar ki, qorxudan görünmürdü, gizlənmişdi, fərarilik etmişdi.

Heydər Əliyev təkbaşına, özü də Sovet İttifaqının mərkəzində öz haqq səsini ucaltmış, xalqla həmrəyliyini göstərmiş və bu faciəni bütün dünyaya çatdırmışdır. Azərbaycan xalqı, əlbəttə ki, bu tarixi yaxşı bilir. Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə ulu öndər Naxçıvanı erməni işğalından qoruya bilmişdir, o da çox çətin vəzifə idi. Naxçıvan düşmənin əhatəsində idi. Orada özünümüdafiə qrupları təşkil edilmiş və düşmənə layiqli cavab verilmişdir.

Qeyd etdiyim kimi, Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağını ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Dövlət bayrağı kimi məhz Heydər Əliyev təsdiq etmişdir. Sovet İttifaqının saxlanılmasına dair referendumun Naxçıvanda keçirilməsinə imkan verməmişdir, baxmayaraq ki, Azərbaycanın bütün başqa yerlərində bu referendum keçirilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist

Respublikasının adını dəyişdirmiş və Sovet Sosialist sözlərini oradan çıxarmışdır. Yəni xalq yaxşı bilirdi ki, Heydər Əliyev güclü liderdir, Vətənə bağlı insandır və məhz belə bir insan Azərbaycana rəhbərlik etməlidir.

1993-cü il tariximizdə dönüş nöqtəsi oldu. Əslində bizim müstəqil tariximiz o ildən başlandı. Çünki ötən əsrin 91–93-cü illərində müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan, demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bildi və inkişaf yoluna qoydu. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır.

Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlandı, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edildi. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlandı və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş verdi.

Beynəlxalq təcridə son qoyuldu, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bildi. Qonşu dövlətlərlə münasibətlər normallaşdı. Çünki bu, bir absurd vəziyyət idi ki, 1993-cü ilə qədər Azərbaycan, demək olar, bütün qonşu dövlətlərlə çox gərgin münasibətlər şəraitində yaşayırdı. Qonşu dövlətlərlə, böyük dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Ciddi iqtisadi islahatların nəticəsi olaraq Azərbaycana böyük sərmayə axını başlandı.

İqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil «Əsrin kontraktı»nın imzalanması oldu. Hamımız yaxşı bilirik ki,

iqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Ordu quruculuğunda böyük addımlar atıldı. Azərbaycanda nizami ordu yaradıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq, Azərbaycan inkişaf yolu ilə inamla gedir və bu gün də bu inkişaf davam edir.

2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edildi. Biz güclü, qüdrətli dövlət qura bildik. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Bu gün dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil. Xüsusilə ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək bunu görərik.

Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsiretmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq–iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir.

Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına 2 dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra 2-ci böyük təşkilata – «Qoşulmama Hərəkatı»na sədrlik etməyə başlayacağıq.

Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirib. BMT Təhlükəsizlik

Şurasının 4 qətnaməsi və ATƏT-in qərarları, əlbəttə, bu hüquqi bazanın əsasını təşkil edir. Həmçinin 2003-cü ildən bu günə qədər digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul ediblər. Onların sırasında «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, GUAM, ECO və digər təşkilatlar vardır. Bu, münaqişənin həlli üçün hüquqi bazanın yaradılması deməkdir. Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, erməni diasporu nə qədər çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıbdır.

Biz yaxşı bilirik ki, bu gün beynəlxalq hüququn normaları bir çox hallarda pozulur, işləmir. Güc amili ön plana çıxır və bu reallıqdır. Ona görə dünya birliyinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqemizi dəstəkləməsi böyük nailiyyətimizdir. Hesab edirəm ki, beynəlxalq hüquq normalarından başqa, burada güclü Azərbaycan amili dayanır. Biz güclü dövlət qura bilmişik.

Bir daha demək istəyirəm ki, bizimlə əməkdaşlıq edən və etmək istəyən ölkələrin sayı artır. Bizə hörmət artır, bizim işimizə göstərilən rəğbət göz qabağındadır. Belə bir vəziyyətdə heç bir ölkə qanunsuz rejimlə heç bir əlaqə qura bilməz və biz buna heç vaxt imkan verməyəcəyik. Biz heç vaxt imkan verməyəcəyik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasıdır.

Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq.

Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut etmişik. 2 il bundan əvvəl Azərbaycan Ordusu işğal altında olan torpaqların –Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıdıblar. O torpaqlara həyat qayıdıb və bunu Azərbaycan dövləti, Azərbaycan Ordusu edibdir.

Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir.

Biz güclü iqtisadiyyat yaratmışıq, təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə edirik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət belə, gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq, uğurla inkişaf etsin.

Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir. Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb və bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici dövlət borcumuz o səviyyədədir ki, ehtiyatlarımız borcumuzu 4-5 dəfə üstələyir.

Əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində yaratmışıq. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır.

Bizim iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Rəqabətqabliyyətliliyə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir, inkişafda olan ölkələr arasında inkişafa görə 3-cü yerdədir.

Bunu biz demirik, bunu dünyanın birinci iqtisadi forumu olan Davos İqtisadi Forumu deyir.

Bu güclü iqtisadiyyat imkan verir ki, biz Azərbaycanda istənilən sosial layihəni, infrastruktur layihələrini icra edək və edirik. Azərbaycan sosial dövlətdir. Sosial sahəyə ayrılan diqqət imkan verir ki, bir çox sosial problemlər öz həllini tapsın, o cümlədən sosial infrastrukturla bağlı olan layihələr. Son 15 il ərzində 3000-dən çox məktəb, 600-dən çox tibb ocağı, 40-dan çox Olimpiya Mərkəzi tikilib. Bütün bunların təməlində həm bizim siyasətimiz, həm də iqtisadi gücümüz dayanır. Biz təbii resurslarımızı – nefti insan kapitalına çevirmişik. Bu istiqamətdə işlər davam edir və davam edəcəkdir. Biz ölkəmizin müstəqilliyini gücləndirən güclü infrastruktur yaratmışıq.

O infrastruktur ki, bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcəkdir. Demək olar ki, bütün əsas infrastruktur layihələrini sıfırdan yaratmışıq.

Biz dənizləri neft-qaz kəmərləri ilə birləşdirdik. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Qara və Aralıq dənizləri ilə neft kəmərləri vasitəsilə birləşdi. Bizim təşəbbüsümüzlə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Supsa neft və qaz kəmərləri inşa edildi.

Enerji təhlükəsizliyi baxımından Azərbaycan nəinki regionda, dünya miqyasında önəmli ölkəyə çevrildi. Hazırda «Cənub Qaz Dəhlizi»nin icrası ilə bağlı böyük işlər görülür və sabah «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı olacaqdır. Bu da böyük tarixi qələbəmizdir.

Biz nəqliyyat infrastrukturunu yaratmaqla, qitələri birləşdirdik. Açıq dənizə çıxışı olmayan Azərbaycan bu gün dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Təşəbbüskarı olduğumuz Bakı–Tbilisi–Qars dəmir yolu, nəqliyyat infrastrukturu ilə bağlı digər layihələr, Xəzərin ən böyük limanı olan Ələt limanının işə düşməsi, Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində atılmış addımlar bir məqsədi güdür – Azərbaycanı

dünyanın nəqliyyat mərkəzlərindən birinə çevirmək. Bu istiqamətdə böyük işlər görülüb.

Bu, müstəqilliyi gücləndirən amildir. Bu, qeyri-neft sektorunu inkişaf etdirən amildir. Biz bu məsələ ilə bağlı çox ciddi məşğuluq. Gec-tez bizim təbii resurslarımız tükənəcək. Baxmayaraq ki, «Azəri–Çıraq–Günəşli» kontraktının müddəti 2050-ci ilə qədər uzadıldı. Ən azı o vaxta qədər bu kontrakt qüvvədə olacaq. Mən tam əminəm ki, 2050-ci ildən sonra da «Azəri–Çıraq–Günəşli»də kifayət qədər neft ehtiyatları qalacaqdır.

O ki qaldı bizim təbii qaz resurslarımıza, bu resurslar ən azı 100 il bundan sonra da bizə və bizdən bu əməkdaşlıq nəticəsində faydalanan ölkələrə kifayət edəcəkdir. Amma buna baxmayaraq, biz yenə də qabağa baxmalıyıq. Biz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişaf strategiyasını təmin etməliyik. Bu məsələ ilə bağlı bizim çox aydın fikirlərimiz, baxışlarımız vardır.

Hesab edirəm ki, müstəqil dövlət kimi, Azərbaycan humanitar sahədə tarixi nailiyyətlərə imza atıb. Bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. Amma indi dünyada bu yanaşmaya o qədər də isti münasibət göstərilmir. Buna baxmayaraq, biz öz yolumuzla gedirik. Tam əminik ki, biz düzgün yoldayıq. Çünki bizim nümunəmiz, bizim gördüyümüz işlər dinlərarası, millətlərarası dialoqun güclənməsinə gətirib çıxarır və nəticə etibarilə sabitliyə, təhlükəsizliyə xidmət edir.

Heç kim təsəvvür edə bilməzdi ki, Azərbaycan idman sahəsində dünyanın aparıcı ölkələrinin sırasında olacaqdır. Biz buna da nail ola bildik. Əgər sovet dövründə bizim hansısa bir idmançımız Avropa, ya dünya çempionatında yüksək yer tuturdusa, biz bunu böyük bir tarixi hadisə kimi qəbul edirdik.

Bu gün bizim idmançılarımız Avropa, dünya çempionatlarında, Olimpiya oyunlarında yüzlərlə medal qazanıblar. Son Olimpiya oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdədir. Təsəvvür edin, 200-ə yaxın ölkənin iştirak etdiyi

bu oyunlarda 14-cü olmaq nə qədər böyük nailiyyətdir! Bu nəyin nəticəsidir? Görülən işlərin, aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsidir. Bu gün hansı sahəyə baxsan inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyəti qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyəti qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.

Azərbaycanın zəngin təbii resursları var və baxmayaraq ki, onların böyük hissəsi tükənib, ancaq yenə də vardır. Azərbaycan o diyardır ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz burada hasil edilmişdir. O hadisəni əks etdirən abidə də qoyulub. O vaxt onilliklər ərzində dünya neftinin böyük hissəsini Azərbaycan təmin edirdi. Ancaq Azərbaycan xalqı bu təbii resurslardan faydalana bilibmi? Yox! Biz bu gün Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edirik. Baxın, o vaxta qədər və o vaxt bizim ölkəmiz hansı vəziyyətdə idi – yoxsulluq, səfalət, savadsızlıq, tamamilə dağılmış tarixi şəhərlərimiz. Nəyə görə?

Çünki Azərbaycan müstəqil deyildi. Sovet dövründə, İkinci dünya müharibəsi illərində Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi. Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik. O vaxt Azərbaycan xalqı, Azərbaycan zəhmətkeşləri, neftçiləri, Azərbaycan nefti ümumittifaq büdcəsinə xidmət edirdi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsinə qədər bütün bu sərvətlərə baxmayaraq, Azərbaycan Sovet İttifaqında ən axırıncı yerdə idi. Nəyə görə? Çünki müstəqil deyildik. Taleyimiz əlimizdə deyildi.

Keçən əsrin 70-ci illərində Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan böyük dərəcədə inkişaf etdi. Ancaq yenə də müstəqil deyildi. Müstəqilliyin ilk illərində xalqımızın başına gələn bəlalar, işğal, vətəndaş müharibəsi, AXC–Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti, demək olar ki, ölkəmizi məhv etmişdi. Ancaq biz dirçəldik. Nəyə görə?

Məhz müstəqilliyə görə. Ona görə ki, taleyimiz indi öz əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir.

Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimiz, ən böyük nemətimiz, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir!

* * *

*Rəsmi qəbul konsert proqramı ilə davam etdi.*

# BAKI KRİSTAL ZALDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ KONSERTDƏ İŞTİRAK

*28 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 28-də Bakı Kristal Zalda keçirilən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş təntənəli konsertdə iştirak etmişlər.*

*Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanmış bədii-musiqili gecənin konsepsiyası 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ötən 100 il ərzində respublikamızın müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər, Azərbaycanın hazırda müstəqil, güclü və inkişaf etmiş ölkələr sırasında layiqli yerini tutması ideyası üzərində qurulubdur.*

*Hər bir azərbaycanlı üçün əziz olan bu bayram günündə Bakı Kristal Zalda sənət adamlarının çıxışları dövlətimizin gücünü, vətəndaşların dövlətə bağlılığını, xalq sevgisini və qürur hissini bir daha əyani təzahür etdirdi.*

*Xalq artisti Alim Qasımov və Əməkdar artist Fərqanə Qasımovanın ifasında «Qarabağ» şikəstəsi, «Natiq» ritm qrupunun «Sarı gəlin» kompozisiyası, dahi bəstəkar Üzeyir Hacıbəylinin «Koroğlu» operasından uvertüra, habelə Qara Qarayevin «Yeddi gözəl», Fikrət Əmirovun «1001 gecə», Arif Məlikovun «Məhəbbət əfsanəsi» baletlərindən rəqslər, Xalq artistləri Azərinin, Zülfiyyə Xanbabayevanın, Samir Cəfərovun ifalarında «Ey Vətən», «Şuşanın dağları» və «Neftçilər» mahnıları böyük maraqla dinlənildi. Xalq artistləri Aygün Kazımova, Azər Zeynalov, Elçin Əzizov, Emin, Əməkdar artistlər*

*Emil Əfrasiyab, Səbinə Babayeva, Tünzalə Ağayeva, Miri Yusif və Röyanın, «Rast» qrupunun, Azərbaycan Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin çıxışları bayram təntənəsi yaşatdı.*

*Proqramdakı musiqi nömrələri, rəqslər Azərbaycanın zəngin tarixinə bir daha hərtərəfli nəzər salmağa imkan yaratdı.*

*Təqdirəlayiq haldır ki, 100 il bundan əvvəl – 1918-ci il mayın 28-də Azərbaycan özünün azad yaşamaq, müstəqil dövlət qurmaq hüququnu bütün dünyaya bəyan etdiyi kimi, hazırda da şərəfli tarixini, parlaq nailiyyətlərini və durmadan artan qüdrətini dünyaya nümayiş etdirir.*

*Müstəqil Azərbaycan hər bir vətəndaşının qürur mənbəyidir. Bugünkü Azərbaycan Xalq Cümhuriyyəti qurucularının arzuladığı qüdrətli dövlətdir. İndi Azərbaycanın əldə etdiyi uğurlar öz miqyası və əhəmiyyəti ilə seçilir. Bunun məntiqi nəticəsidir ki, hər bir Azərbaycan vətəndaşı qüdrətli, əzəmətli, müstəqil dövləti ilə fəxr hissi duyur. Hər bir xalqın ən ümdə arzusu olan müstəqilliyi Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları xalqımıza 100 il əvvəl bəxş etmişdilər. Təəssüf ki, bu müstəqilliyin ömrü cəmi 23 ay oldu. Ölkəmiz müstəqilliyinə ikinci dəfə 1991-ci ildə qovuşdu. Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən əsl müstəqil dövlətə məhz 1993-cü ildən – xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra çevrildi. 2003-cü ildən isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hərtərəfli və dinamik inkişafdadır, ölkəmizin beynəlxalq imici durmadan möhkəmlənir. Fəxrlə qeyd edə bilərik ki, hazırda Azərbaycan dünyanın müstəqil siyasət yürüdən azsaylı ölkələrindən biridir. Bir sözlə, ulu öndərin vurğuladığı kimi, müstəqilliyimiz əbədi, dönməz və daimidir.*

*Tədbirdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Xalq şairi Səməd Vurğunun «Azərbaycan» şeirini səsləndirdiyi videoçarx nümayiş olundu.*

*Tədbirdə Bakı Media Mərkəzi tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar hazırlanmış videoçarxlar da nümayiş etdirildi.*

*Konsertdə Azərbaycan Xalq Cümhuriyyətinin növbəti ildönümlərinin əzəli Azərbaycan torpağı olan Qarabağımızda bayram ediləcəyinə əminlik ifadə olundu.*

*Sonda birlik və həmrəylik, müstəqilliyimizin əbədiliyinə qəti inam rəmzi olaraq, incəsənət ustaları hamılıqla səhnəyə çıxaraq, Azərbaycanın Dövlət himnini ifa etdilər.*

*İki saata yaxın davam edən konsert proqramına ümumilikdə 670 nəfərdən çox şəxs – tanınmış incəsənət xadimləri və yaradıcı heyət cəlb edilmişdir.*

*Bakı Kristal Zaldakı konsert proqramı Dənizkənarı Milli Parkda quraşdırılmış monitorda birbaşa yayımlandı.*

*Tədbirin sonunda Dənizkənarı Milli Parkda möhtəşəm bayram atəşfəşanlığı oldu.*

# BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*28 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolsonu qəbul etmişdir.*

*Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasimi və XXV Beynəlxalq «Xəzər neft və qaz» sərgisində iştirak etmək üçün Azərbaycana səfər etdiyinə görə baronessa Emma Nikolsona minnətdarlığını bildirdi.*

*Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına son səfərini məmnunluqla xatırlatdı.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bp və SOCAR şirkətləri arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi.*

*Baronessa Emma Nikolson Bakıda keçirilən «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasimi və XXV Beynəlxalq «Xəzər neft və qaz» sərgisinin önəminə toxunaraq, bu tədbirlərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə üst-üstə düşməsinin rəmzi xarakter daşıdığını vurğuladı. Baronessa Emma Nikolson bu tədbirləri əlamətdar hadisələr kimi dəyərləndirərək, bu münasibətlə dövlət başçısına təbriklərini çatdırdı.*

## ABŞ DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ SANDRA OUDKİRKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ABŞ Dövlət katibi köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ABŞ Dövlət katibi köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirkin «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışında və XXV Beynəlxalq «Xəzər neft və qaz» sərgisində iştirak etdiyinə görə minnətdarlığını bildirdi. Amerika Birləşmiş Ştatlarının bu tədbirlərdə belə yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev qlobal enerji layihələrinin reallaşdırılmasında ABŞ Hökumətinin dəstəyini yüksək qiymətləndirdi və ölkələrimizin uzun illər həyata keçirdiyi tərəfdaşlıq əlaqələrinin çox yaxşı nəticələr verdiyini bildirdi. Dövlətimizin başçısı «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasimini ölkələrimiz arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə göndərdiyi məktuba görə təşəkkürünü bildirdi və ABŞ Prezidentinin həmin məktubda əməkdaşlığımızın mühüm istiqamətlərindən olan enerji sahəsində əlaqələrin inkişafı barədə ifadə etdiyi fikirlərin münasibətlərimizin yüksək səviyyəsinin nümunəsi olduğunu vurğuladı.*

*«Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasiminə dəvətə görə minnətdarlığını bildirən ABŞ Dövlət katibi köməkçisinin enerji məsələləri üzrə müavini Sandra Oudkirk ölkələrimiz arasında energetika sahəsində möhkəm əsaslara söykənən əlaqələrin həyata keçirildiyini və bu əlaqələrin regionda əməkdaşlığın genişləndirilməsi, eyni zamanda, Avropanın enerji təchizatının şaxələndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirdi.*

*Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## QAZ İXRAC EDƏN ÖLKƏLƏR FORUMUNUN BAŞ KATİBİ YURİ SENTYURİN İLƏ GÖRÜŞ

*29 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurini qəbul etmişdir.*

*Dövlət başçısı Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurinə «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasimində iştirakına görə minnətdarlığını bildirdi.*

*Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışının əhəmiyyətini qeyd etdi və bu tədbirə dəvətə görə minnətdarlığını bildirdi. O, Bakıya bu səfəri zamanı inanılmaz inkişafın şahidi olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Qaz İxrac Edən Ölkələr Forumu arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı.*

*Yuri Sentyurin Azərbaycanın Qaz İxrac Edən Ölkələr Forumuna müşahidəçi qismində qoşulmasından keçən dövr ərzində ölkəmizin təşkilatın fəaliyyətinin gücləndirilməsinə öz töhfəsini verdiyini xüsusi qeyd etdi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## XXV BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ» SƏRGİ VƏ KONFRANSI İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi Bakı şəhərində XXV Beynəlxalq «Xəzər neft və qaz» sərgi və konfransın açılışı münasibətilə səmimi-qəlbdən salamlayır, hamınıza cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Xəzəryanı regionda neft və qaz sahəsi üzrə ən mötəbər tədbir olan Beynəlxalq «Xəzər neft və qaz, neftayırma və neft kimyası» sərgi və konfransı bu il öz uğurlu fəaliyyətinin 25-ci ildönümünü qeyd edir.

Bünövrəsi 1994-cü ildə qoyularaq, ümummilli liderimiz Heydər Əliyevin yeni neft strategiyasının başlanğıcı ilə eyni vaxta təsadüf edən ənənəvi tədbiriniz Xəzər regionunun və Azərbaycanın neft-qaz sektorunun inkişafında mühüm əhəmiyyətə malikdir. Həmin dövrdən etibarən Bakıda ardıcıl keçirilən sərgi və konfransların ölkəmizin müəllifi və bilavasitə iştirakçısı olduğu strateji layihələrin gerçəkləşdirilməsində, cəlbedici təşəbbüslərin beynəlxalq işgüzar dairələrə çatdırılmasında, dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsi və qlobal tərəfdaşlığın qurulmasında xüsusi rolu vardır.

Son illər bir sıra ölkələrdə qlobal böhranın özünü aydın büruzə verdiyi şəraitdə belə, biz daxili potensialdan səmərəli istifadə yolu ilə həyata keçirdiyimiz düzgün iqtisadi strategiya sayəsində respublikamızın inkişaf tempinin saxlanılmasına nail olmuşuq. Nəticə etibarilə Azərbaycan iqtisadiyyatı qlobal böhrana qarşı yüksək dayanıqlılıq nümayiş etdirmiş, iqtisadi artım dinamikası və sosial inkişaf səviyyəsini qoruya bilmişdir.

Hazırda «Cənub Qaz Dəhlizi»nə daxil olan «Şahdəniz-2» və «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi, həmçinin TANAP və TAP layihələri ilə bağlı görülən işlər fasiləsiz şəkildə davam etdirilməkdədir. «Şahdəniz-2» və «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi layihələri artıq yekunlaşmaq üzrədir. Yaxın zamanlarda TANAP layihəsinin «Şahdəniz» qazının Türkiyəyə çatdırılması üçün nəzərdə tutulan hissəsinin istifadəyə verilməsi təntənəli surətdə qeyd ediləcəkdir. 2020-ci ildə isə Azərbaycan qazı Avropaya nəql olunacaqdır.

Dünya miqyasında əsas enerji mənbələrinə nəzarət uğrunda rəqabətin gücləndiyi indiki mərhələdə Azərbaycan əlverişli coğrafi mövqeyinə, təbii ehtiyatlarına və zəngin potensialına arxalanaraq, digər ölkələrlə və eləcə də dünyanın tanınmış iqtisadi, maliyyə qurumları və şirkətləri ilə geniş əməkdaşlıq edir. Böyük həcmdə xarici investisiyaların respublikaya cəlb edilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması ölkəmizin iqtisadi siyasətinin əsas istiqamətlərindəndir.

İnanıram ki, mötəbər tədbiriniz qarşılıqlı münasibətlərin daha da dərinləşməsi baxımından əhəmiyyətli olacaq və fəaliyyətinizin gələcək illər üçün aparıcı inkişaf meyillərinin müəyyənləşməsinə töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 may 2018-ci il*

## SƏNGƏÇAL TERMİNALINDA «CƏNUB QAZ DƏHLİZİ»NİN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*29 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Səngəçal terminalında «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasimində iştirak etmişdir.*

*Həmin gün XXV yubiley Beynəlxalq «Xəzər neft və qaz» sərgisinin də açılışı olmuş, mərasim sərginin keçirildiyi Bakı Ekspo Mərkəzində canlı yayımlanmışdır.*

*Dövlət başçısı mərasimdə nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün ölkəmizin tarixində çox əlamətdar, tarixi bir gündür. Bu gün «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı günüdür. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Biz bu günü burada – Səngəçal terminalının ərazisində qeyd edirik. Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada 4 il bundan əvvəl «Cənub Qaz Dəhlizi»nin təməli qoyulmuşdur. Onu da qeyd etməliyəm ki, bu gün Bakı Ekspo Mərkəzində XXV «Xəzər neft və qaz» sərgisi öz işinə başlayır və sərgidə iştirak edənlər bu gün bu mərasimdə də iştirak etmiş kimi sayıla bilərlər. Mən onları da salamlayıram. Bildirmək istəyirəm ki, 25 il ərzində ilk dəfədir ki, «Xəzər neft

və qaz» sərgisinin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verir.

«Xəzər neft və qaz» sərgisinin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Qeyd etdiyim kimi, 4 il bundan əvvəl bu ərazidə «Cənub Qaz Dəhlizi»nin təməli qoyulub. O zaman mən tam əmin idim ki, bu layihə uğurla, vaxtında icra ediləcək, baxmayaraq ki, bu çox nəhəng və texniki-iqtisadi cəhətdən çox mürəkkəb layihədir. Bu layihə geniş beynəlxalq əməkdaşlıq tələb edən layihə idi. İlk dəfə olaraq Azərbaycan belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı tələb edən layihəyə start vermişdir, onun təşəbbüskarı olmuşdur. «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə çatdıq və bu gün ölkəmizin neft-qaz sənayesinin inkişafında yeni dövr başlanır.

Dünən Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini təntənəli şəkildə qeyd etdi. Bu da tarixi hadisə idi. Çünki ilk dəfə olaraq 1918-ci ildə müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı məhz Azərbaycan xalqı yaratmışdır. Dünən təntənəli mərasimdə çıxış edərkən bildirdim ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etməsəydi, bu gün Azərbaycan bəlkə də dünyanın ən inkişaf etmiş və ən zəngin ölkələrindən biri ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, zəngin neft ehtiyatlarımız çox böyük imkanlar açırdı. Ancaq Azərbaycan müstəqilliyini itirdi və ondan əvvəlki dövrdə də müstəqil olmadığı üçün Azərbaycan xalqı öz təbii ehtiyatlarından bəhrələnə bilməmişdir.

Dünya neftinin tarixi Azərbaycandan başlanır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt – XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox! O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün – xalq səfalət içində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq, Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan «qara qızıl» Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəlmirdi və eyni zamanda, biz Abşeron yarımadasında böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlət həll edir.

Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi, ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik.

1991-ci ildə Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Ancaq müstəqilliyimizin ilk 2 ili çox ağır keçdi. Ölkə, demək olar ki, idarəolunmaz vəziyyətdə idi, xaos, anarxiya, böhran hökm sürürdü, neft sənayesi tamamilə tənəzzülə uğramışdı, vətəndaş müharibəsinə start verilmişdi. Yəni ölkə çox böyük təhlükələrlə üzləşmişdi və müstəqilliyimizin ilk 2 ili formal xarakter daşıyırdı. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi.

1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevə müraciət edərək, onu hakimiyyətə dəvət etdi, Prezident vəzifəsinə seçdi və ondan sonra Azərbaycanın uğurlu inkişaf dövrü başlandı. Məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir.

Qeyd etdiyim kimi, 1994-cü ildə birinci «Xəzər neft və qaz» sərgisi təşkil edilmişdir. Azərbaycanın dünyada zəngin resurslara malik ölkə kimi tanıdılmasında bu sərginin çox böyük rolu vardır. 1994-cü il sentyabrın 20-də «Əsrin kontraktı» imzalandı. «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku dünyanın ən böyük neft yataqlarından biridir və 24 il bundan əvvəl imzalanmış «Əsrin kontraktı»nın müddəti keçən il 2050-ci ilə qədər uzadıldı. Yəni bu özlüyündə bu yataqda nə qədər böyük neft ehtiyatlarının olduğunu göstərir. «Əsrin kontraktı» Azərbaycana nəfəs verdi, ölkəmizin canlanmasına xidmət göstərdi. İlk dəfə olaraq Xəzər dənizi xarici şirkətlər üçün açıldı. Biz o xarici şirkətləri dəvət etdik və bu gün «Əsrin kontraktı»nın icrası çox uğurla gedir. Bu kontraktın imzalanmasından sonra Azərbaycanın yeni neft strategiyası icra olunmağa başlandı.

Mən o tarixi günləri yaxşı xatırlayıram. Çünki o vaxt mən Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi, bu işlərlə bilavasitə məşğul idim. O vaxt Azərbaycanın neft strategiyası müəyyən olundu və bu gün biz bu strategiyanın, görülən işlərin bəhrəsini görürük.

1994-cü ildən sonra ikinci böyük kontrakt «Şahdəniz» qaz yatağı üzrə imzalandı. Onu da qeyd etməliyəm ki, bu kontrakt 1996-cı il iyunun əvvəlində məhz «Xəzər neft və qaz» sərgisinin keçirildiyi gündə imzalanmışdır. Beləliklə, Azərbaycan dünyaya özünü nəinki neft ölkəsi, həm də qaz ölkəsi kimi təqdim etdi. Onu da yaxşı xatırlayıram ki, o vaxt dünyada enerji təhlükəsizliyi məsələlərində qaz amili o qədər də ciddi rol oynamırdı. Hətta qaz yataqlarının işlənilməsi o qədər də

böyük maraq doğurmurdu. Çünki mənfəət neft yataqları ilə müqayisədə daha aşağı idi. Ona görə bu layihəyə investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Ancaq bu gün, bu tarixi gündə «Cənub Qaz Dəhlizi»nin açılışını qeyd edərkən biz görürük ki, bu nə qədər vaxtında atılmış və müdrik addım idi. «Şahdəniz» qaz yatağı «Cənub Qaz Dəhlizi»nin əsas resurs bazasıdır.

1997-ci ildə «Əsrin kontraktı»nın icrası nəticəsində «Çıraq» platformasından ilk neft çıxarıldı. O tarixi videokadrlar artıq göstərilir və doğrudan da tarixi bir gün idi. İlk dəfə olaraq xarici şirkətlər tərəfindən Xəzərdə yeni yataqdan neft hasil edilmişdir.

Azərbaycan açıq dənizə çıxışı olmayan ölkədir. Ona görə neft kəmərləri tikilməli idi və 1999-cu ildə artıq birinci neft kəməri – Bakı–Supsa kəməri istifadəyə verildi. Yəni bu onu göstərir ki, biz bu böyük işləri nə qədər qısa müddət ərzində görmüşük. Bu işlər həm böyük maliyyə vəsaiti tələb edirdi, həm də texniki cəhətdən çox çətin layihələr idi. Onu da deməliyəm ki, 1999-cu ildə bizim hələ böyük vəsaitimiz yox idi. Ondan sonra Bakı–Tbilisi–Ceyhan neft kəməri istifadəyə verildi. Ona görə bu layihələrin həyata keçirilməsi doğrudan da böyük səy, böyük müdriklik tələb edirdi. Bakı–Supsa neft kəmərinin istifadəyə verilməsi ilə biz tarixdə ilk dəfə olaraq Xəzər dənizini Qara dənizlə neft kəməri ilə bağladıq.

Ondan sonra 2002-ci ildə artıq biz «Azəri–Çıraq» yatağından böyük neft gözləyərkən, məhz burada – Səngəçal terminalının ərazisində Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün eyni zamanda, etibarlı tranzit ölkə kimi, qonşu ölkələrə öz imkanlarını təqdim edir.

2007-ci ildə isə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan «Şahdəniz» yatağının işlənilməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlandı. O günü də, Ceyhandakı mərasimi də çox yaxşı xatırlayıram. Bu gün buraya gələrkən bütün o tarixi anlar, o günlər bir daha mənim yaddaşımda oyandı və bir daha demək istəyirəm ki, doğrudan da bunlar tarixi nailiyyətlərdir.

«Şahdəniz» yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, Azərbaycan qazını böyük həcmdə dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, «Cənub Qaz Dəhlizi»nin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı və nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Trans–Anadolu qaz kəməri üzrə müqavilə imzalandı. Beləliklə, «Cənub Qaz Dəhlizi»nin reallaşmasına güclü təkan verildi. TANAP layihəsi «Cənub Qaz Dəhlizi»nin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin də istifadəyə verilməsini qeyd edəcəyik. 2014-cü il sentyabrın 20-də – bu da çox rəmzi məna daşıyır, çünki «Əsrin kontraktı» 1994-cü il sentyabrın 20-də imzalanmışdır – 20 ildən sonra «Cənub Qaz Dəhlizi»nin təməli qoyuldu. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu doğrudan da böyük və tarixi hadisədir.

«Cənub Qaz Dəhlizi» nəhəng infrastruktur layihəsidir. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulub. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Əminəm ki, bundan da böyük həcmdə resurslarımız vardır. Gələcək kəşfiyyat və istismar işləri əminəm ki, bunu təsdiqləyəcəkdir.

Bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Mən ilk növbədə, regional əməkdaşlıq haqqında danışmaq istərdim. Azərbaycan, Gürcüstan və Türkiyə

Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı–Tbilisi–Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. Ona görə bu layihələrin icra edilməsində bu 3 ölkənin birgə səyləri xüsusi yer tutur. Mən bu gün fürsətdən istifadə edərək, həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatları Hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib – həm siyasi dəstək, həm də mənəvi dəstək. Əlbəttə, bu layihələr böyük resurslar tələb edir və maliyyə resurslarının böyük hissəsi banklar tərəfindən verilir. Amerika hökumətinin bu işdə çox böyük səyləri olub. Biz bu dəstəyi, o cümlədən Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və «Cənub Qaz Dəhlizi» layihələrinin reallaşmasında həmişə hiss etmişik və hiss edirik. Bu dəstək bu layihələrin icra edilməsində çox böyük rol oynayıbdır.

Böyük Britaniya hökuməti də həmişə bizim yanımızda olub. Bildiyiniz kimi, *bp* şirkəti energetika sahəsində bizim əsas investorumuzdur. Böyük Britaniya hökuməti bu layihələrin reallaşmasında həmişə bizə dəstək göstərib, biz bu dəstəyi bu gün də hiss edirik. Keçən ay Londonda Baş Nazir xanım Meyin və mənim iştirakımla *bp* ilə SOCAR arasında növbəti kontrakt imzalandı. Bu bizim strateji əlaqələrimizi bir daha əks etdirir.

Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynayıbdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında «Cənub Qaz Dəhlizi» haqqında Birgə Bəyannamə imzalanıbdır. Bu illər ərzində biz daim Avropa İttifaqının dəstəyini hiss etmişik. Azərbaycanın və Avropa İttifaqının təşəbbüsü ilə son 4 il ərzində Bakıda hər il «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının iclasları keçirilir. 2015-ci ildən bu günə qədər Avropa İttifaqı bu toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın

əməkdaşlıq formatında energetika sektoru təbii ki, çox böyük yer tutur.

Bu layihələrin həyata keçirilməsi maliyyə institutlarının maliyyəsi olmadan mümkün olmazdı. Mən bugünkü mərasimdə bizə dəstək olan beynəlxalq səviyyədə tanınmış banklara da öz təşəkkürümü bildirmək istəyirəm. Onlar bizə inanıb və öz maliyyə resurslarını ayırıblar. Onlar da əmindirlər, biz də əminik ki, Azərbaycan etibarlı tərəfdaş kimi, bütün borcları vaxtında qaytarır və qaytaracaqdır.

Bir sözlə, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə əminəm ki, gələcəkdə nəinki energetika, bütün başqa sahələrdə də Avropada və bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət edəcəkdir.

«Cənub Qaz Dəhlizi»nin icrasında 7 ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim – Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Belə geniş beynəlxalq əməkdaşlıq yaradılıbdır.

3 Balkan ölkəsi – Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro tərəfdaşlar kimi, növbəti mərhələdə bu layihəyə qoşulacaqlar. «Cənub Qaz Dəhlizi»nin qolları olmalıdır. Biz ixrac imkanlarımızı genişləndirmək istəyirik. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat vardır. Biz də istəyirik ki, Avropaya daha çox qaz sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır.

«Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi məsələlərinin həllinə də kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır.

«Cənub Qaz Dəhlizi» enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm də marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə biz tam mənada enerji resurslarının şaxələndirilməsi haqqında danışa

bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi demək deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və «Cənub Qaz Dəhlizi» yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir. Bu layihənin həyata keçirilməsində iştirak edən bütün tərəflərin maraqları təmin edilib. Bu da çox önəmlidir. Burada maraqlar balansı gözlənilibdir.

Hasilatçı ölkə Azərbaycan, tranzit ölkələr, o cümlədən Azərbaycan və başqa ölkələr və istehlakçı ölkələr – hansılar ki, Azərbaycan qazını alternativ qaz kimi alacaqlar – beləliklə, onlar üçün enerji təhlükəsizliyi məsələləri daha da dolğun şəkildə, tam təmin ediləcəkdir. Yəni maraqlar balansı olmasaydı, bu layihə həyata keçirilə bilməzdi. Bizim enerji siyasətimizlə bağlı yanaşmamız məhz bundan ibarətdir. Biz qarşılıqlı faydalı əməkdaşlığı təmin etməliyik.

İştirak edən bütün tərəflər, şirkətlər, ölkələr öz mənfəətini götürməlidir – həm siyasi, həm təhlükəsizlik, həm iqtisadi. Şirkətlər öz mənfəətini götürməlidir və Azərbaycan resursların sahibi kimi, əlbəttə ki, öz mənfəətini götürür və götürəcəkdir. Çıxışımın sonunda bu layihələrin ölkəmiz üçün nə qədər böyük fayda gətirdiyini qeyd etmək istərdim. Bu gün Azərbaycan ayaqda möhkəm duran, müstəqil siyasət aparan, güclü iqtisadiyyata malik olan ölkədir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsul 3 dəfədən çox artıbdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 230 milyard dollardan çox sərmayə qoyulubdur.

Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu onu göstərir ki, «qara qızıl» – neft və qaz insan kapitalına çevrilib.

Biz neft-qaz əməliyyatlarından əldə olunan gəlirləri cəmiyyətdə bərabər, ədalətli şəkildə bölürük və ölkə iqtisadiyyatının inkişafı üçün lazım olan layihələrə yönəldirik. Dünya Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını dünya miqyasında rəqabət-qabliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Bu onu göstərir ki, biz iqtisadi şaxələndirmə siyasətini uğurla aparırıq. Neftdən əldə edilmiş gəlirlər iqtisadiyyatın qeyri-neft sektoruna yönəlib. Davos Forumunun hesablamalarına əsasən, inkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə Azərbaycan 3-cü yerdədir. Bu işlərin təməlində bizim uğurlu neft-qaz siyasətimiz dayanır. Ancaq bu işlərin təməlində əsasən düşünülmüş ümumi siyasət dayanır. Bir çox ölkələr var ki, onların bizdən qat-qat böyük neft resursları, neft hasilatı vardır. Ancaq ölkələrin uğurlu inkişafını təbii resurslar həll etmir. Düşünülmüş siyasət, xalq–iqtidar birliyi, şəffaflıq, bütün azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir.

Bu gün mən bu tarixi məqamları bir daha sizin və Azərbaycan xalqının diqqətinə çatdırmaq istərdim. Çünki bu günün təməli məhz o illərdə qoyulub. Sadəcə olaraq, biz bütün bu işləri ardıcıllıqla görmüşük. Bu gün bizim ölkəmizin həyatında çox əlamətdar tarixi bir gündür. Bu gündə mən «Cənub Qaz Dəhlizi»nə uzun və uğurlu ömür arzulayıram. Sağ olun.

* * *

*Sonra mərasim çıxışlarla davam etdirildi.*

**S a n d r a  O u d k i r k** *(ABŞ Dövlət katibi köməkçisinin enerji məsələləri üzrə müavini)* Cənab Prezident Əliyev!

Energetika naziri Şahbazov!

Nazir müavini Çikovani!

Hörmətli cənab Məhəmməd Barkindo!

Baronessa Nikolson, səfirlər, xanımlar və cənablar!

Bugünkü mərasim – «Cənub Qaz Dəhlizi»nin açılışı tarixi hadisədir. Mən bu münasibətlə Prezident İlham Əliyevi təbrik edirəm.

Bu mühüm layihəni reallığa çevirmək üçün yorulmaz fəaliyyətinə görə burada təmsil olunan bütün ölkələrə və şirkətlərə təşəkkürümü bildirirəm.

Amerika Birləşmiş Ştatları Xəzər hövzəsi regionunun daha böyük iqtisadi inteqrasiyasında, Avropanın enerji təchizatının şaxələndirilməsində bu layihənin mühüm rolunu xüsusi qeyd edərək, 10 il bundan əvvəl təklif olunmuş «Cənub Qaz Dəhlizi» barədə təşəbbüsü qəti surətdə dəstəkləyibdir.

Prezident Donald Tramp Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Prezident İlham Əliyevə bu günlərdə göndərdiyi məktubda «Cənub Qaz Dəhlizi»nin inanılmaz nailiyyət olduğunu və bunun Avropanın enerji təhlükəsizliyini təmin edəcəyini vurğulayaraq, bu layihəyə güclü dəstəyini ifadə edibdir.

Təbii ki, «Cənub Qaz Dəhlizi» birgə çalışmaq, sülh şəraitində inkişaf etmək, Aralıq dənizinin şərq hissəsindən – İraq, Mər-kəzi Asiya və Qafqazdan daha böyük həcmdə təbii qazı Avropadakı istehlakçılara çatdırmaq baxımından region ölkələri üçün yaxşı imkandır və o, şaxələndirmə məqsədilə yaradılmışdır. Ümid edirik ki, həmin ölkələr bu imkandan səmərəli istifadə edəcəklər. Birləşmiş Ştatlar bütün tərəfdaşlarla, eləcə də layihənin uzunmüddətli uğurunu təmin etmək üçün bu layihəyə qoşulacaq digər ölkələrlə işin davam etdirilməsini səmimiyyətlə arzulayır. Sizi bir daha təbrik edirəm. Sağ olun.

**Baronessa Emma Nikolson** *(Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi)*: Zati-aliləri Prezident Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Birləşmiş Krallığın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi və Azərbaycana tez-tez səfər edən insan kimi, mən XXV Beynəlxalq «Xəzər neft və qaz» sərgi və konfransına dəstək

vermək üçün Bakıda olmağımdan məmnunam. Azərbaycana səfər etmək hər zaman böyük məmnunluq doğurur və bu səfərimdə mən 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar ən səmimi təbriklərimi çatdırmaqdan şadam. Bu respublikanın yaradıcıları vaxtı qabaqlayaraq, qadınlara seçib-seçilmək və digər hüquqları vermişlər. Bu səbəbdən mən gender bərabərliyi sahəsində Azərbaycanın nailiyyətlərini qeyd etmək üçün mayın 30-da Beynəlxalq Qadınlar Forumunda iştirak etməkdən çox şadam.

Neft və qaz sənayesi Birləşmiş Krallığın Azərbaycanla ticari münasibətlərinin təməl daşı olaraq qalır. İlk «Xəzər neft və qaz» sərgi və konfransının keçirilməsindən sonra biz birgə böyük uğurlara imza atmışıq.

Bu il enerji əməkdaşlığında növbəti mühüm hadisə baş verəcəkdir. *bp*-nin «Şahdəniz-2» platformasından ilk qaz «Cənub Qaz Dəhlizi» şəbəkəsi ilə Türkiyəyə gedən boru kəmərlərinə daxil olacaqdır. Layihə Avropa üçün daha etibarlı enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində atılmış mühüm addımdır. Biz birgə uğurlu tərəfdaşlıq qurmuşuq, gələcək üçün möhkəm bünövrə yaratmışıq.

Mən aprelin 26-da Prezident Əliyevlə və Baş Nazirimizlə onun Londondakı iqamətgahında olmaqdan şərəf hissi duydum və o vaxt *bp* ilə SOCAR gözəl uğurlu tərəfdaşlığın növbəti sazişini imzaladılar. Əməkdaşlığımızın dərinləşdirilməsi ölkələrimizə daha böyük iqtisadi fayda gətirəcək. Bu baxımdan Birləşmiş Krallıq bizim ticari əməkdaşlığımıza xüsusi diqqət yetirir. Mən Baş Nazir xanım Tereza Meyin «Xəzər neft və qaz – 2018» sərgi və konfransı münasibətilə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə təbrik məktubunu oxumaq istərdim:

«Bakıda keçirilən «Xəzər neft və qaz – 2018» sərgi və konfransının açılışı münasibətilə məktub göndərməkdən böyük məmnunluq hissi duyuram.

Tam müstəqil və suveren ölkə olan Azərbaycanın 1918-ci ildə yaradılmış Xalq Cümhuriyyətinin 100 illik yubileyini qeyd etməsi bu ilə xüsusi əhəmiyyət verir.

Bu il həm də ilk dəfə 1994-cü ildə keçirilmiş «Xəzər neft və qaz» sərgi və konfransının 25-ci ildönümüdür. Hər iki yubiley münasibətilə Prezident İlham Əliyevə ən səmimi təbriklərimi çatdırmaq istəyirəm.

Neft və qaz sənayesindən əldə olunan gəlirlər Azərbaycanın müasir və müstəqil ölkəyə çevrilməsinə kömək etmişdir.

*bp*-nin Azərbaycanın iqtisadi inkişafında belə mühüm rol oynaması sevindirici haldır. 1994-cü ildə imzalanmış «Azəri–Çıraq–Günəşli» müqaviləsi Azərbaycanın neft tarixində, eləcə də ikitərəfli əlaqələrimizdə yeni bir dövrün başlanğıcını qoyan tarixi dönüş nöqtəsi idi.

O vaxtdan bəri Britaniya şirkətləri Azərbaycanın neft və qaz sektorunu bütün dünyanın qibtə edəcəyi müasir texnologiya və dünya səviyyəli istehsalat müəssisələri vasitəsilə inkişaf etdirmək üçün on milyardlarla funt sterlinq investisiya yatırıbdır.

Biz tərəfdaşlığımızı daha da genişləndirmək istəyirik. Məhz buna görə mən aprelin 26-da Prezident İlham Əliyevi Dauninq Stritdə qarşılamaqdan böyük məmnuniyyət hissi keçirdim. Bizim iştirakımızla *bp* və SOCAR arasında «Hasilatın Pay Bölgüsü» üzrə altıncı saziş imzalandı. Bu saziş son 25 il ərzində iki şirkət arasında qurulmuş möhtəşəm tərəfdaşlığın təcəssümüdür.

Birləşmiş Krallıq və Azərbaycan energetika sahəsindən başqa, bir çox digər sahələri də əhatə edən güclü və ikitərəfli faydalı əlaqələr qurublar. Ümid edirəm ki, bu əlaqələr qarşıdakı illərdə də yüksələn xətlə inkişaf edəcəkdir.

Sonda builki «Xəzər neft və qaz» sərgi və konfransın iştirakçılarına uğurlar arzulayıram.

**TEREZA MEY**
**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş**

**Krallığının Baş  Naziri»**

– Cənab Prezident, xanımlar və cənablar!

Bu gün bu konfransda iştirak etməkdən şərəf hissi duyuram və bu səfərimdən çox razıyam. Sizi əmin edirəm ki, bundan sonra da səylərimi göstərəcəyəm ki, ölkələrimiz arasında ticari münasibətlər daha da güclənsin və xalqlarımız bundan bəhrələnsin. Sizə uğurlar arzulayıram.

*Türkiyənin Azərbaycandakı səfiri Ərkan Özoral Prezident İlham Əliyevə və «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasiminin iştirakçılarına Prezident Rəcəb Tayyib Ərdoğanın məktubunu oxudu.*

## «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasiminin iştirakçılarına

«Cənab Prezident, əziz qardaşım İlham Əliyev!

Hörmətli qonaqlar!

Sizi səmimi-qəlbdən salamlayıram!

Türkiyəyə və Avropanın digər ölkələrinə Azərbaycan qazını çatdıracaq Trans–Anadolu təbii qaz boru kəmərinə ilk qazın verilməsi münasibətilə keçirilən bu mərasimin xeyirli olmasını diləyirəm.

İstər Azərbaycan ilə ikitərəfli, istərsə də regional əməkdaşlığımız baxımından örnək bir layihə olan TANAP-ın tamamlanması hamımız üçün qürur mənbəyidir.

Bundan əvvəl uğurla həyata keçirdiyimiz Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum boru kəmərləri və nəqliyyat sahəsində Bakı–Tbilisi–Qars dəmir yolundan sonra TANAP da bölgənin taleyini dəyişdirəcək əhəmiyyətə malik əməkdaşlığımızın bir bəhrəsidir.

TANAP-ın reallaşmasında ABŞ-ın və Avropa İttifaqının dəstəyi də əhəmiyyətli olmuşdur.

Birlikdə atdığımız addımlar bu tarixi layihənin sürətlə və problemsiz başa çatdırılmasında önəmli rol oynamışdır.

Bundan sonrakı müddətdə Avropaya yeni bir mənbədən qaz nəqlini mümkün edəcək «Cənub Qaz Dəhlizi»nin digər layihələrinin də vaxtında başa çatdırılması mühüm əhəmiyyət daşıyır.

Bu gün TANAP boru kəmərinə ilk qazın verilməsindən sonra iyunun 12-də Əskişəhərdə böyük bir mərasimlə kəmərin açılışını edəcəyik.

Bu tarixi anın şahidi olmaq üçün sizləri də Əskişəhərdə qarşılamaqdan böyük məmnunluq duyacağıq.

Digər tərəfdən, bu il 25-ci dəfə keçirilən «Xəzər neft və qaz» sərgi və konfransının təşkilində əməyi olanları təbrik edir, bu mühüm tədbirin uğurlarının artmasını və davamlı olmasını diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək, TANAP-ın başda Türkiyə və Azərbaycan olmaqla, bölgəmiz üçün xeyirli olmasını bir daha arzu edir, bütün iştirakçıları səmimi-qəlbdən salamlayıram.

**RƏCƏB TAYYİB ƏRDOĞAN**
**Türkiyə Respublikasının Prezidenti»**

**Məhəmməd Barkindo** *(Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi)*: Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları, sənaye liderləri, əs-salamu aleykum!

Ramazan ayınız mübarək olsun!

Xəzər dənizinin sahilində – Səngəçal terminalında 25-ci ildönümü qeyd olunan «Xəzər neft və qaz» sərgi və konfransın

açılışında iştirak etdiyim üçün, eyni zamanda, qlobal və möhtəşəm layihənin açılışı və istismara verilməsi mərasiminə qatıldığım üçün böyük şərəf və məmnunluq hissi keçirirəm.

Cənab Prezident, «Şahdəniz» Sizin müdrik rəhbərliyinizin, səy və qətiyyətinizin, bu ölkədə fəaliyyət göstərən sənaye şirkətlərinin hamıya nümayiş etdirdiyi əzmkarlığın parlaq sübutudur. Bu layihə və onun artıq sürətlə inkişaf etməkdə olan fazası çoxmilyardlı kapital qoyuluşu layihəsidir. Bu layihə dünya miqyasında ən böyük enerji layihələrindən biridir. Bu layihə bir ilham mənbəyidir, bütün Azərbaycan, eləcə də region və dünya bu layihədən qürur hissi duymalıdır. Bu layihə Azərbaycan iqtisadiyyatına əhəmiyyətli şəkildə əlavə dəyər verir və karbohidrogen sektorunun genişlənməsinə imkan yaradır. Bu layihə bizim razılığa gəlməyimiz üçün Sizin təşəbbüskarlığınız və rəhbərliyiniz sayəsində OPEC-ə üzv olan və üzv olmayan neft hasil edən 24 ölkə arasında tarixi əhəmiyyət daşıyan əməkdaşlıq Bəyannaməsində, *bp* tərəfindən idarə olunan «Şahdəniz» layihəsi və bir neçə ölkədən olan çoxsaylı neft və qaz şirkətlərinin timsalında böyük tərəfdaşlığın sübutudur. Biz Sizin bir neçə il bundan əvvəl ifadə etdiyiniz və ən yüksək hökumət dairələri səviyyəsində bunu etməyə çağırdığınız OPEC-ə üzv olan və üzv olmayan ölkələrin bir araya gəlməsinin vacibliyini bildirən baxışınıza görə zati-alinizə minnətdar olmaqda davam edəcəyik. Əlbəttə ki, buraya Sizin dövlət neft şirkətiniz olan SOCAR, habelə digər iştirakçı şirkətlər də daxildir. Bu eyni zamanda, istehsalçı və istehlakçılar arasında səmərəli və uzunmüddətli əməkdaşlığın bir nümunəsi olan tərəfdaşlıqdır. Bu tərəfdaşlıq «Cənub Qaz Dəhlizi» ilə Xəzər dənizindən daha çox qaz ehtiyatlarının nəql olunmasına imkan yaradacaq və bununla da qlobal enerji təhlükəsizliyinə, xüsusilə də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcəkdir.

Zati-aliləri, icazə verin, sitat gətirim. Dahi Henri Ford demişdir : «Əgər hamı birlikdə hərəkət edirsə, onda uğur özü sizə tərəf gələcək».

Keçən il mən Sizin ölkənizdə olmuşdum. Lakin 2 ay bundan əvvəl, cənab Prezident, mənə Sizinlə görüşmək şərəfi nəsib oldu. Bu görüşdə biz neft bazarlarına dayanıqlı əsaslarla sabitliyi bərpa etmək işində kömək göstərmək üçün fikir mübadiləsi apardıq və qət etdiyimiz yolu qiymətləndirdik.

Mən Sizin müdrik fikirlərinizi, işlərin necə irəliləməsi ilə bağlı tövsiyələrinizi özümlə Vyanaya apardım. Mən Azərbaycanın davamlı surətdə ən çox neft hasil edən ölkələr sırasında olduğunu nəzərə alaraq, hasilatın könüllülük prinsipi əsasında uyğunlaşdırılması ilə bağlı OPEC-lə davamlı əməkdaşlıq apardığınıza, göstərdiyiniz dəstəyə və üzərinizə götürdüyünüz öhdəliyə görə təşəkkürümü bir daha ifadə etmək istəyirəm. Əməkdaşlığımızın daha da genişləndirilməsi üçün mümkün imkanlarla bağlı müzakirələrimizin davam etdirilməsi də məndə böyük məmnunluq hissi doğurur. Mən bilirəm ki, OPEC-ə üzv olan və üzv olmayan ölkələr arasında Sizin dəstəklədiyiniz belə bir möhtəşəm əməkdaşlıq formatının yaradılmasında hamımız bir dəyər görürük. Bu, həmişəkindən daha mürəkkəb, qarşılıqlı asılılığı və qlobal bazarda, sənayedə olan bütün maraqlı tərəflərin dayanıqlı sabitliyə nail olmaq üçün birlikdə çalışmasını əhəmiyyətli edir. Bu həm hasilatçıların, həm də istehlakçıların maraqlarına xidmət edir. Bu qlobal layihənin istismara verilməsi Sizin bütün dünyaya ölkələr, regionlar, həm beynəlxalq, həm də milli neft şirkətləri arasında əməkdaşlıq üçün hansı addımların atılmasının zəruriliyi barədə çağırışınızın vacibliyini bir daha təsdiqləyir.

Cənab Prezident, mən bu dialoqu növbəti 2 gün ərzində Sizin nümayəndələrinizlə davam etdirməyi, «Xəzər neft və qaz» sərgi və konfransında iştirakımı səbirsizliklə gözləyirəm. Təşəkkür edirəm.

**Y u r i  S e n t y u r i n** *(Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi)*: Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev!

Möhtərəm mərasim iştirakçıları, xanımlar və cənablar!

«Cənub Qaz Dəhlizi»nin açılışını bildirən belə mötəbər tədbirin iştirakçısı olmaq mənim üçün böyük şərəfdir. Təmsil etdiyim qurumun – Qaz İxrac Edən Ölkələr Forumunun üzvü kimi, sənaye, neft və qaz, mədəniyyət, elm mərkəzi olan Azərbaycanın gözəl paytaxtında – Bakıda olmaq məndə böyük məmnunluq hissi oyadır.

Azərbaycan Foruma 2015-ci ildə üzv olub. «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı ilə bağlı bu mərasim beynəlxalq qaz mərkəzi kimi, Azərbaycanın yeni önəmli mövqeyini vurğulayır. Enerjiyə gələcək tələbatın qarşılanmasında təbii qaz böyük rol oynayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Əliyevin müdrik rəhbərliyi ilə aparılan siyasət nəticəsində Azərbaycan bir mərkəz kimi, mühüm mövqe əldə edibdir. Fürsətdən istifadə edərək, Prezident seçkilərində inamlı qələbəniz münasibətilə Qaz İxrac Edən Ölkələr Forumunun səmimi təbriklərini Sizə çatdırmaq istəyirəm.

Qaz yataqlarının işlənilməsi ilə bağlı ən böyük layihələrdən biri kimi, «Cənub Qaz Dəhlizi» Xəzər hövzəsindən təbii enerji resurslarının nəqlində mühüm rol oynayacaqdır. Gözlənildiyi kimi, Xəzər və Avropa regionunda bir çox ölkələrdən keçən belə bir nəhəng layihə xüsusilə dövlət və özəl sektor arasında genişmiqyaslı əməkdaşlığa xidmət edəcəkdir. Texnologiyanın əsas komponent rolu oynamasını nəzərə alsaq, bu böyük layihəni həyata keçirmək üçün 7 hökumət və 11 müstəqil şirkətin birlikdə çalışması faktı heç də təəccüblü deyil. Öz nəhəngliyi ilə seçilən «Cənub Qaz Dəhlizi» Xəzər dənizinin qaz resurslarını ilk dəfə olaraq birbaşa Avropa bazarlarına çıxararaq, bütün regionun enerji xəritəsini dəyişəcəkdir. Avropada yerli qaz istehsalının yaxın 20 il ərzində azalacağı gözlənilir. Artan idxal çatışmazlığı ilə əlaqədar Avropa İttifaqı gələcək enerji tələbatını qarşılamaq üçün öz idxal imkanlarını daha da şaxələndirməlidir. «Cənub Qaz Dəhlizi» mövcud təchizat marşrutlarına əlavə olacaq və artan mayeləşdirilmiş

təbii qazdaşımaları, «Şimal axını» kimi yeni əlavələrlə birlikdə idxal çatışmazlığını azaltmağa kömək edəcəkdir. Həmçinin Azərbaycanın maliyyə və siyasi öhdəliyi enerji dayanıqlılığının təmin olunması üçün ölkənin oynadığı və oynamağa davam edəcəyi vacib rolu vurğulayır.

Enerji təhlükəsizliyi və dayanıqlı inkişaf haqqında deməliyik ki, bunlar dünyanın müxtəlif regionlarını təmsil edən, qaz hasilatçısı və ixracatçısı olan 19 ölkədən ibarət Qaz İxrac Edən Ölkələr Forumunun məqsədləri ilə tamamilə uzlaşır. Bu ölkələr birlikdə dünyanın sübut olunmuş qaz ehtiyatlarının 70 faizinə, qaz boru kəmərlərinin 63 faizinə və mayeləşdirilmiş təbii qaz ehtiyatlarının 58 faizinə malikdir. Qazın gələcək mənzərəsi kifayət qədər müsbətdir. Təbii qaz 2040-cı ilə qədər ildə 1,5–1,8 faiz artaraq, ən tez hasil edilən yanacaq növü olacaqdır. Həmin dövrdə qlobal ümumi təbii qaz ixracı 50 faiz artacaqdır. Avropa bazarı bu artımın çoxunu özünə cəlb edəcək və bu da «Cənub Qaz Dəhlizi» infrastrukturunun önəmini bir daha artıracaqdır.

Zati-aliləri, möhtərəm qonaqlar, Qaz İxrac Edən Ölkələr Forumunun sadiq olduğu əsas dəyər hasilatçı, istehlakçı və tranzit ölkələr arasındakı əməkdaşlıqdır. Belə bir əməkdaşlıq etimad doğurur. Bu da öz növbəsində, tərəflərə bütün maraqlı tərəflər arasında risklərin bərabər şəkildə paylanılması prinsiplərinin qəbul olunmasını unutmamaqla, təchizatın və tələbatın təhlükəsizliyi üçün qaza tələbatı və təchizatı stimullaşdırmaq potensialı olan təcrübələrə cəlb olunmaq imkanı verir. Təbii qaz Paris razılaşmasının hədəflərinin tələblərini, habelə Birləşmiş Millətlər Təşkilatının dayanıqlı inkişaf məqsədlərini mükəmməl şəkildə qarşılayan insanların seçdiyi enerjidir. Bu dəyərlər, enerji təhlükəsizliyinə sadiqlik, əməkdaşlıq «Cənub Qaz Dəhlizi»nin özəyində durur. Bununla da «Cənub Qaz Dəhlizi»nin və Qaz İxrac Edən Ölkələr Forumunun məqsədlərinin bir nöqtədə üst-üstə düşdüyünü xüsusi vurğulamaq lazımdır.

Zati-aliləri, möhtərəm mərasim iştirakçıları, bizim mərasim beynəlxalq səviyyədə tanınan, nüfuzlu tədbir olan XXV «Xəzər neft və qaz» sərgi və konfransı ilə eyni zamanda keçirilir. Hər 2 tədbirin çox əlamətdar hadisə olan Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünün qeyd olunması ilə paralel keçirilməsi çox mühüm əhəmiyyət kəsb edir.

Bu imkandan istifadə edərək, çox əlamətdar yubiley ilə əlaqədar, icazə verin, Sizə səmimi təbriklərimi çatdırım və qardaş Azərbaycan xalqına ən xoş arzularımı ifadə edim. Diqqətinizə görə təşəkkür edirəm.

**Bernard Luney** *(«bp Group Upstream»ın baş icraçısı)*: Zati-aliləri cənab Prezident!

Nazirlər, SOCAR-dan olan dostlarımız, xanımlar və cənablar!

Bu gün burada, bu tarixi anda *bp*-ni və «Şahdəniz» konsorsiumunu təmsil etməkdən şərəf duyuram. Cənab Prezidentin də dediyi kimi, bugünkü tarix bir çox səbəblərdən əlamətdardır. Hər şeydən əvvəl biz «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışını qeyd edirik. Mən «Şahdəniz» konsorsiumunun adından, həmçinin SOCAR-a və digər tərəfdaşlara – TPAO, PETRONAS, LUKoyl, NICO və «Cənub Qaz Dəhlizi»nə «Şahdəniz-2» layihəsinin reallaşdırılmasında göstərdikləri dəstəyə görə təşəkkür etmək istəyirəm. Biz bu layihəni birlikdə reallaşdırdıq. Biz Xəzər hövzəsinə dair öz təcrübə və dərin bilikləri ilə layihəyə verdiyi töhfəyə görə SOCAR-a xüsusi minnətdarlığımızı bildiririk.

«Şahdəniz-2» həqiqətən də transformasiyaya yol açan inqilabi bir layihədir. Dünyanın ən böyük qaz layihələrindən biri kimi, bu layihənin Azərbaycanın qaz hasilatını ildə 16 milyard kubmetr artıracağı gözlənilir. Layihənin pik dövründə təkcə Azərbaycanda «Şahdəniz-2»də 24 min nəfərdən çox insan işləyib. *bp* şirkətində 2500 nəfər Azərbaycan vətəndaşı işləyir ki, bu da ölkədəki ixtisaslaşmış heyətimizin 90 faizini təşkil edir. Yerli vətəndaşlar üçün iş yerləri yaratmaqla, bu layihə, həmçinin infrastrukturun inkişafına əhəmiyyətli töhfə verir. Bakı yaxınlığında modernləşdirilmiş dünya səviyyəli istehsalat sahələri,

Xəzər dənizində analoqu olmayan «Xankəndi» qabaqcıl sualtı tikinti gəmisinin inşası, yerli resurslardan maksimum istifadə və ilk dəfə olaraq bütün dəniz qurğularının, o cümlədən dünya səviyyəli 2 platformanın yerli resurslarla Azərbaycanda inşa edilməsi buna əyani misaldır. Əlbəttə, bu gün «Cənub Qaz Dəhlizi»nə qazın vurulmasını rəsmi olaraq qeyd etdiyimiz bu Səngəçal terminalında aparılmış əsaslı genişləndirilmə işləri qeyd olunanların bariz nümunəsidir.

Buradan «Cənub Qaz Dəhlizi» Azərbaycan və Gürcüstan əraziləri ilə uzanan genişləndirilmiş «Cənubi Qafqaz» boru kəmərini izləyir və oradan da TANAP xəttinə qoşulur. Bütün bunlar ölkə üçün böyük nailiyyətlərdir. Əlbəttə ki, 2020-ci ilə qədər «Cənub Qaz Dəhlizi» ilə Xəzərdən çıxan Azərbaycan qazının ilk dəfə olaraq birbaşa Avropanın qaz bazarlarına nəql ediləcəyi gözlənilir. Mənim qeyd etdiyim transformasiya məhz budur. Bu isə yalnız cənab Prezidentin, sizin hökumətin, habelə SOCAR və bütün digər «Şahdəniz» tərəfdaşlarının dəstəyi sayəsində və əlbəttə ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində mümkün olubdur.

Bu gün biz, həmçinin «Xəzər neft və qaz» sərgisinin 25 illiyini qeyd edirik. Bu sərginin ilk dəfə 1994-cü ildə açılışı neft-qaz hasilatı üzrə uzunmüddətli və uğurlu ənənələrə söykənən müasir sənayenin dirçəlişi ilə əlamətdar olmuşdur.

Cənab Prezident, mən Sizə və Azərbaycan xalqına *bp*-nin səmimi təbriklərini çatdırmaq istəyirəm. Biz həmişə bu sərgidə iştirak etmək, ötən 1 il ərzində nəyə nail olduqlarımızı nümayiş etdirmək və bölüşmək, burada qurduğumuz davamlı tərəfdaşlığı qeyd etmək, neft və qazın Azərbaycanda sosial, mədəni və iqtisadi sahələrə verdiyi əsaslı töhfəni təqdir etmək imkanına malik olmaqdan məmnunluq duymuşuq.

1994-cü ildə «Əsrin kontraktı»nın imzalanması Azərbaycanda böyük sərmayələr və inkişaf dövrünün təməlini qoydu.

Cənab Prezident, məhz Sizin uzaqgörən siyasətiniz sayəsində ötən ilin sentyabr ayında «Azəri–Çıraq–Günəşli» üzrə «Yeni əsrin kontraktı» imzalandı.

Cənab Prezident, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edərkən, hesab edirəm ki, Siz «İlk demokratik respublikanın qurucuları bugünkü Azərbaycanı görsəydilər, onunla qürur duyardılar» – deməklə, bütün bu nailiyyətləri bir cümlə ilə gözəl ifadə etmiş oldunuz. Qürur duyulmalı və perspektivdə gözlənilən çox nailiyyətlər vardır.

*bp* və «Şahdəniz» tərəfdaşlarının adından qeyd etmək istəyirəm ki, bu ölkənin növbəti yeni bir uğur yolunda Sizinlə əməkdaşlıq etməyi səbirsizliklə gözləyirik. Təşəkkür edirəm.

* * *

*Sonra «Şahdəniz-2» və «Cənub Qaz Dəhlizi» layihələri haqqında videoçarx təqdim olundu.*

*Qeyd edək ki, Xəzərin Azərbaycan sektorunda yerləşən «Şahdəniz» yatağı bu vaxtadək Azərbaycanda aşkar edilmiş ən böyük qaz yatağıdır. Bu nəhəng yataq təxminən 860 kvadratkilometr ərazini əhatə edir və onun ilkin geoloji qaz ehtiyatı 1,2 trilyon kubmetrdir. «Şahdəniz-2» layihəsi çərçivəsində hasil olunacaq qaz «Cənub Qaz Dəhlizi» ilə ötürüləcəkdir. Qaz təxminən 3500 kilometr uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya ərazisinə nəql olunacaq. Türkiyəyə ilk qaz bu il, Avropaya isə 2020-ci ildə çatacaqdır.*

*Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışını etdi.*

*Bununla da Azərbaycan daha bir tarixi nailiyyətə imza atdı. «Cənub Qaz Dəhlizi»nin əsas seqmentlərindən olan TANAP boru kəməri gələn ay istismara veriləcək. Qaz ixracı nəticəsində*

*ölkəmizin gəlirləri artacaq, Azərbaycanın beynəlxalq mövqeyi daha da güclənəcəkdir.*

## XXV BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2018» SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*29 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 29-da Bakı Ekspo Mərkəzində XXV Beynəlxalq «Xəzər neft və qaz–2018» sərgisi ilə tanış olmuşlar.*

*Dövlət başçısına və xanımına sərgi barədə məlumat verildi.*

*Bildirildi ki, bu il «Xəzər neft və qaz» sərgisinin yubileyi sərginin keçirildiyi ilk gündən bu tədbiri dəstəkləyən və onun təşəbbüskarı olan ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə təsadüf edir. Birinci sərgi 1994-cü ilin sentyabr ayında Xəzər hövzəsində karbohidrogen ehtiyatlarının genişmiqyaslı işlənilməsinin əsas istiqamətlərini müəyyən edən və ölkəmizin neft tarixində yeni səhifə açan «Əsrin müqaviləsi»nin imzalanması ərəfəsində keçirilib. O vaxtdan etibarən «Xəzər neft və qaz» sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü, əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı platformaya çevrilib. Ötən dövrdə sərgilərdə dünyanın 70-dən çox ölkəsini təmsil edən təxminən 7500 şirkət iştirak edib. Hər il sərginin açılışı mərasimində Prezident İlham Əliyevin iştirak etməsi bu beynəlxalq tədbirin yüksək statusunu bir daha təsdiq edir.*

*Builki sərgidə 38 ölkədən 312 neft-qaz şirkəti iştirak edir. Belarus, İtaliya və Rusiya tədbirdə milli qruplarla təmsil olunur.*

*Fransanı builki sərgidə dünyada böyük nüfuza malik olan Total S.A. şirkəti təmsil edir. Total S.A. Azərbaycanda kəşfiyyat*

*və hasilat işlərinə 1996-cı ildə başlayıb. 2009-cu ilin fevralında şirkət SOCAR ilə Xəzər dənizinin dərin sulu sahəsində yerləşən «Abşeron» bloku üzrə «Hasilatın Pay Bölgüsü» Sazişini imzalayıb. 2011-ci ildə şirkət tərəfindən qazma işləri aparılıb və kifayət qədər karbohidrogen ehtiyatları aşkarlanıb. Bu kəşf Total S.A.-nın Azərbaycandakı fəaliyyətinin yeni mərhələsinin başlanmasına imkan veribdir.*

*Norveçin Statoyl şirkəti yeni strategiyaya uyğun olaraq fəaliyyətini artıq «Equinor» adı ilə davam etdirir. Bu şirkət 1992-ci ildə Azərbaycan bazarına daxil olub. Həmin vaxtdan ölkəmiz bu şirkətin beynəlxalq inkişafında mühüm rol oynayıb. Belə ki, şirkətin Xəzərdə nəhəng layihələrdə aparılan planlaşdırma, işlənmə və əməliyyat proseslərində rolu hər iki tərəf üçün mənfəətli olub. Azərbaycan üçün yeni neft-qaz hasilatı dövrü başlanıb, şirkət isə geniş beynəlxalq enerji arenasında etibarlı tərəfdaş kimi tanınıbdır.*

*«SOCAR Polymer» investisiya layihəsi son 40 il ərzində öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk layihədir. Şirkətin polipropilen və yüksək sıxlıqlı polietilen qurğuları Sumqayıt Kimya Sənaye Parkının ərazisində tikilir. Bu il istismara verildikdən sonra zavodlar hər il 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcəkdir.*

*Özbəkistanın «Uzbeknefteqaz» korporasiyası mütəmadi olaraq sərgidə iştirak edir. Bu qurum 200-dən çox şirkəti, o cümlədən 20 birgə müəssisəni, 6 səhmdar cəmiyyəti və bir sıra digər təşkilatları birləşdirən müasir, çoxpilləli korporasiyadır. Holdinqin hazırkı strukturu istehsal və texnologiyanın bütün mərhələlərini əhatə edən qarşılıqlı əlaqəli və yaxşı işlənmiş layihələri səmərəli idarə etməyə imkan verir.*

*Sərgidə iştirak edən yerli «Baku Steel Company» MMC Qafqazın ən böyük Metallurgiya zavodudur. Hazırda zavodun istehsal gücü 180 min ton olmaqla, 114–245 diametrli tikişsiz, qoruyucu və ümumi təyinatlı borular istehsal edir. Şirkət Ru-*

*siya, İran, Türkiyə, Qazaxıstan, Gürcüstan, Ukrayna, Türkmənistan və digər ölkələrə öz məhsullarını ixrac edir.*

*SOCAR-ın stendi ilə tanışlıq zamanı dövlət başçısına şirkətin layihələri barədə məlumat verildi. SOCAR bir sıra uğurlu sosial və ekoloji proqramlar həyata keçirir. Mayın 29-da rəsmi açılışı mərasimi keçirilən «Cənub Qaz Dəhlizi» layihəsində fəal tərəfdaşlardan olan SOCAR müasir dövrdə ölkəmizin neft strategiyasının uğurla reallaşmasına töhfə verir.*

*SOCAR-ın stendində Azərbaycanın neft emalı və neft kimyası müəssisələri, neft və qaz ixracı marşrutları, həmçinin sərmayələr barədə geniş məlumatlar yer alıb. Bu layihələrin başa çatması Azərbaycan iqtisadiyyatının daha da şaxələndirilməsinə mühüm töhfə olacaq, həmçinin ölkəyə əlavə valyuta həcmlərinin axınını təmin etməklə, yeni iş yerlərinin yaradılmasına, respublikamızda və region ölkələrində sürətli iqtisadi inkişafa təkan verəcəkdir.*

*SOCAR son 15 ildə ümumilikdə 126,8 milyon ton neft, 92 milyard kubmetr qaz hasil edib, 2 milyon metrdən çox qazma işləri həyata keçiribdir. Bundan əlavə, SOCAR-ın təlim və təhsil proqramları yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıbdır.*

*Növbəti dəfə sərgidə iştirak edən Türkiyə Petrolları «Əsrin müqaviləsi»nə start veriləndən Azərbaycanda geniş fəaliyyət göstərir. Bu qurum Azərbaycanda bundan sonra da reallaşdırılacaq layihələrdə yaxından iştirak etməyə və sərmayə yatırmağa hazırdır. Ümumilikdə Türkiyə Azərbaycanın enerji sektorunda həyata keçirilən layihələrdə ölkəmizlə hərtərəfli və uğurlu əməkdaşlıq edir.*

*bp şirkəti də uzun illərdir ki, Azərbaycanda neft-qaz sənayesində uğurla fəaliyyət göstərir. Ötən dövrdə Azərbaycan hökuməti ilə tərəfdaşlıq çərçivəsində bp-nin əməliyyatçısı olduğu dünya səviyyəli layihələr – «Azəri–Çıraq–Günəşli», «Şahdəniz», «Bakı–Tbilisi–Ceyhan» və «Cənub Qaz Dəhlizi» layihələri uğurla icra olunub. Ötən dövrdə «Azəri–Çıraq–Günəşli» la-*

*yihəsi üzrə 33 milyard dollardan çox sərmayə qoyulub. 3,3 milyard barrel neft və təqribən 32 milyard kubmetrdən çox səmt qazı hasil edilibdir.*

*Xəzərin Azərbaycan sektorundakı «Şahdəniz» yatağı isə bp-nin bu vaxtadək aşkar etdiyi ən böyük qaz yatağıdır. «Şahdəniz Bravo» platforması ilə canlı bağlantı zamanı işəsalma üzrə rəis Elxan Dalqılıcov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, «Şahdəniz-2» layihəsinin uğurla həyata keçirilməsində bu platforma önəmli rol oynayır.*

*Prezident İlham Əliyev bp-nin əməkdaşlarına uğurlar arzuladı.*

*İranın Təhsil, Tədqiqat və Mədəniyyət üzrə Akademik Mərkəzi də sərgidə iştirak edir. Bu mərkəz İranda yerli neft sənayesi üçün tələb olunan texnologiyaların hazırlanması sahəsində fəaliyyətə başlayan ilk təşkilatdır. Mərkəz mexaniki avadanlıqlar, qazma qurğuları, kiçikdiametrli elastik nasos-kompressor boruları və digər məhsullar üzrə məsləhətlər verir.*

*Sərgidə təmsil olunan Rusiya İxrac Mərkəzinin stendi ziyarətçilər tərəfindən maraqla qarşılanır. Burada Rusiya müəssisələri haqqında ətraflı məlumat almaq mümkündür.*

*Rusiyada aparıcı müəssisə olan «REP Holdinq» mexaniki intiqallı qabaqcıl maşınların layihələndiricisi, istehsalçısı və dəstləşdiricisidir.*

*«Global Energy Azerbaijan» şirkəti də ölkəmizdə uğurla fəaliyyət göstərir. Onun tərəfindən istismar edilən 10 neft yatağı Abşeron yarımadasında, digər neft yataqları isə Azərbaycanın Aran iqtisadi rayonunda yerləşir.*

*«Schlumberger» şirkəti dünyada neft-qaz sənayesi üçün kollektorların xarakteristikası, eləcə də qazma, hasilat və emal üzrə texnologiyaların aparıcı təchizatçısıdır. Şirkət hasilatdan tutmuş sənayedə mövcud olan məhsul və xidmətlərin ən geniş çeşidini təchiz edir.*

*«Halliburton» şirkəti enerji sektorunda fəaliyyət göstərən ən böyük məhsul və xidmət təchizatçılarından biridir. Şirkət*

*karbohidrogenlərin axtarılması və geoloji məlumatların idarə edilməsi ilə yanaşı, qazma işləri və layihələrin qiymətləndirilməsi, quyuların tikilməsi və digər xidmətlərin göstərildiyi müddətdə istehsalın optimallaşdırılmasına maksimum dərəcədə töhfə verməklə, dünyanın neft və qaz sektorunda önəmli rol oynayır.*

*«Belneftekhim» şirkəti xam neft hasilatı, neftayırma və daşıma, neft məhsullarının satışı ilə məşğul olan müəssisə və təşkilatlardan, kimya və neft-kimya, bir sıra elmi-tədqiqat və təkmilləşdirmə, tikinti, texniki baxış təşkilatlarından, eləcə də xarici bazarlarda geniş nümayəndəlik şəbəkəsindən ibarətdir. Şirkət 500-dən çox adda xam neft və kimyəvi məhsul istehsal edir. Şirkətin tərkibinə xam neftin kəşfiyyatı, hasilatı və daşınması, həmçinin neftayırma və neft məhsullarının satışı ilə məşğul olan müəssisələr daxildir.*

*«Saipem» şirkəti neft-qaz bazarında quruda və dənizdə qazma xidmətləri, həmçinin mühəndislik, təchizat, boru kəmərlərinin inşası və quraşdırılması, mürəkkəb layihələrin icrası üzrə dünya liderlərindəndir. Şirkət çətin şəraitdə uzaq sahələrdə və dərin sularda əməliyyat aparmaq üçün xüsusi imkanlara malikdir.*

*Sərgi təşkilatçıları Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilə xatirə şəkli çəkdirdilər.*

*Sonra dövlət başçısı və xanımı sərgi və konfransın Xatirə kitabını imzaladılar.*

*Azərbaycanın ilk beynəlxalq ixtisaslaşmış «Xəzər neft və qaz» sərgi və konfransının 25 illik yubileyi münasibəti ilə nadir poçt markaları buraxılıb. Marka növlərindən birində «Xəzər neft və qaz» sərgisinin yubiley loqotipi və rəmzi neft platforması təsvir edilib. Digər markada isə Xəzərin sahilində Bakını təsvir edən rəsm əsərinin reproduksiyası verilib. Bundan əlavə, birinci sərgiyə həsr olunmuş poçt zərfi və xüsusi poçt ştempeli hazırlanıbdır.*

*Prezident İlham Əliyev poçt markalarına möhür vurdu.*

*Sərgi təşkilatçıları adından dövlət başçısına və xanımına xatirə hədiyyələri təqdim olundu.*

*Sonra Prezident İlham Əliyev «Xəzər neft və qaz» sərgi və konfransının 25 illiyi münasibətilə Azərbaycanın nailiyyətlərinin təbliğində və xarici ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsində xidmətlərinə görə «ITE Group Plc» şirkətinin baş məsləhətçisi Endrü Vuda və «ITE Group Plc» şirkətinin regional direktoru Strahan Edvard Corc Dankana «Dostluq» ordenini təqdim etdi.*

*Dövlət başçısı «Xəzər neft və qaz» sərgi və konfransının 25 illiyi münasibəti ilə və ölkəmizdə sərgilərin təşkilindəki xidmətlərinə görə «İTECA Caspian» şirkətinin icraçı direktoru Fərid Məmmədova «Tərəqqi» medalını təqdim etdi.*

## «MİCROSOFT» ŞİRKƏTİNİN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÜZRƏ VİTSE-PREZİDENTİ FİLİP ROQ İLƏ GÖRÜŞ

*29 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da «Microsoft» şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə vitse-prezidenti Filip Roqu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə «Microsoft» şirkəti arasında səmərəli əməkdaşlığın aparıldığı bildirildi, bu təşkilatın Azərbaycanda həyata keçirdiyi bir sıra layihələrin önəmi qeyd olundu.*

*Filip Roq təmsil etdiyi şirkətin fəaliyyəti ilə bağlı məlumat verdi.*

*Dövlətimizin başçısı Azərbaycanda İKT sahəsinin qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri olduğunu vurğulayaraq, ölkəmizdə bununla bağlı görülən işlərdən danışdı.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**İTALİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SERCİO MATTARELLAYA**

Hörmətli cənab Prezident!

İtaliya Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə İtaliya arasındakı əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. Daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, müxtəlif sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığımız ikitərəfli münasibətlərimizin dinamik və hərtərəfli inkişafının bariz nümunəsidir.

Əminəm ki, dostluq münasibətlərimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 may 2018-ci il*

## MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİ VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*31 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Ramazan ayı münasibətilə müsəlman ölkələrinin ölkəmizdəki səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli səfirlər, sizi salamlayıram!

Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Mən fürsətdən istifadə edərək, xahiş edirəm ki, mənim salamlarımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə bizim ölkəmizin çox sıx dostluq əlaqələri vardır. Mənim ölkələrinizə səfərlərim, sizin ölkələrinizin dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunun əyani sübutudur. Bildiyiniz kimi, biz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik. Xüsusilə BMT-dəki əməkdaşlığı qeyd etmək istərdim. İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımız çox uğurludur. Biz digər beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq edirik, bir-birimizi daim dəstəkləyirik.

Bizim dost ölkələrimiz, müsəlman ölkələri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı

Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Bu dəstəyə görə mən sizə minnətdaram. Bildiyiniz kimi, bütün aparıcı beynəlxalq təşkilatlar bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edən qərar və qətnamələr qəbul edibdir. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. BMT Baş Assambleyası, ATƏT, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ECO və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. Bu qərar və qətnamələr münaqişənin həlli üçün hüquqi zəmin yaradır. Bu qərar və qətnamələrin qəbul edilməsində həmin təşkilatlardakı müsəlman ölkələri iştirak edir, münaqişənin həllinə dəstək verirlər.

Bildiyiniz kimi, uzun illərdir ki, beynəlxalq birlik tərəfindən tanınan Azərbaycanın tarixi, əzəli torpaqları erməni işğalı altındadır. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşübdür. Bizim şəhərlərimiz, kəndlərimiz, tarixi, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb, muzeylərimiz talan edilibdir. Bu, misli görünməmiş vandallıqdır. Ermənilər xalqımıza qarşı Xocalı soyqırımı törədiblər. 10-dan çox ölkə bu soyqırımını rəsmi qaydada qəbul edibdir.

Münaqişənin tezliklə həlli bölgəyə sabitlik, sülh gətirəcəkdir. Münaqişənin tezliklə həlli üçün ilk növbədə, Ermənistan öz işğalçı qüvvələrini işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarmalıdır və dünyanın ən ali qurumu olan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməlidir. Bu məsələ ilə bağlı ədalətli mövqenizə görə ölkələrinizə və sizə bir daha minnətdaram.

Azərbaycan da öz növbəsində, beynəlxalq təşkilatlarda bütün müsəlman ölkələrinin maraqlarını dəstəkləyən qərar və qətnamələrə dəstək verir, onların bir çoxunun təşəbbüskarı olubdur. İslam Əməkdaşlıq Təşkilatı haqlı olaraq Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirir. Dəfələrlə bəyan edibdir ki, Azərbaycan islam həmrəyliyi

məsələlərində çox önəmli rol oynayır. Bizim üçün islam həmrəyliyini möhkəmləndirmək xarici siyasətimizin əsas prioritet məsələlərindən biridir. Biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Bildiyiniz kimi, keçən il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunmuşdur. Ölkələrinizin iştirakı ilə Bakıda mötəbər IV İslam Həmrəyliyi oyunları keçirilmişdir. Bu oyunlar sadəcə olaraq, idman yarışı deyil, eyni zamanda, islam dünyasının birliyini nümayiş etdirdi və biz çalışmalıyıq ki, islam aləminin birliyini tam təmin edək.

Bu il Azərbaycanın qədim şəhəri olan Naxçıvan «İslam mədəniyyətinin paytaxtı» elan edilibdir. 2-ci dəfədir ki, Azərbaycan şəhəri bu şərəfli ada layiq görülür. 1-ci dəfə Bakı şəhəri bu ada layiq görülmüşdür. Bu bizi çox sevindirir. Bu onu göstərir ki, bütün müsəlman dünyası Naxçıvanı qədim Azərbaycan diyarı, müsəlman diyarı kimi tanıyır. Naxçıvanda yerləşən, bütün müsəlman ictimaiyyəti üçün önəmli olan abidələrimiz dünya əhəmiyyətli abidələrdir.

Bildiyiniz kimi, Azərbaycan islam mədəniyyətinin dünyada təqdim edilməsində də mühüm rol oynayır. Bir çox Avropa ölkələrində keçirdiyimiz sərgilər, təqdimatlar, digər mədəni tədbirlər islam mədəniyyətini təbliğ edir, islam dəyərlərini təcəssüm etdirir. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.

Mən bir daha sizi salamlayıram və sizə uğurlar, cansağlığı, xalqlarınıza xoşbəxtlik arzulayıram.

* * *

**Nasir Əbdül Kərim Əbdül Rəhim** (*Fələstin Dövlətinin Azərbaycan Respublikasında səfiri*): Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev!

Hörmətli cənab Prezident, Azərbaycan Respublikasında akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri və diplomatik missiyalarının rəhbərləri adından mənə müqəddəs Ramazan

bayramı münasibətilə Sizi təbrik etmək şərəfi nəsib olub. Eyni zamanda, yenidən Prezident seçildiyinizə, Azərbaycan xalqının Sizə yenidən etimad göstərdiyinə və ölkənin Sizin rəhbərliyinizlə irəliləməsinə görə təbriklərimi çatdırıram.

Bu il Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyini qeyd edir. Sizi və qardaş Azərbaycan xalqını bu mühüm tarixi ildönümü ilə əlaqədar təbrik etmək bizim hamımız üçün olduqca sevindiricidir.

Cənab Prezident, qeyd etmək yerinə düşərdi ki, Sizin sayənizdə bizim müsəlman ölkələrini bir-birinə bağlayan qardaşlıq əlaqələrinin inkişafına təkan vermək məqsədilə zati-alinizin yenilməz qətiyyətini əks etdirən belə görüşlər ənənənə halı alıb. Bu müqəddəs ayda müsəlmanlar sülh, həmrəylik şəraitində bir araya gəlməklə, islamın şərəfli dəyərləri olan ruh və fikrin qidalanmasına çağırış edilir və bu ay bizi birliyə, mənəvi rahatlığa, yüksəlişə və xeyirxahlığa doğru aparır. Bununla da imkansızlara kömək etmək, qardaş olduğumuza və paylaşdığımız taledən agah olduğumuza görə bir-birimizi bağışlamaq və qəbul etmək üçün hamımızın daxilində olan xüsusiyyəti alovlandırır.

Cənab Prezident, Azərbaycan Respublikası nisbətən gənc olmasına və yaradılmasından etibarən üzləşdiyi bir çox çağırışlara baxmayaraq, respublika rəhbərliyinin müdrikliyi və uzaqgörənliyi sayəsində müasir və fəal ölkə olmaq üçün həmin əngəllərin öhdəsindən müvəffəqiyyətlə gəlib. Ölkəniz müasirliyi qəbul edib və gələcəyə doğru yüksələn xətlə inkişaf edir, lakin eyni zamanda, öz qədim və islami irsini qoruyub saxlaya bilibdir. Qardaş Azərbaycandakı müsəlman səfirləri qismində ölkənizin dinamik inkişafının şahidi olduğumuz üçün biz birlikdə və səmimi surətdə ölkənizdə baş verən və bir çox sahələri əhatə edən sürətli inkişafa, yenidənqurmaya, islahatlara və uğurlu transformasiyaya valeh olmuşuq. Müsəlman ümmətinin ayrılmaz və mühüm bir üzvü olaraq, Azərbaycan müsəlman aləminin haqq işinə tərəddüd etmədən dəstək olmaqla, islamın həqiqi ruhunu və ismarıcını

təcəssüm etdirir. Xüsusilə işğal olunmuş müqəddəs Qüds şəhəri ilə bağlı Sizin cəsarətli mövqenizi, habelə İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Sammitində iştirakınızı, o cümlədən bu günün saysız-hesabsız çağırışlarına cavab vermək üçün göstərilən birgə səylərin önündə olmağınızı və bu təhdidlərdən biri olan islamofobiya kimi yanlış təfsirə qarşı mübarizə aparmağınızı qeyd etmək istəyirəm. Bu mübarizə sakit düşüncə, şəksiz mədəni, tarixi və dini sübutların təqdim olunduğu mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa əsas diqqəti yetirən Bakıda bir çox mühüm beynəlxalq konfransların keçirilməsi yolu ilə və fikir ayrılıqlarını aradan qaldırmaq, habelə sivilizasiyaların toqquşması ilə bağlı zəif arqumentləri ifşa etmək üçün şərəfli missiya ilə islamın insan irsinin qoruyucusu kimi rolunu və öz «qızıl» əsrində insan biliyi və mədəniyyətinin bütün sahələrinə verdiyi dərin töhfələrini vurğulamaqla aparılır. Azərbaycanın inklüzivliyin və tolerantlığın hökm sürdüyü, müxtəlif dinlərin nümayəndələrinin sülh və harmoniya içində yaşadığı bir ölkə kimi, islamın əsas dəyərlərini təcəssüm etməsi danılmazdır. Bununla da dünyanın müxtəlif guşələrindən olan müşahidəçilər ölkə və islam haqqında maarifləndirilir və bu müsbət imic onların yaddaşına həkk olunur.

Cənab Prezident, müsəlman ümməti Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qətnamələrin, BMT-nin qəbul etdiyi bütün qətnamələrin şəffaf və qeyd-şərtsiz icrasının tərəfdarı olmaqla, onun yanında durur. Bu müqəddəs ayda biz işğal olunmuş bütün müsəlman ərazilərinin və müqəddəs yerlərin öz həqiqi sahiblərinə qayıdacağı və ümmətimizin terror və xaosu yayan, islamın adına ləkə gətirən bədxah və cahil qüvvələrə qalib gələcəyi günün yaxın olduğunu arzulayırıq. Bununla da bəzi müsəlman ölkələrinin üzərində olan qara buludlar aradan götürüləcəkdir. Qardaş ölkələrimiz arasında birliyi və harmoniyanı bərpa etmək üçün fikir ayrılıqları aradan qaldırılacaqdır. Bu da bizə insan sivilizasiyası,

innovasiyalar və tərəqqiyə mühüm töhfə verən tərəf kimi, öz həqiqi yerimizi yenidən tutmaq imkanını verəcəkdir.

Zati aliləri, müsəlman ölkələrinin səfirləri və diplomatik missiyalarının rəhbərləri adından Sizə və ailənizə möhkəm can-sağlığı, səadət və uğurlar arzu edirəm. Qardaş Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah arzulayıram.

Allah Sizi, Azərbaycanı və bizim islam ümmətimizi qorusun! Çox sağ olun, cənab Prezident.

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ BRİCET BRİNK İLƏ GÖRÜŞ

*31 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bricet Brinki qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi qeyd olundu.*

*Söhbət zamanı «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışının əhəmiyyəti vurğulanaraq, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında getdikcə artan rolu xüsusi qeyd edildi. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı münasibətilə göndərdiyi məktublarda ikitərəfli münasibətlərimizlə bağlı ifadə etdiyi fikirlərə görə minnətdarlığını bildirdi və bunun əlaqələrimizin yüksək səviyyədə olmasını nümayiş etdirdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qeyd etdi ki, Azərbaycanın mövqeyi bu münaqişənin tezliklə, beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllindən ibarətdir.*

*Söhbət zamanı Azərbaycanın beynəlxalq terrorizmlə mübarizəyə töhfəsi, o cümlədən Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakı yüksək qiymətləndirildi, energetika sahəsində əlaqələr, regional əməkdaşlıq və demokratiyanın inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AVROPA KOMİSSİYASININ KOMİSSARI GÜNTER OTTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 may 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Günter Ottinger ilə bundan əvvəl Bakıda və müxtəlif beynəlxalq tədbirlərdə görüşlərini məmnunluqla xatırlatdı.*

*Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışının önəmini vurğulayaraq, bunun ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından böyük əhəmiyyət daşıdığını qeyd etdi və «Cənub Qaz Dəhlizi»nin reallaşmasında Avropa İttifaqının dəstəyini və Günter Ottingerin verdiyi töhfəni yüksək qiymətləndirdi.*

*Günter Ottinger Avropa Komissiyasının prezidenti Jan-Klod Yunkerin salamlarını dövlətimizin başçısına çatdırdı, ona yeni Prezidentlik dövründəki fəaliyyətində uğurlar arzuladı və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı münasibətilə təbriklərini çatdırdı. Günter Ottinger bundan əvvəl Prezident İlham Əliyevlə keçirdiyi səmərəli görüşlərini məmnunluq hissi ilə xatırlatdı. «Cənub Qaz Dəhlizi»nin açılışının əhəmiyyətinə toxunan Günter Ottinger bunu çox mühüm hadisə kimi dəyərləndirdi və bu dəhlizin Azərbaycanın və regionun Avropa ilə birləşdirilməsi baxımından önəmini qeyd etdi. Bildirdi ki, «Cənub Qaz Dəhlizi» qlobal əhəmiyyət daşıyır və bu dəhlizin reallaşması öz növbəsində, Azərbaycanda və regionda nəqliyyat, kənd təsərrüfatı, İKT və turizm sahələrinin inkişafına*

*təkan verəcəkdir. Günter Ottinger əminliklə vurğuladı ki, təmsil etdiyi qurum Azərbaycanın bundan sonra da Avropa İttifaqını dünyanın digər regionları ilə əlaqələndirəcək qlobal və regional layihələrini dəstəkləyəcəkdir.*

*Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığa dair yeni sazişlə bağlı danışıqların yaxın zamanlarda uğurla başa çatacağına və siyasi, iqtisadi, humanitar, mədəni və bütün digər sahələrdə əməkdaşlığı əhatə edəcəyinə ümidvarlıq ifadə olundu, «Cənub Qaz Dəhlizi»nin reallaşmasında Avropa İttifaqı ilə səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, enerji, investisiya, nəqliyyat dəhlizlərinin yaradılması və inkişafı, ticarət dövriyyəsinin artırılması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Jan-Klod Yunkerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının prezidentinə çatdırmağı xahiş etdi.*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ**

Hörmətli cənab Prezident!

Kabil şəhərində törədilmiş güclü partlayış nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli terror aktından son dərəcə hiddətlənir, terrorizmə qarşı ən sərt şəkildə, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını zəruri və vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Əfqanıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 iyun 2018-ci il*

## «ŞAHDƏNİZ MƏRHƏLƏ-2» ÜÇÜN İNŞA OLUNAN İKİ PLATFORMADAN BİRİNİN ÜST TİKİLİLƏRİNİN DƏNİZƏ YOLASALMA MƏRASİMİ

*1 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də «Şahdəniz Mərhələ-2» üçün inşa olunan 2 platformadan birinin – yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki «Şahdəniz» müqavilə sahəsinə yolasalma mərasimində iştirak etmişdir.*

*SOCAR-ın prezidenti Rövnəq Abdullayev və bp-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qari Couns əvvəlcə dövlət başçısına «Şahdəniz Mərhələ-2» və «Cənub Qaz Dəhlizi» layihələri ilə bağlı görülən işlər barədə məlumat verdilər.*

*«Şahdəniz-2», «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi, TANAP və TAP layihələrinin daxil olduğu «Cənub Qaz Dəhlizi» dünyanın ən böyük enerji layihələrindən biridir. Bu dəhliz ilk dəfə olaraq Xəzərdəki ehtiyatları birbaşa Avropanın qaz bazarları ilə bağlayacaqdır. Bu nəhəng layihənin bp-nin operatorluğu ilə həyata keçirilən hissələri – «Şahdəniz Mərhələ-2» və «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi layihələri tamamlanmaq üzrədir və ilk qazın gələn ilə planlaşdırılan nəqli üçün qrafikə uyğun davam edir. Hazırda təchizat-tədarük, mühəndis-layihələndirmə və tikinti işləri də daxil olmaqla, ümumilikdə bu layihələrin 92 faizdən çox hissəsi tamamlanıb, ümumi dəyəri 13 milyard dollar həcmində olan müqavilələr imzalanıb. «Şahdəniz Mərhələ-2» və «Cənub Qaz*

*Dəhlizi» layihələri üzrə indiyədək iştirakçı ölkələrdə 40 min yeni iş yeri açılıb. «Şahdəniz» yatağı üzrə hesablanmış bütün ilkin geoloji qaz ehtiyatı təxminən 1 trilyon kubmetrdən çoxdur. «Şahdəniz Mərhələ-1» çərçivəsində illik hasilat 10 milyard kubmetr qaz və təxminən gündə 50 min barrel kondensat təşkil edir. «Şahdəniz Mərhələ-1» üzrə hasil olunan qaz Azərbaycana, Gürcüstana və Türkiyəyə nəql edilir. «Şahdəniz Mərhələ-2» çərçivəsində əsas diqqət ildə 16 milyard kubmetr qaz və gündə 120 min barrelədək kondensat əlavə etməklə, hazırda istismar olunan lay intervallarında qalan ehtiyatlara yönəlib. Bu layihə çərçivəsində ildə 6 milyard kubmetr qaz Türkiyəyə, 10 milyard kubmetr qaz isə Avropa alıcılarına çatdırılacaqdır.*

*«Şahdəniz Mərhələ-2» layihəsi çərçivəsində Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliyadakı milyonlarla istehlakçıya ildə 16 milyard kubmetr qazın nəql edilməsi nəzərdə tutulur. İlk qazın nəqli Gürcüstan və Türkiyəyə gələn il, Avropaya isə 2020-ci ildə gözlənilir. «Şahdəniz» üzrə «Hasilatın Pay Bölgüsü» haqqında Sazişin 2036-cı ildən 2048-ci ilədək uzadılması «Şahdəniz» yatağının dərin qatlarındakı ehtiyatların gələcəkdə mümkün işlənilməsi üçün yol açır. Azərbaycan və Gürcüstan ərazilərində boru kəməri marşrutu boyunca «Cənubi Qafqaz» boru kəmərinin genişləndirilməsi layihəsinin tikinti işləri qrafikə uyğun davam edir. Ümumilikdə tikinti işlərinin və istismara vermə sınaqlarının 89 faizi artıq tamamlanıb. Boru kəmərinin hidrosınaq işləri həm Azərbaycanda, həm də Gürcüstanda davam edir. Onu da deyək ki, ilk dəfə olaraq «Şahdəniz Mərhələ-2» platformalarının tikintisi 100 faiz ölkə daxilində həyata keçirilir. Bu tikililərin ümumi çəkisi 29200 ton təşkil edir və onlar 16500 boru qovşağından, 881 kilometr kabel xəttindən ibarətdir. Üst tikililərin quraşdırma işləri 3 il ərzində tamamlanıb və son dərəcə yüksək texniki təhlükəsizlik göstəriciləri ilə həyata keçirilibdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, dənizə yola salınacaq yaşayış blokları və texnoloji təchizat (YBTT) platfor-*

*masının üst modullarının tikintisi nəzərdə tutulan qrafikdən tez yekunlaşıb. Üst tikililərin quraşdırılması tamamlandıqdan sonra STB-1 barjına yüklənərək, dənizə yola salınmağa hazırlıq məqsədilə bu il mayın 8-də tikinti-quraşdırma sahəsinin yanalma körpüsündəki yükləmə çərçivəsinə qaldırılıb. Yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin vahid bir konstruksiya kimi daşınması, sürüşdürmə üsulu ilə dayaq blokunun üzərinə yerləşdirilməsi və quraşdırılması işləri diqqətlə planlaşdırılıb və bu işlərin 5 gün ərzində yekunlaşması nəzərdə tutulur. Üst tikililər artıq öz yerində – suyun 94 metr dərinliyində olan dayaq blokun üzərinə quraşdırılacaq. Üst tikililərinin çəkisi təxminən 12400 ton təşkil edir. Obyektin uzunluğu 100, eni isə 60 metrdir. Bu konstruksiya 100 nəfərlik yaşayış blokundan, ümumi gücü 60 MVt olan 4 əsas elektrik generatorundan ibarətdir. Platformanın yaşayış blokunda işçilərin istirahəti üçün otaqlar, ofis otaqları, idman zalı yaradılıb. Burada neftçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün hərtərəfli şərait vardır.*

*AMEK–Tekfen–Azfen konsorsiumu tərəfindən inşa edilən yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililəri Azfen tikinti-quraşdırma sahəsində yerli infrastrukturdan və obyektlərdən istifadə edilməklə, bütövlüklə ölkə daxilində tikilib. Bu konstruksiyanın tikinti işlərinə 5000 nəfərdən çox işçi cəlb edilib. İşçi qüvvəsinin təxminən 90 faizi Azərbaycan vətəndaşları olub. Birinci platformanın üst tikililərinin dənizə yola salınması nəhəng «Şahdəniz Mərhələ-2» layihəsinin uğurla, təhlükəsiz, büdcədən xeyli az vəsait xərcləməklə və qrafikə uyğun başa çatdırılması istiqamətində mühüm bir hadisədir. Xəzərdə ən böyük və ən müasir konstruksiyalardan biri olan bu üst tikililər çox yüksək texniki təhlükəsizlik göstəriciləri ilə inşa edilibdir.*

*Prezident İlham Əliyev platforma ilə tanış oldu.*

*Bu gün dünyada bir çox ölkələrdə dərin iqtisadi böhran yaşanır. Ölkələrin gəlirləri azalır, iqtisadi vəziyyətləri çətin-*

*ləşir. Belə bir vaxtda Azərbaycan qlobal əhəmiyyətli mühüm layihələrə imza atır. Bu, dövlət başçısının rəhbərliyi ilə yürüdülən siyasətin məntiqi nəticəsidir. Azərbaycanın müasir dövrdə belə qlobal və tarixi layihələri icra etməsi ölkəmizin gəlirlərinin artmasına, xalqın sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Bu layihənin həyata keçirilməsi bir daha sübut edir ki, ölkəmizdə neftdən əldə edilən gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi, nəticədə iqtisadi potensialımızın daha da güclənməsi, dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, «qara qızıl»dan əldə olunan gəlirlərin insan kapitalına çevrilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsasını təşkil edir.*

*Sonra Prezident İlham Əliyev layihənin işçi heyəti ilə görüşdü. Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Bu gün tarixdə qalacaq. Çünki biz bu gün «Şahdəniz» platformasının üst hissələrini rəsmi qaydada açıq elan edirik. Bir neçə gündən sonra bu nəhəng qurğular dənizə göndəriləcək və «Şahdəniz» yatağında quraşdırılacaqdır. Bu, böyük tarixi hadisədir. Çox sevindirici haldır ki, bu nəhəng qurğular 100 faiz Azərbaycanda inşa edilibdir. Bir neçə il bundan əvvəl, xüsusilə «Şahdəniz» yatağı üzrə kontrakt imzalananda bunu təsəvvür etmək belə, mümkün deyildi.

Onu da qeyd etmək istəyirəm ki, «Şahdəniz» üzrə kontrakt 21 il bundan əvvəl iyun ayında «Xəzər neft və qaz» sərgisi zamanı imzalanmışdır. Artıq 21 ildən sonra biz bu tarixi günü qeyd edirik. Bütün bu qurğular Azərbaycanda inşa edilib. Mənə verilən məlumata görə, bu qurğuların inşasında çalışanların əksəriyyəti – 90 faizi Azərbaycan vətəndaşları olub. Yəni bu illər ərzində gözəl kadr potensialı yetişib və bu, əlbəttə, ölkəmizin enerji potensialını, iqtisadi potensialını güc-

ləndirəcəkdir. Çünki təkcə «Şahdəniz-2» layihəsi çərçivəsində əlavə 16 milyard kubmetr qaz, eyni zamanda, kifayət qədər kondensat hasil ediləcəkdir. Hasil ediləcək bütün bu təbii resurslarla bağlı kontraktlar imzalanıb, onların müştəriləri var və inşa edilən «Cənub Qaz Dəhlizi» vasitəsilə dünya bazarlarına çıxarılacaqdır.

İcra olunan layihələrin hər biri ayrılıqda tarixi hadisədir – TANAP, TAP, «Cənub Qaz Dəhlizi», «Şahdəniz-2», bu platformaların tikintisi, bu yaxınlarda Heydər Əliyev adına Yarımdalma qazma qurğusunun açılışı. Bir daha qeyd edirəm ki, bunların hər biri ayrılıqda tarixi layihədir, amma bunlara birlikdə baxanda görürük ki, Azərbaycanda nə qədər böyük potensial yaranıbdır.

*Sonra Azərbaycan Prezidenti çıxışını ingilis dilində davam etdirdi.*

– Bu həqiqətən də tarixi gündür. «Şahdəniz» müqaviləsinin imzalanmasından 21 il sonra indi biz tarixi əhəmiyyət kəsb edən günü qeyd edirik. Bu gün mən ilk növbədə, strateji tərəfdaşımız, uzun illərdir Azərbaycanın yaxın dostu olan *bp*-yə təşəkkürümü bildirmək istərdim. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması bizim əməkdaşlığımızın başlanğıcı oldu. Həmin vaxtdan bizimlə birgə çalışmış və çalışmaqda davam edən bir çox şirkətlər vardır. Sizə xatırlatmaq və məlumat vermək üçün demək istərdim ki, həmin vaxt Azərbaycan xarici neft şirkətlərindən ibarət konsorsiumla «Azəri–Çıraq–Günəşli» müqaviləsini imzaladı və *bp* sadəcə olaraq, onlardan biri idi. O, böyük hissəyə malik idi və böyük tərəfdaşlıq var idi. Bu gün də bu, müəyyən dəyişikliklərlə davam edir.

O vaxtdan *bp* ilə xüsusi münasibətlər bu şirkətin Azərbaycanın enerji bazarında, qlobal enerji bazarında fəal oyunçu olması faktına əsaslanır. Bu günədək tərəfdaşlığımızı strateji tərəfdaşlığa çevirən bir çox başqa müqavilələr imzalanıb. Onlardan biri «Şahdəniz»dir. Növbədə «Dayaz sular» və başqaları vardır. Bu, tərəfdaşlığın yaxşı göstəricisidir. Biz *bp*-yə

etimad göstəririk. Əminəm ki, *bp* də Azərbaycana etimad göstərir. Əks halda, onlar ölkəmizə bu qədər çox vəsait yatırmazdılar. Cənab Counsun dünən və bu gün qeyd etdiyi kimi, *bp*-nin fəaliyyət sferasında Azərbaycan 1 nömrəli investisiya məkanıdır. Bu isə bizim əməkdaşlığımızı daha da gücləndirir. Dünən qeyd etdiyim kimi, hazırda onlar «Azəri–Çıraq–Günəşli» müqaviləsinin genişləndirilməsi üzərində işləyirlər. Ümidvaram ki, bu, tezliklə olacaq. Bundan əlavə, təkcə «Azəri–Çıraq–Günəşli»də bizim tərəfdaşlığımız 2050-ci ilədək davam edəcək. Əminəm ki, «Şahdəniz»dən nəzərdə tutulandan daha çox qaz istehsal ediləcək. Biz «Azəri–Çıraq»ı, «Əsrin müqaviləsi» adlandırmışdıq, indi isə mən əsrlərin müqaviləsindən danışıram.

Mən həmçinin Azərbaycana yatırılan investisiyalara və uğurlu fəaliyyətə görə bütün tərəfdaşlarımıza, «Şahdəniz» tərəfdaşlarına və bu nadir qurğunu tikən şirkətlərə bir daha təşəkkürümü bildirmək istərdim. Azərbaycanda fəaliyyət göstərən beynəlxalq komanda ölkəmizin inkişafına kömək edir. Düşünürəm ki, ev sahibi olan ölkə yerli şirkət SOCAR ilə əcnəbi investorlar arasında nadir əməkdaşlıq mühiti yaradır. Bir daha sizi təbrik edirəm. Qarşıdakı illərdə sizə uğurlar arzulayıram.

* * *

*Prezident İlham Əliyev və bp-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qari Couns «Şahdəniz Mərhələ-2» üçün inşa olunan 2 platformadan birinin üst tikililərinin dənizə yola salınmasını bildirən düyməni basdılar.*

**DANİMARKA KRALİÇASI**
**ÜLYAHƏZRƏT II MARQRETEYƏ**

Ülyahəzrət!

Ölkənizin milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edir, Sizə ən xoş arzularımı yetirir, dost Danimarka xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 iyun 2018-ci il*

**İSVEÇ KRALI**
**ƏLAHƏZRƏT XVI KARL QUSTAVA**

Əlahəzrət!

İsveç Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İsveç xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyun 2018-ci il*

## BEYNƏLXALQ MÜLKİ MÜDAFİƏ TƏŞKİLATININ BAŞ KATİBİ VLADİMİR KUVŞİNOV İLƏ GÖRÜŞ

*3 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 3-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi Vladimir Kuvşinovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bakıda keçiriləcək Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Akademiyasının yaradılmasının 10 illiyi ilə bağlı tədbirin və Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi Vladimir Kuvşinov bu tədbirdə iştirakının önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Beynəlxalq Mülki Müdafiə Təşkilatı arasında uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi Vladimir Kuvşinov Bakıda keçiriləcək Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Akademiyasının yaradılmasının 10 illiyi ilə əlaqədar tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. O, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi ilə rəhbərlik etdiyi qurum arasında imzalanacaq informasiya mübadiləsi reqlamentinin əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğuladı. Vladimir Kuvşinov bildirdi ki, Azərbaycan Beynəlxalq Mülki Müdafiə Təşkilatının fəal üzvlərindən biridir və ölkəmiz bu təşkilatın strateji inkişafla bağlı fəaliyyətinə öz töhfəsini verir.*

*Söhbət zamanı Azərbaycanda mülki müdafiə sahəsində həyata keçirilən işlər müzakirə olundu, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ XANIM TEREZA MEYƏ**

Hörmətli xanım Baş Nazir!

Londonda törədilmiş terror aktı nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Bu qanlı hadisə terrorizmin dəhşətli bir bəla olduğunu, onun bütün təzahürlərinə qarşı qətiyyətlə və ardıcıl mübarizə aparılmasının zəruriliyini və vacibliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar kədərinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, Birləşmiş Krallığın bütün xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 iyun 2018-ci il*

## İRAN İSLAM RESPUBLİKASI PREZİDENT APARATININ RƏHBƏRİ MAHMUD VAEZİ İLƏ GÖRÜŞ

*4 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də İran İslam Respublikası Prezident Aparatının rəhbəri Mahmud Vaezini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək, Prezident Həsən Ruhaninin Azərbaycana son səfərini məmnunluqla xatırlatdı və səfərin çox uğurlu olduğunu, əldə edilmiş razılaşmaların və imzalanmış sənədlərin böyük önəm daşıdığını diqqətə çatdırdı. Bu səfərdən keçən dövr ərzində əlaqələrimizin yeni dinamika aldığını qeyd edən Prezident İlham Əliyev uzun illər həll olunmamış məsələlərin birgə səylərlə öz həllini tapdığını bildirdi. Bu onu göstərir ki, hər iki ölkədə əlaqələrimizin sürətli inkişafı üçün güclü siyasi iradə vardır. Dövlət başçısı Mahmud Vaezinin Azərbaycana səfərinin əməkdaşlığımızın perspektivləri, əlaqələrimizin daha da möhkəmləndirilməsi ilə bağlı qarşıda duran vəzifələrin həllinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.*

*Mahmud Vaezi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, İran Prezidenti Həsən Ruhaninin adından və öz adından dövlətimizin başçısını böyük səs çoxluğu ilə yenidən Prezident seçilməsi münasibətilə təbrik etdi. Mahmud Vaezi qeyd etdi ki, İran–Azərbaycan ikitərəfli münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf edir. Həsən Ruhaninin Azərbaycana səfərinin və*

*səfər zamanı əldə edilmiş razılaşmaların səmərəli nəticələri göz qabağındadır və yüksək səviyyədə icra olunur – Azərbaycan ilə İran arasında keçid məntəqəsi 24 saatlıq iş rejimində çalışır, Azərbaycanda Avtomobil zavodu fəaliyyətə başlayıb, Azərbaycandan İrana enerji ixracı həyata keçirilir, nəqliyyat sahəsində əməkdaşlıq durmadan genişlənir, Astara(Azərbaycan) – Astara (İran) dəmir yolunun tikintisi uğurla başa çatıb, yük terminallarının inşası isə davam etdirilir.*

*Söhbət zamanı humanitar mədəni əlaqələrin və turizm sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## GORANBOY RAYONUNA SƏFƏR

*5 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı Goranboyda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyev son vaxtlar rayonda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda rayon sakinləri və qonaqların istirahəti üçün hərtərəfli şərait yaradılıbdır.*

### Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboyda Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bu gün, sözün əsl mənasında, xalqın və dövlətin maraqlarına uyğun hərtərəfli müstəqil siyasət həyata keçirən, sürətli və davamlı inkişaf yolu ilə uğurla addımlayan suveren Azərbaycanın üzərində əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir Azərbaycan vətəndaşının qəlbində qürur və fərəh hissi doğurur. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli, ay-ulduzlu bayrağımız bu gün müasir Azərbaycanın müstəqillik rəmzinə çevrilib. Dövlətimiz və xalqımız üçün bu tarixi məsələdə ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olubdur. Məhz ulu öndərin xidmətləri sayəsində üçrəngli bayrağımız ilk dəfə Naxçıvan Muxtar Respublikasında Dövlət bayrağı kimi*

*qəbul edilib. İndi Azərbaycan bayrağı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları və mötəbər məclislərində qürurla dalğalanır.*

*Prezident İlham Əliyev dövlət atributlarımıza xüsusi ehtiramla yanaşır. Respublikamızın bölgələrində bayraq meydanları və muzeylərinin yaradılması bunun bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda tərbiyə olunmasına mühüm töhfə verir.*

*Goranboy Bayraq Muzeyi Bayraq Meydanının ərazisində yerləşir. Meydanda hündürlüyü 72 metr olan Dövlət bayrağının postament hissəsi abadlaşdırılıb, ərazidə yaşıllaşdırma işləri aparılıb, işıq dirəkləri quraşdırılıb, fəvvarələr əsaslı təmir edilibdir. Bayraq Muzeyində sərgi zalı ilə yanaşı, inzibati və yardımçı otaqlar da yaradılıb. Muzeyin sərgi zalında ümumilikdə 3 bölmə vardır. Burada Azərbaycanın xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsr xanlıqlarının bayraqları, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar nümayiş olunur. Bundan başqa, muzeyin eksponatları arasında Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid rəsmi sənədlər, Azərbaycan SSR dövründə və müstəqillik illərində qəbul olunmuş konstitusiyalar, habelə gerblər, bayraqlar, poçt markaları, orden və medallar sərgilənir.*

*Belə muzeylərin yaradılması Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən və hər bir vətəndaş üçün müqəddəs rəmzlərdən sayılan üçrəngli bayrağımıza olan hörmət və ehtiramın göstəricisidir. Belə muzeylərin yaradılması ilə bağlı icra olunan layihələrin bütün bölgələri əhatə etməsi isə yeniyetmə və gənclərimizdə yüksək vətənpərvərlik duyğuları aşılamaqla, üçrəngli bayrağımıza olan sevgini daha da artırır.*

## Dəliməmmədli–Quşçular–Fəxralı–Qurbanzadə– Alpout avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Dəliməmmədli–Quşçular–Fəxralı–Qurbanzadə–Alpout avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi inkişafın mühüm elementlərindən birini təşkil edən yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində tarixi layihələr icra olunub. Dövlət başçısının tapşırıq və göstərişlərinə əsasən, son illərdə kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunub. Belə layihələrdən biri də Dəliməmmədli–Quşçular–Fəxralı–Qurbanzadə–Alpout avtomobil yoludur. Bu yolun inşasına Prezident İlham Əliyevin bu il aprelin 30-da imzaladığı sərəncamla başlanılıb.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi.*

*Bildirildi ki, 12 min nəfər əhalinin yaşadığı 5 məntəqəni birləşdirən Dəliməmmədli–Quşçular–Fəxralı–Qurbanzadə–Alpout avtomobil yolunun ümumi uzunluğu 14 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. 4-cü texniki dərəcəli yol 2 hərəkət zolaqlıdır. Layihə çərçivəsində 212 poqonmetr müxtəlif diametrli dəmir-beton suötürücü borular, yol nişanları və göstərici lövhələr quraşdırılıb, yol-cizgi xətləri çəkilibdir. Yolun inşası yüksək səviyyədə, qısa müddətə və bütün texniki göstəricilərə riayət olunmaqla aparılıb. Bu yol sakinlərin rahat gediş-gəlişini təmin edəcək, həmçinin Bakı–Ələt–Qazax–Gürcüstan ilə dövlət sərhədi avtomobil yolu vasitəsilə respublikamızın istənilən istiqamətinə hərəkət etməyə imkan verəcəkdir. Avtomobil yolu əhatə etdiyi 5 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin*

*yaxşılaşdırılması ilə yanaşı, bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaqdır.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## «Region Aqropark»ın açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonunda «Region Aqropark»ın açılışında iştirak etmişdir.*

*Son illərdə sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkəmizin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdəndir. Bu gün Azərbaycanda sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alır. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır. Bu gün, həmçinin güzəştli kreditlər hesabına maliyyələşdirilən, müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrdən olan və ölkə əhalisinin keyfiyyətli ərzaq məhsullarına tələbatının ödənilməsinə xidmət edən müasir aqroparkların yaradılması xüsusi əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq, artıq ölkəmizdə aqroparkların yaradılmasına başlanılıb. Aqroparklar aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq edərək, sosial-iqtisadi inkişafın sürətləndirilməsində, rəqabətqabliyyətli kənd təsərrüfatı məhsullarının istehsalında, ixrac potensialının və məşğulluğun artırılmasında xüsusi əhəmiyyət kəsb edir. Aqroparkların yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində, milli brendlərin yaradılmasında, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı–emalçı–istehlakçı münasibətlərin formalaşmasında, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin*

*açılmasında əhəmiyyətli rol oynayacaqdır. Aqroparklarda kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışı bütünlükdə bu zənciri özündə birləşdirməklə, kənd təsərrüfatı məhsullarının torpaqdan istehlakçının süfrəsinədək bütün mərhələləri özündə əks etdirir. Bu da həmin məhsulların istehsalına çəkilən xərclərin, eləcə də maya dəyərinin aşağı düşməsinə və keyfiyyətin yüksəlməsinə imkan verir. Belə aqroparklardan biri də Goranboy rayonundakı «Region Aqropark»dır.*

*İqtisadiyyat naziri Şahin Mustafayev, Kənd Təsərrüfatı naziri İnam Kərimov və aqroparkın direktoru Sənan Qədimov görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdilər.*

*Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində müxtəlif bölgələrdə ayrı-ayrı istehsal sahələri istifadəyə verilir. Əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. «Region Aqropark» da belə müəssisələrdən biridir. Ümumi dəyəri 30 milyon manat olan aqroparkın yaradılmasına 6 milyon manat dövlətin güzəştli krediti verilib. Belə ki, Goranboy rayonunda uzun müddət istifadəsiz qalmış və yararsız hala düşmüş 3500 hektar, Samux rayonunda isə 1200 hektar qış otlaq sahələrinin təyinatı Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə dəyişdirilərək, əkin dövriyyəsinə cəlb edilib. Aqropark tərəfindən «Bozdağ massivi» ərazisində yerləşən, yararsız vəziyyətdə olan torpaq sahələrinin əkinə yararlı vəziyyətə gətirilməsi üçün ərazidə yarğanlar doldurulub, yüksəkkeyfiyyətli hamarlama işləri aparılıb, sahələr kol-kosdan təmizlənib, torpağın biohumus qatının bərpası məqsədilə böyük həcmdə kompost verilibdir. Torpağın tərkibinin öyrənilməsi məqsədilə nümunələr götürülərək, Türkiyənin beynəlxalq akkreditasiya olunmuş «Laben» laboratoriyasına göndərilib və analizlərin nəticələrinə uyğun əkin planı hazırlanıbdır. İstehsal olunan məhsulların uzun müddət keyfiyyətli və itkisiz saxlanılması üçün hər birinin tutumu 3000 ton olan 18000 tonluq 6 taxıl anbarı kompleksi və saatda gücü 10 ton olan qurutma sistemi inşa olunub. Amerika və Türkiyədən*

*alınan avadanlıqlarla təchiz olunmuş taxıl anbarı kompleksi tam avtomatlaşdırılmış qaydada fəaliyyət göstərir. Kompleks məhsulu qəbul edir, təmizləyir və qurudaraq, saxlanılması üçün anbarlara ötürür. Aqroparkda işçilər, kənardan cəlb olunmuş mütəxəssis və qonaqlar üçün 72 yerlik ikimərtəbəli tam infrastruktura malik müasir yataqxana və ikimərtəbəli ofis binası tikilibdir.*

*Diqqətə çatdırıldı ki, hazırda respublikanın 30 rayonu üzrə 191,8 min hektar ərazidə ümumi dəyəri 1,4 milyard manat olan 45 aqroparkın yaradılması işləri davam etdirilir. İndiyə qədər dövlət dəstəyi hesabına aqroparkların yaradılması üçün ümumilikdə 311,8 milyon manat, o cümlədən su, qaz, elektrik və yol çəkilişi, meliorativ tədbirlər və digər infrastruktur işlərinə 204,2 milyon manat dövlət əsaslı investisiya qoyulub. Ümumi dəyəri 400 milyon manatdan çox olan 15 aqroparkın yaradılmasına 110 milyon manatadək dövlətin güzəştli kreditləri ayrılıb və 14 aqropark üzrə dəyəri 565,5 milyon manat olan 24 layihəyə investisiya təşviqi sənədi verilib. Artıq Xaçmaz, Şəmkir, Cəlilabad və Goranboyda yaradılan aqroparklarda birinci mərhələ üzrə işlər başa çatdırılıbdır.*

*Qeyd edək ki, həyata keçirilən bu layihənin 2-ci mərhələsi çərçivəsində ərazilərin hazırlanması məqsədilə mövcud iri yarğanlar torpaqla doldurulacaq, ərazi kol-kosdan təmizlənəcək, əkinə hazırlıq işləri aparılacaq, 2700 hektar sahədə Amerika istehsalı olan 31 müasir pivot suvarma sistemi qurulacaq və meyvə bağlarının sahəsi 200 hektara çatdırılacaqdır. Aqroparkda gündəlik istehsal gücü 120 ton olan Bitki Yağları İstehsalı fabriki, ümumi tutumu 2000 ton olan soyuducu anbar kompleksi, 10 hektar sahədə müasir istixana kompleksi yaradılacaqdır. Aqroparkda hazırda 100 nəfər daimi işlə təmin edilib. Burada bitkilərin davamlı və keyfiyyətli su təminatının həyata keçirilməsi məqsədilə ilkin olaraq 2000 hektar sahədə Amerika istehsalı olan və məsafədən idarəetmə mexanizminə malik 24 müasir suvarma sistemi*

*qurulub. Uzun müddət əkin aparılmadığına görə ərazidə dərin və çarpaz reperlənmə işləri aparılıb, torpaq müxtəlif üzvi və qeyri-üzvi gübrələrlə zənginləşdirilibdir. Bərpa olunmuş torpaq sahəsində cari ildə 823 hektarda taxıl, 93 hektarda yonca, 320 hektarda şəkər çuğunduru, 192 hektarda pambıq, 64 hektarda kartof əkilib. 80 hektar ərazidə damcı suvarma sistemləri qurulmaqla, zeytun, badam və digər meyvə bağları salınıb. Aqroparka məxsus torpaq sahələrinin Bozdağ ərazisində əmələ gələn sel sularından mühafizəsi məqsədilə 15,5 kilometr uzunluğunda seltutucu kanal inşa olunubdur.*

*Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə bildirdi ki, aqroparkda zəruri infrastrukturun yaradılması məqsədilə qoyulmuş 35 milyon manat dövlət əsaslı investisiya hesabına ərazini öz axını ilə suvarma suyu ilə təmin etmək üçün Şəmkir–Samux–Goranboy magistral suvarma kanalı üzərində baş suqəbuledici qur-ğu, nəqledici boru kəməri, sututumu 100 min kubmetr olan dəmir-beton üzlüklü hovuz, sututumu 300 min kubmetr olan torpaq əsaslı hovuz inşa olunub. Bundan əlavə, 35/10 kV-lıq yarımstansiya da inşa edilib, Lək yarımstansiyasından 14 kilometr uzunluğunda yüksəkgərginlikli elektrik xətti, Qazıməmməd–Qazax magistral qaz kəmərinin «Ağasıbəyli» qazpaylayıcı stansiyasindan 12 kilometrlik qaz xətti çəkilib və Fəxralı kəndindən əraziyə 9,4 kilometr uzunluğunda yeni asfalt yol salınıbdır.*

*Sonra Azərbaycan Prezidenti aqroparkın kollektivi ilə görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Goranboy aqroparkın açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Çox gözəl hadisədir. Goranboy rayonunun iqtisadi potensialının möhkəmlənməsində bu aqroparkın çox böyük rolu olacaqdır. Dövlət öz dəstəyini növbəti dəfə göstərdi. Bildiyiniz kimi, Azərbaycanda aqroparkların yaradılması dövlət xətti ilə həyata keçirilir. Dövlət özəl sektora daim diqqət və dəstək göstərir. Vaxtilə istifadəsiz qalmış bu ərazidə dövlət xətti ilə böyük infrastruktur layihələri icra edilibdir. Yollar, qaz, elektrik və su xətləri çəkilib, suvarma işləri görülüb, dövlət xətti ilə ən müasir texnika alınıbdır. Bu texnikanın bir hissəsi burada nümayiş etdirilir. Bu, dünyanın ən aparıcı şirkətinin texnikasıdır. Dövlət xətti ilə 40-dan çox texnika gətirilib və bu aqroparka lizinqə verilibdir.

Dövlət tərəfindən aqroparkın yaradılmasına 35 milyon manat vəsait ayrılıbdır. Bildiyiniz kimi, aqroparkın ərazisi 4700 hektardır və bu torpaqlardan istifadə olunmurdu. İndi isə burada gözəl işlər görülüb, özəl sektor öz tərəfindən vəsait qoyubdur. Mənə verilən məlumata görə, özəl investisiyaların həcmi 30 milyon manatdır. Beləliklə, biz görürük ki, dövlət–özəl sektor partnyorluğu gözəl nəticələrə gətirib çıxarır. Böyük investisiyalar qoyulur və bu investisiyaların böyük səmərəsi olacaqdır. Yüzlərlə iş yeri yaradılır, yerli istehsal təşkil olunur. Burada bir çox kənd təsərrüfatı məhsulları yetişdiriləcək və əminəm ki, ölkə bazarına, xarici bazarlara çıxarılacaqdır.

Bütövlükdə bu gün Azərbaycanda aqroparkların yaradılması geniş vüsət alıbdır. Nəzərdə tutulan 45 aqroparkdan 4-ü artıq istifadəyə verilib: Yalama, Şəmkir, Cəlilabad və bu gün Goranboy rayonunda. Mən dördünün də açılışında şəxsən iştirak etmişəm. Bu bir daha onu göstərir ki, dövlət bu məsələlərə çox böyük diqqət yetirir və dəstək verir. Bu 45 aqroparkın yaradılmasına 1,4 milyard manat sərmayə qoyulacaq, onun bir hissəsi artıq qoyulubdur. Bu aqroparkların ərazisi 191

min hektara bərabərdir. Bax, bu qədər torpaq istifadəsiz qalmışdır. İndi isə tezliklə bu 45 aqroparkın yaradılması nəticəsində kənd təsərrüfatı məhsullarımızın istehsalı xeyli artacaqdır. Beləliklə, ölkə qarşısında duran əsas vəzifələrdən biri – ərzaq təhlükəsizliyi məsələsi öz həllini tapacaq və biz idxaldan asılılığımızı daha da azaldacağıq.

Mənə məlumat verildi ki, məhsuldarlıq da çox yüksəkdir. Arpada məhsuldarlıq hektardan 50 sentnerdir, hesab edirəm ki, buğda da ən azı bu qədər olmalıdır. Yəni burada ən müasir texnologiyalar tətbiq olunur, o cümlədən müasir suvarma texnologiyaları, pivot suvarma sistemləri quraşdırılır. Bu sistemlərin tətbiqi Azərbaycanda geniş vüsət alacaqdır. Bu məqsədlə artıq bu sistemlərin istehsalı ölkəmizdə təşkil edilib ki, xaricdən asılılıq azalsın və xaricə valyuta getməsin.

Beləliklə, aqroparkların yaradılması və fəaliyyəti nəticəsində ərzaq təhlükəsizliyi məsələləri öz həllini tapacaq, işsizliyin azaldılması ilə bağlı əlavə addımlar atılacaq, yerli istehsal inkişaf edəcək, ixrac imkanlarımız genişlənəcəkdir. Çünki burada yetişdiriləcək məhsullar ixrac yönümlü məhsullardır. Ölkəmizdə kənd təsərrüfatı ilə bağlı siyasətimiz uğurla icra ediləcəkdir. Kənd təsərrüfatına böyük diqqət göstərilir. Azərbaycanda kənd təsərrüfatı prioritet sahələrdən biridir. Bundan sonra biz bu siyasəti ancaq ən müasir texnologiyalar və elmi əsaslar üzərində aparacağıq.

Bu aqroparkın yaradılması məni çox sevindirir. Çünki bu gün biz siyasətimizin real nəticələrini görürük. Bu bir daha göstərir ki, biz düşünülmüş siyasət aparırıq. İstər sənaye, istər kənd təsərrüfatı istehsalı, istərsə də infrastruktur layihələrinin icrası ilə bağlı işlər ən yüksək səviyyədədir. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumu dünyada yol infrastrukturu ilə bağlı reytinqini açıqladı. Bu reytinqə görə Azərbaycan MDB məkanında yol infrastrukturu üzrə 1-ci, dünya miqyasında isə 36-cı yerdədir. Azərbaycanda nəinki yol infrastrukturu, bütün infrastruktur ən yüksək səviyyədədir, o cümlədən də Goranboy

rayonunda. Baxın, son illər ərzində nə qədər böyük işlər görülübdür. Goranboy rayonunda bir neçə yol layihəsi icra edilibdir. Onlardan ikisi bu gün açılır. Bütövlükdə bu layihələrin icrası nəticəsində artıq rayon əhalisinin 60 faizi təmir edilmiş yollarla təmin edilir. Gələn il 1 yol layihəsi icra ediləcək ki, o da 15 məntəqəni əhatə edəcəkdir. Beləliklə, demək olar ki, Goranboy rayonunun əsas yol infrastrukturu tamamilə yenidən qurulacaqdır. Goranboy rayonunda elektrik xətləri çəkilib, elektrik təchizatı həll olunub, 2 yarımstansiya inşa edilib, biz onlardan birini bu gün istifadəyə verəcəyik. Ev təsərrüfatlarının 95 faizi qazlaşdırılıb, içməli su təchizatı məsələsi hələ 4 il bundan əvvəl öz həllini tapıb. Mən sonuncu dəfə burada olarkən biz içməli su layihəsini istifadəyə verdik. Suvarma ilə bağlı işlər yüksək səviyyədədir. Bax, bu aqroparkda 4700 hektar torpaq suvarma suyu ilə təmin ediləcəkdir. Şəmkirçay su anbarının tikilməsi nəticəsində yaranmış o süni gölün potensialından istifadə edirik. Goranboy rayonunda əlavə 8000 min hektar, eyni zamanda, Samux rayonunda bir neçə min hektar torpaq su ilə təmin ediləcəkdir. Yəni Goranboy rayonunun timsalında görülən işlərin mahiyyəti və əhəmiyyəti budur. İnfrastruktur layihələri, sosial infrastrukturla bağlı layihələr, demək olar ki, tam icra edilib. Goranboy rayonunda 40-dan çox məktəb təmir edilib və tikilibdir. Hazırda 130 çarpayılıq Mərkəzi Rayon Xəstəxanasının tikintisi gedir, bu ilin sonuna qədər istifadəyə verilməlidir. Xalça fabriki tikilir, o da bu ilin sonuna qədər istifadəyə verilməlidir. Yəni bütün bu işlər göstərir ki, ölkəmiz uğurla, inamla inkişaf edir. Bütün regionlar inkişaf edir. Regionların kompleks inkişaf konsepsiyası həyatda öz əksini tapır. İş yerləri, yerli istehsal yaradılır. Bir daha deyirəm ki, dünyanın 1 nömrəli şirkətinin texnikası bu gün Goranboydadır, ölkəmizin hər bir yerindədir. Biz son illər ərzində kənd təsərrüfatı üçün minlərlə texnika almışıq və yenə də alacağıq. Bir daha demək istəyirəm ki, bu aqroparkın yaradılması bizim uğurlu siyasətimizin təzahürüdür, onun göstəricisidir. Mən bu

gözəl hadisə münasibətilə sizi təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

**S ə n a n  Q ə d i m o v** (*«Region Aqropark»ın direktoru):* Möhtərəm cənab Prezident, icazə verin, kollektivimiz adından Sizi salamlayım, xoş gəlmisiniz! Təqdimatına toplaşdığımız bu aqropark Sizin birbaşa dəstəyiniz, təşəbbüsünüz əsasında yaradılıbdır. Bozdağ massivində yerləşən bu torpaqlar uzun müddət istifadəsiz qalan yararsız torpaqlar idi. Burada heç vaxt suvarma olmamışdır. Lakin Sizin birbaşa sərəncamınız və göstərişiniz əsasında bu ərazini – aqroparkı suvarma suyu ilə təmin etmək məqsədilə su xətləri çəkildi, iri tutuma malik su anbarları inşa edildi. Bundan başqa, dövlətimizin investisiya dəstəyi ilə mühüm işlər icra olundu, yol, qaz, işıq xətləri çəkildi. Aqroparkların yaradılması ideyası birbaşa Sizin təşəbbüsünüzlə, göstərişinizlə yerinə yetirilibdir. Biz də 2000 hektar sahədə 24 ədəd müasir pivot suvarma sistemi quraşdırmışıq. 2-ci mərhələdə isə 2700 hektar sahədə 31 pivot suvarma sisteminin quraşdırılması üçün layihə hazırlamışıq. Bundan əlavə, aqroparkın əməkdaşları, kənar mütəxəssislər və qonaqlarımız üçün 72 yerlik, tam infrastrukturla təmin edilmiş yataqxana tipli yaşayış kompleksi də yaradılıbdır.

Cənab Prezident, buğda biçininə başlamaq üçün Sizin xeyir-dua verməyinizi xahiş edirik.

*Görüşdən sonra dövlət başçısı aqroparkda ilk buğda biçini prosesini izlədi.*

*Aqroparkın texnika ilə təchizatına xüsusi diqqət yetirilib. Belə ki, «Aqrolizinq» ASC-dən uzunmüddətli lizinq əsasında Amerika istehsalı olan 20 adda 41 «John Deere» və Türkiyə istehsalı olan müxtəlif kənd təsərrüfatı təyinatlı texnika və aqreqatlar alınaraq, istehsal prosesinə cəlb edilibdir.*

*İnnovativ texnologiyaların tətbiqinə, yüksək məhsuldarlığın əldə olunmasına, ərzaq bolluğunun və yeni iş yerlərinin yaradıl-*

*masına imkan verən belə aqroparklar istehsal ediləcək məhsulların geniş çeşidi ilə diqqət çəkir. Konkret olaraq bu aqroparkda ilkin hesablamalara görə ildə 600 milyon manatdan çox kənd təsərrüfatı məhsullarının istehsalı planlaşdırılır.*

## Dəliməmmədli–Muzdurlar–Qırıqlı avtomobil yolunun əsaslı təmirdən və bərpadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonunda Dəliməmmədli–Muzdurlar–Qırıqlı avtomobil yolunun əsaslı təmir və bərpadan sonra açılışını etmişdir.*

*Regionların inkişafı dövlət proqramlarına uyğun olaraq, son illərdə yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər kənd yollarının yenidən qurulmasını da geniş əhatə edir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcminin ildən-ilə artması Azərbaycanda icra olunan sosial layihələrin davamlı xarakter aldığını aydın nümayiş etdirir. Hazırda respublikanın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələr uğurla icra olunur. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə uyğun olaraq, bu gün əsas diqqət kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib. Bu tədbirlər bir neçə mühüm məqamı özündə ehtiva edir. Belə layihələrdən biri də Dəliməmmədli–Muzdurlar–Qırıqlı avtomobil yolunun əsaslı şəkildə yenidən qurulmasıdır.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına yolun texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, uzunluğu 20 kilometr olan yolun hərəkət hissəsinin eni 6 metr təşkil edir. 4-cü texniki dərəcəli yol 2 hərəkət zolağından ibarətdir. Hərəkət zolağının eni isə 3 metrə bərabərdir.*

*Dəliməmmədli–Muzdurlar–Qırıqlı avtomobil yolunun inşası Prezident İlham Əliyevin 2017-ci ildə imzaladığı sərəncama əsasən aparılıb. İnşaat işləri zamanı bütün texniki tələblərə tam riayət olunub. Layihə çərçivəsində 300 poqonmetr müxtəlif diametrli dəmir-beton suötürücü borular, zəruri yerlərdə 1000-ə yaxın yol nişanı və göstərici lövhə quraşdırılıb, 50 kilometr uzunluğunda yol-cizgi xətləri çəkilibdir. Bu yol 15 min nəfər əhalinin yaşadığı 15 məntəqəni birləşdirərək, əhatə etdiyi yaşayış məntəqələrinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaqdır.*

*Dövlət başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

**«Dəliməmmədli» yarımstansiyasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonunda hər biri 40 meqavolt-amper gücündə olan 2 transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq 2x40 MVA gücündə «Dəliməmmədli» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*«Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev dövlət başçısına yarımstansiya barədə məlumat verdi. Bildirildi ki, bu yarımstansiyanın genişləndirilərək, əsaslı şəkildə yenidən qurulması rayonun keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik təchizatını tam formalaşdırmağa imkan verir. «Dəliməmmədli» yarımstansiyası vasitəsilə Dəliməmmədli şəhərinin və ətraf 21 yaşayış məntəqəsinin, o cümlədən 35 kilovoltluq «Azad» hava xətti üzərində olan 35/10 kilovoltluq «Azad» və 35/10 kilovoltluq «Alıuşağı» yarımstansiyalarının elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Yarımstansiyadakı 110 kilovoltluq açıq paylayıcı qurğu müasirtipli 7 eleqaz açarla təchiz edilib. Bununla yanaşı, yarımstansiyada 8 çıxış fideri olan 35 kilovoltluq müasirtipli qapalı paylayıcı qurğu, 33 çıxış fideri olan 4 giriş, 2 bölmədən*

*ibarət 10 kilovoltluq müasirtipli qapalı paylayıcı qurğu quraşdırılıb. Yarımstansiya müasir standartlara cavab verən elektron tipli «rele» mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib və SCADA dispetçer sisteminə qoşulubdur. «Dəliməmmədli» yarımstansiyasında qısa qapanmaları məhdudlaşdırmaq üçün hər iki 40 MVA transformatorun 10 kilovoltluq tərəfində hər biri 2500 amperlik 6 reaktor qurğusu əlavə olunub. Yarımstansiya 110 kilovoltluq ikidövrəli «Gəncə-1» və 110 kilovoltluq «Gəncə-2» hava xətlərindən ikidövrəli budaqlanma yolu ilə qidalanaraq, 35 kilovoltluq 2 hava xəttini enerji ilə təmin edir. Bundan başqa, 35 kilovoltluq «Kürəkçay» və «Azad», 10 kilovoltluq «Ağamalıoğlu», «Nizami», «Fəxralı», «Göynüyən», «Ferma», «Səmədabad», «Xoylu», «Baxçakürd», «Pambıq zavod», «IV Subartezian» və «Qazaxlar» hava xətləri də məhz «Dəliməmmədli» yarımstansiyasından çıxır. Bu yarımstansiyadan çıxan 10 kilovoltluq hava xətləri vasitəsilə 8000 abonentin elektrik enerjisi təchizatı təmin olunur.*

*Prezident İlham Əliyevə 40 MVA gücündə olan 2 transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq «Kürəkçay» yarımstansiyası barədə də məlumat verildi. Bildirildi ki, 1947-ci ildən istismarda olan bu yarımstansiya tamamilə yenidən qurulub. Goranboy şəhərindəki mühüm sosial və istehsalat obyektlərinin enerji ilə təminatını həyata keçirən «Kürəkçay» yarımstansiyasında 40 MVA gücündə 2 transformator, 110 kilovoltluq 5 dəst müasirtipli eleqaz açar, müasirtipli İdarəetmə Mərkəzi, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular və 34 yuva quraşdırılıbdır. Ümumilikdə «Kürəkçay» yarımstansiyası vasitəsilə 20 min abonent – 100 mindən artıq əhali elektrik enerjisi ilə təchiz edilir.*

*Ölkəmizin regionlarının elektrik təsərrüfatında silsilə və kompleks yenidən qurulma tədbirlərinin ardıcıl icrası sakinlərin sosial məsələlərinin həlli istiqamətində görülən tədbirlərdən biridir. Bu tədbirlər ilk növbədə, elektrik enerjisinə olan tələbatın ödənilməsinə, rayonların elektrik enerjisi ilə təchizatının əsaslı*

*şəkildə yaxşılaşdırılmasına, elektrik şəbəkələrində yüklənmələrin azalmasına, texniki itkilərin minimuma endirilməsinə imkan yaradır. Hazırda bölgələrdəki energetika qurğuları həm müasir görünüşü, həm də texniki üstünlükləri ilə əvvəlkilərdən fərqlənir. Bu sahədə tətbiq olunan yeniliklər və energetika sahəsində həyata keçirilən layihələr bütövlükdə regionların sosial-iqtisadi inkişafına əsaslı töhfə verir. Aparılan yenidən qurulma tədbirləri elektrik enerjisinə durmadan artan tələbatın qarşılanmasında da mühüm rol oynayır. Paylayıcı şəbəkələrin müasirləşdirilməsi gündən-günə sürətlənir və daha geniş ərazini əhatə edir. Ötən əsrin 60-cı illərindən istismarda olan və tamamilə yararsız vəziyyətə düşən elektrik təsərrüfatında hazırda, sözün əsl mənasında, inqilabi dəyişikliklər aparılır. Yeni qurğular təkcə rayon mərkəzləri və iri yaşayış məntəqələrinin deyil, eləcə də ətraf kəndlərin elektrik enerjisi ilə etibarlı təchizatında böyük rol oynayır. «Azərişıq» regionlarda sənaye və aqrar bölmənin, eləcə də turizmin köklü şəkildə inkişafı üçün nəzərdə tutulan tədbirlərin dolğun həyata keçirilməsinə hərtərəfli dəstək vermək üçün silsilə işlər görür.*

*Dövlət başçısı yarımstansiyanı işə saldı.*

## Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının İpək yolu ilə kəsişmə qurğusunun və 4,95 kilometrlik hissəsinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının 2-ci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin açılışında iştirak etmişdir.*

*Bu gün dünyada su ehtiyatlarının rolu və əhəmiyyəti getdikcə artır. Bu məsələ ərzaq təhlükəsizliyinin təmin edilməsində özünü daha qabarıq büruzə verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə bu istiqamətdə çox mühüm layihələr icra*

*olunub, böyük uğurlar qazanılıbdır. Bu gün Azərbaycanda bu sahədə mövcud problemləri həll etmək və qarşıda duran strateji məqsədə çatmaq üçün elmi əsaslara söykənən təhlil aparılaraq, mühüm tədbirlər həyata keçirilir. Son illərdə ən böyük layihələrdən olan, strateji əhəmiyyəti və kapital qoyuluşu ilə seçilən Taxtakörpü və Şəmkirçay su anbarlarının tikintisi başa çatdırılıb. Bununla da minlərlə hektar torpaq sahəsinin suvarılmasına şərait yaranıb. Digər tərəfdən, bu, kənd təsərrüfatının inkişafına, yeni iş yerlərinin yaradılmasına imkan verib. Bütün bunlar sübut edir ki, ölkədə kənd təsərrüfatı istehsalının artırılmasında, əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında böyük rolu olan mövcud meliorasiya və su təsərrüfatı fondlarının qorunub saxlanılması və onların istismarının yaxşılaşdırılması, bu sahənin müasir tələblər səviyyəsində daha da inkişaf etdirilməsi Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz dövlət başçısının diqqəti və qayğısı sayəsində belə mühüm strateji əhəmiyyət kəsb edən layihələr reallığa çevrilib. Şəmkirçay su anbarı və Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının kompleks layihəsi də bu baxımdan mühüm əhəmiyyətə malikdir.*

*«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlət başçısına Şəmkirçay su anbarı və Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının kompleks layihəsi barədə məlumat verdi. Bildirildi ki, ötən əsrin 80-ci illərində inşa edilmiş bu suvarma kanalının birinci növbəsinin davamı olaraq, uzunluğu 27,95 kilometr olan ikinci növbəsinin tikintisinə 2015-ci ildə başlanılıb. Bu kanalın tikintisi ilə su mənbəyi işğal zonasında qalmış Goranboy rayonunun 8293 hektarı yeni suvarılacaq torpaq olmaqla, ümumilikdə 26584 hektar torpaq sahəsi suvarma suyu ilə təmin ediləcəkdir. Qeyd edək ki, Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yoluna qədər 8,55 kilometrlik birinci mərhələsinin tikintisi 2017-ci ildə başa çatdırılıb. Prezident İlham Əliyev Samux və Goranboy rayonlarının*

*941 hektarı yeni suvarılacaq torpaqlar olmaqla, 8938 hektar torpaq sahəsinə suvarma suyunun verilməsi mərasimində iştirak edib. Dövlət başçısının həmin mərasimdə verdiyi tapşırıqların icrasına uyğun olaraq, 2017-ci ildə Şəmkir–Samux–Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu və ikinci dərəcəli avtomobil yolu ilə kəsişməsində keçid qurğularının, eləcə də kanalın tikintisi işləri davam etdirilib. Bu hissədə nəqliyyatın hərəkətinə maneçilik yaradılmaması üçün 450 metr uzunluğunda düzbucaqlı dəmir-beton suötürən qurğu, eləcə də uzunluğu 4,95 kilometr olan açıq dəmir-beton üzlüklü kanal inşa olunub. Bununla da Goranboy rayonunda daha 8000 hektar sahəyə suvarma suyunun verilməsi təmin edilibdir.*

*Qeyd edək ki, Prezident İlham Əliyevin iştirakı ilə 2009-cu ildə Şəmkirçay su anbarının tikintisinin təməlqoyma və 2014-cü ildə açılışı mərasimləri keçirilib. Su-elektrik stansiyası ilə birlikdə Şəmkirçay su anbarının, ondan su götürən 60,5 kilometr uzunluğunda magistral kanalların istifadəyə verilməsi ilə Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarında 54 min hektar əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına, 17 min hektar yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə, ildə 56 milyon kilovat-saat elektrik enerjisinin istehsalına, Gəncə və Şəmkir şəhərlərinin, Samux rayonunun Nəbiağalı qəsəbəsinin əhalisinə ildə 50 milyon kubmetrə yaxın ekoloji təmiz içməli su verilməsinə imkan yaranıbdır.*

*Hazırda su anbarından Şəmkir şəhərinə içməli su verilir, Gəncə şəhərinə və Samux rayonunun Nəbiağalı qəsəbəsinə isə içməli su xətti hazır olduqdan sonra suyun verilməsi təmin ediləcəkdir. Şəmkirçay su anbarı istifadəyə verildiyi vaxtdan bu il yanvarın 1-dək oraya yığılan 740 milyon kubmetr su hesabına Şəmkir, Samux, Göygöl və Goranboy rayonlarının 43 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılıb, Şəmkir, Goranboy və Göygöl rayonlarının 4940 hektar, eləcə də «Şəmkir Aqropark»ın 543 hektar yeni suvarılacaq sahələri suvarma suyu ilə təmin edilibdir.*

*Dövlət başçısı qurğunu işə saldı.*

**İ l h a m  Ə l i y e v:** Uğurlar olsun. Bu gün biz belə gözəl layihəyə start veririk. Yaxşı iş görmüsünüz. Gözəl kanal çəkmisiniz. Kənd təsərrüfatının inkişafı üçün bunun çox böyük əhəmiyyəti vardır. Goranboy rayonunun gələcək inkişafı da kənd təsərrüfatı ilə bağlıdır. Ona görə 8000 hektar əlavə torpağa su veriləcək. İndi mənə məruzə edildi ki, növbəti layihələr də vardır. Biz bu kanalı uzatmalıyıq. Goranboyda əlavə 10 min hektar, sonra daha 20 min hektar torpaqda suvarma işlərini təşkil edəcəyik. Ona görə bu il də, gələn il də işlər çox olacaq. Hazır olun ki, belə gözəl işləri davam etdirək.

# NAFTALAN ŞƏHƏRİNƏ SƏFƏR

*5 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Naftalan şəhərinə səfərə gəlmişdir.*

*Dövlət başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Naftalan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Rövşən İbrahimov dövlət başçısına abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

## Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı xəstəxana binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlət başçısına bu tibb müəssisəsində yaradılan şərait barədə məlumat verdi.*

*Bildirildi ki, 60 çarpayılıq Naftalan Şəhər Mərkəzi Xəstəxanasının inşasına 2015-ci ildə başlanılıb və 2018-ci ilin mayında tikinti işləri başa çatdırılıbdır. Şəhər Mərkəzi Xəstəxanasının tikintisi Prezident İlham Əliyevin 2013-cü və 2018-ci illərdə imzaladığı sərəncamlara əsasən aparılıb. Xəstəxana 1,2 hektar ərazidə yerləşir. Tikintinin ümumi sahəsi 8000 kvadratmetrdən çoxdur. Xəstəxanada müvafiq şöbələr yaradılıb. Bu müəssisənin laboratoriya şöbəsi ən müasir avadanlıqlarla təchiz olunub. Bu*

*da laborator müayinələri yüksək keyfiyyət, dəqiqlik və qısa müddətə aparmağa imkan verir. Burada şüa diaqnostikası, qəbul, inzibati, poliklinika, reanimasiya, intensiv terapiya şöbələri fəaliyyət göstərəcəkdir. Əməliyyat blokunda, ümumiyyətlə, xəstəxananın bütün şöbələrində ən müasir tibbi avadanlıqlar quraşdırılıbdır.*

*Bu gün Azərbaycanda səhiyyənin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, indi respublikamızın bütün bölgələrində müasir səviyyədə tibb ocaqları yaradılıb. Son illərdə səhiyyə sisteminin təkmilləşdirilməsi və inkişafı ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində əsas yerlərdən birini tutur. Ən mühüm məqamlardan biri odur ki, Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin edilməsi, onların müalicə və müayinə işinin yüksək səviyyədə təşkili, gələcəyimiz olan uşaqların sağlam yetişməsi istiqamətində icra edilən layihələr dövlət başçısının daim diqqət mərkəzindədir. Dövlətimiz tərəfindən vətəndaşların məhz ölkəmizdə yüksək səviyyəli tibbi xidmətlərdən yararlanmaları ilə bağlı çox mühüm işlər görülür. Naftalan Şəhər Mərkəzi Xəstəxanası kimi müasir tibb müəssisəsinin istifadəyə verilməsi yalnız şəhər sakinlərinə deyil, eyni zamanda, regionun əhalisinə hərtərəfli tibbi xidmət göstərməyə imkan verəcək. Belə layihələrin icrası zamanı səhiyyə müəssisələrinin dünyanın aparıcı şirkətlərinin müasir tibbi avadanlıqlar ilə təchiz edilməsi isə xüsusilə vacibdir. Xəstəxanada əsas korpus, keçid məntəqəsi, transformator yarımstansiyası, qazanxana və nasosxana binaları, oksigen stansiyası, dizel generator meydançası və stansiyası yaradılıbdır.*

*Xəstəxana binası ilə tanışlıqdan sonra Prezident İlham Əliyev səhiyyə müəssisəsinin kollektivi ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Sizi salamlayıram. Naftalan Şəhər Xəstəxanasının açılışı münasibətilə sizi təbrik edirəm. Çox gözəl xəstəxanadır. İndi xəstəxana ilə tanış oldum. Görürəm ki, bütün işlər yüksək səviyyədə təşkil edilib. Şadam ki, bu xəstəxana istifadəyə verilir. Bu xəstəxananın tikintisi mənim təşəbbüsümlə həyata keçirildi. Naftalan şəhərinin müasir tibb ocağı olmalı idi və şadam ki, biz buna nail olduq. Həm xarici görünüşü, həm daxili tərtibatı gözəldir və əlbəttə ki, şərait də yaxşıdır. Bütün lazımi avadanlıqlar var, ən yüksək standartlar tətbiq olunur, ölkəmizin hər bir yerində belə gözəl xəstəxanalar tikilir. Burada yüksək tibbi xidmət göstərmək üçün bütün şərait yaradılıb. 12 şöbə vardır. Demək olar ki, bütün şöbələr fəaliyyət göstərəcək. Həm şəhər sakinlərinə, həm də Naftalana gələn qonaqlara yüksək xidmət göstəriləcəkdir.

Bu xəstəxananın tikintisi son illər ərzində səhiyyə sahəsinə ayrılan diqqətin və qoyulan vəsaitin təzahürüdür. Səhiyyə sisteminin möhkəmləndirilməsi sahəsində böyük işlər görülüb. Son 15 ildə 600-dən çox tibb müəssisəsi yaradılıb, yenidən tikilib və ya əsaslı təmir olunubdur. Biz, demək olar ki, ölkəmizin hər bir yerində müasir tibb mərkəzlərinin yaradılmasına nail olmuşuq.

Bu ilin Dövlət İnvestisiya Proqramında 6 şəhər xəstəxanasının açılışı nəzərdə tutulur. Onların sırasında birinci Naftalan xəstəxanasıdır. Ümid edirəm ki, ilin sonuna qədər digər 5 şəhərdə də xəstəxanaların açılışı təmin ediləcəkdir. Beləliklə, Azərbaycanın bütün şəhərlərində ən müasir tibb mərkəzləri yaradılmış olur. Bu, bir neçə il bundan əvvəl qarşımıza qoyduğumuz məsələlərdən biri idi. Biz bu məqsədə çatmaq üçün ardıcıllıqla böyük işlər görürük.

Əlbəttə ki, bunlar böyük maliyyə vəsaiti tələb edən layihələrdir. Azərbaycan dövləti iqtisadi cəhətdən kifayət qədər güclüdür və gücümüz artır. Sosial məsələlər bizim siyasətimizin əsas prioritetidir. İmkanımız da, siyasi iradəmiz də, texniki imkanlarımız da vardır. Bütün səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində böyük işlər görülübdür.

Azərbaycanda tibbi xidmətin səviyyəsi artır. Mənim təşəbbüsümlə bir neçə il ərzində artıq kütləvi müayinədənkeçmə proqramı həyata keçirilir. Mən əvvəlki illərdə də bu məsələ ilə bağlı fikirlərimi dəfələrlə bildirmişəm – hər bir vətəndaş ildə heç olmasa, 1 dəfə tibbi müayinədən keçməlidir. İndi bunu etmək üçün hər bir rayonda bütün imkanlar vardır. Dövlət öz dəstəyini göstərərək, bu işləri təşkil edir. Bu il keçən ildəki kimi, 5 milyondan çox Azərbaycan vətəndaşı bu imkandan istifadə edib. Müayinə zamanı vətəndaşlarda aşkar olunan xəstəliklər sonra ixtisaslaşmış mərkəzlərdə müalicə edilir.

İcbari tibbi sığorta sisteminin tətbiqinə başlanılıbdır. Artıq 2 şəhərdə bu sistem mövcuddur və biz bu sistemin üstünlüklərini görürük. Səhiyyə sistemimizi tədricən bu istiqamətdə inkişaf etdirərək, növbəti illərdə yeni şəhərləri bu sistemlə əhatə edəcəyik.

İnsan sağlamlığı ən vacib məsələlərdən biridir. Azərbaycanda insan sağlamlığını təmin etmək, sağlamlığı qorumaq, profilaktik tədbirlər görmək üçün kompleks işlər aparılır. Bundan sonra da bu işlərin görülməsi üçün yaxşı şərait var, o cümlədən Naftalan şəhərində. Xəstəxana eyni zamanda, həkimlərin iş yeridir. Hesab edirəm ki, hər bir həkim, hər bir tibb işçisi üçün belə şəraitdə işləmək xüsusi zövq verir.

Naftalan şəhərinin ümumi inkişafı sürətlə gedir. Mən Prezident kimi, Naftalan şəhərinə ilk dəfə 10 il bundan əvvəl gəlmişdim. O vaxt gördüyüm mənzərə, sözün düzü, məni çox narahat etdi, çox məyus etdi. Çünki şəhər çox ağır vəziyyətdə idi. Siz bunu yaxşı bilirsiniz. O vaxt infrastruktur layihələri ilə bağlı böyük problemlər var idi, elektrik enerjisi fasilələrlə verilirdi, təbii qaz, içməli su yox idi, yaşayış binaları bərbad, yollar dağılmış vəziyyətdə idi, sovet vaxtında tikilmiş sanatorilərdə ağır vəziyyətdə məcburi köçkünlər yerləşmişdi. Vaxtilə Sovet İttifaqının turizm mərkəzlərindən biri olan Naftalan bu adı, demək olar ki, itirmişdi. Nəinki başqa ölkələrdən, hətta Azərbaycanın heç bir yerindən buraya gələn yox idi. Ona görə

mən dərhal kompleks tədbirlərin görülməsi üçün müvafiq tapşırıqlar verdim. Naftalanın hərtərəfli inkişaf planı hazırlandı və mən bu planı təsdiqlədim. Bu gün biz aparılan bu işlərin real nəticələrini görürük. İlk növbədə, ağır vəziyyətdə, yarıdağılmış sanatorilərdə məskunlaşmış məcburi köçkünlər, onlar üçün xüsusi tikilmiş, böyük maliyyə vəsaiti hesabına ərsəyə gələn yeni evlərə köçürüldü və Naftalan şəhərində köçkünlər problemi həll olundu.

İnfrastruktur layihələri icra edilməyə başlandı. Elektrik enerjisi ilə təchizat təmin edildi. Bu gün bu məsələ ilə bağlı heç bir problem yoxdur. Naftalan əhalisi təbii qazla 100 faiz təmin edilir. Naftalanda içməli su layihəsi 5 il bundan əvvəl mənim iştirakımla istismara verilibdir. Yollar salındı, digər infrastruktur layihələri icra edildi, məktəblər əsaslı şəkildə təmir olundu. Yəni Naftalanda infrastruktur layihələri ilə bağlı bütün məsələlər kompleks şəkildə öz həllini tapdı. Şəhərin abadlaşdırılması işlərinə vəsait ayrıldı, parklar salındı, icra hakimiyyətinin yeni binası, Heydər Əliyev Mərkəzi tikildi və Naftalanın əvvəlki şöhrəti özünə qaytarıldı.

Bu, işin birinci mərhələsi idi. Bu layihələr həyata keçirilmədən, hər hansı bir inkişafdan söhbət gedə bilməzdi. Bununla paralel olaraq, biz Naftalanı müasir turizm mərkəzinə çevirmək üçün konkret addımlar atmağa başladıq. Mənim iştirakımla 3 böyük sanatori – indi onlar mehmanxana sayılır – yenidən tikildi, əsaslı şəkildə təmir edildi və istifadəyə verildi. Birinci «Çinar», sonra «Qaşaltı», ondan sonra isə «Qarabağ» sanatorisi. Bu 3 sanatori-mehmanxanada 1000-dən çox otaq vardır. Burada həm ən yüksək səviyyədə müalicə işləri aparılır, həm də ki, vətəndaşlar və qonaqlar istirahət edirlər. Yaxın gələcəkdə yeni mehmanxananın açılışı gözlənilir. Mənə indi bu barədə məlumat verildi. O qədər də böyük olmayan digər mərkəzlər, istirahət zonaları yaradılır. Beləliklə, Naftalan nəinki ölkəmizin, hətta dünyanın nadir turizm mərkəzlərindən birinə çevrilir.

Mənə verilən məlumata görə, keçən il Naftalana 62 ölkədən 35 min qonaq gəlibdir. Baxın, 10 il bundan əvvəl gələn qonaqlardan, ümumiyyətlə, söhbət getmirdi. Ancaq ötən il 35 min qonaq gəlib.

Hesab edirəm ki, bu hələ başlanğıcdır. Çünki məndə olan məlumata görə, sovet vaxtında Naftalana ildə 70 min qonaq gəlirdi. Bu gün Azərbaycanda turizmin sürətlə inkişaf etdiyini nəzərə alsaq, biz bu hədəfə çata bilərik. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 5 ayında isə 10 faiz artıb. Azərbaycan indi dünya miqyasında gözəl turizm mərkəzi kimi tanınır. O cümlədən müalicəvi turizmin inkişafı üçün bizdə – həm Naftalanda, həm də digər şəhərlərdə bütün imkanlar vardır. Belə şəraiti olan şəhərdə, əlbəttə ki, qonaqların sayı artmalıdır.

Son 10 il ərzində Naftalanda görülən işlər ümumi inkişaf dinamikamızı göstərir. Onu göstərir ki, güclü siyasi iradə olan yerdə, düşünülmüş siyasət aparılan ölkədə uğurlar da, nəticələr də, qələbələr də olacaq, insanlar da daha yaxşı yaşayacaqlar. Naftalanda iş yerlərinin yaradılması son illər ərzində çox sürətlə gedib. Burada yaşayan vətəndaşların böyük əksəriyyəti xidmət sektorunda işləyir, yaxşı məvacib alır və ölkəmizin inkişafına öz dəyərli töhfəsini verir. Əminəm ki, bundan sonra Naftalanda işlər yaxşı gedəcək və şəhərin inkişafı uğurla davam etdiriləcəkdir.

Sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**T ü n z a l ə  S ə f ə r o v a** *(Naftalan Şəhər Mərkəzi Xəstəxanasının həkimi):* Möhtərəm cənab Prezident, Sizi səhiyyə işçiləri adından salamlayıram, Naftalana xoş gəlmisiniz! Bu gün bizim üçün çox əlamətdar bir gündür. Sizin tapşırığınızla şəhərimizdə inşa edilmiş bu yeni, ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş xəstəxana binasını istifadəyə verirsiniz. Bu gün elə bir bölgəmiz yoxdur ki, orada yeni səhiyyə obyektləri tikilməsin və ya istifadəyə verilməsin. Bu səhiyyə obyektlərinin tikilməsinə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Siz bütün siyasətinizlə ümumbəşəri dəyərlərə sadiq qaldığınızı bir daha nümayiş etdirirsiniz. Açılışında iştirak etdiyiniz bu yeni tibb müəssisəsi də vətəndaşlarımızın sağlamlığının qorunmasına və onların daha yaxşı tibbi xidmət almalarına böyük kömək

göstərəcəkdir. Sizin tapşırığınızla hər il icra etdiyimiz vətəndaşların ödənişsiz tibbi müayinəsi bu geniş səhiyyə ocağında daha yaxşı və mütəşəkkil şəkildə həyata keçiriləcəkdir. Gördüyünüz bütün bu işlərə görə xalqımız məhz Sizə – öz Prezidentinə bir daha inanır və dərindən rəğbət bəsləyir. Bütün bu işlərə görə Sizə və Sizin ən yaxın silahdaşınız olan Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. Fürsətdən istifadə edərək, salamlarımızı hörmətli Mehriban xanıma çatdırmağınızı xahiş edirik. Sağ olun, var olun. Allah Sizi və ailənizi qorusun.

## MÜDAFİƏ NAZİRLİYİNİN «N» SAYLI HƏRBİ HİSSƏSİ ÜÇÜN İNŞA EDİLMİŞ HƏRBİ ŞƏHƏRCİKDƏ YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*5 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 5-də Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsi üçün inşa edilmiş hərbi şəhərcikdə yaradılmış şəraitlə tanış olmuşdur.*

*Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov dövlət başçısına raport verdi.*

*Məlumat verildi ki, bu hərbi şəhərciyin inşasına 2015-ci ilin yanvarında başlanılıb və 2017-ci ilin fevralında tikinti işləri başa çatdırılıbdır. Hərbi şəhərcikdə yaşayış və qeyri-yaşayış binaları, hərbi texnikanın saxlanılması üçün park inşa edilib. Ərazidə qərargah binası tikilib. Binadakı 28 xidməti otaqda hərbi qulluqçular üçün zəruri şərait yaradılıb. Otaqların hamısı lazımi avadanlıqlarla təchiz olunub. Hərbi şəhərcikdə 120 nəfərlik 8 və 150 nəfərlik 1 əsgər yataqxanası tikilib. Yataqxanalarda əsgərlərin rahatlığı üçün hərtərəfli şərait yaradılıb. Burada 14 mənzilli yaşayış binası da inşa olunub. Əsgər yeməkxanası yüksək səviyyədə qurulub. Hərbi qulluqçuların qidalanmaları üçün geniş imkanlar vardır. Hərbi şəhərcikdə çörəkbişirmə məntəqəsi fəaliyyət göstərir. Hərbi qulluqçuların istirahəti ilə yanaşı, onların asudə vaxtlarının səmərəli təşkili üçün şəhərcikdə bütün tədbirlər görülüb. Ərazidə inşa olunmuş trenajor binasında atış və sürücülük məşqlərinin keçirilməsi üçün 4*

*tank və 6 piyada döyüş maşını təlim-məşq qurğusu quraşdırılıbdır.*

*Hərbi şəhərcikdə klub binası da vardır. Burada ölkəmizin, eləcə də hərbi hissənin həyatında baş verən əlamətdar günləri qeyd etmək mümkün olacaqdır. Şəhərcikdə yaradılan hamam-camaşırxana-qazanxana kompleksi də müasirliyi ilə seçilir. Ərazidə tibb məntəqəsi tikilib. Müasir avadanlıqlarla təchiz olunmuş bu məntəqə 56 çarpayılıqdır. Şəhərcikdə ərzaq və əşya anbarları, transformator yarımstansiyası, nəzarət-buraxılış məntəqəsi, su nasos stansiyası, 500 kubmetrlik 2 su anbarı quraşdırılıb. Hərbi şəhərcikdə genişmiqyaslı abadlıq və yaşıllaşdırma işləri görülübdür.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi hissədəki texnikaya baxış keçirdi.*

*Bildirildi ki, 2S31 «Vena» özüyeriyən artilleriya qurğusu PDM-3 döyüş maşınının bazasında yerləşir və düşmənin atış vasitələrini, tank əleyhinə vasitələri susdurmaq və məhv etmək, düşmənin səngərdəki canlı qüvvəsini, yüngül zirehli texnikasını və idarəetmə məntəqələrini məhv etmək, artilleriya və minaatan batareyalarını, raketburaxma qurğularını susdurmaq üçün təyin edilibdir.*

*Divizion komandirinin 1V15 idarəetmə kompleksi yüngül zirehli MT-LB maşını bazasında divizion komandirinin hərəkətli komanda-müşahidə məntəqəsi olmaqla, gündüz və gecə vaxtı ərazinin və düşmənin kəşfiyyatını aparmaq, öz yerini və hədəflərin koordinatlarını müəyyən etmək, sınaq atışına xidmət göstərmək və atəşə düzəlişlər vermək, yuxarı rəislər, ümumqoşun və digər bölmələrin komandirləri ilə rabitə əlaqəsi saxlamaq üçün nəzərdə tutulubdur.*

*Piyadanın döyüş maşını olan PDM-3 piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Başqa qoşun növləri üçün də modernləşdirilmiş nümunələri olan bu maşın şəxsi heyəti çevrəvarı*

*olaraq, qəlpə və atıcılıq silahından, üz hissəsi isə 30 millimetrlik mərmilərdən qoruyur.*

*PDM-2 maşını da piyada və motoatıcı hissələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Onun silahlanmasına 30 millimetrlik 2A42 avtomatik topu, 7,62 millimetrlik PKTM pulemyotu və 9M113 tank əleyhinə idarəolunan raket qurğusu daxildir.*

*Piyadanın döyüş maşını olan BTR 82-A motoatıcı bölmələri atəşlə təmin etmək, onların mobil fəaliyyəti və qorunması üçün nəzərdə tutulub. Silahlandırmada olan bu zirehli təkərli transportyor motoatıcı bölmələrin şəxsi heyətinin manevr və marş zamanı daşınmasını, su maneələrinin dəf edilməsini, heyət və desantı atıcı silahlardan, mina və mərmi qəlpələrindən qorumaq, o cümlədən düşmənin canlı qüvvəsini, yüngül zirehli texnikasını məhv etmək üçün təyin olunubdur.*

*«SandCat» mobil radio idarəetmə məntəqəsi əməliyyat idarəetmə sistemlərində tətbiq olunmaqla, hərəkətdə və dayanacaqda qərargah zabitlərinin idarəetməsini təmin etmək üçündür. «SandCat» mobil radio qovşağı analoq, rəqəmsal açıq, məxfi, sinxron, tezlik dəyişən, həmçinin bütün növ məlumatların kompüterlə ötürülməsi və qəbul edilməsi üçün nəzərdə tutulubdur.*

*«Spike-LR» tank əleyhinə idarəolunan raket kompleksi sürətli manevr edərək, istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və zirehli texnikasını məhv etmək üçün təyin edilib. Avtomobilin üzərindəki raketburaxma qurğusu universal, idarəedilən, gecə və gündüz döyüş fəaliyyətlərinin aparılması üçün silah sistemidir. Bu qurğu qabaqcıl texnologiyalı atəşə nəzarət sistemindən ibarət olaraq, uzaq məsafələrə dəqiq atəş açır və şəxsi heyətin qorunmasını təmin edir.*

*«Tufan-1» radiomaneə stansiyası axtarış aparmaq, texniki analiz, pelenqləmə, yerüstü və hava radiorabitə vasitələrinin, radioşüalanma mənbələrinin yerinin təyin edilməsi, fiksə olunmuş tezliklərin və tezliyin proqramla yenidən qurulması reji-*

*mində işləyən radiorabitə xəttinin susdurulması üçün nəzərdə tutulubdur.*

*Ali Baş Komandana «Orbiter-3B» pilotsuz uçuş aparatı təqdim olundu.*

*Bildirildi ki, cəmi 28 kiloqram çəkisi olan bu aparat 5486 metr maksimal hündürlükdə döyüş əməliyyatlarında tətbiq etmək, hava kəşfiyyatını aparmaq, eləcə də istənilən şəraitdə hədəfgöstərmə və artilleriya atəşinə xidmət etmək üçün təyin edilibdir.*

*«Spike-ER» tank əleyhinə idarəolunan raket kompleksi istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və zirehli texnikasını məhv etmək üçün nəzərdə tutulub. Bu komplekslə yüngül çöl-müdafiə qurğularına səmərəli atəş açmaq, kəşfiyyat xarakterli fəaliyyətlər yerinə yetirmək və yerüstü müşahidə məntəqələrindən müşahidə edilməyən hədəfləri məhv etmək mümkündür.*

*Silahlanmaya yeni qəbul edilən texnika arasında zirehləndirilmiş daşıyıcı-dartıcı maşın olan və döyüş sahəsində texnikaların təxliyəsini və onların üzərində təmir işlərinin aparılmasını nəzərdə tutan BREML-L, düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv edən və motoatıcı bölmələrin atəş dəstəyini təmin edən 120 millimetrlik «7E2 SandCat–Spear» minaatanı, gecə, gündüz və hər cür hava şəraitində hədəflərin uzaq məsafədən təyin olunması, öyrənilməsi, koordinatlarının müəyyənləşdirilməsi üçün nəzərdə tutulan «Bayquşgöz» və «Şahingöz» elektro-optik müşahidə sistemi, hərbi obyektləri, dövlət orqanlarının binalarını, yüksək səlahiyyətli şəxslərin yaşayış yerlərini, tədbirlər üçün nəzərdə tutulan əraziləri və nəzarət-buraxılış məntəqələrini pilotsuz uçuş aparatlarına qarşı siqnalların aktiv qarışdırılması yolu ilə qoruyan pilotsuz uçuş aparatları əleyhinə sistem – İHASAVAR, müxtəlif tipdə pilotsuz uçuş aparatlarının aşkarlanması və onlara verilən tapşırıqların yerinə yetirilməsinin qarşısını almaq üçün təyin olunan «Tufan-2M», maddi vəsaitlərə və resurslara qənaət etməklə, şəxsi heyətin praktiki atış vərdişlərinin təkmilləş-*

*dirilməsi, minaatanın hədəfə vaxtında və dəqiq tuşlama bacarıqlarının artırılması üçün təyin olunan 60, 82 və 120 millimetrlik təlim-atəş məşq qurğuları da vardır.*

*Bütün bunlar göstərir ki, son dövrlərdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordumuz müasir silah, sursat, hərbi texnika ilə təmin edilir, yeni hərbi şəhərciklər inşa edilir, mövcud olanları isə ən yüksək səviyyədə yenidən qurulur. Bütün bu tədbirlər Azərbaycan dövlətinin hərbi sahənin inkişafına yüksək diqqət və qayğı ilə yanaşmasının aydın təzahürüdür.*

## RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ İŞTİRAK

*6 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə iqamətgahında keçirdiyi iftar mərasimində iştirak etmişdir.*

*İftar mərasimi Quran ayələrinin və Ramazan duasının oxunması ilə başlandı.*

**A l l a h ş ü k ü r P a ş a z a d ə** *(Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam)*: Bismillahir-rəhmanir-rəhim.

Zati-aliləri möhtərəm cənab Prezident!

İftar mərasiminin dəyərli qonaqları!

Dini konfessiyaların möhtərəm rəhbərləri!

Ənənəvi iftar görüşümüzü şərəfləndirən zati-aliləri Prezident İlham Əliyev cənablarına və bütün qonaqlara bugünkü müqəddəs məramlı məclisimizə «Xoş gəlmisiniz!» – deyir, Quranın nazil olduğu mübarək Ramazan ayının xeyir-fəzilətlərini sizlərə, ailələrinizə, bütün Azərbaycan xalqına diləyirəm.

Möhtərəm cənab Prezident, bugünkü mübarək tədbirdə Sizi müzəffər seçkilər münasibətilə Azərbaycan xalqı və dindarlar adından bir daha təbrik edir, ən xoş arzularımı çatdırıram. Əslində Azərbaycan dindarları bundan əvvəlki Prezident seçkiləri zamanı bütün duaların qəbul olunduğu müqəddəs Məkkədə seçimlərini edib və İlham Əliyev həzrətlərinin namizədliyinə səs və xeyir-dualarını veriblər. Biz dindarlar

budəfəki seçkilərdə də müqəddəs Kəbə evində etdiyimiz niyyətimizi bir daha təzələdik.

Möhtərəm cənab Prezident, Sizin siyasi uğurlarınızın təməlində möhkəm, sarsılmaz xalq–iqtidar birliyi durur. Zati-alinizin andiçmə mərasimində Azərbaycan Konstitusiyası ilə bərabər, Qurana əl basmağınız, yeni Prezidentlik dönəminin ilk günündə şəxsi təşəbbüsünüzlə ərsəyə gəlmiş Hacı Cavad məscidini ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanımla birlikdə ziyarət etməyiniz tariximizə, milli-mənəvi dəyərlərimizə ehtiramın nümunəsidir. Bunları görərkən, bir azərbaycanlı, bir dini lider olaraq, Sizinlə şərəf duyuram. Azərbaycanda mövcud dini etiqad, söz, ifadə azadlığı müxtəlif milli və dini mənsubiyyətli vətəndaşlarımızın bütün insani hüquq və azadlıqlarını təmin edir. Zati-alinizin müxtəlif dinlərin məbədlərinə qayğı və diqqəti, o cümlədən dini mərkəz olan Təzəpir məscid-kompleksi ətrafında hazırda aparılan möhtəşəm abadlıq-quruculuq işləri Azərbaycanda dövlət–din münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir.

Biz zati-alinizin qlobal ideyalarının təbliği məramı ilə dünyanın bir çox ölkələrində keçirdiyimiz beynəlxalq əhəmiyyətli tədbirlərdə müəllifi olduğunuz multikulturalizm və islam həmrəyliyi ideyalarının qazandığı böyük dəstək və etimadın bilavasitə şahidi oluruq.

Zati-aliləri, çoxlarını heyrətləndirən odur ki, Azərbaycan dövlətinin lideri zamanın tələblərinə cavab verən, dünyamızın ehtiyac duyduğu belə mötəbər ideyaları irəli sürmək qüdrətinə malikdir. Bu, ulu öndərin dövlətçilik məktəbinin təntənəsi və Allah-Taalanın Azərbaycan xalqına iltifatıdır. Önəmli olan böyük dövlətlərin başçısı olmaq deyil, böyük dövlət xadimi, yüksək dövlətçilik təfəkkürünə sahib siyasi lider olmaqdır.

Bəli, cənab Prezident, uzaqgörən siyasətiniz nəticəsində bu gün Azərbaycan dünyada qlobal ideyalar mərkəzi olaraq tanınır. Zati-alinizin müəllifi olduğu «Bakı prosesi» bu gün daha böyük önəm kəsb edir. Təşəbbüskarı olduğunuz «İslam həmrəyliyi

ili»nin yekunlarına dair 40-dan çox ölkənin, 8 beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi möhtəşəm Bakı Konfransında Azərbaycanın nümunəvi rolu yüksək qiymətləndirildi. Zati-alinizin dəstəyi, dünyanın nüfuzlu müsəlman və qeyri-müsəlman dini liderlərinin xeyir-duaları ilə Qafqaz Müsəlmanları İdarəsi yanında daimi fəaliyyət göstərəcək Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin yaradılması Sizin bəşəri ideyalarınızın aktuallığının parlaq təzahürüdür.

Möhtərəm cənab Prezident, elan etdiyiniz «Multikulturalizm» və «İslam həmrəyliyi» illəri çərçivəsində biz Türkiyədə, İranda, İsveçdə, Rusiyada, Böyük Britaniyada, İspaniyada, Finlandiyada və Özbəkistanda keçirdiyimiz mötəbər beynəlxalq tədbirlərdə ölkəmizdəki dinlərarası dialoq və əməkdaşlığın nümunəvi modelini təqdim etmişik. Yeni yaranmış mərkəzin xətti ilə bu il ərzində ölkəmizdə və bir sıra Avropa dövlətlərində, o cümlədən Almaniyada, İspaniyada mötəbər beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində hazırlıq işləri gedir.

Qafqaz Müsəlmanları İdarəsi olaraq, ölkənin daxilində və xaricində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Milli Məclisin üzvləri, ölkəmizdəki dini konfessiyaların rəhbərləri və ictimaiyyət nümayəndələri ilə birlikdə həyata keçirdiyimiz işlərlə zati-alinizin ideyalarını, Azərbaycanın multikultural həyat tərzini dünya ictimaiyyətinin diqqətinə çatdırırıq. Zati-aliləri, Sizin dövlət–din münasibətlərinin inkişafına dair tövsiyələriniz, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə əməkdaşlığımız bu gün öz bəhrəsini verməkdədir.

Çox hörmətli cənab Prezident, dünya milli, dini, siyasi qarşıdurmalar, islamofobiya, terrorizm, separatçılıq bəlaları ilə üzləşməkdədir. Bunların sırasında müsəlmanların ilk qibləgahı, bütün səmavi dinlər üçün müqəddəs sayılan Qüdslə bağlı məqam xüsusi həssaslıq kəsb edir. Zati-aliləri, Sizin Qüdsə dair

İstanbul Sammitində nümayiş etdirdiyiniz və dünya müsəlmanlarının rəğbətini qazanmış qətiyyətli mövqeniz hər birimizin yaxşı yadındadır. Bəzi dövlətlərin Qüdslə bağlı qərarının Fələstin–İsrail münaqişəsinin ədalətli nizama salınması işinə mənfi təsir edəcəyi, Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara biləcəyi haqqında zati-alinizin söylədiyi fikirlər Qəzzada baş verən insan qırğını ilə əlaqəli dünya ictimaiyyətinin haqlı etirazlarında bir daha öz təsdiqini tapdı.

Zati-aliləri, Sizin rəhbərliyinizlə iqtisadi və müdafiə qüdrəti artan Azərbaycan, bəyan etdiyiniz kimi, heç vaxt bu qədər güclü olmayıb. Nəhəng iqtisadi layihələr xalqımızın rifahını artırır, millətimizin mənəvi qüdrətini gücləndirir. Dünyanın bir sıra ölkələri qaçqınlar və məcburi köçkünlər problemi qarşısında aciz qaldığı bir zamanda Siz azərbaycanlıların dədə-baba torpaqlarına böyük qayıdış layihəsini gerçəkləşdirirsiniz. Xalqımız fəxr edir ki, dövlətimizin başçısı aprel zəfərini bizlərə yaşatdı, dirçəlişimizin rəmzi olan Cocuq Mərcanlı məscidini bizlərə bəxş etdi. Bütün bunlar Ali Baş Komandanımızın rəhbərliyi ilə gələcək zəfərlərə, böyük qələbəmizə inamımızı artırır.

Möhtərəm cənab Prezident, işğalçı erməni rejiminin başçısı, əli Azərbaycan xalqının qanına bulaşmış, Xocalı soyqırımının təşkilatçısı öz xalqının nifrətinə tuş gəldi, ondan rəzalətlə imtina olundu. Biz qatil Sarkisyanın Xocalı soyqırımının gerçək təşkilatçısı olaraq insanlığa qarşı hərbi cinayətlərinə görə dünya ictimaiyyəti qarşısında, İnsan Haqları Məhkəməsində mühakimə olunmasını tələb edirik. Qoy bütün dünya əsl soyqırımı törədənləri tanısın, onların yalançı məzlum siması ifşa olunsun!

Müstəqilliyimizi, Sizin rəhbərliyinizlə Azərbaycanın qazandığı zəfərləri gözü götürməyənlər xaricdən və daxildən məqsədyönlü, məkrli müdaxilələr, ideoloji təzyiqlər, bədxah qaralama kampaniyaları təşkil etməyə çalışır, xüsusən gəncləri bu işlərə cəlb etmək, hətta bəzi dini kəsimləri məzhəb ayrı-seçkiliyi zəminində təxribata çəkmək istəyirlər. Zati-aliləri, mən Sizi

əmin edirəm ki, xalqımızı, onun ayrılmaz tərkib hissəsi olan dindarlarımızı Vətənə, dövlətə sədaqətdən, həqiqi iman, əqidə yolundan, ulu öndər Heydər Əliyevin bizlərə əmanət etdiyi dövlətçilik məfkurəsindən heç bir qüvvə döndərə bilməz.

Hörmətli cənab Prezident, çox təqdirəlayiq haldır ki, Mehriban xanımın Birinci vitse-prezident kimi fəaliyyəti xalqımız və dövlətimiz üçün rifah və tərəqqiyə xidmət etməkdədir. Zati-aliləri, uca Allahdan Sizə və Mehriban xanıma zəfərlər diləyirik.

Möhtərəm cənab Prezident, hər il mübarək Ramazanda iftar məclislərində Sizin bizimlə birlikdə olmağınız ulu öndərin bizə əmanət etdiyi ənənəni yaşatmağınızın, Azərbaycan dindarlarına və şeyxülislam kimi, mənim şəxsimə olan hörmət və etimadın, dövlət–din münasibətlərinin yüksək səviyyəsinin göstəricisidir. Bu gözəl ənənənin təməlini bu il 95 illik yubileyini böyük ehtiramla qeyd etdiyimiz qardaşım, ulu öndər Heydər Əliyev qoyub. Bu ulu şəxsiyyətin əzəməti, xalqımız, Vətənimiz üçün önəmi zaman keçdikcə daha artıq dərəcədə gözümüzdə yüksəlir. Ulu öndər Azərbaycanın bir dövlət olaraq siyasi xəritədən silinmə, etnik separatçılıq, dini zəmində parçalanma təhlükəsi mövcud olduğu ən çətin dönəmlərdə milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımızı azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etdi, Azərbaycan dövlətçiliyinin möhkəm bünövrəsini qoydu, müstəqilliyimizi yenidən bərpa və daimi etdi.

Zati-aliləri, Sizin sərəncamınızla bu il Azərbaycanda Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini dövlət səviyyəsində bayram edirik. Unutmayaq ki, Xalq Cümhuriyyətinin qaldırdığı üçrəngli bayrağı yenidən Azərbaycan üzərində – 2018-ci ildə «İslam mədəniyyətinin paytaxtı» seçilən Naxçıvanda ucaldan məhz ulu öndərimiz Heydər Əliyev olubdur.

Allah-Taala bir milləti zülmdən xilas etmək üçün ona haqq-ədaləti bərpa edən rəhbərlər göndərər. Müstəqilliyimizin ən gərgin dönəmlərində və dünyamızın mürəkkəb dövr yaşadığı zamanda uca Yaradan öz lütfü ilə Azərbaycan xalqına Heydər

Əliyev və İlham Əliyev kimi dahi öndərlər bəxş edib. Allah-Taala Heydər Əliyevə, Zərifə xanıma və cəmi Vətən şəhidlərinə rəhmət eləsin!

Biz dindarlar uca Allahdan öz lütf və mərhəmətini hər zaman Azərbaycan xalqı və dövlətindən, onun rəhbərindən əsirgəməməsini diləyirik. Hörmətli Leyla xanımın arzuladığı kimi: «Qoy Günəş ölkəmizin və dünyanın üzərində daim parlasın!». Bu mübarək günlərdə Sizə və dəyərli ailənizə səadət və yeni uğurlar diləyirəm.

Zati-aliləri, bu niyyətlə Sizə bir daha «Xoş gəlmisiniz!» – deyir, dəvət olunan dini konfessiyaların möhtərəm başçılarını, diplomatik nümayəndələri, bütün mötəbər qonaqları salamlayır, Allahdan hər birinizə xeyir-dualar diləyirəm. Amin!

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu!

**Aleksandr ata** *(Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu)*: Möhtərəm cənab Prezident!

Şeyx həzrətləri!

Hörmətli dini rəhbərlər!

Xanımlar və cənablar!

Zati-aliləri, bu xoş fürsətdən istifadə edib Azərbaycanın pravoslav icması adından Sizə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçkilərdə inamlı qələbəniz münasibətilə səmimi təbriklərimi çatdırmağı, zati-alinizə uzun ömür, xoşbəxtlik, firavanlıq və səmərəli fəaliyyətinizdə böyük uğurlar diləməyi özümə şərəf sayıram.

Azərbaycan çoxmillətli və buna görə də çoxkonfessiyalı dövlətdir. Bu, ölkəmizin daxili həyatının spesifikasıdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu amili belə qiymətləndirirdi: «Çoxmillətlilik bizim sərvətimizdir».

Çox hörmətli cənab Prezident, Siz əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində hazırda «Multikulturalizmin Azərbaycan modeli» adlanan gözəl bir bina ucaltmısınız. Siz milli mənsubiyyətindən və dini etiqadından

asılı olmayaraq, bütün vətəndaşların Prezidenti kimi, bütün dindar insanların ehtiyaclarına, onların mənəvi dəyərlərinə, o cümlədən məbədlərə, Allah evlərinə yüksək qayğı göstərirsiniz, dini bayramlar münasibətilə bizə təbriklərlə müraciət edirsiniz. Azərbaycanda yaşayan bütün başqa dindarlar kimi, biz pravoslavlar da dini etiqad azadlığından və bütün başqa insan haqlarından, dövlətin dəstəyindən bəhrələnirik. Qlobal əhəmiyyətli ideyalarınızla dünya miqyasında dinlərarası, sivilizasiyalararası dialoqun inkişafı işinə parlaq səhifələr yazan zati-alinizə hədsiz minnətdarıq.

Azərbaycanın dövlət siyasəti olan multikulturalizm qlobal səviyyədə ümumbəşəri dəyərləri müdafiə edir. Dünya dindarları bunu yüksək qiymətləndirirlər. Beynəlxalq səviyyədə ksenofobiyanın kökünün kəsilməsi işində göstərilən səylər biz din xadimlərinin gündəlik işinə güclü stimul verir. Xüsusən zati-alinizin ideyaları sayəsində dünyanın müxtəlif ölkələrində, o cümlədən Rusiyada keçirilmiş beynəlxalq konfranslar belə tədbirlərə ehtiyac olduğunu və onların qlobal əhəmiyyətini göstərən əyani nümunələrdir.

Zati-müqəddəsləri patriarx Kirill bütün postsovet məkanında çoxkonfessiyalı və çoxmillətli cəmiyyətin, qarşılıqlı hörmət, mehriban qonşuluq və həmrəylik ənənələrinin qorunub saxlanılması işində bu ideyaların əhəmiyyətini xüsusi vurğulayır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rus Pravoslav Kilsəsinin ali mükafatı – «Müqəddəs Mələksima Knyaginya Olqa» ordeni ilə təltif edilməsi bu səylərin yüksək qiymətləndirilməsi nümunəsi oldu.

Biz Qafqazın ağsaqqalı şeyxülislam Allahşükür Paşazadə həzrətləri ilə bərabər, qardaş xalqlarımız arasında, o cümlədən Rus Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlərin dərinləşdirilməsi üçün, xalqlarımız və dövlətlərimiz naminə, dinlərarası dialoqun yüksək səviyyəsi naminə əlimizdən gələni edirik. Zati-alinizin

elan etdiyi «Multikulturalizm ili» və «İslam həmrəyliyi ili» çərçivəsində dünyanın müxtəlif guşələrində keçirilən bütün beynəlxalq forumlarda, konfranslarda fəal iştirak etmişik və Azərbaycanın multikultural həyatının gerçəkliyini qürurla təqdim etmişik.

Buraya toplaşanların hamısına ən xoş arzularımı bildirir, işlərinizdə uğurlar diləyirəm. Sizə sülh, əmin-amanlıq və ulu Tanrıdan mərhəmət diləyirəm.

**Milix Yevdayev** *(Azərbaycan Dağ Yəhudiləri Dini İcmasının rəhbəri)*: Möhtərəm cənab Prezident!

Hörmətli şeyx həzrətləri!

Əziz məclis iştirakçıları!

Azərbaycan Dağ Yəhudiləri Dini İcması adından hamınızı salamlayır və bu müqəddəs Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Oruc insan iradəsinin nəfs üzərindəki qələbəsidir. Xudavəndi-Aləm oruc tutub, namaz qılan bəndələrini heç vaxt tənha qoymaz. Ona görə də bu müqəddəs Ramazan ayında tutduğunuz oruclar, etdiyiniz dualar Allah-Taala dərgahında qəbul olunsun! Ürəyinizdəki bütün arzularınız çin olsun, Allah-Taala onları yerinə yetirsin! Amin!

İnsanın əldə etdiyi, müqəddəs Allah tərəfindən verilmiş bəxşişlərdən biri də sevgidir. Ancaq sevgi insanları mələkələrdən də yüksək səviyyəyə qaldıra bilər. Allah-Taala öz bəndələrinə müraciət edərək deyir ki, ey Adəm övladı, hamı səni özündən ötrü istəyir, mən isə səni səndən ötrü istəyirəm. Ona görə də bu müqəddəs Ramazan ayında Allah-Taaladan hamınıza sevgi diləyirəm. Allah-Taala bizim dövlətimizi, Vətənimizi qorusun. Möhtərəm Prezident, Siz bütün dünyaya bəyan etdiniz ki, dini və mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət yaratmaq mümkündür və o, yaşamağa qadirdir. Belə bir cəmiyyət Azərbaycan Respublikasıdır.

Ümumiyyətlə, bizə xas olan xüsusiyyətlərdən biri də əziz günlərdə dünyasını dəyişənlərimizin ruhunu şad etmək üçün

onları yad etməkdir. Ona görə də, möhtərəm Prezident, mən bir məqama toxunmaq istərdim. Müsahibələrinizin birində müxbirin «İlləri geriyə çəkmək mümkün olsaydı, Siz hansı illərə qayıdardınız?» sualının cavabında bildirdiniz ki, atalı-analı illərimə qayıdardım. Şair (Hüseyn Arif) demişkən:

Torpaq da anasız qalmasın deyə,
Torpağın qoynuna köçür analar.

Ona görə də vaxt keçir, zaman tələsir, hər şey dəyişir. Dəyişməyən isə xəyalların şirinliyi, arzuların ülviliyi və nağıla çevrilmiş xatirələrdir.

Möhtərəm Prezident, bugünkü uğurlarınız təməli ulu öndər tərəfindən qoyulmuş və Sizin müdrik daxili və xarici siyasətinizlə, ulu öndərin sevgi ilə, böyük məhəbbətlə bəslədiyi arzuların reallığıdır. Aprelin 11-də qazandığınız möhtəşəm qələbə də Azərbaycan xalqının Sizə olan inamının təzahürüdür.

Azərbaycanda yəhudilər əsrlərboyu bu xalqla qardaşlaşmış, dinc və əmin-amanlıq şəraitində yaşamışlar. Biz də Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edirik. Mən bir məqama toxunmaq istərdim – 2015-ci ilin ortalarından bu günə qədər Amerikanın Los Anceles şəhərində 4,5 milyon nüsxə ilə çap olunan nüfuzlu jurnalda bizim icmanın 28 məqaləsi dərc olunmuşdur. Həmin məqalələr Azərbaycanın bugünkü həqiqətlərindən, qazandığı uğurlardan, Azərbaycan neftinin alman faşizminə qarşı müharibədəki rolundan, Azərbaycanda yaşayan yəhudilərdən, onların mentalitetindən, mətbəxindən, ümumiyyətlə, hər sahədən bəhs edir. Bu məqalələr Almaniyada fəaliyyət göstərən «Adassa» nəşriyyatı tərəfindən kitab şəklində ingilis dilində çap olunaraq, «Amazon» şirkəti tərəfindən bütün dünyaya yayılıbdır.

Mənim müəllif kimi həmin kitabdan aldığım 200 nüsxə qısa bir zamanda respublikada paylanıbdır.

Möhtərəm Prezident, biz bu gün ulu öndərin arzularının çin olduğunu görürük. Allah-Taaladan arzu edirik ki, Sizin müdrik rəhbərliyinizlə yaxın vaxtlarda Qarabağ məsələsi də həll

olunsun və belə məclisləri, belə xoş süfrələri Qarabağ torpağında təşkil edək.

Bu müqəddəs bayram münasibətilə hamınızı bir daha səmimi-qəlbdən təbrik edir, hamınıza İbrahim peyğəmbər ömrü arzulayıram. Hamınızın suyu sərin, çörəyi isti, gözü işıqlı, dizi taqətli olsun. Allah amanında. Çox sağ olun.

**V l a d i m i r  F e k e t e** *(Azərbaycanda Katolik kilsəsinin yepiskopu)*: Zati-aliləri cənab Prezident İlham Əliyev!

Möhtərəm şeyxülislam Allahşükür Paşazadə!

Hörmətli xanımlar və cənablar!

Çox şadam ki, bu il biz müqəddəs Ramazan ayı münasibətilə bir yerə toplaşmışıq. Bu müqəddəs ayda görüşümüz bizim dinlərarası əməkdaşlığımızın qənaətbəxş səviyyədə olmasını təsdiq etmək üçün gözəl fürsətdir.

Hörmətli cənab Prezident, Siz əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş müdrik dini tolerantlıq siyasətin davam etdirilməsinin qarantısınız. Azərbaycan katolikləri adından Sizə dərin ehtiramımı və minnətdarlığımı bildirmək istəyirəm.

Zati-müqəddəsləri Papa Fransisk cənab Prezident İlham Əliyev tərəfindən «Multikulturalizm ili» elan edilmiş 2016-cı ildə Azərbaycanda səfərdə olarkən bütün dünyada multikulturalizm ideyalarının təbliğində Azərbaycanın rolunu yüksək qiymətləndirdi. Papa Fransiskin həmin tarixi səfər zamanı söylədiyi «Biz hamımız qardaşıq» – kəlamı bütün dünyaya bir ismarıc oldu ki, Azərbaycan qədimdən Şərq ilə Qərb arasında körpü rolu oynayır, multikulturalizm isə Azərbaycan xalqının ənənəvi həyat tərzidir.

Zati-müqəddəsləri Papa Fransiskin Heydər məscidində zati-alinizlə, habelə Azərbaycanın dini konfessiyalarının rəhbərləri və dindarları ilə görüşləri zamanı söylədiyi nitqlər bütün dünyaya əyani şəkildə nümayiş etdirdi ki, Azərbaycan və onun lideri qlobal səviyyədə dinlərarası dialoqun tərəfdarıdır.

Hörmətli cənab Prezident, keçən ilin dekabr ayında Papa Fransisk məni Azərbaycan Respublikasında Katolik kilsəsinin birinci yepiskopu təyin edib. Azərbaycandakı bütün başqa dindarları ilə kimi, biz katoliklər də burada dini etiqad azadlığından və digər insan haqlarından, dövlət dəstəyindən bəhrələnirik. Azərbaycan mənim yeni vətənim olub. Buna görə qürur duyaraq qeyd etməliyəm ki, bu addım Azərbaycana beynəlxalq səviyyədə verilən əhəmiyyəti nümayiş etdirir.

Papanın rəsmi səfəri şübhəsiz ki, həm Vatikan ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlərin, həm də dinlərarası əlaqələrin inkişafına, o cümlədən Roma Katolik Kilsəsi ilə bizim vahid Yaradanın ideallarının təntənəsi naminə yorulmadan çalışan möhtərəm şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi tarixi dini mərkəz – Qafqaz Müsəlmanları İdarəsi arasında əməkdaşlığa yeni təkan verdi. Əminəm ki, 2017-ci ilin dekabr ayında Bakı Konfransının yekunlarına əsasən, Qafqaz Müsəlmanları İdarəsi yanında yaradılmış, daimi fəaliyyətdə olan Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi bütün bəşəriyyətin rifahı naminə dinlərarası dialoqun inkişafı işinə sanballı töhfə verəcəkdir. Mərkəzin Məşvərət Şurasının tərkibinə mən də daxil edilmişəm. Buna görə möhtərəm şeyxülislam Paşazadəyə hədsiz minnətdaram. Biz səmimi-qəlbdən arzu edirik ki, Vatikan ilə Azərbaycan arasında qarşılıqlı hörmətə əsaslanan münasibətlər bundan sonra da davam və inkişaf etsin.

Hörmətli cənab Prezident!

Hörmətli şeyxülislam!

Ulu Tanrıdan diləyim budur ki, daim Sizi öz himayəsində saxlasın. İcazə verin, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, ulu Tanrının Sizə yardımçı olmasını, bütün müsəlman qardaşlara, bütün dindarlara xoş güzəran, tərəqqi və firavanlıq diləyim.

Təşəkkür edirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli şeyx həzrətləri!

Hörmətli din xadimləri!

Xanımlar və cənablar!

Hər il olduğu kimi, biz bu il də mübarək Ramazan ayında iftar məclisində görüşürük. Bu gözəl ənənə yaşayır və yaşamalıdır. Bu, Azərbaycanda dövlət–din əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Dövlət–din münasibətlərinin formalaşmasının təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Bütün sahələrdə olduğu kimi, ulu öndər Azərbaycanın inkişaf konsepsiyasının müəllifidir. İnkişaf istiqamətlərini müəyyən edərkən o çox böyük uzaqgörənlik göstərmişdir. Bu gün Azərbaycanın uğurlu inkişafı məhz bu konsepsiyanın icrası nəticəsində mümkün olmuşdur. O cümlədən dövlət–din münasibətlərinin qurulması, yaradılması işində Heydər Əliyevin böyük xidmətləri olmuşdur. O, hakimiyyətə gələnə qədər Azərbaycanda bu münasibətlər tənzimlənmirdi və böyük boşluq yaranmışdı. Biz keçən ay ulu öndərin anadan olmasının 95-ci ildönümünü qeyd edərkən, əziz xatirəsinə hörmətimizi ifadə edərkən onun xalq qarşısında gördüyü böyük xidmətlər haqqında danışmışıq, onun fəaliyyətini yada salmışıq. Bu gün də şeyx həzrətlərinin təşkil etdiyi iftar məclisində ulu öndərin dövlət–din münasibətlərinin tənzimlənməsində gördüyü işlər və oynadığı rol haqqında danışırıq və bu təbiidir.

Şeyx həzrətlərinin bu məsələlərin uğurla həlli işində fəaliyyətini çox yüksək qiymətləndirirəm. Dövlət–din münasibətlərinin inkişafı şeyx həzrətlərinin böyük əməyi sayəsində mümkün olub və bu gün bu əlaqələr nümunəvidir. Şeyx həzrətləri nəinki Azərbaycanda, eyni zamanda, Qafqazda, postsovet məkanında, Avropada, ümumiyyətlə, dünyada çox

böyük hörmətə malik olan din xadimidir. Şeyx həzrətlərinin uğurlu fəaliyyəti Azərbaycanı dünyada öz milli dəyərlərinə sadiq, çox açıq, çox tolerant, müasir dövlət kimi təqdim edir. Azərbaycanda dövlət–din münasibətlərinin bu yüksək səviyyədə olmasında şeyx həzrətlərinin çox böyük xidməti vardır. Mən bilirəm ki, keçən il Azərbaycanda «İslam həmrəyliyi ili» qeyd olunan zaman şeyx həzrətləri bir çox ölkələrdə Azərbaycan həqiqətləri haqqında danışmış, çıxış etmiş, beynəlxalq konfranslarda iştirak etmiş və ölkəmizin reallıqlarını dünya ictimaiyyətinə çatdırmışdır.

Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Bugünkü iftar məclisimizdə səslənən fikirlər, ənənəvi dinlərin rəhbərlərinin çıxışları bir daha bunu göstərir. Azərbaycanda həm dövlət–din əlaqələri, həm dinlərarası əlaqələr nümunəvi xarakter daşıyır. Bilirəm ki, bu məsələlərlə bağlı Azərbaycan modeli bu gün artıq dünyada bir çox yerlərdə öyrənilir. Bu bizim uğurlu inkişafımız üçün lazımdır. Bu, dövlət siyasətimizin təzahürüdür. Bu, cəmiyyətimizin vəziyyətini, cəmiyyətdə mövcud olan ab-havanı əks etdirir.

Azərbaycanda dinlərarası məsələlərlə bağlı çox ciddi düşünülmüş dövlət siyasəti aparılır və bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir. Azərbaycanda bu münasibətlərin tənzimlənməsi ölkəmizin uğurlu inkişafını təmin edir. Azərbaycanda mövcud olan milli həmrəylik, vətəndaş birliyi, sabitlik məhz bu münasibətlərin əsasında qurulubdur. Azərbaycan xalqı öz milli dəyərlərinə sadiqdir və Azərbaycan dövləti milli dəyərlər üzərində qurulubdur. Eyni zamanda, Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. Biz dünyaya Azərbaycandan həm çox ciddi və müsbət siqnal göndəririk, həm də ölkəmizin uğurlu inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmlidir. Bizim amalımız, niyyətimiz birdir. Biz istəyirik ki, ölkəmiz daha da güclənsin, daha da sürətlə inkişaf etsin, Azərbaycan xalqı rifah, sülh, əmin-amanlıq şəraitində yaşasın.

Nəinki bunu istəyirik, eyni zamanda, öz praktiki addımlarımızla bunu təmin edirik.

Bir neçə gün bundan əvvəl mən Azərbaycanda fəaliyyət göstərən müsəlman ölkələrinin səfirləri ilə görüşdüm. Ramazan ayında bu görüşlər ənənəvi xarakter daşıyır. Görüş zamanı müsəlman ölkələri ilə bizim əlaqələrimiz haqqında danışdım. Bu əlaqələr yüksək səviyyədədir. Azərbaycan müsəlman aləmində çox böyük dəstəyə, çox böyük hörmətə malikdir. Müsəlman ölkələri beynəlxalq təşkilatlarda Azərbaycanı daim dəstəkləyir və yaxşı bilirlər ki, Azərbaycan da öz növbəsində, bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrini dəstəkləyir. Azərbaycan dünyada islam mədəniyyətinin təbliği işində çox fəal və uğurlu rol oynayır. Biz dünyanın müxtəlif ölkələrində islam mədəniyyətinin təqdimatı ilə bağlı bir çox tədbirlər keçirmişik, keçiririk və keçirəcəyik. Sərgilər, mədəni proqramlar, təqdimatlar, konfranslar – bütün bu addımlar bir məqsədi güdür ki, dünyaya islam mədəniyyətini, islam dəyərlərini olduğu kimi təqdim edək, bəzi hallarda islam dini ilə bağlı təhrif edilmiş yanlış fikirlərə qarşı öz səsimizi ucaldaq və real həqiqətləri çatdıraq. Bilirəm ki, bu sahədə apardığımız fəaliyyət müsəlman aləmində çox böyük hörmətlə qarşılanır. Bizim bu fəaliyyətimiz bir daha göstərir ki, Azərbaycan həm islam mədəniyyətinin təbliğinə, həm də islam ölkələri arasındakı həmrəylik meyillərinə çox güclü töhfə verir.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini məsələlərin həllini çox yüksək qiymətləndirir, ölkəmizi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı daim dəstəkləyir. Bir çox qətnamələr qəbul edibdir. Bu qətnamələrdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətlər, real vəziyyət və ədalətli mövqe nümayiş etdirilir. Azərbaycanın haqq səsi dəstəklənir və bu dəstəyə görə biz İslam Əməkdaşlıq Təşkilatına minnətdarıq.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq norma və prinsiplər əsasında həll olunmalıdır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır, biz bunu, bu

həqiqətləri bütün dünyaya çatdırırıq. Bir çox elmi əsərlər, kitablar nəşr edilib, bir çox tədbirlər keçirilib. Biz tarixi həqiqətləri çatdırmalıyıq və çatdırırıq. Dağlıq Qarabağın tarixən Azərbaycan xalqına məxsus olması artıq heç kimdə şübhə doğurmur. Hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Heç bir ölkə Dağlıq Qarabağda mövcud olan kriminal, qondarma rejimi tanımır və əminəm ki, tanımayacaqdır. Bu amillər, tarixi faktlar, beynəlxalq hüquq normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri nəinki bizim mövqemizi gücləndirir, eyni zamanda, münaqişənin həlli üçün hüquqi baza yaradır. Biz yorulmaz fəaliyyətimiz nəticəsində buna nail olmuşuq. Əminəm ki, ardıcıl siyasət aparmaqla, istədiyimizə nail olacağıq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Buna mənim şübhəm yoxdur. Tarixi həqiqətlər, hüquqi baza, BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər təşkilatların qərar və qətnamələri, bizim iqtisadi gücümüz, hərbi gücümüz və bölgədə mövcud olan real vəziyyət bunu deməyə əsas verir.

Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir. Mən dünyanın ən ali kürsüsündən – BMT kürsüsündən Ermənistanın əvvəlki kriminal rejimini ifşa etmişəm. Onları öz adları ilə çağırmışam. Onları Xocalı soyqırımında ittiham etmişəm, hərbi cinayətlərdə ittiham etmişəm. Ermənistanın əvvəlki hakimiyyətini qaniçən, kriminal, quldur rejim adlandırmışam. Bütün bunlar həqiqətdir. Mən həqiqəti demişəm, indi bu həqiqəti erməni xalqı deyir. Nəhayət, indi erməni xalqı anlayıb ki, onlara 20 il ərzində kriminal xunta rejimi rəhbərlik edib. O kriminal xunta rejimi ki, ancaq öz maraqlarını güdüb, o rejim ki, onun yarıtmaz və cinayətkar fəaliyyəti nəticəsində Ermənistan bu acınacaqlı vəziyyətə düşüb. Mən dəfələrlə demişdim ki, Ermənistanda iqtisadi böhran, demoqrafik böhran yaşanır, ölkə boşalır, hər il on minlərlə insan o ölkəni həmişəlik tərk edir, Ermənistanda inkişaf üçün heç bir perspektiv yoxdur.

Demişəm ki, Azərbaycan Ermənistanı dalana çevirib – iqtisadi, siyasi, nəqliyyat dalanına. Nəyə görə? Ona görə ki, Ermənistan torpaqlarımızı işğal edibdir. İndi bütün bunları erməni xalqı deyir. Bu bir daha onu göstərir ki, bu münaqişədə Azərbaycan öz istəyinə nail olacaq, həqiqəti, ədaləti bərpa edəcəkdir. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq, münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək və bunu imitasiya xatirinə etməyəcək, real danışıqlar prosesinə start veriləcəkdir. Beləliklə, məsələ öz həllini tapa bilər və Qafqaza sülh gələ bilər. Biz bunu istəyirik, biz münaqişənin həllini tələb edirik, bizim buna haqqımız çatır. Ümid edirik ki, bu məsələ danışıqlar yolu ilə tezliklə öz həllini tapa bilər.

Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək, dayaq olur. Bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə bərpa edilibdir. Şeyx həzrətləri qeyd etdiyi kimi, indi Təzəpir məscidinin ətrafı təmizlənir, orada böyük park salınır. Onun ətrafı böyük bir ictimai zonaya çevriləcək. Çünki vaxtilə Təzəpir məscidinin ətrafındakı binalar onun əzəmətini gizlədirdi. İndi artıq məscidin bir hissəsi açılıb, digər hissənin açılması gözlənilir və beləliklə, Azərbaycanda gözəl bir memarlıq ansamblı yaradılır.

Bibiheybət məscidi bizim qədim tarixi məscidimizdir. İmamzadə tarixi dini kompleksi, Şamaxı Cümə məscidi, Əjdərbəy məscidi dövlət tərəfindən əsaslı şəkildə təmir edilib. Ölkəmizin ən böyük məscidi olan Heydər məscidi dövlət hesabına tikilib ki, bu, memarlığına görə bir əsərdir. Eyni zamanda, keçən il Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscid tikilib. Uzun fasilədən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində azan səsi eşidilir. Şamaxı məscidi ilə eyni vaxtda inşa edilmiş, Şamaxı rayonunun Dəmirçi kəndindəki ən qədim məscidlərimizdən biri keçən il əsaslı şəkildə təmir edilibdir. Bu il Hacı Cavad məscidinin yeni binası tikilib və şeyx həzrətləri qeyd etdiyi kimi, Prezident seçkilərindən sonra mənim getdiyim birinci yer məhz Hacı Cavad məscidinin yeni binasının

açılışı olmuşdur və bu, təsadüfi deyil. Çünki mən oraya seçkilərdən əvvəl də, seçkilərdən bir ay sonra da gedə bilərdim. Məhz seçkilərdən sonra keçirilən birinci tədbir – yenidən tikilmiş Hacı Cavad məscidinin açılışı hesab edirəm ki, böyük məna daşıyır. Dindarlar və bütün Azərbaycan vətəndaşları bunu çox gözəl başa düşürlər.

XIX əsrdə inşa edilmiş və Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmuş İmam Hüseyn məscidi də açılışa hazırdır. Yəni bu istiqamətdə həm dövlət – əlbəttə ki, əsas yükü dövlət öz üzərinə götürüb – həm də ictimai qurumlar öz töhfəsini verir və bu bizim borcumuzdur. Bizim tarixi, dini abidələrimiz milli sərvətimizdir. Bütün başqa dinlərin məbədləri bizim üçün əzizdir, bizim sərvətimizdir. Azərbaycanda bütün dinlərin tarixi, dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu bir daha göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir.

«İslam həmrəyliyi ili» ərzində bir çox tədbirlər keçirilibdir. Onların sırasında, əlbəttə ki, şeyx həzrətlərinin təşkil etdiyi tədbirləri mən xüsusilə qeyd etmək istərdim. Qeyd etdiyim kimi, xarici ölkələrdə bir çox önəmli konfranslar keçirilibdir. Yekun tədbir keçən ilin sonunda – dekabr ayında Bakıda keçirilib, çox böyük konfrans idi. Hesab edirəm ki, konfransa dünyanın aparıcı dini liderlərinin və dövlət xadimlərinin göndərdikləri təbriklər bu tədbirin önəmini qeyd etməklə yanaşı, eyni zamanda, Azərbaycana hörmətin təzahürü idi. Biz bunu belə qəbul edirik. Bu konfransı keçirərkən biz bir daha gördük ki, belə tədbirlərin keçirilməsinə nə qədər ehtiyac vardır. Çünki bu gün deyə bilərəm ki, Azərbaycan bu tədbirlərin belə mötəbər dünya səviyyəsində keçirilməsi ilə ümumbəşəri dəyərlərə çox böyük töhfə verir. Bizim bu sahədəki nadir rolumuz böyük qiymətə layiqdir və yüksək qiymətləndirilir. Hesab edirəm ki, biz gələcəkdə də bu istiqamətdə öz fəaliyyətimizi davam etdirməliyik.

Konfransdan sonra şeyx həzrətləri ilə söhbət əsnasında belə qərara gəldik ki, belə tədbirlər Azərbaycanda ənənəvi olaraq keçirilməlidir. «İslam həmrəyliyi ili» artıq başa çatıb. Ancaq biz elə etməliyik ki, bu məsələ daim diqqət mərkəzində olsun. Bunu etmək üçün xüsusi tədbirlər planı hazırlanıb və icra ediləcəkdir. Yəni bu gün Azərbaycanın bu sahədə apardığı işlərə dünyada yenə də böyük ehtiyac vardır.

Təsadüfi deyil ki, bizim təşəbbüsümüzlə 10 il bundan əvvəl başlanan «Bakı prosesi» dünyada yeganə genişmiqyaslı əməkdaşlıq formatıdır. Bu 10 il ərzində buna oxşar təşəbbüs heç kim tərəfindən irəli sürülməmişdir. «Bakı prosesi» sırf Azərbaycan təşəbbüsüdür. Bu il biz «Bakı prosesi»nin 10 illiyini qeyd edəcəyik. Bu təşəbbüs BMT və digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. «Bakı prosesi» artıq dünya gündəliyinin önəmli hissəsidir və bu illər ərzində görün biz Azərbaycanda nə qədər böyük tədbirlər keçirmişik – Dünya Dini Liderlərinin Zirvə görüşü, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Bakı Humanitar forumları, Mədəniyyətlərarası Dialoq forumları. Yəni bütün bunları biz ona görə edirik ki, buna böyük ehtiyac vardır. Biz istəyirik ki, nəinki Azərbaycanda, dünyada da dinlərarası münasibətlər yüksək səviyyədə tənzimlənsin.

Biz ölkə daxilində bütün bu məqsədlərə çatmışıq. Bu gün Azərbaycanda dini, milli zəmində heç bir problem, heç bir anlaşılmazlıq yoxdur. Ancaq biz istəyirik ki, dünyada da olmasın və bundan sonra da öz töhfəmizi verməyə hazırıq. Bu gün Azərbaycan dünyada özünü multikulturalizmin mərkəzi kimi artıq təsdiqləyib. Bu həm dövlət siyasətidir, həm də cəmiyyətdən gələn sifarişdir. Bu, böyük sərvətdir, xüsusilə indiki zamanədə. İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır. Biz, əlbəttə ki, bu sahədə gördüyümüz işləri daha yüksək qiymətləndirməliyik və elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə

vəziyyət müsbət istiqamətdə inkişaf etsin. Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə biz ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk.

Keçənilki məclisdən ötən dövr ərzində bir neçə önəmli hadisəni qeyd etmək istərdim. Bu hadisələr doğrudan da tarixi xarakter daşıyır. Onlardan biri Azərbaycanı Avrasiyanın nəqliyyat mərkəzinə çevirməyimizdir. Keçən il Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı Bakıda təntənəli şəkildə qeyd edildi. Bu il isə biz Xəzər dənizinin ən böyük ticarət limanının açılışını qeyd etdik. Beləliklə, ölkə qarşısında nəqliyyat sahəsində duran məsələlərin böyük hissəsini həll etmiş olduq. Bu tarixi layihələr bundan sonra uzun illər Azərbaycanın uğurlu inkişafını təmin edəcəkdir.

Keçən ay Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd edilməsindən bir gün sonra «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı oldu. Bu da böyük tarixi nailiyyətdir, tarixi layihədir. Bu layihə bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcək.

Bir neçə gündən sonra Türkiyənin Əskişəhər şəhərində TANAP-ın rəsmi açılışı olacaq. Bu da böyük tarixi nailiyyətdir. Yəni biz hər il böyük uğurlara imza ataraq, ölkəmizi gücləndirir və möhkəmləndiririk. Əminəm ki, bundan sonra da Azərbaycan inamla və uğurla inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, qarşıdan gələn mübarək Ramazan bayramı münasibətilə sizi və bütün dünya müsəlmanlarını təbrik edirəm. Sağ olun.

* * *

**A l l a h ş ü k ü r  P a ş a z a d ə:** Cənab Prezident, mən Sizə minnətdarlığımı bildirirəm. Təkcə öz adımdan deyil, burada iştirak edən din xadimlərinin, dini konfessiya rəhbərlərinin adından və əziz qonaqlarımız adından Sizə öz minnətdarlığımı bildirirəm. Xüsusən deyə bilərəm ki, dövlət–din münasibətlərində nəyə nail olmuşuqsa, Azərbaycan nəyə nail olubsa, buna Sizin qayğınızla, zəfərlərinizlə, ulu öndərin tövsiyələri ilə gəlib çatmışıq. Əgər bu gün bir şeyxülislam kimi, məni dünyada tanıyırlarsa, mənə ehtiram bəsləyirlərsə, bunda başda Siz olmaqla, hamının böyük zəhməti vardır. Azərbaycan xalqının böyük zəhməti vardır. Yəni bu işdə hamı – həm din xadimləri, həm qeyriləri bizə yardımçı olublar və indi də yardımçı olmaqdadırlar.

Bu gün bu məclisdə diplomatlar, xarici dövlətlərin nümayəndələri iştirak edirlər. İnanın, bu şəkildə görüş, ünsiyyət, dövlət–din, xalq–iqtidar vəhdəti, dindarlarla Prezident arasında olan münasibət dünyanın heç bir yerində yoxdur. Bu da öz bəhrəsini, öz bərəkətini verir. Biz bunun qədrini bilməliyik. Ona görə də Azərbaycan inkişaf edir və edəcək. Allah-Taala Azərbaycanın sərvətlərini bərəkətli edəcək. Allah-Taala həmişə Azərbaycan xalqını qoruyacaq. İnşallah, ulu öndərimizin müəyyənləşdirdiyi inkişaf yolu ilə irəliləyən Azərbaycana

Prezidentimiz İlham Əliyev həzrətlərinin rəhbərliyi ilə həmişə zəfərlər nəsib olacaqdır.

Cənab Prezident, mənə bu qədər böyük önəm verdiyinizə görə Sizə bir daha təşəkkür edirəm, bir daha «Çox sağ olun» – deyirəm.

*Sonra iftar süfrəsi açıldı.*

## BEYNƏLXALQ VELOSİPEDÇİLƏR İTTİFAQININ PREZİDENTİ DAVİD LAPPARTYEN İLƏ GÖRÜŞ

*6 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyeni qəbul etmişdir.*

*David Lappartyen velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatında iştirak etmək üçün Azərbaycana gəlməsindən məmnunluğunu ifadə etdi. O bu tədbirin mühüm beynəlxalq idman yarışı olduğunu vurğulayaraq, 43 ölkədən 1500-dən artıq idmançının iştirak etdiyini bildirdi. Azərbaycanda beynəlxalq idman tədbirlərinin uğurla keçirildiyini qeyd edən David Lappartyen Bakıda birinci Avropa oyunlarının açılışının gözəl təşkil olunduğunu və orada iştirakını məmnunluqla xatırlatdı. Qonaq Beynəlxalq Velosipedçilər İttifaqına (UCI) dövlət səviyyəsində verilən dəstəyə və ölkəmizdə idmanın bütün növləri kimi, velosiped idmanının da inkişafına göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Dövlət başçısı Bakıda keçirilən velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatının önəminə toxunaraq, Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyenə Azərbaycanda velosiped idman növünün inkişafına verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, velosiped idmanının «BMX Racing» növü üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi ölkəmizdə bu idman növünə marağın artmasına və ümumilikdə idmanın inkişafına təkan verir.*

*Ölkəmizə səfərə gələrkən ilk növbədə, Bakı Veloparkına baş çəkdiyini vurğulayan David Lappartyen bildirdi ki, veloparkın*

*ərazisi, orada yaradılmış yüksək şərait və xoş atmosfer onda çox böyük təəssürat oyatdı. 2015-ci ildə ilk Avropa oyunları zamanı burada olduğunu, o vaxtdan bu günədək trekin yenidən qurularaq, səviyyəsinin artdığını deyən qonaq bu il BMX üzrə dünya çempionatına 43 ölkədən 1500-dən çox idmançının iştirak etdiyini, məşqçilərin, idmançıların və onların valideynlərinin də çempionatın yüksək səviyyədə təşkil olunduğunu qeyd etdiklərini bildirdi.*

*Söhbət zamanı Azərbaycanda idmanın sürətli inkişafı, ölkəmizdə müxtəlif idman növləri üzrə ən müasir infrastrukturun yaradıldığı məmnunluqla qeyd olundu. Azərbaycanda keçirilən mühüm idman tədbirlərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi vurğulandı.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Tehranda törədilmiş terror aktları nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi və hiddətləndirdi.

Bu qanlı hadisə terrorizmin bütün dünya üçün dəhşətli bir bəlaya çevrildiyini, onun bütün təzahürlərinə qarşı birgə səylərlə və ardıcıl mübarizə aparılmasının vacibliyini bir daha təsdiq edir.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost və qardaş İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2018-ci il*

**PORTUQALİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MARSELO REBELO DE SUSAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Portuqaliya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Portuqaliya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2018-ci il*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ**

Ülyahəzrət!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Birləşmiş Krallığın dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 iyun 2018-ci il*

## METRONUN «SAHİL» STANSİYASININ ƏSASLI TƏMİR VƏ YENİDƏN QURULMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*7 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Bakı Metropoliteninin «Sahil» stansiyasının əsaslı təmir və yenidən qurulmadan sonra açılışında iştirak etmişdir.*

*«Bakı Metropoliteni» Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov «Sahil» stansiyasında aparılan əsaslı təmir və yenidən qurulma işləri barədə dövlət başçısına ətraflı məlumat verdi. Qeyd olundu ki, bu stansiyada işlər təyin edilmiş müddətdən xeyli əvvəl yekunlaşdırılıb. Stansiyanın yerüstü vestibülündə müvafiq təmir işləri görülüb. Divarlar müasir tələblərə uyğun yenilənib və ümumi memarlıq üslubuna uyğunlaşdırılıb, vestibülün estetik görkəmi dəyişib. Tavanda ümumi memarlıq-dizayn tərtibatını tamamlayan müasir işıqlandırma sistemi quraşdırılıb. Stansiyanın infrastrukturu, o cümlədən stansiya yolları, platforma və platformaaltı səviyyələrdə yerləşən texniki sahələr dövrün ən yeni standartlarının tələbləri nəzərə alınaraq, yenidən qurulub və daha funksional olub. Mühəndis-texniki qurğularda əsaslı yenidən qurulma işləri aparılıb. Stansiyada hərəkətin tənzimlənməsi, videomüşahidə, işarəvermə və rabitə sistemlərinin avadanlıqları yenilənməklə, onların yerləşdiyi sahələr və otaqlar yeni standartlar səviyyəsinə çatdırılıb. Stansiyada ən müasir mərkəzləşdirilmiş isitmə-soyutma sistemi quraşdırılıbdır.*

*Qeyd edək ki, stansiyada təmir işlərinin başlanılması ilk növbədə, eskalatorların dəyişdirilməsi zərurətindən irəli gəlmişdir. Bakı Metropoliteninin 1967-ci il noyabrın 6-da istifa-*

*dəyə verilmiş ilk 5 stansiyasından biri olan «Sahil» stansiyasının eskalatorları 50 illik istismar müddətini başa vurmuşdur. Onların dəyişdirildiyi müddətdə bir giriş-çıxışı olan stansiyanın bağlanması və sərnişindaşıma prosesinin dayandırılması qaçılmaz idi. Stansiyanın uzunmüddətli istismar dövründə sıradan çıxmış, yaxud köhnəlmiş avadanlıq və digər infrastrukturunun yenilənməsi də lazım idi. Stansiyada genişmiqyaslı yenidən qurulma işlərinə 2017-ci ilin avqust ayında start verildi.*

*Bu proses çərçivəsində istismar müddətini başa vurmuş 3 eskalator sökülərək, əvəzində Almaniya istehsalı olan 4 yeni eskalator quraşdırıldı. Dərin özüllü stansiyaların xüsusiyyətləri nəzərə alınmaqla, konstruksiyasında bir sıra mühəndis-texniki yeniliklər edilmiş bu eskalatorlar ilk dəfə məhz Bakı Metropolitenində tətbiq olunub. Üç eskalator əvəzinə dördünün qoyulması isə bir giriş-çıxışı olan, həmçinin sərnişin axınının gur olduğu stansiyada hərəkətin daha operativ və rahat tənzimlənməsinə şərait yaradacaqdır. Eskalatorların quraşdırılması başa çatdıqdan sonra stansiyanın ümumi memarlıq ansamblına uyğun örtük təbəqəsi çəkilib, işıqlandırma və videomüşahidə sistemləri, habelə monitorlar yenilənibdir.*

*Dövlət başçısı «Sahil» stansiyasının əsaslı təmir və yenidən qurulmaya qədərki vəziyyətini əks etdirən fotostendlə tanış oldu. Bildirildi ki, burada söküntü başa çatdıqdan sonra metal konstruksiyalar, platforma boyunca stansiya yolları və yol divarları gücləndirilib, eləcə də tunellərdə axıntıya qarşı tədbirlər görülübdür.*

*Bakı Metropoliteninin hər bir stansiyası memarlıq üslubu ilə seçilir. Özünəməxsus görünüşü olan «Sahil» stansiyasında platformanın sonunda əvvəlki pannonun yerində doğan Günəş kompozisiyası yer alıb. Bütün divarboyu həkk olunmuş kompozisiya mükəmməlliyi ilə diqqəti çəkir. Pilon divarları boyunca milli xalçaçılıq sənəti elementləri ilə zənginləşdirilmiş pərvazların arxadan işıqlandırılması və digər yeni elementlər stansiyanın memarlıq ansamblını zənginləşdirir.*

*Prezident İlham Əliyevin imzaladığı sərəncamla təsdiq olunmuş Dövlət Proqramına əsasən, Bakı Metropoliteni stansiyalarının yenidən qurulması, infrastrukturun müasir standartların tələbləri səviyyəsinə çatdırılması işləri planlı şəkildə aparılır. Dövlət başçısına məlumat verildi ki, hazırda «Bakmil» stansiyasının da yenidən qurulma tədbirləri mərhələli şəkildə yerinə yetirilir. Yaxın gələcəkdə «Xətai» stansiyasında köhnə eskalatorların dəyişdirilməsi, eləcə də metropolitenin digər stansiya və stansiya yollarında təmir işlərinin davam etdirilməsi nəzərdə tutulubdur.*

*«Sahil» stansiyasında aparılan işlərlə tanış olan Prezident İlham Əliyev Bakı Metropoliteninin kollektivinə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

## AVROPADA MÜHAFİZƏKARLAR VƏ İSLAHATÇILAR ALYANSININ BAKI SAMMİTİNİN İŞTİRAKÇILARINA

Hörmətli toplantı iştirakçıları!

Sizi Bakı şəhərində salamlayır, Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının növbəti sammitinin işə başlaması münasibətilə təbrik edirəm.

Avropadakı müxtəlif siyasi partiyaları vahid platformada birləşdirən Alyans nisbətən qısa müddətdə qitənin ictimai-siyasi həyatında mühüm rol oynayan nüfuzlu bir təşkilata çevrilmişdir. Məmnunluq hissi ilə bildirirəm ki, qurumun bəyan etdiyi milli suverenlik, parlament demokratiyası, azad cəmiyyət kimi fundamental dəyərlər zəngin tarixi ənənələri yaşadan Azərbaycan xalqının müasir həyatında əhəmiyyətli yer tutur. Əlamətdar haldır ki, bugünkü sammit də müsəlman dünyasında ilk parlamentli respublikanın, qadınlara əksər Qərb dövlətlərindən daha əvvəl seçki hüququ vermiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş qeyd olunduğu dövrə təsadüf edir.

Xalq Cümhuriyyətinin hüquqi varisi olan Azərbaycan Respublikası müstəqillik illərində bazar iqtisadiyyatı, demokratiya, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu tutmuş, ayrı-ayrı ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quraraq, dünya birliyinin bərabərhüquqlu üzvünə çevrilmişdir. Bizim təşəbbüsümüz və yaxından iştirakımızla reallaşan transmilli neft-qaz və nəqliyyat layihələri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına, region ölkələrin davamlı sosial-iqtisadi inkişafına sanballı töhfələr verir. Mayın 29-da rəsmi açılışı keçirilən «Cənub Qaz Dəhlizi»nin işə düşməsi isə bu sahədə qazanılmış uğurların daha da artırılması üçün yeni imkanlar yaradacaqdır.

Azərbaycan beynəlxalq humanitar əməkdaşlığın genişləndirilməsinə də xüsusi önəm verir, mədəniyyətlərarası dialoq, multikulturalizm və tolerantlıq ideyalarını yorulmadan təşviq edir, öz imkanları daxilində qlobal problemlərin həllinə kömək göstərir. Lakin təəssüf hissi ilə qeyd etməliyəm ki, 30 il əvvəl başlanmış Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi indiyədək həm ölkəmizin inkişafı, həm də regional əməkdaşlığın genişləndirilməsi yolunda ən ciddi maneə olaraq qalmaqdadır. Ekspansionist siyasət yürüdən Ermənistan torpaqlarımızın 20 faizini zəbt etmiş və ölkəmizdə 1 milyondan çox insanı məcburi köçkün vəziyyətinə salmışdır. BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» və digər nüfuzlu təşkilatlar münaqişənin ərazi bütövlüyü prinsipi əsasında ədalətli həllinə dair qərarlar qəbul etsələr də, təcavüzə son qoyulması üçün indiyədək beynəlxalq birlik tərəfindən təsirli tədbirlər görülməmişdir. Ümid edirəm ki, Alyans üzvləri mövcud reallığı nəzərə alaraq, insan hüquqlarının kobud surətdə və kütləvi şəkildə pozulması ilə müşayiət olunan, regionda təhlükəsizliyə ciddi təhdid yaradan işğal faktına adekvat qiymət verəcəklər.

İnanıram ki, Azərbaycanda təşkil etdiyiniz toplantı yüksək işgüzarlıq şəraitində keçəcək, irəli sürülən təkliflər və qəbul edilən qərarlar qarşıya qoyduğunuz vəzifələrin yerinə yetirilməsinə, demokratiyanın və azad cəmiyyətin inkişafına, sülhün və əmin-amanlığın təmin olunmasına xidmət edəcəkdir. Hər birinizə bu yolda uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 iyun 2018-ci il*

## QAMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ USAYNU DARBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Qambiya Respublikasının Xarici İşlər naziri Usaynu Darbonun başçılıq etdiyi, Qambiyanın Əmək və İnfrastruktur naziri Bai Lamin Jobenin də daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə Qambiya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğulayaraq, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Beynəlxalq Əməkdaşlıq Təşkilatı və BMT-də uğurlu əməkdaşlıq həyata keçirdiyini və bir-birini daim dəstəklədiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ Münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin Qambiya tərəfindən beynəlxalq platformada dəstəklənməsinə görə təşəkkürünü bildirdi.*

*Xarici İşlər naziri Usaynu Darbo Qambiya Prezidenti Adama Barronun salamlarını dövlət başçısına çatdırdı. O, Prezident Adama Barronun Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişafa nail olduğunu və bölgədə əməkdaşlığa, iqtisadi inkişafa, sülhün və təhlükəsizliyin təmin olunması işinə mühüm töhfə verdiyini yüksək qiymətləndirdiyini bildirdi.*

*Nazir Usaynu Darbo Azərbaycan ilə Qambiyanın «Qoşulmama Hərəkatı»nda fəal iştirakını qeyd edərək, ölkələrimizin İslam Əməkdaşlıq Təşkilatında və BMT-də bir-birini qarşılıqlı surətdə dəstəklədiyini vurğuladı.*

*Usaynu Darbo qeyd etdi ki, onun ölkəsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və Qambiya Prezidenti Adama Barron Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsini qətiyyətlə pisləyir.*

*Prezident İlham Əliyev Qambiya Prezidenti Adama Barronun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qambiya Prezidentinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı Azərbaycan ilə Qambiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsinin vacibliyi qeyd edildi.*

## AVROPA MÜHAFİZƏKARLAR VƏ İSLAHATÇILAR ALYANSININ PREZİDENTİ, AVROPA PARLAMENTİNİN BEYNƏLXALQ TİCARƏT KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ YAN ZAHRADİL İLƏ GÖRÜŞ

*8 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Avropa Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul etmişdir.*

*Yan Zahradil rəhbəri olduğu Alyansın Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirdiyini, Çexiya–Azərbaycan ikitərəfli münasibətlərin isə uğurla inkişaf etdiyini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, ölkəmizlə Avropa İttifaqına üzv olan 9 ölkə, o cümlədən Çexiya ilə strateji tərəfdaşlıq haqqında saziş və bəyannamələrin qəbul edilməsi və imzalanmasının önəmini vurğuladı.*

*Avropa Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı Sammitində iştirakından məmnunluğunu bildirən Yan Zahradil bu önəmli Beynəlxalq forumun Azərbaycanın paytaxtında təşkil olunmasını yüksək qiymətləndirdi.*

*Azərbaycana həm Avropa Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, həm Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, həm də Avropa Parlamentinin üzvü qismində səfər etdiyini vurğulayan Yan Zahradil bildirdi ki, rəhbərlik etdiyi Alyans Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirir. Çexiya–Azərbaycan ikitərəli münasibət-*

*lərinə toxunan qonaq bu münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, ölkələrimizin strateji tərəfdaşlıq səviyyəsində əməkdaşlığının önəmini vurğuladı.Yan Zahradil Avropa ilə Azərbaycan arasında əlaqələrin inkişafına töhfə verməsindən məmnun olduğunu ifadə etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, ölkəmizlə Avropa İttifaqına üzv olan 9 ölkə, o cümlədən Çexiya ilə strateji tərəfdaşlıq haqqında bəyannamələrin qəbul edilməsi və nizamlanmasının önəmini vurğuladı.*

*Prezident İlham Əliyev Bakıda keçiriləcək tədbirin paytaxtımıza gələn çoxsaylı qonaqların Azərbaycanla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Dövlət bayramınız – Rusiya Günü münasibətilə səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Bu gün Rusiya Federasiyası ictimai-siyasi və sosial-iqtisadi sahələrdə böyük uğurlar qazanıb. Həyata keçirilən dövlətdaxili dəyişikliklər, habelə xarici siyasət sahəsində atılmış addımlar sabitliyə, sıx birləşmiş cəmiyyətin formalaşmasına, beynəlxalq aləmdə Rusiyanın mövqeyinin və nüfuzunun möhkəmlənməsinə kömək edibdir.

Azərbaycan ilə Rusiyanı çoxəsrlik dostluq və qarşılıqlı hörmət ənənələri bağlayır. Bu xoş ənənələrə əsaslanan Azərbaycan–Rusiya dövlətlərarası münasibətlər hərtərəfli inkişaf edir və yeni məzmunla zənginləşir.

Əmin olduğumu bildirirəm ki, biz xalqlarımızın maraqları, regionda sülhün, mehriban qonşuluğun və sabitliyin təmin edilməsi naminə strateji tərəfdaşlığı bundan sonra da birgə səylərimizlə möhkəmlədəcək və müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirəcəyik.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uğurlar, dost Rusiya xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2018-ci il*

**FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RODRİQO DUTERTEYƏ**

Hörmətli cənab Prezident!

Filippin Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Filippin arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Filippin xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyun 2018-ci il*

## BOLQARISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ NİKOLAY YANKOV İLƏ GÖRÜŞ

*10 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Bolqarıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Nikolay Yankovun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Nikolay Yankov Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Nikolay Yankov etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirərək, yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğuladı, Bolqarıstan Prezidentinin Bakıya, özünün Bolqarıstana səfərlərini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Nikolay Yankovun səfirlik fəaliyyətinin əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Səfir Nikolay Yankov Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını Prezident İlham Əliyevə çatdırdı və dövlətimizin başçısını yenidən Prezident seçilməsi, eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar təbrik etdi. Səfir ölkələrimizin rəhbərliyi arasında dostluq əlaqələrinin mövcud olduğunu bildirərək, bunun ikitərəfli münasibətlərin inkişafında rolunu xüsusi qeyd etdi.*

*«Cənub Qaz Dəhlizi» layihəsinə toxunan Nikolay Yankov bu layihənin icrasının Avropanın enerji təhlükəsizliyinin təmin*

*edilməsi, eyni zamanda, Bolqarıstanın qaz təchizatının şaxələndirilməsi baxımından böyük önəm daşıdığını vurğulayaraq, ölkəsinin gələcəkdə bu layihədə tranzit rolu oynaya biləcəyini bildirdi. O, Bolqarıstanın bu mühüm layihənin reallaşmasına siyasi sadiqliyini bir daha ifadə etdi.*

*Prezident İlham Əliyev bu yaxınlarda Bakıda «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışının önəmini qeyd edərək, yaxın günlərdə TANAP-ın da işə salınacağını vurğuladı, «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla həyata keçirildiyini bildirdi. Dövlət başçısı Bolqarıstanın bu layihənin mühüm tərkib hissəsi olduğunu və gələcəkdə digər ölkələrə Azərbaycan qazının çatdırılması üçün tranzit rolu oynaya biləcəyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Bolqarıstan Prezidenti Rumen Radevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Bolqarıstan Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, o cümlədən iqtisadiyyat, turizm, investisiya qoyuluşu, kənd təsərrüfatı sahələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## PERU RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MARİYA MİLAQROS KASTANYON SEOANE İLƏ GÖRÜŞ

*10 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Mariya Milaqros Kastanyon Seoanenin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Mariya Milaqros Kastanyon Seoane Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Mariya Milaqros Kastanyon Seoane etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Mariya Milaqros Kastanyon Seoane Peru Respublikasının Prezidenti Martin Viskarranın salamlarını dövlətimizin başçısına çatdırdı. O, səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı. Mariya Milaqros Kastanyon Seoane Azərbaycan ilə Peru arasında mümkün əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin vacibliyini qeyd edərək, bu baxımdan kənd təsərrüfatı sahəsində yaxşı potensialın olduğunu dedi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi üçün istiqamətlərin müəyyən edilməsinin zəruri olduğunu vurğulayaraq, bir neçə sahədə, o cümlədən kənd təsərrüfatı sahəsində əlaqələrin genişləndirilməsinin mümkünlüyünü bildirdi, bu sahənin Azərbaycanın inkişafında prioritet sahələrdən biri olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Peru Respublikasının Prezidenti Martin Viskarranın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Peru Prezidentinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ MİXAİL BOÇARNİKOV İLƏ GÖRÜŞ

*10 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 10-da Rusiya Federasiyasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Mixail Boçarnikovun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Mixail Boçarnikov Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Mixail Boçarnikov etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, hərbi-texniki, humanitar və bütün digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında mövcud olan bu münasibətləri strateji tərəfdaşlıq əlaqələri kimi dəyərləndirdiyini vurğuladı. Münasibətlərimizin zəngin tarixə malik olduğunu qeyd edən Prezident İlham Əliyev bu əlaqələrin gələcəkdə də uğurla və dinamik şəkildə inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Səfir Mixail Boçarnikov Rusiya Prezidenti Vladimir Putinin ona səfirlik fəaliyyəti dövründə Azərbaycan ilə əlaqələri daha da möhkəmləndirmək istiqamətində tapşırıqlar verdiyini bildirdi. O qeyd etdi ki, Rusiya–Azərbaycan ikitərəfli münasibətləri bütün sahələrdə uğurla inkişaf edir. Azərbaycanda bütün sahələrdə gedən inkişaf proseslərinin Rusiyada maraqla izlənildiyini qeyd edən Mixail Boçarnikov Bakıda*

*olduğu bir neçə gün ərzində paytaxtda aparılan abadlıq işlərinin onda dərin təəssürat yaratdığını vurğuladı. Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## MÜDAFİƏ NAZİRLİYİ RAKET QOŞUNLARININ «N» SAYLI HƏRBİ HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*11 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 11-də Müdafiə Nazirliyi Raket Qoşunlarının «N» saylı hərbi hissəsinin açılışında iştirak etmişdir.*

*Müdafiə naziri Zakir Həsənov dövlət başçısına raport verdi.*

*Bildirildi ki, hərbi hissənin inşasına 2017-ci ilin mayında başlanılıb. Ümumi ərazisi 36 hektar olan hərbi hissədə qərargah binası, əsgər yeməkxanası və yataqxanası, idman və sıra düzülüş meydançaları, maşınlar üçün qaraj, nəzarət buraxılış məntəqəsi, nəzarət qüllələri tikilibdir.*

*Hərbi hissənin qərargah binası müasir səviyyədə inşa olunub. Binada hərbçilər üçün bütün zəruri avadanlıqlarla təchiz edilmiş iş otaqları vardır. Bir sözlə, burada hərbi qulluqçulara xidmətlərini yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb. Belə müasir qərargah binalarının yaradılması hərbi potensialın artırılması, əsgər və zabitlərin xidmət şəraitlərinin yüksək səviyyədə təmin edilməsi istiqamətində dövlətimizin atdığı mühüm addımların ardıcıl olduğunu bir daha göstərir.*

*Dövlət başçısı hərbi hissənin əsgər yataqxanasında yaradılan şəraitlə də tanış oldu.*

*Yataqxana binasında əsgərlərin qalması və istirahəti üçün hərtərəfli şərait vardır. Burada məişət və əşya otaqları, dəftərxana və digər zəruri otaqlar yaradılıb. Yataqxanadakı ideoloji otaqda hərbi qulluqçular Azərbaycanın hərb tarixinin şanlı səhifələri barədə məlumat alacaqlar.*

*Hərbi hissədə əsgər və zabitlərin idmanla məşğul olmaları üçün də yaxşı şərait vardır. İdman meydançasında hərbi qulluqçular mini-futbol, basketbol və voleybolla məşğul ola biləcəklər.*

*Hərbi hissənin əsgər yeməkxanası da müasir səviyyədədir. Təmiz və işıqlı yeməkxana binasında hərbi qulluqçulara bol enerjili, ekoloji təmiz və rasiona uyğun yeməklər verilir. Bütün bunlar bir daha göstərir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində mühüm işlər görülür, hərbi qulluqçuların xidməti, yaşayış və istirahət şəraitini yüksək səviyyəyə çatdırmaq məqsədilə konkret addımlar atılır.*

*Hərbi hissənin raketlərin yoxlanılması anqarında zəruri avadanlıqlar quraşdırılıb. Burada raketlər təmir ediləcək və yoxlanılacaqdır. Ərazidə, həmçinin raket meydançası da yaradılıb. Hərbi hissədə belə müasir infrastrukturun yaradılması onun strateji əhəmiyyətini daha da artırır.*

*Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev raketlərin saxlanılması və döyüş maşınlarına yüklənilməsi anqarına da baxdı.*

*Yeni hərbi hissənin ərazisində iriqabaritli hərbi maşınlar üçün saxlanma anqarı, yanacaqdoldurma məntəqəsi, açıq test meydançası yaradılıb. Ümumilikdə burada görülən işlər ordu quruculuğu sahəsində son illərdə aparılan məqsədyönlü islahatların tərkib hissəsidir.*

*Dövlət başçısı döyüş texnikası parkında hərbi texnikaya baxdı.*

*Ali Baş Komandana «Polonez» əməliyyat-taktiki raket kompleksi barədə məlumat verildi. Onun maksimal atış uzaqlığı 300 kilometrə qədərdir. Raketin çəkisi 780 kiloqram, döyüş başlığı hissəsinin çəkisi 140 kiloqram, zərərvurma radiusu isə 80 metrdir. «Polonez»in maksimal uçuş müddəti saniyədə 310 metr, atışa hazırlıq vaxtı 10 dəqiqə, istismar müddəti isə 10 ildir. 1 döyüş maşınında 8 raket olur. Bu kompleks düşmənin*

*əməliyyat düzülüşünün bütün dərinliyində onun nüvə və kimyəvi hücum vasitələrinə, kəşfiyyat-zərbə sistemlərinin yerüstü elementlərinə, qoşunların əsas qruplaşmalarına, bazalarda yerləşən aviasiyasına, hava hücumundan müdafiə vasitələrinə və obyektlərinə, idarəetmə məntəqələrinə, radioelektron vasitələrinə, arxa cəbhə və digər obyektlərinə zərbə vurulması üçündür. Bundan başqa, kompleks vasitəsilə dənizsahili istiqamətlərdə düşmən donanmasının yerləşmə məntəqələri dağıdılır və onun döyüş gəmiləri məhv edilir.*

*Əməliyyat-taktiki raket kompleksi olan «Lora» da «Polonez» kompleksi kimi, döyüş zamanı eyni məqsədlər üçün istifadə edilir. Maksimal atış uzaqlığı 300 kilometrdən artıq olan bu kompleksin raketinin çəkisi 1580 kiloqram, döyüş başlığı hissəsinin çəkisi isə 240 kiloqramdır. Raketin zərərvurma radiusu 100 metr təşkil edir. 1 döyüş maşınında 4 raket olur. Onların maksimal uçuş müddəti saniyədə 300 metr, atışa hazırlıq vaxtı 13 dəqiqə, istismar müddəti 10 ildir. Həm «Polonez», həm də «Lora» kompleksləri GPS və İNS sistemləri ilə idarə olunur.*

*Bütün bunlar göstərir ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə son dövrlərdə ordumuzun müasir silah, sursat, hərbi texnika ilə təminatı məsələsinə xüsusi diqqət və qayğı ilə yanaşılır. Təsadüfi deyil ki, bu gün ordumuzun balansında dünyanın ən müasir silah, sursat və hərbi texnikası vardır. Azərbaycan Ordusunun maddi-texniki bazasının yüksək səviyyədə təminatı üçün müasir silah, sursat, hərbi texnika xaricdən alınır. Bununla yanaşı, Ali Baş Komandanın diqqət və qayğısı sayəsində ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi də Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açır.*

## TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR

*12 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də TANAP layihəsinin açılışı mərasimində iştirak etmək üçün Türkiyə Respublikasına səfərə gəlmişdir.*

*Əskişəhərin Hasan Polatkan Hava Limanında Azərbaycan Respublikasının Prezidentini Türkiyə Respublikasının Meşə və Su Məsələləri naziri Veysəl Əroğlu və digər rəsmi şəxslər qarşıladılar.*

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ PETRO POROŞENKO İLƏ GÖRÜŞ

*Əskişəhər*

*12 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyənin Əskişəhərində Ukrayna Respublikasının Prezidenti Petro Poroşenko ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olundu, nəqliyyat sahəsində əməkdaşlığın yaxşı nəticələr verdiyi bildirildi.*

*Söhbət zamanı TANAP layihəsinin əhəmiyyəti vurğulandı, bu layihənin beynəlxalq əməkdaşlığa verdiyi töhfədən danışıldı.*

*Görüşdə ötən il iki ölkə arasında ticarət dövriyyəsinin 2,5 dəfə, Azərbaycandan Ukraynaya ixracın isə 8 dəfə artdığı bildirildi. Həmçinin Ukraynadan gələn və Azərbaycan ərazisindən keçən tranzit yüklərin həcminin 2 dəfə artdığı da qeyd edildi.*

*Görüşdə energetika sahəsində əməkdaşlığın dərinləşdiyi vurğulandı, SOCAR-la əlaqələrin genişləndiyi və Ukraynada SOCAR-ın yanacaqdoldurma məntəqələrinin sayının artdığı qeyd edildi.*

*Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*Əskişəhər*

*12 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyənin Əskişəhərində bp şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşmüşdür.*

*Görüşdə TANAP layihəsinin açılışının əhəmiyyəti vurğulandı, bp–SOCAR əməkdaşlığının uğurla həyata keçirildiyi qeyd edildi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*Əskişəhər*

*12 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyənin Əskişəhərində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Azərbaycan ilə Türkiyənin birgə həyata keçirdiyi mühüm qlobal layihələrin, o cümlədən TANAP layihəsinin əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı energetika sahəsində geniş əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Dövlət başçıları əminliklərini bildirdilər ki, əlaqələrimiz bundan sonra da bütün sahələrdə daim möhkəmlənəcək və genişlənəcəkdir.*

*Görüşdə ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TANAP – TRANS–ANADOLU QAZ KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK

*Əskişəhər*

*12 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyənin Əskişəhərində TANAP–Trans–Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmişdir.*

*Qeyd edək ki, Trans–Anadolu qaz kəməri layihəsinin icrası müstəqilliyimizin daha bir mühüm hadisəsi kimi tarixə düşdü. Azərbaycan və Türkiyənin möhtəşəm işbirliyi, qardaşlığa və dostluğa söykənən fəaliyyətləri bu strateji layihənin uğurla reallaşdırılmasında əhəmiyyətli rol oynadı. Ölkəmizin iqtisadi qüdrətinin, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu bir daha təsdiqləyən TANAP–Trans–Anadolu qaz kəməri layihəsi bununla da Azərbaycanın dünyanın siyasi və iqtisadi həyatındakı yerini nümayiş etdirdi. TANAP–Trans–Anadolu qaz kəmərinin istifadəyə verilməsi mərasimi bu möhtəşəm layihə haqqında videoçarxın nümayişi ilə başlandı.*

*Mərasimin əvvəlində SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Berat Albayrak Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində bir çox uğurlu layihələrin həyata keçirildiyini, «Enerjinin İpək yolu» adlandırılan TANAP layihəsinin həm də qardaşlığın daha da möhkəmləndirilməsinə qoyulan sərmayə olduğunu bildirdilər.*

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin Çıxışı

Əziz qardaşım, hörmətli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan!

Hörmətli prezidentlər!

Xanımlar və cənablar!

İlk növbədə, qardaş Türkiyə torpağında yenidən olmağımdan məmnunluğumu ifadə etmək istərdim. Biz Azərbaycanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə əldə edilmiş uğurlara çox sevinirik. Prezident Ərdoğanın yorulmaz fəaliyyəti nəticəsində Türkiyə dünya miqyaslı böyük gücə çevrildi. Türkiyə o ölkədir ki, dünya gündəliyini müəyyən edir. Biz Azərbaycanda buna sevinirik. Türkiyənin gücü bizim gücümüzdür və bizim gücümüz birliyimizdədir. Biz uzun illərdir ki, bu birliyi nümayiş etdiririk. Bu gün dünyada bir-birinə bu qədər yaxın olan, bir-birini bu qədər dəstəkləyən ölkələr tapmaq çox çətindir. Türkiyə–Azərbaycan birliyi, qardaşlığı həm ölkələrimiz, həm xalqlarımız, həm bölgəmiz, həm də Avrasiya üçün önəmli amildir.

Bu gün TANAP-ın istismara verilməsi Türkiyə–Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər və xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə–Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olubdur.

Bu, birgə həyata keçirdiyimiz birinci layihə deyil. Biz bundan əvvəl – 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin açılışlarını birlikdə

etmişik. Keçən il Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını da birlikdə etdik. Bütün bu açılış mərasimlərində əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə iştirak etmişik. Bu gün bu tarixi gündə də biz birlikdəyik. Bu onu göstərir ki, bizim təşəbbüsümüzlə irəli sürülən istənilən layihə həyatda öz əksini tapır. Çünki bunun arxasında düşünülmüş siyasət, güclü iradə və bizim qardaşlığımız dayanır.

Azərbaycan qazının Avropa qitəsinə böyük həcmdə ötürülməsi haqqında son illər ərzində bir çox müzakirələr aparılıb və bir çox tədbirlər keçirilibdir. Ancaq əfsuslar olsun ki, onların heç bir nəticəsi olmayıbdır. Belə olan halda, Türkiyə və Azərbaycan qərara gəldi ki, biz özümüz yeni bir layihə irəli sürək. Bu layihənin adını da biz birlikdə qoyduq – TANAP. Bu layihə üzrə anlaşmanı 2012-ci ildə İstanbul şəhərində Rəcəb Tayyib Ərdoğan və mən imzaladıq. O gün həmin imzalanma mərasimində biz bugünkü günü görmək arzumuzu ifadə etdik və Allah bizə bunu nəsib etdi. Biz bu illər ərzində böyük işlər gördük. TANAP layihəsinin icrası həm texniki, həm maliyyə cəhətdən çox mürəkkəb bir işdir. Ancaq bunu biz çox böyük müvəffəqiyyətlə icra etdik. Bu gün TANAP-ın istismara verilməsi qonşu və dost ölkələr üçün də gözəl imkanlar yaradır. TANAP 7 ölkəni, bir çox şirkətləri birləşdirir. «Cənub Qaz Dəhlizi»nin ayrılmaz hissəsi olan TANAP bu gün və gələcəkdə enerji təhlükəsizliyi məsələlərinin həlli üçün əvəzolunmaz infrastruktur layihəsidir. «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasimi 2 həftə bundan öncə – mayın 29-da Bakıda təşkil edilmişdir. «Cənub Qaz Dəhlizi» 4 böyük layihədən ibarətdir – «Şahdəniz-2» qaz yatağının işlənilməsi – o yatağın ehtiyatları 1,2 trilyon kubmetrdir, «Cənubi Qafqaz» boru kəməri, TANAP və TAP layihəsi. Bu 4 layihənin 3-ü artıq reallaşıb, başa çatıbdır. TAP da 72 faiz icra olunub. Əminəm ki, yaxın 2 il ərzində TAP layihəsi də tamamlanacaq və beləliklə, Avropanın 40 milyard dollar sərmayə tələb edən ən böyük infrastruktur layihəsi – «Cənub Qaz Dəhlizi» icra edilmiş olacaqdır. Bu tarixi nailiyyət

bizə imkan verəcək ki, Azərbaycanın zəngin qaz ehtiyatları Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılsın.

«Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. «Cənub Qaz Dəhlizi»nin önəmi məhz bundadır – enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. «Cənub Qaz Dəhlizi» vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. «Cənub Qaz Dəhlizi» həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında, enerji şaxələndirilməsi məsələsinə xidmət göstərir.

Bu böyük işlərin icrasında SOCAR, BOTAŞ və *bp* şirkətləri iştirak edib, onlar TANAP-ın səhmdarlarıdır. Mən onlara öz təşəkkürümü bildirmək istəyirəm. Bu işlərdə iştirak etmiş bütün şirkətlərə təşəkkürümü bildirmək istəyirəm ki, onlar bu böyük işi yüksək keyfiyyətlə və qısa müddət ərzində görə bildilər. «Cənub Qaz Dəhlizi» Avrasiyada yeni əməkdaşlıq, işbirliyi formatını təşkil edir. Əgər işimizin əvvəlində – 2000-ci illərin əvvəllərində Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli əməkdaşlıq formatı yaranmışdırsa, bu gün qeyd etdiyim kimi, 7 ölkə bu layihədə iştirak edir. Daha 3 ölkə bizim gələcək tərəfdaşlarımız kimi, bu layihədə iştirak edəcəkdir. Biz çalışmalıyıq ki, Azərbaycan qazının Avropa qitəsinə çatdırılması istiqamətində daha böyük işlər görək və bizim əhatə dairəmiz daha geniş olsun.

Bir daha demək istəyirəm ki, bu gün tarixi bir gündür. Bu günün mümkünlüyü ancaq və ancaq güclü siyasi iradə nəticəsində olubdur. Türkiyə–Azərbaycan birliyi, qardaşlığı olmasaydı, bu layihə kağız üzərində qala bilərdi. Əlbəttə, bir daha demək istəyirəm, Türkiyənin xarici sərmayə üçün çox gözəl ölkə kimi özünü təqdim etməsi imkan verdi ki, Türkiyəyə böyük yatırımlar qoyulsun. Son illər ərzində təkcə Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 13 milyard dollardan çox sərmayə qoyulub, növbəti illərdə bu rəqəm 20 milyard dollara çatacaqdır.

Bu gözəl hadisə münasibətilə sizi, xalqlarımızı, bizim bütün dostlarımızı ürəkdən təbrik etmək istəyirəm, TANAP-a yaxşı yol arzulayıram. Sağ olun.

* * *

*Şimali Kipr xalqının lideri Mustafa Akıncı TANAP-ın əhəmiyyətindən danışaraq, belə nəhəng layihələrin Türkiyə ərazisindən keçməsinin regional təhlükəsizliyə və sabitliyə töhfə verdiyini bildirdi.*

**M u s t a f a  A k ı n c ı:** Cənab Prezident Əliyevin çıxışını dinlədikdən sonra mən öz çıxışımda kiçik bir dəyişiklik edirəm. Azərbaycan Prezidenti Türkiyə və Azərbaycanın qardaşlığından çox gözəl bəhs etdi. Mən də deyirəm ki, daha bir qardaşınız var: Şimali Kipr xalqı. Türkiyədə və Azərbaycanda bir faciə olduqda Şimali Kiprdə yaşayan qardaşlarınız bu ağrını sizin kimi ürəklərində hiss edirlər. Bir sevinc olduqda sizinlə birlikdə sevinirlər. Buna görə bu gün həm Azərbaycan, həm də Türkiyə üçün çox mühüm olan bu gözəl tarixi tədbirdə sizinlə birlikdə olmaqdan duyduğum xoşbəxtliyi ifadə etmək istəyirəm. Bu gözəl tədbirin Türkiyəyə və Azərbaycana, bütün insanlığa xeyirli olmasını diləyirəm.

İnanıram ki, TANAP layihəsi zamanımızın mütərəqqi əməkdaşlığına yaxşı bir nümunədir. Xəzər dənizindəki təbii ehtiyatların ən münasib marşrutlarla daşınaraq, Türkiyəyə və oradan da Avropa bazarlarına nəql edilməsi bölgədə iqtisadi inkişafa və təhlükəsizlik mühitinin yaranmasına da töhfə verəcəkdir.

*Serbiya Prezidenti Aleksandr Vuçiç çıxış edərək, strateji bağlantı funksiyasını yerinə yetirən TANAP layihəsinin təbii qaz dəhlizinin mühüm amili olduğunu bildirdi. O, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına xidmət edən bu layihənin Cənub-Şərqi Avropanın tərəqqisində mühüm rol oynayacağını,*

*bu regiona yeni investorların gəlişinə təsir göstərəcəyini, Serbiyanın da inkişafına töhfə verəcəyini vurğuladı.*

**A l e k s a n d r V u ç i ç:** Fürsətdən istifadə edərək, əvvəla, bu müstəsna layihəni həyata keçirənlərə, eyni zamanda, bu layihənin reallaşmasına öz baxışları ilə stimul verənlərə təbriklərimi çatdırmaq istəyirəm. Möhtərəm Prezident Ərdoğan, möhtərəm Prezident Əliyev və bu gün bizim burada toplaşmağımıza səbəb olan digər tərəflər, xahiş edirəm, mənim təbriklərimi qəbul edin.

Bu gün Əskişəhərdə keçirilən mərasimdən əvvəl – Bakıda may ayının sonunda «Cənub Qaz Dəhlizi» layihəsinin açılışı mərasimi keçirilmişdir. TANAP bu layihənin əsas təməl daşlarından biridir. Bu layihə Avropada digər regionların da enerji təhlükəsizliyinə verdiyi töhfə baxımından çox mühüm əhəmiyyət kəsb edir. Məndə məmnunluq doğuran fakt odur ki, bu yaxınlarda Prezident Əliyevin qonağı qismində Azərbaycana rəsmi səfər etmişdim və bununla da Serbiya beynəlxalq arenada uğurlu dostluq körpüləri yaradan ciddi və etibarlı tərəfdaş kimi təsdiq edilmişdir.

*Ukrayna Respublikasının Prezidenti Petro Poroşenko çıxışında Avropa üçün son dərəcə önəmli olan TANAP qaz xəttinin açılışının enerji qaynaqlarının şaxələndirilməsi istiqamətində atılan mühüm addım olduğunu bildirdi. Türkiyənin və Azərbaycanın birgə səyləri sayəsində «Cənub Qaz Dəhlizi»nin önəmli seqmentinin artıq tamamlandığını vurğulayan Petro Poroşenko bu layihənin uğurla icra olunmasında Azərbaycan və Türkiyə prezidentlərinin xidmətlərini qeyd etdi.*

**P e t r o P o r o ş e n k o:** Azərbaycanın və Türkiyənin birgə qətiyyəti, eləcə də digər Avropa ölkələrinin töhfəsi sayəsində «Cənub Qaz Dəhlizi»nin bu aparıcı seqmenti tamamlanıb. Bundan sonra bütün region enerji təhlükəsizliyi perspektivlərinin genişlənməsindən faydalana biləcəkdir.

TANAP enerji təhlükəsizliyi deməkdir. TANAP Azərbaycan xalqının böyük lideri, mənim dostum İlham Əliyevin rəhbərliyi

ilə Azərbaycanın enerji təhlükəsizliyi, türk xalqının böyük lideri, Ukraynanın dostu və mənim dostum Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyənin enerji təhlükəsizliyi, eyni zamanda, 2 böyük liderin – Prezident Əliyevin və Prezident Ərdoğanın misilsiz birliyi sayəsində Avropanın enerji təhlükəsizliyi, Avropanın qaz təchizatının şaxələndirilməsi və Avropanın rəqabətliliyi deməkdir. Bu, Ukraynanın enerji təhlükəsizliyi, Ukraynanın qaz təchizatının şaxələndirilməsi və Ukraynanın rəqabətliliyi deməkdir. Mən Ukrayna xalqı adından bu mühüm TANAP layihəsinin müəllifləri olan Prezident Əliyevə və Prezident Ərdoğana təşəkkürümü bildirmək istəyirəm.

*Qeyd edək ki, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorundakı «Şahdəniz-2» yatağından və Xəzərin digər sahələrindən hasil edilən təbii qazın Türkiyəyə və Avropaya nəqlini nəzərdə tutur. «Cənub Qaz Dəhlizi»nin əsas seqmentlərindən biri olan TANAP Gürcüstandan və Türkiyənin 20 vilayətindən keçərək, Yunanıstan sərhədinə qədər uzanır. Layihə ilə bağlı Azərbaycan ilə Türkiyə arasında Anlaşma Memorandumu 2011-ci il dekabrın 24-də, Trans–Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənibdir. TANAP layihəsi təbii qazın «Şahdəniz», eyni zamanda, Azərbaycanın digər yataqlarından Avropa bazarlarına nəql edilməsi potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir. Uzunluğu 1850 kilometr olan TANAP boru kəmərinin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. İlkin mərhələdə layihənin illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcəkdir.*

*Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.*

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı

Çox hörmətli dövlət başçıları!

Hörmətli nazirlər, deputatlar, enerji ictimaiyyətinin təmsilçiləri!

Əziz qonaqlar, xanımlar və cənablar!

Sizi dərin səmimiyyətimlə salamlayıram. Bu gün bölgəmiz və ölkələrimiz üçün tarixi bir addım atırıq. «Cənub Qaz Dəhlizi»nin bel sütunu olan və «Enerjinin İpək yolu» adlandırdığımız Trans–Anadolu təbii qaz boru kəmərinin açılışını edirik. Sizi – dostlarımı belə bir strateji layihənin açılışı ilə əlaqədar Əskişəhərdə qonaq qəbul etməkdən şəxsən öz adımdan və millətim adından böyük məmnunluq duyuram. Bu nəhəng layihənin nəzərdə tutulan tarixdən əvvəl həyata keçirilməsində əməyi olanları ürəkdən təbrik edirəm.

Bu layihənin reallaşması hər şeydən əvvəl Türkiyə ilə Azərbaycan arasındakı qarşılıqlı etimada əsaslanan münasibətlər sayəsində mümkün olub. Bundan başqa, istehsalçı, tranzit və istehlakçı ölkələrlə şirkətlər arasındakı uzlaşma və qarşılıqlı anlaşma birliyi prosesin sürətləndirilməsinə töhfə verib. Bu baxımdan TANAP çoxtərəfli əməkdaşlığın nümunəsidir. Enerjini münaqişə deyil, əməkdaşlıq zəmini olaraq görən anlayışımız TANAP sayəsində bir daha təsdiqini tapdı. Bununla əlaqədar xüsusilə qardaşım İlham Əliyevə çox təşəkkür edirəm.

Dəyərli dostlar, TANAP ilə Xəzər qazı ilk dəfə Avropaya çatacaq. Şübhəsiz, Xəzər hövzəsindəki zəngin enerji ehtiyatlarının Avropaya nəqli fikrinin yeni olmadığını hamımız bilirik. Daha əvvəl bu məqsədlə bir sıra nəhəng layihələr həyata keçirmişik. Bu yola Bakı–Tbilisi–Ceyhan xam neft boru kəmərinin inşası ilə başladıq. «Əsrin layihəsi» adlandırılan Bakı–Tbilisi–Ceyhan kəməri daha sonrakı fəaliyyətin də başlanğıcı oldu. Azərbaycan və Gürcüstan ilə strateji tərəf-

daşlığımız ölkəmizə ilk dəfə Azərbaycan qazını gətirən Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəməri layihəsi ilə davam etdi.

Əməkdaşlığımız enerji ilə məhdudlaşmadı. Son olaraq nəqliyyat sahəsində strateji əhəmiyyətə malik Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin açılışını da dəyərli qardaşımla bərabər reallaşdırdıq. Beləliklə, Londondan Çinə birbaşa dəmir yolu əlaqəsini qurmağa nail olduq.

TANAP ortaq baxışımızın ən son bəhrəsidir. Enerji bazarında yaşanan dəyişikliyə və ehtiyaca cavab verən TANAP, eyni zamanda, qarşıdakı illərdə həyata keçirəcəyimiz yeni layihələrin də müjdəsidir. Layihə ilə bağlı rəqəmlər bu həqiqəti açıq-aşkar ortaya qoyur. Diametri 56 düymlük borulardan ibarət olan 1850 kilometrlik TANAP Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun təbii qaz boru kəməridir. TANAP 20 vilayət, 67 rayon və Çanaqqala boğazını keçən marşruta sahibdir. Bu layihənin ilkin ötürücülük qabiliyyəti ildə 16 milyard kubmetr təbii qazdır. Bunun 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya nəql olunacaq. Tələbdən asılı olaraq, ötürücülük qabiliyyətini əvvəlcə 22 milyard kubmetrə, daha sonra əlavə sərmayələrlə 31 milyard kubmetrə çatdırmağı hədəfləyirik. Yunanıstan sərhədinə ilk qazın çatdırılmasını 2019-cu ilin iyununda həyata keçirməyi nəzərdə tuturuq.

TANAP təkcə enerji təhlükəsizliyi baxımından deyil, Xəzər bölgəsindən Avropaya qədər marşrut üzərindəki bütün ölkələrin rifahına və məşğulluq probleminə də töhfə verəcəkdir. Bunun bəhrələrini hələ sərmayə mərhələsində almağa başladıq. Sərmayə dövründə boru kəməri marşrutundakı 20 vilayətdə təxminən 10 min nəfərə bilavasitə və ya dolayısı ilə məşğulluq imkanı yaratdıq. Eyni zamanda, bu vilayətlərdə başda kiçik və orta sahibkarlıq subyektləri olmaqla, çoxlu sayda müəssisəyə yeni iş imkanı təmin etdik. Bundan başqa, Türkiyə TANAP-ın reallaşması ilə tranzit ölkə olmaqdan çıxaraq, istehsalçıdan son istehlakçıya uzanan dəyər zəncirinin hər mərhələsində rol oynayan əhəmiyyətli bir mövqeyə gəlib. Ölkəmiz regional

enerji xətlərinin mərkəzinə çevrilmək missiyasına TANAP vasitəsilə bir addım da yaxınlaşdı.

Dəyərli qonaqlar, TANAP siyasi iradə ilə yanaşı, iqtisadi sabitliyin də məhsuludur. TANAP kimi böyük beynəlxalq infrastruktur layihəsinin qısa müddətdə həyata keçirilməsində Türkiyənin son 16 ildə təmin etdiyi siyasi və iqtisadi sabitliyin çox önəmli rolu vardır. Ölkəmiz bölgədəki bütün gərginliklərə, münaqişələrə, terror hadisələrinə, hətta FETÖ xəyanət dəstəsinin qanlı dövlət çevrilişi cəhdinə baxmayaraq, 16 ildir sabitliyini qorumağı bacarmışdır. Bu illərdə Türkiyə nəqliyyat, ticarət, sərmayə, enerji kimi müxtəlif sahələrdə xeyli sayda mühüm layihə həyata keçiribdir.

Xüsusilə enerji təhlükəsizliyinə nail olmaq və öz enerji mənbələrimizdən səmərəli şəkildə istifadə etmək üçün ciddi sərmayələr qoyduq. Milli enerji və mədən siyasətimizi formalaşdıraraq, enerji təhlükəsizliyi və proqnozlaşdırıla bilən bazar şərtləri ilə ölkəmizin sərmayələr üçün etibarlı bir liman və sabitlik adası olduğunu göstərdik. 2 ədəd üzən LNG (mayeləşdirilmiş təbii qaz) qurumu və qurudakı LNG müəssisələrimizin imkanlarının genişləndirilməsi ilə son 2 il yarımda ölkəmizin LNG-dən təbii qaz əldəetmə qabiliyyətini gündəlik 36 milyon kubmetrdən 113 milyon kubmetrə çatdırdıq.

Enerji təminatı üçün infrastrukturun gücləndirilməsi layihələri ilə yanaşı, təbii qaz və neft axtarışında da yeni bir dövrü başlatdıq. Milli qazma gəmimiz olan «Fatih»i Aralıq dənizinə yola saldıq. Dünyanın ən yeni texnologiyası ilə təchiz edilmiş bu gəmi ilə ölkəmizin mühüm bir çatışmazlığını da həll etmiş olduq.

Bundan başqa, son 16 ildə elektrik enerjisi gücümüzü 31845 meqavatdan 87000 meqavata yüksəltdik. Bərpaolunan enerji qaynaqları gücümüzü 12305 meqavatdan 40838 meqavata çatdırdıq. Külək, geotermal və Günəş enerjisi mühüm elektrik mənbələrimizə çevrildi. Yeni bir enerji mənbəyi olaraq, atom enerjisini də şəbəkəmizə daxil edəcəyik. Akkuyu və Sinop Atom

Elektrik stansiyaları layihələrini, inşallah, önümüzdəki illərdə mərhələ-mərhələ həyata keçirəcəyik.

Hörmətli qonaqlar, biz tarix boyunca rəqabətin, gərginliyin əsas səbəbi olmuş enerji məsələsini əməkdaşlıq sahəsinə çevirərkən Avropada din, inanc və ibadət azadlığının yeni bir münaqişə sahəsinə çevrilməsi cəhdlərini görürük. Avropa ölkələrində son illərdə artan irqçilik, ksenofobiya və islamofobiya meyilləri təəssüf ki, get-gedə sosial və siyasi həyatı daha çox zəhərləyir. Qısamüddətli maraqlar naminə bəzi avropalı siyasətçilər də, adətən, yanğını körükləyirlər. 6 milyondan çox vətəndaşı Avropa dövlətlərində yaşayan bir ölkə olaraq açıq deyirəm, bu mənfi gedişatdan son dərəcə narahatıq. Müsəlmanları hədəf göstərməyin, ksenofobiyanı qızışdırmağın, ibadət yerlərinin qapısına kilid vurmağın heç kimə faydası yoxdur. Gərginlik platformalarından siyasi maraqlar naminə istifadə etməyə çalışmaq bəsirətsizlikdir, odla oynamaqdır. İkinci dünya müharibəsində yəhudilərin və qaraçıların çəkdiyi zülmlər, yaşadıqları qətliam və işgəncələr belə məsuliyyətsiz siyasətin necə utancverici səhnələrə səbəb ola biləcəyini açıq göstərib. Avropadakı naşı siyasətçilər insanların həssas dəyərlərinə toxunan manevrlər etməzdən əvvəl öz tarixlərindəki dərsə bir daha baxsınlar və ondan nəticə çıxarsınlar.

Qanuni, leqal qurumların qapısına kilid vurmaqla, radikalizmlə mübarizə aparmaq olmaz. Müsəlmanların inanc və ibadət azadlıqlarını məhdudlaşdırmaqla, terrorla mübarizə aparmaq olmaz. Belə təhrikedici addımlar ancaq İŞİD, «Əl-Qaidə» kimi terror təşkilatlarına yeni fəaliyyət sahələri təqdim edər. Terror təşkilatı PKK-nın Avropa paytaxtlarında meydan suladığı, hər il milyonlarla avro xərac topladığı bir şəraitdə cami və məscidləri terror yuvası kimi göstərmək, sözün əsl mənasında, ağılsızlıqdır. Türkiyə olaraq, Avstriya hökumətinin yanlış mövqedə israr etməsi əvəzinə dərhal doğru yola dönməsində fayda görürük. Vətəndaşlarımızın haqq, hüquq və

mənfəətlərinin qorunması məsələsində səbrimizin sonsuz olmadığını bilmələrini istəyirik.

Dəyərli dostlarım, bilirsiniz ki, TANAP ilk dəfə gündəmə gələndə bəzi dairələr – İlham qardaşım bunu çox yaxşı bilir – buna xülya dedilər, həyata keçirilməsi mümkün deyil dedilər. Amma biz səbir etdik, dözüm göstərdik. Doğru bildiyimiz yolla qətiyyətlə irəlilədik və israr etdik. Nəticədə isə bu gün bərabər yaşadığımız qürur tablosuna şahid oluruq. İndi qarşımızda daha böyük hədəflər, yeni layihələr var, buradan aldığımız ilhamla yeni uğur hekayələri yazmaq vardır.

Bu hisslərlə sözlərimi bitirərkən dəyərli qardaşım Əliyevə göstərdiyi liderliyə görə bir daha təşəkkür edirəm. Bu tədbirimizdə iştirak edən dəyərli dostlarım Poroşenkoya, Vuçiçə, Şimali Kiprin lideri Mustafa bəyə və aramızda olan bütün nazirlərə, deputatlara və hörmətli xalqımıza çox təşəkkür edirəm. Bu prosesdə Avropa İttifaqı və Amerika Birləşmiş Ştatları tərəfindən göstərilən dəstəkdən də məmnunluq duyduğumuzu xüsusi ifadə etmək istəyirəm. Bu tarixi açılış mərasimində bizi tək qoymayan, sevincimizə ortaq olan bütün dövlət və hökumət başçılarına bir daha təşəkkürlərimi çatdırıram. Sağ olun, var olun, salamat qalın.

* * *

*Sonra TANAP kəmərinə qazın verilməsi mərasimi oldu və birgə foto çəkdirildi.*

*Bununla da Azərbaycanın və Türkiyənin birgə səyləri nəticəsində daha bir dünya əhəmiyyətli tarixi layihə həyata*

*vəsiqə aldı. Ölkəmizin reallaşdırdığı «Cənub Qaz Dəhlizi» layihəsinin ən vacib seqmentlərindən olan TANAP qaz kəmərinin istifadəyə verilməsi ilə artıq regiona və tərəfdaş ölkələrin həyatına yeni bir nəfəs gəlir. Bu isə Azərbaycanın və Türkiyənin birgə formalaşdırdığı regional inkişaf, tərəqqi və özünəinam mühitinin qələbəsidir.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*12 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportundan Azərbaycanın yüksəkvəzifəli şəxsləri yola saldılar.*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİN İLƏ GÖRÜŞ

*Moskva*

*13 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Moskvada Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşmüşdür.*

**V l a d i m i r  P u t i n:** Hörmətli İlham Heydər oğlu, Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz!

Ümidvaram ki, Moskvada vaxtınızı səmərəli və maraqlı keçirəcəksiniz. Ona görə maraqlı keçirəcəksiniz ki, oyun gözəl olacaq. Ona görə səmərəli keçirəcəksiniz ki, çoxsaylı ölkələrdən çoxlu həmkarlarımız gəlib, hamı ilə söhbət etmək, görüşmək, kiminləsə tanış olmaq imkanı vardır. MDB üzrə ən yaxın həmkarlarımızla cari məsələlər barəsində informasiya mübadiləsi aparmaq da mümkün olacaqdır.

Bizim ikitərəfli münasibətlərimizə gəldikdə isə, avqustun 30-da Sizin Rusiyaya səfərinizin gedişində həmin münasibətləri hərtərəfli və dərindən müzakirə edəcək, bununla məşğul olacağıq. O vaxta qədər isə həmkarlarımız işləyəcək və Sizin Rusiyaya səfərinizi hazırlayacaqlar.

Lakin artıq indidən demək olar ki, bizim münasibətlərimiz inkişaf edir, özü də çox uğurla inkişaf edir. Ötən il ərzində bizdə əmtəə dövriyyəsinin artımı 34,4 faiz, bu ilin birinci rübü ərzində isə daha 19 faizə yaxın olub. Yəni bu çox yaxşı artım tempidir və biz bunu dəstəkləməliyik.

Siyasi məsələlərə gəlincə, burada da vəziyyət sabitdir. Parlamentlərin, ictimai təşkilatların xətti ilə daim əlaqə saxlanılır, humanitar əlaqələr inkişaf edir.

Sizi görməyimə çox şadam. Xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Sağ olun, hörmətli Vladimir Vladimiroviç. İlk növbədə, Sizi ötən dövlət bayramınız – dünən qeyd olunmuş Rusiya Günü münasibətilə təbrik etmək istərdim. Futbol üzrə dünya çempionatına hazırlığın uğurla başa çatması münasibətilə də təbrik etmək istəyirəm. Bu, dünyanın əsas idman hadisəsidir. Əminəm ki, çempionatın özü də çox uğurla keçəcək, bütün qonaqlar razı qalacaqlar.

Bizim münasibətlərimizə gəldikdə, mən də onların inkişafından məmnun olduğumu bildirmək istərdim. Avqustun sonunda Rusiyaya səfərə dəvətinizə görə təşəkkür edirəm. Lakin bu gün də bizim kifayət qədər geniş gündəliyimizdəki cari məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı imkan vardır.

Düşünürəm ki, bizim daimi xarakter daşıyan müntəzəm əlaqələrimiz münasibətlərimizə böyük təkan verir. Biz bunun yaxşı nəticələrini görürük. Bizim qarşılıqlı siyasi fəaliyyətimiz çox yüksək səviyyədədir. Biz etibarlı dost və strateji tərəfdaşlarıq. Siz qeyd etdiyiniz kimi, iqtisadi sahədə dinamika ötən il də, bu il də çox müsbətdir. İqtisadi əməkdaşlığın genişləndirilməsinə dair planlar vardır. Biz Şimal–Cənub layihəsinin həyata keçirilməsinin artıq konkret nəticələrini görürük. Artıq Azərbaycan vasitəsilə Rusiyadan yükdaşımalar artır, bu da bizim fəaliyyətimizin müsbət nəticəsidir. Hesab edirəm ki, bütün sahələrdə, ələlxüsus humanitar sahədə bizim münasibətlərimiz, ümumiyyətlə, nümunəvidir. Belə ki, yaxşı dinamikaya, yaxşı nəticələrə nail olduğumuza görə şadam və gələcəyə, əlaqələrimizin möhkəmlənməsinə ümidlə baxıram.

Dəvətinizə görə bir daha sağ olun.

**RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**

Hörmətli həmvətənlərim!

Sizi dünya müsəlmanlarının əziz Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Quranın nazil edildiyi müqəddəs Ramazan ayı bəşər mənəviyyatı tarixində dərin iz qoyan mübarək aylardandır. Dünyanın müsəlman xalqları arasında dini mənəvi birlik duyğusunu qoruyub yaşadan, qəlblərdə iman gücünü artıran bu bayram insanları səbrli, gözəl niyyətli olmağa, savab işlər görməyə və İlahinin hikmətlərindən faydalanmağa çağırır, Yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə dəvət edir.

Tarixboyu özünün zəngin milli-mənəvi və dini dəyərlərinə həmişə sadiq qalmış Azərbaycan xalqı dünya müsəlmanları ilə həmrəylik nümayiş etdirərək, bu mübarək günləri böyük təntənə ilə qarşılayır. Din qarşısında öz vicdan borcunu yerinə yetirən və Ramazan ayının sınaqlarından alnıaçıq çıxan hər bir vətəndaşımız bu günü böyük fərəhlə bayram edir. Cəmiyyətdə birlik və bərabərliyin təntənəsinə çevrilən Ramazan bayramı ölkəmizin sabahı olan gəncliyin dərin mənəviyyata və yüksək əxlaqa sahib bir nəsil kimi Vətənə sədaqət ruhunda yetişməsində də mühüm rol oynayır.

Azəbaycanın suverenliyi və ərazi bütövlüyü yolunda canından keçmiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsini bu müqəddəs bayram günündə ehtiramla yad edir, ruhları şad olsun deyirəm, şəhidlərin ailələrinə və yaxınlarına səbr diləyirəm.

Ölkəmizdən kənarda yaşayan bütün soydaşlarımıza Ramazan bayramı münasibətilə ən xoş arzularımı çatdırıram.

Əziz bacı və qardaşlar!

Yeni minilliyin, yeni əsrin daim yeniləşən Azərbaycanın tərəqqisi naminə apardığınız nəcib işlərdə hamınıza böyük uğurlar diləyir və bütün pak niyyətlərinizin gerçək olmasını arzu edirəm.

Ramazan bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 iyun 2018-ci il*

## FUTBOL ÜZRƏ NÖVBƏTİ DÜNYA ÇEMPİONATININ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*Moskva*

*14 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva iyunun 14-də Moskvada «Lujniki» stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılışı mərasimində iştirak etmişlər.*

*Qeyd edək ki, 20-yə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionatlarının açılışı mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçildi. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam oldu, məşq ərəfəsində deyil, birbaşa Rusiya–Səudiyyə Ərəbistanı matçından əvvəl keçirildi.*

*Britaniyalı müğənni Robbi Uilyamsın və Vyana Operasının solisti, tanınmış opera müğənnisi Aida Qarifullinanın ifası mundialın açılışı mərasiminə əlavə əzəmət qatdı.*

*Açılış mərasiminin prodüseri Rusiyanın Birinci kanalıdır. Bu əzəmətli şounun konsepsiyasının müəllifi isə rejissor Feliks Mixaylovdur. Bu işdə ona İlya Averbux kömək göstərib. İkiqat dünya çempionu, braziliyalı futbolçu Ronaldo da açılış mərasiminə qatılıbdır.*

*Dünya çempionatına ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə çıxış etdi. Rusiya dövlətinin başçısı bütün qonaqları Moskvanın əfsanəvi «Lujniki» stadionunda salamlayaraq, dünyanın mehriban futbol*

*ailəsini çempionatın açılışı münasibətilə təbrik etdi. Bu möhtəşəm idman hadisəsinin ilk dəfədir ki, Rusiyada keçirildiyini vurğulayan Vladimir Putin ölkəsində bu idman növünə xüsusi sevginin bəslənildiyini də əlavə etdi. O bu idman bayramını Rusiyada qəbul etmək üçün dünya çempionatına məsuliyyətlə hazırlaşdıqlarını bildirdi. Harada yaşamağımızdan, hansı ənənələrə riayət etdiyimizdən asılı olmayaraq, bizim hamımızı bu parlaq idman növü – futbola sevgi birləşdirir. Futbolun gücünün əsasını humanizm təşkil edir. Çünki bu birlikdir – deyən Rusiya Prezidenti bu birliyi gələcək nəsillər üçün qoruyub saxlamağın vacibliyini vurğuladı.*

*FİFA-nın prezidenti Canni İnfantino da çıxışında Rusiyada başlanan futbol üzrə dünya çempionatının idmanın bu növünün həvəskarlarına maraqlı anlar yaşadacağını söylədi.*

*32 ölkənin yığma komandalarının mübarizə apardığı budəfəki futbol üzrə dünya çempionatı iyunun 14-dən iyulun 15-dək davam edəcək. Çempionat Rusiyanın 11 şəhərinin 12 stadionunda keçiriləcəkdir.*

*Xatırladaq ki, açılış mərasimini «Lujniki» stadionunda 80 min, televiziya ilə birbaşa yayımla isə təqribən 1 milyard nəfərə qədər tamaşaçı izləyibdir.*

*Rusiyada təşkil olunan futbol üzrə növbəti dünya çempionatı meydan sahiblərinin oyunu ilə başlandı.*

*Açılış mərasimindən dərhal sonra «A» qrupunda mübarizə aparan Rusiya və Səudiyyə Ərəbistanının yığma komandalarının görüşü başlandı.*

*Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyevanın da baxdıqları qarşılaşmada Rusiya yığma komandası 5:0 hesabı ilə qalib gəldi. Qolları futbolçular Yuri Qazinski, Dmitri Çerışev, Artyom Dzüba və Aleksandr Qolovin vurdular.*

*Xatırladaq ki, dünya çempionatında 32 komanda əvvəlcə 8 qrupda mübarizə aparır. Qruplarda birinci və ikinci yer tutan komandalar səkkizdəbir finala çıxacaqlar. Səkkizdəbir final*

*mərhələsindən başlayaraq, yarışlar olimpiya sistemi ilə keçiriləcək, yəni uduzan komanda mübarizəni dayandıracaqdır.*

*Final görüşü iyulun 15-də Moskvada «Lujniki» stadionunda baş tutacaqdır.*

*3-cü yer uğrunda matç isə iyulun 14-də Sankt-Peterburqda keçiriləcəkdir.*

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ**

Hörmətli xanım Prezident!

Xorvatiya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün Azərbaycan–Xorvatiya əlaqələri dinamik inkişaf etməkdədir. Ümidvaram ki, daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz, ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız bundan sonra da ölkələrimizin çiçəklənməsinə, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2018-ci il*

**SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BORUT PAHORA**

Hörmətli cənab Prezident!

Sloveniya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan–Sloveniya əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sloveniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2018-ci il*

**MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FİLİPE JASİNTO NYUSİYƏ**

Hörmətli cənab Prezident!

Mozambik Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Mozambik münasibətləri daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mozambik xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2018-ci il*

**SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Səudiyyə Ərəbistanını xalqlarımızın ortaq mənəvi dəyərlərindən qaynaqlanan dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, belə möhkəm təməl üzərində qurulmuş əlaqələrimiz bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcək və genişlənəcəkdir.

Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini xoş təəssüratlarla xatırlayıram.

Fürsətdən istifadə edərək, müqəddəs Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi yetirir, möhkəm can-sağlığı, xoşbəxtlik, qarşıdakı məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2018-ci il*

# ASİYA İNKİŞAF BANKININ İCRAÇI DİREKTORLAR ŞURASININ ÜZVÜ KŞATRAPATİ ŞİVAJİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Asiya İnkişaf Bankının (AİB) İcraçı Direktorlar Şurasının üzvü Kşatrapati Şivajinin başçılığı ilə bankın Direktorlar Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı 2015-ci ildə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci İllik Toplantısının ölkəmizdə uğurla keçirildiyini və böyük önəm daşıdığını məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, bankın ölkəmizdə müxtəlif infrastruktur layihələrin maliyyələşdirilməsində yaxından iştirakını yüksək qiymətləndirdi. Dövlət başçısı ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurları diqqətə çatdırdı. Qeyd etdi ki, Azərbaycan «İnklüziv inkişaf indeksi»ndə 2018-ci ildə inkişaf etməkdə olan ölkələr arasında 3-cü, MDB ölkələri arasında isə 1-ci yerdədir. Prezident İlham Əliyev Davos İqtisadi Forumunun rəqabətqabliyyətlilik hesabatı üzrə isə Azərbaycanın dünyada 35-ci, MDB ölkələri üzrə 1-ci yerdə olduğunu vurğuladı.*

*Ölkəmizin tranzit imkanlarına toxunan dövlət başçısı nəqliyyat sektorunda irimiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində Azərbaycanın tranzit potensialının daha da artdığını, dəmir yollarının modernləşdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü vurğulayaraq, Bakı–Tbilisi–Qars*

*dəmir yolunun və yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının əhəmiyyətini qeyd etdi.*

*Asiya İnkişaf Bankının İcraçı Direktorlar Şurasının üzvü Kşatrapati Şivaji dövlətimizin başçısını Prezident seçkilərində qələbə qazanması münasibətilə təbrik etdi. O, Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edərək, «Cənub Qaz Dəhlizi»nin reallaşmasını bu əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi və bu dəhlizin çox mühüm layihə olduğunu vurğuladı. Qeyd etdi ki, dünyada həyata keçirilən bir çox layihələrdə əvvəlcədən nəzərdə tutulmuş maliyyələşmənin həcmi sonradan artdığı halda, «Cənub Qaz Dəhlizi»nin icrasının gedişində isə əksinə, işlər səmərəli aparıldığından hətta əvvəlcədən nəzərdə tutulduğundan da az vəsait sərf olunubdur.*

*Kşatrapati Şivaji bildirdi ki, Azərbaycana səfərin məqsədlərindən biri də ölkənin inkişaf ehtiyacları ilə daha yaxından tanış olmaq, bankın fəaliyyətinin səmərəliliyini daha da artırmaq üçün strateji istiqamətləri müəyyən etməkdən ibarətdir. O, dünyada gedən maliyyə-iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyinin təmin olunmasını, ölkədə qazanılan iqtisadi uğurları və həyata keçirilən islahatları yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev seçkilərdə qələbə qazanması münasibətilə təbriklərə görə təşəkkürünü bildirdi. Dövlət başçısı «Cənub Qaz Dəhlizi» layihəsinin böyük hissəsinin icra olunduğunu vurğulayaraq, bu layihənin bütün Avrasiya üçün qlobal önəm daşıdığını dedi, «Cənub Qaz Dəhlizi» layihəsinə ilk dəstək verən beynəlxalq maliyyə qurumu kimi, Asiya İnkişaf Bankının rolunu xüsusi qeyd etdi. Prezident İlham Əliyev TANAP layihəsinin açılışının böyük əhəmiyyət daşıdığını ifadə etdi və bu layihənin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev Azərbaycanda qeyri-neft sahəsində genişmiqyaslı işlərin həyata keçirildiyini, ölkəmizin qarşısında*

*böyük planların durduğunu diqqətə çatdırdı və bu istiqamətdə Asiya İnkişaf Bankı ilə gələcəkdə də uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Söhbət zamanı məşğulluq strategiyası ilə bağlı məsələlər müzakirə edildi.*

*Görüşdə, həmçinin bankın 2019–2023-cü illər üzrə strategiyası, Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ TAYEB LOUHUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Əlcəzair Xalq Demokratik Respublikasının Ədliyyə naziri Tayeb Louhun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Əlcəzairin Ədliyyə naziri Tayeb Louhun Azərbaycanda çoxlu sayda məhsuldar görüşlər keçirməsindən məmnunluğunu ifadə etdi, nazirlər səviyyəsində qarşılıqlı səfərləri ədliyyə sahəsində əməkdaşlığın uğurlu inkişafının göstəricisi kimi dəyərləndirdi. Azərbaycanın Əlcəzair ilə ikitərəfli münasibətlərin genişləndirilməsində maraqlı olduğunu qeyd edən dövlət başçısı vurğuladı ki, siyasi əlaqələr çox yaxşı səviyyədədir, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT və İslam Əməkdaşlıq Təşkilatında uğurlu əməkdaşlıq həyata keçirir. Azərbaycanın islam həmrəyliyi işinə verdiyi töhfəyə toxunan Prezident İlham Əliyev keçən il ölkəmizdə «İslam həmrəyliyi ili»nin elan olunduğunu, Bakıda IV İslam Həmrəyliyi oyunlarının keçirildiyini qeyd etdi. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin növbəti mərhələsində iqtisadi əməkdaşlıq məsələlərinə daha çox diqqət yetirilməsinin və ticarət dövriyyəsinin artırılmasının vacibliyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, humanitar sahədə də əməkdaşlığın genişləndirilməsi, o cümlədən insanlar arasında əlaqələr, turistlərin qarşılıqlı səfərləri böyük önəm*

*daşıyır. Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin bundan sonra da uğurla inkişaf ediləcəyinə əminliyi ifadə etdi.*

*Ədliyyə naziri Tayeb Louh Əlcəzair Prezidenti Əbdüləziz Buteflikanın salamlarını və eyni zamanda, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Əlcəzair Prezidenti dövlətimizin başçısına fəaliyyətində yeni-yeni uğurlar və Azərbaycan xalqına Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə davamlı inkişaf və tərəqqi arzulayır. Tayeb Louh bildirdi ki, Əlcəzair dövlətinin başçısı Azərbaycan ilə münasibətlərin inkişafına yüksək diqqət yetirir və bu istiqamətdə müvafiq tapşırıqlar verib. Nazir ölkələrimiz arasında tarixi əlaqələrin mövcud olduğunu və bu əlaqələrin getdikcə uğurla inkişaf etdiyini vurğuladı.*

*Dövlətimizin başçısı Əlcəzair prezidenti Əbdüləziz Buteflikanın salamlarına və təbriklərinə görə minnətdarlığını bildirdi, onun da salamlarını Əlcəzair Prezidentinə çatdırmağı xahiş etdi.*

*Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Seçkilərdə qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edir və gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

Səsvermənin nəticələri xalqın əsl lideri kimi Sizin şəxsinizə olan böyük inam və etimadın aşkar təzahürü, qardaş Türkiyənin hərtərəfli inkişafı və çiçəklənməsi yolunda genişmiqyaslı fəaliyyətinizə və xidmətlərinizə verilən yüksək qiymətdir.

Azərbaycan ilə Türkiyəni dərin tarixi kökləri, ortaq milli-mənəvi dəyərləri ilə bir-birinə sıx bağlı olan, xalqlarımızın iradəsinə uyğun olaraq sarsılmaz dostluq və qardaşlıq münasibətləri birləşdirir. Bu möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz bu gün müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə yüksəlmişdir.

Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı sayəsində birgə həyata keçirdiyimiz layihələr regionun inkişafında, Avropa ilə Asiya arasında mühüm enerji, kommunikasiya dəhlizinin yaradılmasında böyük rol oynayır. Birgə gerçəkləşdirdiyimiz Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu xətti, bu yaxınlarda açılışını etdiyimiz TANAP layihəsi uğurlu əməkdaşlığımızın parlaq nümunələridir.

Əminəm ki, Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı bundan sonra da bütün birgə təşəbbüslərimizin gerçəkləşmə-

sində mühüm rol oynayaraq, ölkələrimizin inkişafına, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Əziz qardaşım, bir daha Sizə ən səmimi təbriklərimi yetirir, Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyə xalqının yüksəlişi naminə əzmkar və fədakar işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyun 2018-ci il*

## RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ DÖVLƏT DUMASININ SƏDRİ VYAÇESLAV VOLODİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu və səmərəli keçəcəyinə və ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Bu yaxınlarda Rusiya Federasiyasında Prezident Vladimir Putinlə görüşünü məmnunluqla xatırladan Prezident İlham Əliyev iki ölkənin dövlət başçıları arasında görüşlərin mütəmadi olaraq keçirildiyini qeyd etdi və bu təmasların əlaqələrimizin bütün istiqamətlərdə irəliyə aparılması baxımından önəmini vurğuladı. Dövlət başçısı qeyd etdi ki, ikitərəfli münasibətlərimiz geniş sahələri əhatə edir, möhkəm siyasi əlaqələr mövcuddur, iqtisadi, ticarət, nəqliyyat, energetika, humanitar və digər sahələrdə yaxşı dinamika müşahidə olunur. Prezident İlham Əliyev bildirdi ki, ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində parlamentlərarası əməkdaşlıq da böyük önəm daşıyır. Dövlətimizin başçısı qeyd Ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edir və hər zaman beynəlxalq səviyyədə bir-birini qarşılıqlı surətdə dəstəkləyir. Bütün bunlar ölkələrimiz arasında etimada əsaslanan*

*əlaqələrin yaxşı göstəricisidir. Prezident İlham Əliyev bir daha Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin başçılıq etdiyi nümayəndə heyətinin səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri Vyaçeslav Volodin dövlətimizin başçısını Prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bildirdi ki, bu seçkilərdə insanlar Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə, o cümlədən xarici siyasətə dəstək verdiklərini nümayiş etdiriblər. Vyaçeslav Volodin vurğuladı ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlər strateji tərəfdaşlıq əlaqələrinə əsaslanır və çox yüksək səviyyədədir. O qeyd etdi ki, dövlət başçılarının həyata keçirdiyi siyasət bu işdə xüsusi rol oynayır. Parlamentlərarası əməkdaşlıq məsələsinə toxunan Vyaçeslav Volodin bildirdi ki, bu sahədə də əlaqələrin uğurla inkişaf etməsi xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir. Vyaçeslav Volodin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndiyini məmnunluqla vurğuladı və bildirdi ki, ticarət dövriyyəsinin 30 faiz artımı bunun çox yaxşı göstəricisidir. Rusiya Federasiyası Federal Məclisi Dövlət Dumasının Sədri eyni zamanda, turizm sahəsində əməkdaşlığın genişləndiyini qeyd edərək, ötən il Rusiyadan Azərbaycana 850 mindən artıq turistin gəldiyini bildirdi və bu göstəricinin 18 faiz artdığını qeyd etdi. O diqqətə çatdırdı ki, bu rəqəm Rusiya turistləri üçün ənənəvi olan bir çox ölkələrin göstəricisini artıq geridə qoyubdur.*

*Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.*

*Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## BELARUS RESPUBLİKASI TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİ STANİSLAV ZAS İLƏ GÖRÜŞ

*24 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Belarus Respublikası Təhlükəsizlik Şurasının Dövlət katibi Stanislav Zası qəbul etmişdir.*

*Dövlət başçısı bu yaxınlarda Belarus Prezidenti Aleksandr Lukaşenko ilə Moskvada görüşdüyünü məmnunluqla xatırlatdı və söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu və tərəfdaşlıq əlaqələrinə söykəndiyini vurğulayaraq, əməkdaşlığımızın siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi.*

*Belarus Respublikasının Təhlükəsizlik Şurasının Dövlət katibi Stanislav Zas Prezident seçkilərində inamlı qələbə qazanması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi və bunu xalqın dövlət başçısına verdiyi dəstəyin nümayişi kimi dəyərləndirdi. O, iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Prezident İlham Əliyevə əlaqələrimizin inkişafına verdiyi töhfəyə görə minnətdarlığını bildirdi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİ ZÜBAİR MAHMUD HAYAT İLƏ GÖRÜŞ

*25 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatı qəbul etmişdir.*

*Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayatın Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak etmək üçün ölkəmizə gəlməsindən məmnunluğunu ifadə etdi və bunu ölkələrimiz arasında qardaşlıq və tərəfdaşlıq əlaqələrinin göstəricisi kimi dəyərləndirdi. Ölkələrimizin hər zaman bir-birini dəstəklədiyini vurğulayan dövlətimizin başçısı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsi səbəbindən Pakistanın Ermənistanla diplomatik əlaqələr qurmamasını yüksək qiymətləndirdi və qeyd etdi ki, bu, xalqlarımız arasında qardaşlığı nümayiş etdirir və Azərbaycan xalqı bunu yüksək dəyərləndirir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirən Prezident İlham Əliyev Pakistan rəhbərləri ilə görüşlərini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimiz arasında sıx siyasi əlaqələr və müdafiə sahəsində əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycan Pakistanla hərbi əməkdaşlığı daha da genişləndirmək və Pakistandan daha çox hərbi texnika*

*almaqda maraqlıdır. Ölkələrimizin birgə hərbi təlimləri də bu məqsədə xidmət edir.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat Pakistan hökumətinin, xalqının və Silahlı Qüvvələrinin ən xoş arzularını Prezident İlham Əliyevə və xalqımıza çatdırdı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda iştirak edəcəyindən məmnunluq hissi keçirdiyini deyən Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri Zübair Mahmud Hayat tədbirin böyük əhəmiyyət daşıdığını vurğuladı və bu münasibətlə təbriklərini çatdırdı. Xalqlarımız arasında sıx əlaqələrin mövcud olduğunu qeyd edən Zübair Mahmud Hayat bu əlaqələrin tarixi və mədəni köklərə əsaslandığını vurğuladı.*

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ NURƏTTİN CANİKLİ VƏ SİLAHLI QÜVVƏLƏRİN BAŞ QƏRARGAH RƏİSİ HULUSİ AKAR İLƏ GÖRÜŞ

*26 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Türkiyə Respublikasının Müdafiə naziri Nurəttin Caniklini və Silahlı Qüvvələrin Baş Qərargah rəisi Hulusi Akarı qəbul etmişdir.*

*Dövlət başçısı Türkiyədə keçirilən seçkilər nəticəsində Rəcəb Tayyib Ərdoğanın qələbəsi ilə bağlı təbriklərini çatdıraraq qeyd etdi ki, bu, Türkiyə Prezidentinin rəhbərliyi ilə son illər görülmüş işlərə xalqın verdiyi qiymətin yüksək təzahürüdür. Dövlət başçısı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akarın, Müdafiə naziri Nurəttin Caniklinin və qardaş Türkiyə hərbçilərinin Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olunmuş paradda iştirakından məmnunluğunu qeyd etdi. Prezident İlham Əliyev Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən müdafiə sahəsində bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

*Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulusi Akar və Müdafiə naziri Nurəttin Canikli Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdılar.*

*Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi və Müdafiə naziri Azərbaycanda keçirilən Prezident seçkilərində dövlətimizin başçısını qazandığı qələbə münasibətilə təbrik etdilər və Azərbaycan Ordusunun yaradılmasının 100 illiyinə həsr olun-*

*muş paradda iştirak etmələrindən şərəf hissi duyduqlarını bildirdilər.*

*Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ İSLAMİ İRŞAD NAZİRİ SEYİD ABBAS SALEHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad naziri Seyid Abbas Salehinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycanda İran İslam Respublikası Mədəniyyət Günlərinin keçirilməsinin önəmini vurğulayaraq, bu tədbirlərin yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev eyni zamanda, ötən il İranda Azərbaycan Mədəniyyət Günlərinin də çox uğurla keçirildiyini və İran ictimaiyyəti tərəfindən maraqla qarşılandığını dedi. İranın qədim və zəngin mədəniyyətə malik olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan ictimaiyyətinin də öz növbəsində, İran Mədəniyyət Günlərini səbirsizliklə gözlədiyini qeyd etdi. Prezident İlham Əliyev həm özünün, həm də İran Prezidenti Həsən Ruhaninin ifadə etdikləri «Azərbaycan və İran xalqlarını birləşdirən tarixi və mədəni əlaqələrimizdir» fikrini məmnunluqla xatırlatdı. Dövlət başçısı qeyd etdi ki, Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə, o cümlədən mədəni əməkdaşlıq istiqamətində çox uğurla inkişaf edir. Bu münasibətlərin gündəliyində duran bütün məsələlər öz həllini tapıb və bu gün əlaqələrimiz yüksək səviyyədədir. Dövlət başçısı İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad naziri Seyid Abbas Salehinin ölkəmizə səfərinin*

*əməkdaşlığımızın möhkəmləndirilməsi işinə töhfə verəcəyini bildirdi.*

*Mədəniyyət və İslami İrşad naziri Seyid Abbas Salehi İran Prezidenti Həsən Ruhaninin ən səmimi salamlarını dövlətimizin başçısına çatdıraraq bildirdi ki, İran Prezidenti İran ilə Azərbaycan arasında inkişaf edən əlaqələrin gündən-günə möhkəmlənəcəyinə əminliyini ifadə edib. Qonaq İran İslam Respublikası Mədəniyyət Günlərinin başlanğıcında Azərbaycana səfər etməsindən məmnunluğunu qeyd edərək, bu tədbirin yüksək səviyyədə keçiriləcəyinə əminliyini bildirdi. O, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə təbriklərini çatdırdı.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 100 İLLİYİ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ HƏRBİ PARADDA İŞTİRAK

*26 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradda olmuşlar.*

*Dövlət və hökumət rəsmiləri, Milli Məclisin üzvləri, xarici ölkələrin respublikamızdakı səfirləri, hərbi attaşeləri, beynəlxalq təşkilatların əməkdaşları, yubiley tədbiri ilə əlaqədar ölkəmizə gələn nümayəndə heyətlərinin rəhbərləri, müharibə veteranları və paytaxt ictimaiyyətinin nümayəndələri hərbi paradı izlədilər.*

*Hərbi paradda Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Xüsusi Dövlət Mühafizə xidmətlərinin, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4000 nəfərədək şəxsi heyəti iştirak edirdi.*

*Təntənəli mərasimdə 240-dan çox hərbi texnika, gəmilər, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni texnika və silahlar nümayiş olundu.*

*Paradda, həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan,*

*Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edirdi.*

*Azadlıq meydanına toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi sürəkli alqışlarla qarşıladılar.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev hərbi paradda iştirak edən şəxsi heyəti salamladı.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestri Azərbaycan Respublikasının Dövlət himnini ifa etdi.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi paradda nitq söylədi.*

## Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqi

Əziz əsgərlər, zabitlər, generallar!

Əziz hərbçilər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Ordusunun 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətinə yeni uğurlar, yeni nailiyyətlər arzulayıram.

Keçən ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd etdik. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş ən önəmli qərarlardan biri də Azərbaycan Ordusunun yaradılması idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. 2 ildən sonra respublika süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Bu bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir.

Azərbaycanın dövlət müstəqilliyi 1991-ci ildə bərpa edildi. Ancaq bildiyimiz kimi, müstəqilliyimizin ilk 2 ili ölkəmiz üçün çox ağır keçmiş, faciəvi illər idi. Sanki tarix XX əsrin sonunda təkrarlanırdı. Ötən əsrin 91–93-cü illərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı. Ölkə idarəolunmaz vəziyyətdə idi. Müstəqilliyimiz formal, şərti xarakter daşıyırdı. Azərbaycan müstəqil siyasət apara bilmirdi. Ölkə daxillində çəkişmələr, hakimiyyət uğrunda mübarizə vəziyyəti daha da ağırlaşdırırdı. İqtisadi tənəzzül, böhran hökm sürürdü. 1992-ci ildə Xalq Cəbhəsi və Müsavat tərəfindən dövlət çevrilişi vəziyyəti daha da ağırlaşdırdı. Azərbaycanda vəziyyət kritik həddə çatmışdı. Bundan istifadə edən Ermənistan xalqımıza, gənc dövlətimizə qarşı işğalçılıq siyasəti aparırdı. Bu siyasət nəticəsində torpaqlarımızın bir hissəsi işğal altına düşmüşdür. Demək olar ki, müstəqilliyimizin ilk 2 ili Azərbaycanın gələcəkdə müstəqil ölkə kimi yaşamasını sual altına qoymuşdu. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqı həmişə olduğu kimi, müdriklik göstərdi, ulu öndər Heydər Əliyevə müraciət etdi və onu hakimiyyətə dəvət etdi. Ancaq bundan sonra, ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi və Azərbaycan bu ağır vəziyyətdən çıxa bildi.

Müstəqilliyimizin ilk illərində nizami ordu yaradılmamışdı. Ayrı-ayrı silahlı birləşmələr Azərbaycanın ərazi bütövlüyünü qoruya bilməmişdir. Ona görə ulu öndər tərəfindən qəbul edilmiş bir çox önəmli qərarlar sırasında nizami ordunun yaradılması xüsusi yer tuturdu. Nizami ordunu yaratmaq üçün iqtisadi imkanlar olmalı idi. Məhz buna görə, o illərdə Azərbaycanda çox ciddi iqtisadi islahatlar aparıldı, xarici sərmayənin cəlb olunması təmin edildi, Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Ölkədə aparılan siyasi, iqtisadi islahatlar vəziyyəti sabitləşdirdi və Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir. Bu siyasət bu gün də davam etdirilir. 1993–2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalıbdır.

2003-cü ildən başlayaraq, bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir.

Qeyd etdiyim kimi, Ermənistan müstəqilliyimizin ilk illərində ölkəmizdə gedən mənfi proseslərdən, o cümlədən Xalq Cəbhəsi–Müsavat tərəfindən başlanılmış vətəndaş müharibəsindən istifadə edərək, torpaqlarımızı zəbt etmişdir. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşamış, yaratmışdır. Beynəlxalq hüquqa görə də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Son illər ərzində dünyanın aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı bir çox qərar və qətnamələr qəbul etmişlər. O cümlədən BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir və orada da göstərilir ki, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr hələ də qüvvədədir və öz qüvvəsini itirməyib.

Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıb, Xocalı soyqırımı törədilibdir. Aralarında uşaqlar, qadınlar, qocalar da olan 600-dən çox günahsız insan erməni cəlladları tərəfindən qətlə yetirilib, 1000-dən çox insan itkin düşüb. Bu gün dünyanın 10-dan çox ölkəsi Xocalı soyqırımını rəsmən soyqırımı kimi tanıyıbdır.

Azərbaycan işğalla heç vaxt barışmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və bərpa edəcək. Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir. Güclü ordunu yaratmaq üçün güclü iqtisadiyyatımız olmalıdır. Biz bu istiqamətdə çox fəal işləmişik. Son 15 il ərzində iqtisadi

sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. İqtisadiyyatımız 3,2 dəfə artıb. İqtisadi potensialına görə Azərbaycan bu gün özünü çox rahat hiss edir. Bütün aparıcı beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan ən qabaqcıl yerlərdədir. İnkişafda olan ölkələrin arasında Azərbaycan inkişafına görə dünya miqyasında 3-cü yerdədir. Biz öz hesabımıza yaşayırıq, heç bir yerdən yardım almırıq. Buna ehtiyac da yoxdur. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran əsas məqsədlərin həllinə yönəldirik. Onların arasında ordu quruculuğu birinci yerdədir.

2003-cü ildən bu günə qədər bizim hərbi xərclərimiz 15 dəfə artıb. Hərbçilərin xidmət şəraiti yaxşılaşır. Son illər ərzində onlarla hərbi şəhərcik yaradılıb. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya əsaslı təmir edilibdir. Növbəti 2-3 il ərzində bizim bütün şəhərciklərimiz tam təmirli olacaq. Beləliklə, bu məsələ də öz həllini tapmış olacaqdır. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur. Qəbul edilmiş qərar əsasında 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir. Bu gün bizim hərbi hissələrimizdə 20 mindən çox mülki vətəndaş çalışır. Əvvəllər bu işlərdə əsgərlər işləyirdilər. Biz əsgərləri məişət işlərindən azad etdik. Eyni zamanda, mülki vətəndaşlar üçün 20 mindən çox iş yeri yaradıldı.

Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilib. O cümlədən Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox Hərbi zavod yaradılıb. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq. Həmçinin Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Bu gün bu silahların kiçik bir hissəsi paradda nümayiş etdiriləcəkdir.

Son illər ərzində ən müasir texnika və silahlar alınıbdır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi və hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, 100-dən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və pilotsuz döyüş uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri vardır. Bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir.

Biz bütün bunları ona görə edirik ki, Azərbaycan Ordusu daha da güclü olsun, hərbi potensialımız güclənsin. Dünyada gedən proseslər onu göstərir ki, beynəlxalq hüquq işləmir. Əgər işləsəydi Azərbaycan torpaqları çoxdan işğalçılardan azad olunardı. Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş qərar və qətnamələr icra edilmir, onların icra mexanizmi yoxdur. Güc amili dünyanın müxtəlif bölgələrində əsas amil kimi çıxış edir. Belə olan halda, əlbəttə ki, bizim apardığımız siyasət düzgün siyasətdir, biz bu siyasəti uzun illərdir ki, aparırıq. Bu hərbi potensialı biz bir ilə əldə etməmişik. Bir neçə il ərzində ardıcıl siyasət nəticəsində, o cümlədən dost ölkələrlə səmərəli əlaqələr sayəsində biz dünyanın ən müasir silahlarını əldə etmişik və bu proses davam etdiriləcəkdir. Bundan sonra da Azərbaycan ən müasir silah və texnikanı alacaq. Buna nail olmaq üçün bizim dost ölkələrlə çox səmərəli əlaqələrimiz, böyük maliyyə resurslarımız və güclü iradəmiz vardır.

Ordumuzun döyüş qabiliyyəti artır. Mən dəfələrlə hərbi hissələrdə vəziyyətlə tanış olarkən qeyd etmişəm ki, Azərbaycanda çox yüksək vətənpərvərlik ruhu vardır. Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir. 2 il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətdi, bizim mövqelərimizi atəşə tutdu, mülki əhaliyə qarşı təcavüz etdi. Həm hərbçilərimiz, həm mülki

vətəndaşlar şəhid oldular. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək, işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, 2000 hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin işğal edilmiş torpaqlarımızda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət edirlər. Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu bizə çox böyük üstünlük verir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan əsgəri, zabiti, generalı – Azərbaycan Ordusu əsl qəhrəmanlıq, peşəkarlıq, rəşadət göstərdi. Bir daha göstərdi ki, Azərbaycan xalqı bu işğalla barışmayacaq. Bir daha göstərdi ki, Ermənistan tərəfindən onların ordusu ilə bağlı uzun illər ərzində yayılan nağıllar mif idi. Biz bu mifi darmadağın etdik. Biz onların illər boyu yaratdıqları möhkəm müdafiə xəttini bir neçə gün ərzində yardıq, məhv etdik. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir.

Naxçıvanın ötən əsrin 90-cı illərinin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11000 hektar torpağı bu bayram ərəfəsində – keçən ay Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad edildi. Çox böyük mühəndislik və kəşfiyyat işləri aparıldı. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirildi. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərdi. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Bir daha göstərdi ki, biz istənilən vəzifəni böyük məharətlə və peşəkarlıqla icra edə bilərik və icra edirik. Bundan sonra Azərbaycan Ordusu hər an hazır olmalıdır ki, öz ərazi bütövlüyünü bərpa etsin. Biz istəyirik ki, münaqişə sülh yolu ilə

həll olunsun və Azərbaycanın apardığı siyasət bunun əyani sübutudur. Ancaq bir daha demək istəyirəm ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Biz çox güclü ordu yaratmışıq. Düşmən bilməlidir ki, onun bir dənə də olsun hərbi və ya strateji obyekti yoxdur ki, Azərbaycan Ordusu onu məhv edə bilməsin. Düşmənin bütün hərbi obyektləri, bütün strateji əhəmiyyətli məntəqələri Azərbaycan Ordusu tərəfindən məhv edilə bilər. Bizim bu gün nümayiş etdirəcəyimiz silahlar həm Azərbaycan xalqına, həm düşmənə, həm də bütün dünyaya bunu göstərəcəkdir. Ona görə hesab edirəm ki, məsələnin tezliklə danışıqlar yolu ilə ədalətli həlli, Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi qarşı tərəfin də marağında olmalıdır.

Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi və hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır. 2016-cı ilin aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılıb. Bunun çox böyük mənəvi əhəmiyyəti vardır. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilibdir. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcəkdir. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

Eşq olsun Azərbaycan Ordusuna!
Yaşasın Azərbaycan!

* * *

*Sonra Silahlı Qüvvələrin şəxsi heyətinin və hərbi texnikanın təntənəli keçidi başlandı.*

*Meydana əvvəlcə Azərbaycan Respublikasının Dövlət bayrağı gətirildi.*

*100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul edilmiş üçrəngli Dövlət bayrağımız 72 ildən sonra ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə yenidən qaldırılıb. Xalqımız və Silahlı Qüvvələrimizin şəxsi heyəti bu bayraq altında yeni-yeni zəfərlərə doğru inamla irəliləməkdədir.*

*Dövlət bayrağının ardınca quruda, dənizdə və havada müqəddəs Vətənin keşiyini çəkən Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqlarını aparan hərbçilər addımlayırlar. 2016-cı ilin aprelində Füzuli, Cəbrayıl və Tərtər rayonlarının ərazilərinin bir hissəsinin işğaldan azad edilməsində xüsusi xidmətləri olan hərbi hissələrin və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəklikləri azad edərək, 11000 hektar ərazinin nəzarətə götürülməsində fərqlənən Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissələrinin döyüş bayraqları tribuna önündən aparıldı.*

*Ulu öndər Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi liseyin kursantlarından ibarət parad heyəti tribunaya yaxınlaşdı. Xalqımızın haqlı olaraq Heydər Əliyev məktəbi adlandırdığı bu xüsusi təyinatlı təhsil ocağının Azərbaycan Ordusunun yaranmasında və formalaşmasında müstəsna rolu vardır.*

*Azərbaycan Ordusunun zabitlərindən ibarət parad heyətləri də mətin addımlarla tribunanın önündən keçdi. Ulu öndərimiz Heydər Əliyev vaxtilə demişdir: «Vətəni, torpağı, dövləti qoru-*

*maq peşəsi hər bir peşədən üstündür, şərəflidir!». Zabitlərimiz xalqımızın və ordumuzun gələcəyinin təminatıdır.*

*Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinin flaqmanı olan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti tribunanın önündən keçdi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində müxtəlif ixtisaslar üzrə peşəkar zabitlər hazırlanır. Onlar hərbi xidmətin çətinliklərinin öhdəsindən layiqincə gələrək, respublikamızın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda hər bir əmrə hazırdırlar. Məktəbin 15 məzunu «Azərbaycanın Milli Qəhrəmanı» adına layiq görülüb. Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə Qoşunları, Hərbi Dəniz Qüvvələri fakültələrində aviasiyanın döyüş idarəetməsi, eləcə də dənizçi ixtisasları üzrə peşəkar zabitlər, təyyarəçilər, şturmanlar, mexaniklər, silahlanmanın müxtəlif sistemləri üzrə mütəxəssislər, aviasiya xidmətləri, radiotexniki vasitələr üzrə mühəndislər hazırlanır.*

*İlk dəfə bu paradda qardaş Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin parad heyəti də iştirak edir. 1918-ci il sentyabrın 15-də Türk–Azərbaycan birləşmiş qoşunlarının cəmləşdiyi Qafqaz İslam Ordusu bu möhtəşəm hərbi paradın keçirildiyi Bakını daşnak-bolşevik qüvvələrindən təmizləyərək, Azərbaycan dövlətinin paytaxtını azad etdi. Türkiyə Ordusunun parad heyətinin bu tədbirdə iştirakı da 100 il əvvəl olduğu kimi, sarsılmaz dostluğun və qardaşlığın növbəti göstəricisidir.*

*Sülhməramlı, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən hərbi qulluqçular mətin addımlarla tribuna önündən keçdilər. Sülhməramlı taborumuz sülhməramlı əməliyyatlarda fəal iştirak edir, beynəlxalq sülhün və sabitliyin bərqərar olunmasına ölkəmizin töhfəsini verir. Azərbaycan sülhməramlıları hazırda NATO-nun «Qətiyyətli dəstək» qeyri-döyüş missiyası çərçivəsində Əfqanıstanda vəzifələrini şərəflə yerinə yetirirlər.*

*Doğma Azərbaycanımızın qorxmaz, igid övladları – Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin hərbi qulluqçuları, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları tribuna önündən keçərək, Vətənə, xalqa, dövlətə, Ali Baş Komandana və Heydər Əliyev ideyalarına öz sədaqətlərini bir daha bildirdilər.*

*Müasir silah, xüsusi avadanlıq və texnika ilə təchiz edilmiş Xüsusi Təyinatlılar ən ekstremal şəraitdə belə, düşmən dərinliyində mühüm əhəmiyyətli obyektləri ələ keçirmək, qarşıya qoyulmuş digər müxtəlif dərəcəli tapşırıqları uğurla yerinə yetirmək imkanına malikdirlər. Şəxsi heyətin tribuna önündən keçməsi ilə eyni vaxtda paraplanlarda uçuş fəaliyyətləri nümayiş etdirilərək, havada xüsusi tapşırıqlar yerinə yetirildi.*

*Dəniz piyadaları və döyüş dalğıcları dövlət dəniz hüdudlarının müdafiəsi üzrə dənizdə və su altında bütün tapşırıqları yerinə yetirməyə hər an hazırdırlar. Onlar vətəndaşın, cəmiyyətin və dövlətin mənafeyinin qorunması, ictimai asayişin mühafizəsi, həmçinin mühüm dövlət obyektlərinin mühafizəsi üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetirirlər.*

*Dövlət Təhlükəsizliyi Xidməti xalqımızın mənafeyini və dövlətimizin təhlükəsizliyini bu gün qətiyyətlə qoruyur. Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti fövqəladə halların fəsadlarının aradan qaldırılması, xilasetmə və humanitar əməliyyatların həyata keçirilməsi üzrə öz vəzifələrini nəinki ölkə daxilində, habelə xarici dövlətlərdə də şərəflə yerinə yetirir. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları Vətənimizin hüdudlarını etibarlı şəkildə mühafizə edirlər. Xüsusi Dövlət Mühafizə Xidməti ölkə rəhbərliyinin, respublikamıza gələn xarici ölkələrin rəsmi nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, həmçinin mühüm dövlət obyektlərinin, o cümlədən neft-qaz infrastrukturunun mühafizəsinin təşkili və təmin edilməsi üzrə vəzifələrinin öhdəsindən layiqincə gəlir.*

*Azərbaycan Ordusu yenilməzdir, güclüdür. Azərbaycan əsgəri vətənpərvər, mübariz, qorxmaz, cəsarətli, yüksək hazırlıqlıdır. Azərbaycan əsgəri Vətəninə, xalqına, dövlətinə, Ali Baş Komandanına həmişə sadiqdir. Zaman bu deyilənlərin nə qədər həqiqət olduğunu tarixdə dəfələrlə sınaqdan keçirib. Vətənpərvərlik ruhu ilə silahlanmış Azərbaycan əsgərinin qarşısında ən müasir silahlara sarılmış düşmən belə, tab gətirə bilməz. Azərbaycan əsgəri bu keyfiyyətlərini 2016-cı ilin aprel döyüşlərində, bu yaxınlarda isə Naxçıvan Muxtar Respublikasının Şərur rayonu istiqamətində gedən döyüşdə də bir daha təsdiq etdi. Bu gün Azərbaycan bayrağı Talış zirvəsində, Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərində əzəmətlə dalğalanır. Strateji əhəmiyyət daşıyan bu yüksəkliklərin geri qaytarılması sübut edir ki, Azərbaycan məhz Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında öz tarixi torpaqlarını mütləq geri qaytaracaq, respublikamızın ərazi bütövlüyü təmin ediləcək, Dövlət bayrağımız Şuşada, Xankəndidə, Laçında və işğal altında olan digər torpaqlarımızda da vüqarla dalğalanacaqdır.*

*Silahlı Qüvvələrin 100 illiyinə həsr olunmuş paradı birləşmiş hərbi orkestr müşayiət etdi.*

*Sonra hərbi paradda Azərbaycan Ordusunun güc və qüdrətinin təqdimatı, ən müasir hərbi və xüsusi texnikanın keçidi başlandı. Bu texnika bir daha göstərdi ki, son illərdə ordumuz əhəmiyyətli dərəcədə güclənib. Güclü iqtisadiyyata söykənən güclü ordu formulu Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilib. Ölkəmizin iqtisadi inkişaf tempi Silahlı Qüvvələrin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir.*

*Çoxtəyinatlı zirehli avtomobillər tribuna önündən keçdi. Bu avtomobillər kəşfiyyat, komanda-qərargah, müxtəlif silah növlə-*

*ri ilə təchiz edilmiş xüsusi çevik qüvvələrin xidmətində olmaqla, bir neçə konfiqurasiyada mövcuddur.*

*Zirehli avtomobillər üzərində quraşdırılmış «Spayk-LR», silahlanmaya yeni qəbul edilmiş daha güclü «Spayk-ER» tank əleyhinə idarə olunan raket kompleksləri paradı izləyənlərin böyük marağına səbəb oldu. 2016-cı ilin aprel döyüşləri zamanı bu silah vasitəsilə 30-dan artıq düşmən tankı və digər zirehli döyüş texnikası məhv edilibdir.*

*Üzərində pilotsuz uçuş aparatları əleyhinə qurğu yerləşdirilmiş zirehli avtomobillər, mina əleyhinə yüksək müdafiə sistemi ilə təchiz olunmuş «Maral-1» və «Maral-2» zirehli avtomobilləri tribunaya yaxınlaşdı. Bu hərbi texnika Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin zavodlarında istehsal olunur.*

*Ağır hərbi texnika istehsalında yenilik hesab edilən BTR-82A zirehli transportyorunun xüsusiyyətləri onu bütün növ qoşunlarda, həmçinin desant və kəşfiyyat bölmələrində istifadə etməyə imkan verir.*

*Tribuna önündən Dövlət Sərhəd Xidmətinin hərbi texnikası keçdi. Çevik hərəkət maşınları, zirehli piyada daşıyan maşınlar, zirehli transportyorlar, mobil müşahidə sistemləri dövlət sərhədlərimizin mühafizəsi üçün təyin olunubdur.*

*Çöl şəraitində qərargah və kəşfiyyat orqanlarının fəaliyyətini təmin etmək üçün nəzərdə tutulmuş zirehli komanda-qərargah və kəşfiyyat avtomobillərində quraşdırılan və kabinədən idarə olunan LORENS yerüstü müşahidə stansiyası qoşunların döyüş düzülüşündə fəaliyyət göstərərək, kəşfiyyat məlumatlarının əldə edilməsinə və real vaxt rejimində idarəetmə məntəqələrinə ötürülməsinə imkan yaradır.*

*«Orbiter 1K», «Orbiter 3B», «Aerostar BP» pilotsuz uçuş aparatları hava kəşfiyyatının aparılması və taktiki səviyyədə düşmənin canlı qüvvəsinin və yüngül zirehli texnikasının zərərsizləşdirilməsi, müşahidə və kəşfiyyat, artilleriya dəstəyi və xüsusi əməliyyatlarla bağlı qarşıya qoyulmuş vəzifələrin icrası üçün yüksək dəqiqliyi ilə seçilir. Uzun müddət havada qalma*

*qabiliyyətinə malik və müasir peyk-naviqasiya sistemi ilə təchiz olunmuş «Heron», orta ölçülü çoxməqsədli «Hermes-900», «Hermes-450», «Harop» pilotsuz uçuş aparatları da paradda nümayiş etdirildi. Hava məkanında patrul funksiyasını yerinə yetirərək, hədəfi aşkar etdikdə «mərmi-təyyarəyə» çevrilərək, yer hədəflərini yüksək dəqiqliklə məhv etmək imkanına malik «Harop» aparatları aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələr vurub.*

*Zirehli tank texnikası, özüyeriyən artilleriya qurğuları, ən müasir, modernləşdirilmiş piyadaların döyüş maşınları, dünyada ən döyüşkən tank kimi tanınan «T-90S» tankı, hava hücumundan müdafiə silahları sistemləri, yüksək mobilliyi ilə seçilən «Buk-MB» zenit-raket kompleksi, «S-300 Favorit» çoxkanallı universal mobil zenit-raket sistemi, «İldırım» və «Qalxan» hava hücumundan müdafiə kompleksləri, yubiley ərəfəsində Azərbaycan Ordusunun silahlanmasına daxil edilmiş yüksək dəqiqliyə malik qanadlı hava-yer raketi, artilleriya silahları sistemləri, silahlanmaya yeni daxil olmuş avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 152 millimetrlik özüyeriyən artilleriya qurğusu, 300 millimetrlik yaylım atəşli reaktiv sistemləri, raket silahları sistemləri, avtomatik idarəetmə sistemi ilə təchiz edilmiş 301 və 624 millimetrlik əməliyyat-taktiki raket kompleksləri də hərbi paradda nümayiş olundu.*

*Xalqımız əmin ola bilər ki, bu gün paradda nümayiş etdirilən silah sistemləri və hərbi texnika ilə Azərbaycanın hava məkanı düşmənin istifadəsində olan istənilən texnika və silah növlərindən, hava və yerüstü zərərvurma vasitələrindən etibarlı şəkildə qorunub və bundan sonra da qorunacaqdır.*

*Azərbaycan Ordusunun 100 illiyi münasibətilə təşkil olunmuş parada Hərbi Dəniz Qüvvələrinin gəmiləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz Xəzərin Azərbaycan sektorunda dövlətimizin iqtisadi və strateji maraqlarını qorumaqla yanaşı, yüksək döyüş hazırlığı nümayiş etdirdi.*

*Bunun ardınca Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başlandı. Hərbi Hava Qüvvələrinin uçuş nümayişini «Mi-17» tipli 2 helikopter açdı. Helikopterlər Azərbaycan Respublikasının Dövlət bayrağını və xalqımızın ümummilli lideri Heydər Əliyevin portretini Azadlıq meydanı üzərində dalğalandırdı.*

*Paradda yüngül çoxməqsədli, yüksək manevr qabiliyyətinə malik «Bell-412», dənizdə və su hövzələri üzərində axtarış-xilasetmə tapşırıqlarının yerinə yetirilməsi, həmçinin dəniz desantının su hövzələrinə çıxarılması üçün təyin olunmuş «KA-32», çoxfunksiyalı hərbi-nəqliyyat təyinatlı «Mi-24 QRİFİN», şəxsi heyətin və müxtəlif yüklərin daşınması, iriölçülü yüklərin xarici asqılarda nəqli üçün təyin olunmuş «Mi-17-1V» döyüş-nəqliyyat, eləcə də LAHAT, «Spike NLOS» tipli raketlərlə silahlanmış «Mi-17», habelə «Mi-35» və «Mİ-24» helikopterləri müxtəlif düzülüşlərdə hərəkət edərək, Azadlıq meydanının üzərindən keçdi.*

*Helikopterlərdən sonra Bakı səmasına döyüş təyyarələri və qırıcılar daxil oldu, milli şahinlərimiz paytaxt səmasında nümunəvi uçuşları davam etdirdilər.*

*Təlim-döyüş təyyarəsi uçuş heyətinin səriştəsinin artırılması və idarəolunmayan raket və bombalarla döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin edilmiş «L-39», yaxın və orta məsafələrdə hava döyüşlərinin aparılması üçün nəzərdə tutulmuş «MiQ-29», təyyarələrə, yerüstü hədəflərə idarəolunmayan raket, müxtəlif növ bombalar və 30 millimetrlik top ilə həmlə imkanına malik «Su-25» təyyarələri müxtəlif düzülüşlərdə hərəkət edərək, yüksək pilotaj fiqurları nümayiş etdirdilər.*

*Məhz bu paradda hərbi aviasiya tarixində ilk dəfə Azərbaycan şahinləri «Su-25» hücum təyyarələri ilə yüksək pilotaj məharəti göstərdilər. Onlar paytaxt səmasında üçrəngli bayrağımızın möhtəşəm əksini yaratdılar.*

*Azərbaycanın Hərbi Hava Qüvvələri hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək*

*qabiliyyətinə malikdir. Qırıcı-bombardmançı aviasiya bütün hündürlüklərdə hava hədəflərini məhv etmək, yerləşdiyi məkandan asılı olmayaraq, yerüstü obyektlərə və hədəflərə zərbələr endirmək iqtidarındadır. Hücum və döyüş helikopterləri tam qüvvələri ilə Quru Qoşunlarına aviasiya dəstəyi göstərmək və bütün cəbhəboyu düşmənə fasiləsiz zərbə vurmaq gücündədir. Nəqliyyat aviasiyası desant və kəşfiyyat qruplarının düşmənin arxa cəbhəsinə çıxarılması və ehtiyatların təmin edilməsi istiqamətində tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.*

*Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri və helikopterlərinin Bakı səmasında uçuşu xalqımızda düşmən üzərində qəti qələbəyə sarsılmaz inamı daha da möhkəmləndirdi.*

*1997-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin ilk buraxılış mərasimində ulu öndərimiz Heydər Əliyev demişdi:* «Çox sevinirəm ki, indi milli şahinlərimiz vardır. Sevinirəm ki, bizim şahinlərimiz Azərbaycan səmasını daim qorumağa, Azərbaycan ərazisini qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər».

*Paraddan sonra Prezident İlham Əliyev Azərbaycan Ordusunun yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə dövlət başçısının iyunun 25-də imzaladığı Sərəncamla 1-ci dərəcəli «Rəşadət» ordeni ilə təltif olunmuş general-polkovnik Zakir Həsənova, general-polkovnik Nəcməddin Sadıkova və general-leytenant Kərəm Mustafayevə həmin ordenləri təqdim etdi.*

*Azərbaycan Ordusunun 100 illiyi ilə əlaqədar keçirilən möhtəşəm hərbi parad başa çatdıqdan sonra qardaş Türkiyənin «Solo Türk» və «Türk Ulduzları» aviaqrupuna daxil olan 2 ədəd «F-16» və 8 ədəd «F-5» tipli təyyarə də Bakı buxtası üzərində nümunəvi uçuşlar keçirdi.*

*Bu parad bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Millətimizin ləyaqət rəmzi, özünütəsdiq imkanı olan ordumuz xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir və bütün bu ali ideyaları yalnız bir milli dəyər birləşdirir – müstəqillik!*

## ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİ ELİS UELLS İLƏ GÖRÜŞ

*27 iyun 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də ABŞ Dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisinin birinci müavini xanım Elis Uellsi qəbul etmişdir.*

*Xanım Elis Uells Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısına Azərbaycanın ev sahibliyi etməsi ilə bağlı minnətdarlığını bildirdi və bu tədbirin böyük önəm daşıdığını dedi.*

*Dövlət başçısı xanım Elis Uellsin bu tədbirdə iştirak etməsindən məmnunluğunu bildirdi.*

*Xanım Elis Uells bu yaxınlarda qeyd olunmuş Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi və «Şahdəniz-2» layihəsinin rəsmi açılışı kimi çox tarixi tədbirlərdən az vaxt keçmiş Azərbaycana səfər etməsindən məmnunluğunu vurğuladı. O bu mühüm hadisələrlə bağlı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Respublikasının Prezidentinə təbrik məktublarının göndərdiyini xatırladaraq, bu münasibətlə öz təbriklərini də çatdırdı.*

*Dövlətimizin başçısı Amerika Prezidenti Donald Trampın bu iki mühüm hadisə ilə bağlı göndərdiyi məktublara və orada ölkəmiz və ikitərəfli münasibətlərimizlə əlaqədar ifadə etdiyi xoş fikirlərə görə minnətdarlığını bildirdi, bunun əlaqələrimizin strateji önəmini bir daha nümayiş etdirdiyini deyərək qeyd etdi ki, Azərbaycan tərəfi ABŞ Prezidentinin ölkəmizə olan münasibətini yüksək qiymətləndirir. Prezident İlham Əliyev Azərbaycanın həyata keçirdiyi nəhəng enerji layihələrinin real-*

*laşmasına ABŞ Hökumətinin verdiyi dəstəyin böyük önəm daşıdığını vurğuladı və bildirdi ki, Azərbaycan hər zaman müxtəlif enerji layihələrinin, o cümlədən böyük əhəmiyyət daşıyan «Cənub Qaz Dəhlizi» layihəsinin reallaşmasında bu dəstəyi hiss edibdir.*

*Dövlət başçısı bildirdi ki, Azərbaycan Əfqanıstan hökumətinə birbaşa və beynəlxalq səylər çərçivəsində dəstək göstərir, eyni zamanda, NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasına öz töhfəsini verir və bu missiyada Azərbaycan hərbçilərinin sayı artırılıbdır. Azərbaycan gələcəkdə də öz hərbçilərinin sayını artırmağa hazırdır. Prezident İlham Əliyev daha sonra qeyd etdi ki, xüsusilə Bakı–Tbilisi–Qars dəmir yolu xətti işə düşdükdən sonra Azərbaycan Əfqanıstana böyük önəm daşıyan logistik dəstəyi təmin edir. Prezident İlham Əliyev bütün bunların Əfqanıstan hökuməti tərəfindən yüksək qiymətləndirildiyini dedi.*

*Azərbaycan Prezidenti qeyd etdi ki, Əfqanıstan üzrə Beynəlxalq Təmas Qrupunun toplantısı bunu bir daha nümayiş etdirəcək və Əfqanıstanda vəziyyətin sabitləşdirilməsi işinə böyük töhfə verəcəkdir.*

*Xanım Elis Uells Azərbaycan Prezidenti ilə görüşün Əfqanıstana dair məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaratdığını dedi. O, Azərbaycanın Əfqanıstana və bu ölkənin xalqına davamlı dəstəyini və eləcə də Əfqanıstandakı Qətiyyətli Dəstək missiyasında Azərbaycan hərbçilərinin sayının artırılmasının ABŞ tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.*

*Söhbət zamanı Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

**KANADANIN GENERAL-QUBERNATORU
XANIM JÜLİ PEYETTƏ**

Hörmətli xanım General-qubernator!

Milli bayramınız – Kanada Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə və dost Kanada xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2018-ci il*

**BURUNDİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB PYER NKURUNZİZAYA**

Hörmətli cənab Prezident!

Burundi Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2018-ci il*

## QEYDLƏR

**1. Mehriban Əliyeva,** M e h r i b a n  A r i f  q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, geniş-miqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5, 24, 86, 87, 89, 94, 95, 99, 119, 131, 163, 224, 227, 291, 292, 314.

**2. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə

də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 9–10, 11, 25, 29, 35, 37, 39, 42, 44, 59, 60, 121, 122, 123, 129, 132, 143, 160, 163, 193, 211, 227, 228, 322, 329.

**3**. **Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 11, 12, 22, 54, 163, 225, 258, 264–265, 286–288, 291–293, 305, 306, 314.

**4. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. –11, 258, 264, 287–288, 291, 292.

**5. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 12.

**6. Norveç,** N o r v e ç K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 385 min km$^2$, əhalisi 5 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı parlamentdir (Stortinq). Paytaxtı Oslo şəhəridir. – 13, 164.

**7. V Harald** (d.1937) – 1991-ci ildən Norveç kralı. Kral V Ulafin oğlu. – 13.

**8. Şahin Mustafayev,** Ş a h i n A b d u l l a o ğ l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının

İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 14, 78, 193.

**9. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 18, 19, 21, 72, 127, 154, 241, 281, 298.

**10. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 22, 55, 281.

**11. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 22, 165, 314.

**12. Pakistan,** P a k i s t a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 22, 308–309, 314.

**13. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti

Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 22, 165, 191–192, 225, 246, 312–313, 314.

**14. Hindistan,** H i n d i s t a n  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 22.

**15. Türkiyə,** T ü r k i y ə  C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 22, 55, 139, 145, 146, 153–154, 165, 181, 182, 225, 269–285, 303, 310–311, 314.

**16. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 22, 85, 145, 146, 147, 165, 181, 182, 281, 314.

**17. Ceyhun Bayramov,** C e y h u n  Ə z i z  o ğ l u (d.1973) – iqtisadçı-hüquqşünas. 2018-ci ildən Azərbaycan Respublikasının Təhsil naziridir. – 24.

**18. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi

məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 27, 89, 94, 239.

**19. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada, Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 17 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Amsterdam şəhəridir. – 28.

**20. Rene Van der Linden** (d.1943) – Niderland siyasətçisi. 2005–2008-ci illərdə AŞPA-nın, 2009–2010-cu illərdə Niderland Senatının Sədri olmuşdur. – 28.

**21. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi,

xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 28, 82, 95, 107, 174, 119–133, 134, 135, 141, 150, 242, 252, 315, 322, 331.

**22. Azərbaycan Diplomatik Akademiyası** (A D A U n i v e r s i t e t i) – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 28, 99–114.

**23. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 29–51, 121, 122, 322.

**24. Vasif Talıbov,** V a s i f Y u s i f o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Res-

publikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 29–51.

**25. Naxçıvan Müəllimlər İnstitutu** – 2003-cü ildə fəaliyyətə başlayıb. İnstitutda 23 auditoriya, 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları vardır. Burada tələbə və müəllim heyəti üçün hər cür şərait yaradılmışdır. – 33–40.

**26. İnam Kərimov,** İ n a m İ m d a d o ğ l u (d.1977) – 2012–2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri, 2018-ci ilin aprelindən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziridir. – 52, 69, 197.

**27. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min $km^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 54, 147, 162, 182, 281.

**28. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə

əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 54, 55, 146, 147, 154, 158, 179, 253, 256, 257, 284.

**29. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min $km^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 54, 55, 147.

**30. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 55, 135–136, 146, 150–151, 177, 231, 284, 331–332.

**31. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min $km^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı Prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş Nazir başçılıq edir. Paytaxtı Yerusəlim (Qüds) şəhəridir. – 55, 226, 314.

**32. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki,

Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 55, 314.

**33. Kamerun,** K a m e r u n  R e s p u b l i k a s ı – Mərkəzi Afrikada dövlət. Sahəsi 475,4 min km$^2$, əhalisi 20,5 milyon nəfərdir. İnzibati ərazisi 10 əyalətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Yaunde şəhəridir. – 58.

**34. Pol Biya** (d.1933) – Kamerunun siyasi və dövlət xadimi. 1982-ci ildən Kamerun Respublikasının Prezidentidir. – 58.

**35. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 59–60.

**36. Əli Əhmədov,** Ə l i  C a v a d  o ğ l u (d.1953) – Azərbaycanın siyasi xadimi. Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP-ın sədr müavini- icraçı katibidir. – 59.

**37. Kuba,** K u b a  R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hö-

kumətin başçısı Dövlət Şurasının Sədridir. Paytaxtı Havana şəhəridir. – 61.

**38. Migel Bermudes** (d.1960) – Kubanın dövlət və siyasi xadimi. 2018-ci ildən Kuba Respublikasının başçısı – Kuba Nazirlər Şurasının və Kuba Dövlət Şurasının Sədri, Kuba İnqidabı Hərbi Quvvələrinin Ali Baş Komandanıdır. – 61.

**39. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min $km^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı Prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. –64–77.

**40. Aleksandr Vuçiç** (d.1970) – Serbiyanın dövlət və siyasi xadimi. 2017-ci ildən Serbiya Respublikasının Prezidenti və Serbiya Təhlükəsizlik Milli Şurasının baş katibidir. – 64–77, 277–278.

**41. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 69, 211.

**42. Fikrət Məmmədov,** F i k r ə t F ə r r u x o ğ l u (d.1955) – Azərbaycan Respublikasının Ədliyyə naziri, I dərəcə Dövlət ədliyyə müşaviri, Məhkəmə-Hüquq Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 69.

**43. Ramin Quluzadə** (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci

müavini işləmişdir. 2017-ci ildən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziridir. – 70.

**44. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 71, 103, 104, 124, 172, 237.

**45. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə ərazisindən Qərb bazarlarına nəql edir. – 72, 105, 115, 134, 135, 136, 137, 139, 140–162, 177, 178, 179, 242, 252, 299.

**46. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard $m^3$ qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcək. – 72, 139, 145, 154, 160, 270–285, 299, 303.

**47.** «**Şahdəniz-2**» – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard $m^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 72, 139, 151, 160, 331.

**48. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 84.

**49. II Abdullah,** Abdullah bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. – 84.

**50. Giorgi Marqvelaşvili** (d.1969) – Gürcüstanın dövlət və siyasi xadimi. 2013–2018-ci illərdə Gürcüstan Respublikasının Prezidenti olmuşdur. – 85.

**51. Rövşən Rzayev,** Rövşən Şükür oğlu (d.1962) – 4-cü çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. – 86.

**52. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, 1994-cü ilin əvvəlində Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma torpaqlarına qayıtmışlar. – 91, 92, 94, 226, 239.

**53. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 92–126, 320, 322.

**54. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 92, 126, 320, 322.

**55. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 92, 126, 320.

**56. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, erməni işğalçıları hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 93, 95,103, 115, 125, 126, 171, 175, 177, 237, 253, 254, 255, 317.

**57. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 93, 325.

**58. UNESKO –** BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 94.

**59. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 94.

**60. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 94, 99, 228, 291, 292.

**61. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 95, 325.

**62. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 95, 325.

**63. Efiopiya,** Həbəşistan Federativ Demokratik Respublikası – Şərqi Afrikada dövlət. Sahəsi 1,104 min km$^2$, əhalisi 102,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Əddis-Əbəbə şəhəridir. – 98.

**64. Mulatu Teşome** (d.1955) – Efiopiya siyasətçisi. 2013–2018-ci illərdə Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti olmuşdur. – 98.

**65. Hafiz Paşayev,** Hafiz Mir Cəlal oğlu (d.1941) – fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Xarici İşlər nazirinin müavini, diplomat, ADA Universitetinin rektoru. 1993–2006-cı illərdə ABŞ-da (eyni zamanda, Meksika və Kanadada) Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur.

Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 99–114.

**66. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəm-

lənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 103, 125, 171, 172, 253, 301.

**67. Avropa Parlamenti,** A v r o p a r l a m e n t – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparlamentin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərar verir. Avroparlament beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 103, 125, 172, 256.

**68. Avropa Şurası Parlament Assambleyası** (AŞPA) – 1949-cu ildə yaradılmışdır. AŞPA-ya 47 Avropa ölkəsi daxildir. – 103, 125, 172.

**69. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı (AFR) – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 225.

**70. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan ibarət parlamentdir. İcra hakimiyyəti Prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 115–116, 163, 170, 182.

**71. Jan-İv Lö Drian** (d.1947) – Fransanın dövlət və siyasi xadimi. 2017-ci ildən Fransanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziridir. – 115–116.

**72. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 115, 134, 151, 155, 159, 270, 271.

**73. Total S.A.** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 115, 152, 164.

**74. Qafqaz İslam Ordusu** – Azərbaycanın istiqlalı elan olunduqdan (1918,28 may) sonra Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti hərbi yardım üçün rəsmi olaraq Osmanlı dövlətinə

müraciət etdi. 1918-ci ildə Batumda iki dövlət arasında bağlanan müqavilənin (Batum müqaviləsi – 1918) şərtlərinə uyğun olaraq, Mürsəl paşanın komandanlığı altında Beşinci Qafqaz firqəsi Azərbaycana göndərildi. Bu firqəyə rəhbərlik Nuru paşaya həvalə edildi. Qafqaz İslam Ordusu, türk və Azərbaycan hərbi qüvvələri Gəncə ermənilərini tərksilah edib, Qaraməryəm, Kürdəmir, Şamaxı, Binəqədi döyüşlərində bolşevik-daşnak qüvvələrinə ağır zərbələr endirərək, bütün cəbhəboyu onları geri çəkilməyə məcbur etdilər. Bu əməliyyat Azərbaycan dövlətinin paytaxtı Bakının azad edilməsi ilə nəticələndi. Qafqaz İslam Ordusunun ən uğurlu əməliyyatlarından biri Qarabağı erməni-daşnak quldurlarından, Cümhuriyyətin şimalını isə biçeraxovçu rus müdafiəçilərindən azad etməsi idi. Birinci dünya müharibəsində (1914–1918) Osmanlı dövlətinin məğlub olması nəticəsində (Mudros barışığı, 1918) Qafqaz İslam Ordusu ləğv olundu və türk hərbi hissələri geri çağırıldı. – 120.

**75. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 122.

**76. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini

formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 124, 172, 253

**77. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il) və 2005-ci ildə qurumu tərk etdi. – 125.

**78. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda keçirilən Forum. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 126, 149, 298.

**79. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan kəmər 2006-cı ildə istifadəyə verilmişdir. – 127, 144, 146, 154, 274, 303.

**80. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə

Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. –127, 145, 146, 154, 275, 281, 303.

**81. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 129.

**82. Alim Qasımov,** A l i m H ə m z ə o ğ l u (d.1957) – xanəndə. Azərbaycan Respublikasının Xalq artisti. Muğam sənətinin, xüsusilə də «tarab» janrının bilicilərindəndir. 1999-cu ildə Beynəlxalq İMC UNESKO musiqi mükafatını almışdır. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. Respublika Dövlət mükafatı laureatıdır. – 131.

**83. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının

artırılması banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 131.

**84. Fikrət Əmirov,** F i k r ə t  C ə m i l  o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı, instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. – 131.

**85. Arif Məlikov,** A r i f  C a h a n g i r  o ğ l u (1933–2019) – bəstəkar. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. 1961-ci ildə yazdığı «Məhəbbət əfsanəsi» baleti ona xüsusi şöhrət qazandırmışdır. Bu balet dünya ölkələrinin bir çox teatrlarında tamaşaya qoyulmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 131.

**86. *bp*,** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 134, 151, 152, 159–161, 271.

**87. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 135, 150, 177, 331.

**88. Baronessa Emma Nikolson** (d.1941) – Birləşmiş Krallığın ASPA-da nümayəndə heyətinin üzvü və Azərbaycan üzrə ticarət elçisidir. – 134, 151–153.

**89. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 134, 146, 151–153, 190, 225, 248.

**90. Səngəçal terminalı** – Azərbaycanın neft və qaz sənayesində həyati əhəmiyyətə malik obyektlərdən biri. Terminal dənizdəki yataqlardan hasil olunan nefti və qazı qəbul edir, texnoloji emaldan keçirir, saxlayır və ixrac edir. 542 hektar ərazini əhatə edir və dünyanın ən böyük neft və qaz terminallarından biridir. Texniki emal sistemlərinin ümumi gücü gündə 1,2 milyon barrel neft və «Şahdəniz» qazı üçün gündəlik 25,5 milyon kubmetr qaz təşkil edir. – 140–162.

**91. «Əsrin müqaviləsi» –** 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanılmış müqavilə. – 143, 144, 145.

**92. Tereza Mey** (d.1956) – Böyük Britaniya siyasətçisi. Mühafizəkarlar Partiyasının lideri. 2016-cı ildən Böyük Britaniyanın Baş Naziridir. – 146, 152–153, 190.

**93. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 153–154, 272–285, 303–304, 310, 311.

**94. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 147, 182, 260–261.

**95. Albaniya,** Albaniya Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 147, 162, 182.

**96. OPEC** (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 155, 156.

**97. LUKoyl** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası Hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan şirkət Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 159.

**98. TPAO**, Türkiyə Petrolları şirkəti – 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. Hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 159.

**99. Statoyl** – Norveç şirkəti, 1972-ci ildən fəaliyyət göstərir. Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 164.

**100. Türkmənistan,** Türkmənistan Respublikası – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min $km^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 165.

**101. Sercio Mattarella** – (d.1941) – 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. – 170.

**102. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tə-

rəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 172, 226, 238, 317.

**103. Fələstin Dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir – 173–176, 226.

**104. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 177, 180, 332

**105. Qüds –** Dünyanın ən qədim şəhərlərindən biri. Ərazisi 125,1 km$^2$, əhalisi 901 min nəfərdir. Müsəlman, yəhudi və xristianların «müqəddəs şəhəri» adlanır. Qüds haqqında ilk məlumat e.ə. II minilliyin ortalarına aiddir. Qüds müxtəlif vaxtlarda müxtəlif dövlətlərin hakimiyyəti altında olmuşdur. 1920–47-ci illərdə İngiltərənin Fələstin mandatlıq ərazisinin inzibati mərkəzi idi. 1947-ci ildən isə BMT-nin idarəsi altında xüsusi rejimli müstəqil inzibati vahid oldu. 1948–49-cu illər Ərəb–İsrail müharibəsindən sonra Qüds iki hissəyə bölündü: qərb hissəsi İsrailə, şərq hissəsi isə İordaniyaya verildi. 1950-ci ilin yanvarında İsrail qeyri-qanuni olaraq, Qüdsün qərb hissəsini dövlətin paytaxtı elan etdi. 1967-ci ildə İsrail Qüdsün şərq his-

səsini də işğal etdi. Qüds qədim müsəlman, yəhudi və xristian abidələri ilə zəngindir. – 175, 226.

**106. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 180.

**107. Həsən Ruhani** (d.1948) –İranın siyasi xadimi. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 191, 192, 246, 312, 313.

**108. Naftalan** – Azərbaycan Respublikasında şəhər (1967-ci ildən). Naftalanın salındığı tarix məlum deyildir. Naftalan sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır. Ehtimala görə hələ qədimdən təbii şəkildə çıxan neftin müalicəvi əhəmiyyətini bilən adamlar onu tuluqlara doldurub müxtəlif yerlərə aparmış və satmışlar. Naftalan neftindən müalicə məqsədilə istifadə olunmasına dair ilk yazılı məlumat XII əsrə aiddir. Dünyada yeganə müalicə nefti Naftalanda çıxarılır.

Naftalan balneoloji kurort kimi, 1935-ci ildən fəaliyyət göstərir. Kurortda sümük-əzələ, periferi damar, dəri, ginekoloji xəstəliklər müalicə olunur. – 211–217.

**109. Nəcməddin Sadıkov** (d.1956) – Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, Müdafiə nazirinin birinci müavini, general-polkovnik. Azərbaycan Respublikasının «Rəşadət» ordeni ilə təltif edilmişdir. – 218, 330.

**110. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h -ş ü k ü r H ü m m ə t o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöh-

rət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 223–228, 242–243.

**111. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–1914-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 224, 239.

**112. Zərifə xanım Əliyeva,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii»

(Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 228.

**113. Fransisk** (*əsl adı Jorqe Mario Bergoglio*) (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 232.

**114. II Elizabet** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georqun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 248.

**115. Filippin,** Filippin Respublikası – Cənub-Şərqi Asiyada, Filippin adalarında dövlət. Sahəsi 300 min km$^2$, əhalisi 103 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə və 2 muxtar vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Manila şəhəridir. – 259.

**116. Zakir Həsənov,** Zakir Əsgər oğlu (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» və «Rəşadət» ordenləri ilə təltif edilmişdir. – 266, 315, 330.

**117. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 265, 270, 278–279, 314.

**118. Petro Poroşenko** (d.1965) – Ukrayna biznesmeni və siyasətçisi. 1998–2005 və 2006–2007-ci illərdə Ukrayna Ali Radasının Xalq deputatı, 2005-ci ildən Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi, 2009–2010-cu illərdə Ukraynanın Xarici İşlər naziri olmuşdur. 2014–2019-cu illərdə Ukrayna Respublikasının Prezidenti olmuşdur. – 270, 278–279.

**119. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və Prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr administrasiyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdi. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Cümhuriyyətini (KKTC) – elan etdi. – 277.

**120. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Quran oruc tutmağı islamın vacib əməllərindən biri hesab edir və insanlarda yol verilmiş xataların oruc tutmaqla, bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, Quran məhz müqəddəs Ramazan ayında nazil olmuşdur. – 289–290.

**121. Xorvatiya,** X o r v a t i y a R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 294.

**122. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a -n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15

milyon $km^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 291–292, 297, 314.

**123. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Mənzil-qərargahı Manilada yerləşir. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 298–300.

**124. Zübair Hayat** (d.1960) – ordu generalı. Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədridir. – 308–309.

**125. Akar Hulusi** (d.1952) – ordu generalı. 2015–2008-ci illərdə Türkiyə Respublikası Silahlı Qüvvələri Qərargahının rəisi, 2018-ci ildən isə Türkiyə Respublikasının Müdafiə naziridir. – 310–311.

## Şəxsi adlar göstəricisi


**II Abdullah** – 84
**Abdullayev Rövnəq** – 181, 273
**Akar Hulusi** – 310–311
**Akıncı Mustafa** – 217
**Al Səud Məhəmməd** – 297
**Aleksandr** *(arxiyepiskop)* – 228–230
**Albayrak Berat** – 273
**Azərin** – 131
**Barkindo Məhəmməd** – 155–157
**Bayramov Ceyhun** – 24
**Bermudes Migel** – 61
**Biya Pol** – 58
**Boçarnikov Mixail** – 264–265
**Brink Bricet** – 177
**Buteflika Əbdüləziz** – 302
**Cəfərov Samir** – 131
**Couns Qari** – 186
**Dadli Robert** – 271
**Darbo Usaynu** – 254–255
**De Susa Marselo** – 247
**Duterte Rodriqo** – 259
**II Elizabet** – 248
**Emin** – 132
**Əbdül Kərim Nasir** – 173–176
**Əhmədov Əli** – 59
**Əlixanbəyov Talıb** – 78
**Əliyev Azər** – 107–108

**Əliyev Heydər** – 9–10, 11, 25, 29, 35, 37, 39, 42, 44, 59, 60, 121, 122, 123, 129, 132, 143, 160, 163, 193, 211, 227, 228, 322, 329
**Əliyeva Leyla** – 94, 99, 228, 291, 292
**Əliyeva Mehriban** – 5, 24, 86, 87, 89, 94, 95, 99, 119, 131, 163, 224, 227, 291, 292, 314
**Əliyeva Zərifə xanım** – 228
**Əmirov Fikrət** – 131
**Ərdoğan Rəcəb Tayyib** – 153–154, 272–285, 303–304, 310, 311
**Əroğlu Veysəl** – 259
**Fekete Vladimir** *(yepiskop)* – 232–234
**Ford Henri** – 156
**Fransisk** *(Roma Papası)* – 232, 233
**Hacıbəyli Üzeyir** – 131
**Hayat Zübair** – 308–309
**V Harald** – 13
**Həsənov Möhübbət** – 95
**Həsənov Zakir** – 266, 315, 330
**Hüseynov Xəzər** – 39–40
**Hüseynov Zaur** – 249
**Xanbabayeva Zülfiyyə** – 131
**Xəlilova Vəsilə** – 93–95
**İbrahimov Rövşən** – 211
**İnfantino Canni** – 292
**İsmayılzadə Fariz** – 99
**XVI Karl Qustav** – 188
**Kazdal Vəfa** – 108–110
**Kazımova Aygün** – 131
**Kərimov İnam** – 52, 69, 197

**Kuburoviç Nela** – 69
**Kirill** *(patriarx)* – 229
**Kuvşinov Vladimir** – 189
**Qani Məhəmməd** – 180
**Qarayev Qara** – 131
**Qarifullina Aida** – 291
**Qasımov Alim** – 131
**Qasımova Fərqanə** – 131
**Qədimov Sənan** –197, 203
**Qrabar-Kitaroviç Kolinda** – 294
**Quliyev Asəf** – 44
**Quliyev Nizaməddin** – 193
**Quluzadə Ramin** – 70
**Lappartyen David** – 244–245
**Lonçar Zlatibor** – 69
**Louh Tayev** – 301–302
**Lö Drian Jan-İv** – 115–116
**Lukaşenko Aleksandr** – 307
**Luney Bernard** – 159–161
**II Marqret** – 187
**Marqvelaşvili Giorgi** – 85
**Matos Alberto** – 5
**Mattarella Sercio** – 170
**Mey Tereza** – 146, 152–153, 190
**Məhəmməd Mahathir** – 12
**Məlikov Arif** – 131
**Məmmədov Fərid** – 168
**Məmmədov Fikrət** – 69
**Mihayloviç Zorana** – 69, 70
**Mustafayev Kərəm** – 46, 330
**Mustafayev Şahin** – 14, 78, 193
**Nikolson Emma** – 134, 151–153

**Nkurunziza Pyer** – 334
**Nyusi Filipe** – 296
**Qudkirk Sandra** – 135–136, 150–151
**Ottinger Günter** – 178–179
**Özoral Ərkan** – 153–154
**Pahor Borut** – 295
**Paşazadə Hacı Allahşükür** – 223–228, 242–243
**Paşayev Hafiz** – 99–114
**Peyett Jüli** – 333
**Pinto Linda** – 5
**Poroşenko Petro** – 270, 278–279
**Putin Vladimir** – 11, 258, 264, 287–288, 291
**Radev Rumen** – 260, 261
**Rayder Qay** – 62–63
**Roq Filip** – 169
**Röya** – 132
**Rzayev Rövşən** – 86
**Ruhani Həsən** – 191, 192, 246, 312, 313
**Sadıkov Nəcməddin** – 218, 330
**Salehi Seyid Abbas** – 312–313
**Sentyurin Yuri** – 137, 157–159
**Seoane Mariya** – 262–263
**Səfərli - Abdullazadə Vəfa** – 23
**Səfərova Tünzalə** – 217
**Səməd Vurğun** – 132
**Şirəliyev Oqtay** – 69, 211
**Şivaji Kşatrapati** – 298–300
**Talıbov Vasif** – 29–51
**Teşome Mulatu** – 98
**Tramp Donald** – 135, 150, 177, 331
**Van der Linden Rene** – 28

**Uells Elis** – 331–332
**Uilyams Robbi** – 291
**Vaezi Mahmud** – 191–192
**Viskarra Martin** – 262, 263
**Volodin Vyaçeslav** – 305–306
**Vuçiç Aleksandr** – 54–77, 277–278
**Vud Endrü** – 168
**Yankov Nikolay** – 260–261
**Yevdayev Milix** – 230–232
**Yunker Jan-Klod** – 179
**Zahradil Yan** – 256–257
**Zas Stanislav** – 307
**Zeynalov Azər** – 132

## Coğrafi adlar göstəricisi


**Ağdərə** – 92, 126, 320
**Albaniya** – 147, 162, 182
**Almaniya** – 225
**Amerika Birləşmiş Ştatları** – 55, 135–136, 146, 150–151, 177, 231, 284, 331–332
**Aralıq dənizi** – 127, 150
**Asiya** – 21, 72
**Astara** – 192
**Avrasiya** – 22, 73, 105, 177
**Avropa** – 21, 22, 72, 128, 139, 147, 150, 158, 177, 225, 252, 281
**Belarus** – 54, 163, 307, 314
**Bəhreyn** – 314
**Birləşmiş Ərəb Əmirlikləri** – 55, 314
**Burundi** – 334
**Bulqan** – 41
**Bolqarıstan** – 147, 182, 260–261
**Bosniya və Herseqovina** – 147
**Böyük Britaniya** – 134, 146, 151–153, 190, 225, 248
**Cəbrayıl** – 92, 126, 320, 322
**Cəlilabad** – 200
**Cocuq Mərcanlı** – 91, 92, 94, 226, 239
**Cənubi Qafqaz** – 60
**Çanaqqala** – 281
**Çexiya** – 256

**Çin** – 22, 55, 281
**Dağlıq Qarabağ** – 93, 95,103, 115, 125, 126, 171, 175, 177, 237, 253, 254, 255, 317
**Danimarka** – 187
**Efiopiya** – 98
**Əfqanıstan** – 177, 180, 332
**Əlcəzair** – 301–302
**Əskişəhər** – 269–285
**Filippin** – 259
**Finlandiya** – 225
**Fələstin** – 173, 176, 226
**Fransa** – 115–116, 163, 170, 182
**Füzuli** – 92, 126, 320
**Goranboy** – 193–210
**Gürcüstan** – 22, 85, 145, 146, 147, 165, 181, 182, 281, 314
**Hindistan** – 22
**Xankəndi** – 95
**Xəlilli** – 41
**Xəzər dənizi** – 68, 127, 143, 144, 150, 158, 163, 241
**Xorvatiya** – 147, 294
**Xocalı** – 172, 226, 238, 317
**İordaniya** – 84
**İraq** – 150
**İran** – 22, 165, 191–192, 225, 246, 312–313, 314
**İspaniya** – 225
**İsveç** – 188, 225
**İsrail** – 55, 226, 314
**İtaliya** – 54, 55, 147, 163, 170, 182

**Kabil** – 180
**Kamerun** – 58
**Kanada** – 333
**Kuba** – 61
**Qafqaz** – 82–83, 150
**Qambiya** – 254–255
**Qara dəniz** – 127, 144
**Qaraçuq** – 41
**Qazaxıstan** – 22, 165, 314
**Qaraxanbəyli** – 41, 42–43
**Qəzza** – 226
**Qüds** – 175, 226
**Laçın** – 95
**Lələtəpə** – 320
**London** – 146, 190, 281
**Los Anceles** – 231
**Mahmudkənd** – 30
**Malayziya** – 12
**Masazır** – 87
**Mehdiabad** – 87
**Mərkəzi Asiya** – 150
**Mərkəzi Avropa** – 169
**Monteneqro** – 147
**Moskva** – 122, 286–288, 291–293
**Mozambik** – 296
**Naftalan** – 211–217
**Naxçıvan Muxtar Respublikası**–29–51, 121, 122, 322
**Naxçıvan** – 29, 121, 122, 228, 320
**Niderland Krallığı** – 28
**Norveç** – 13, 164
**Özbəkistan** – 164, 225, 314
**Pakistan** – 22, 308–309, 314

**Peru** – 262–263
**Portuqaliya** – 247
**Ramana** – 87
**Rusiya** – 10, 11, 22, 54, 163, 225, 228, 264–265, 286–288, 291–293, 305–306, 314
**Sabunçu** – 87
**Serbiya** – 64–77
**Səudiyyə Ərəbistanı** – 291–292, 297, 314
**Sloveniya** – 295
**Suraxanı** – 78
**Sumqayıt** – 87
**Şəmkir** – 200
**Şərqi Avropa** – 169
**Şərur** – 30-32
**Şimali Avropa** – 22
**Şimali Kipr** – 277
**Şıxarx** – 92
**Şuşa** – 93
**Tehran** – 246
**Tərtər** – 322
**Tumbul** – 41
**Türkiyə** – 22, 55, 139, 145, 146, 153–154, 165, 181, 182, 225, 269–285, 303, 310–311, 314
**Türkmənistan** – 165
**Ukrayna** – 165, 270, 278–279, 314
**Vatikan** – 233, 234
**Yaxın Şərq** – 226, 281
**Yalama** – 200
**Yunanıstan** – 54, 147, 162, 182, 281
**Zeyvə** – 30

# MÜNDƏRİCAT

«DİNAMO» HOTELİNİN AÇILIŞI MƏRASİMİ

*11 may 2018-ci il*..........................................................................................5

«HEYDƏR ƏLİYEV: ŞƏXSİYYƏT, MİSSİYA, İRS» TARİXİ SƏNƏDLİ SƏRGİNİN İŞTİRAKÇILARINA

*12 may 2018-ci il*..........................................................................................9

«HEYDƏR ƏLİYEV: ŞƏXSİYYƏT, MİSSİYA, İRS» TARİXİ SƏNƏDLİ SƏRGİNİN İŞTİRAKÇILARINA VƏ QONAQLARINA

*12 may 2018-ci il*........................................................................................11

MALAYZİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MAHATHIR MƏHƏMMƏDƏ

*14 may 2018-ci il*........................................................................................12

NORVEÇ KRALI ƏLAHƏZRƏT V HARALDA

*14 may 2018-ci il*........................................................................................13

QARADAĞ RAYONUNUN ƏLƏT QƏSƏBƏSİNDƏ BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*14 may 2018-ci il*........................................................................................14

HEYDƏR ƏLİYEV ADINA MÜASİR TƏHSİL KOMPLEKSİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 may 2018-ci il*..........................................................................................*24*

NİDERLAND–AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN SƏDRİ RENE VAN DER LİNDEN İLƏ GÖRÜŞ

*15 may 2018-ci il*..........................................................................................*28*

NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏR

*16 may 2018-ci il*..........................................................................................*29*

MÜƏLLİMLƏR İNSTİTUTUNUN YENİ BİNASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NAXÇIVAN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*16 may 2018-ci il*..........................................................................................*33*

XXIV AZƏRBAYCAN BEYNƏLXALQ QİDA SƏNAYESİ VƏ XII AZƏRBAYCAN BEYNƏLXALQ KƏND TƏSƏRRÜFATI SƏRGİLƏRİ İLƏ TANIŞLIQ

*16 may 2018-ci il*..........................................................................................*52*

KAMERUN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB POL BİYAYA

*17 may 2018-ci il*..........................................................................................*58*

YENİ AZƏRBAYCAN PARTİYASININ YENİ İNZİBATİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*18 may 2018-ci il*..........................................................................................*59*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ
VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB
MİGEL DİAS-KANEL BERMUDESƏ

*19 may 2018-ci il.....................................................................................61*

BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATININ BAŞ DİREKTORU
QAY RAYDERİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 may 2018-ci il.....................................................................................62*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ  ALEKSANDR
VUÇİÇİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*21 may 2018-ci il.....................................................................................64*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR
VUÇİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*21 may 2018-ci il.....................................................................................65*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*21 may 2018-ci il.....................................................................................66*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*21 may 2018-ci il.....................................................................................69*

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR
VUÇİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA
ÇIXIŞLAR

*21 may 2018-ci il.....................................................................................71*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*21 may 2018-ci il* ....................................................................................*76*

YÜKSƏKGƏRGİNLİKLİ AVADANLIQLAR ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*22 may 2018-ci il*.....................................................................................*78*

«QAFQAZDA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR: 100 İL ƏVVƏL VƏ MÜASİR DÖVR» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

*22 may 2018-ci il*.....................................................................................*82*

İORDANİYA KRALI ƏLAHƏZRƏT II ABDULLAH İBN HÜSEYNƏ

*22 may 2018-ci il*.....................................................................................*84*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GİORGİ MARQVELAŞVİLİYƏ

*23 may 2018-ci il*.....................................................................................*85*

QARADAĞ RAYONUNDA MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ «QOBU PARK» YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*24 may 2018-ci il*.....................................................................................*86*

QARADAĞ RAYONUNDA ƏSASLI TƏMİRDƏN SONRA LÖKBATAN–QOBU AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*24 may 2018-ci il*.....................................................................................*96*

EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MULATU TEŞOMEYƏ

*25 may 2018-ci il*.......................................................................................*98*

ADA UNİVERSİTETİNDƏ KEÇİRİLƏN MƏZUN GÜNÜNDƏ İŞTİRAK

*26 may 2018-ci il*.......................................................................................*99*

FRANSA RESPUBLİKASININ AVROPA VƏ XARİCİ İŞLƏR NAZİRİ JAN-İV LÖ DRİAN İLƏ GÖRÜŞ

*27 may 2018-ci il*.....................................................................................*115*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ŞƏRƏFİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*28 may 2018-ci il*.....................................................................................*117*

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN YARANMASININ 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏŞKİL OLUNMUŞ QƏBULDA İŞTİRAK

*28 may 2018-ci il* ....................................................................................*119*

BAKI KRİSTAL ZALDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ KONSERTDƏ İŞTİRAK

*28 may 2018-ci il*.....................................................................................*131*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*28 may 2018-ci il*.....................................................................................*134*

ABŞ DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ SANDRA OUDKİRKİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 may 2018-ci il..........................................................................135*

QAZ İXRAC EDƏN ÖLKƏLƏR FORUMUNUN BAŞ KATİBİ YURİ SENTYURİN İLƏ GÖRÜŞ

*29 may 2018-ci il..........................................................................137*

XXV BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ» SƏRGİ VƏ KONFRANSI İŞTİRAKÇILARINA

*29 may 2018-ci il..........................................................................138*

SƏNGƏÇAL TERMİNALINDA «CƏNUB QAZ DƏHLİZİ»NİN RƏSMİ AÇILIŞI MƏRASİMİ

*29 may 2018-ci il..........................................................................140*

XXV BEYNƏLXALQ «XƏZƏR NEFT VƏ QAZ–2018» SƏRGİSİ İLƏ TANIŞLIQ

*29 may 2018-ci il ........................................................................163*

«MİCROSOFT» ŞİRKƏTİNİN MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÜZRƏ VİTSE-PREZİDENTİ FİLİP ROQ İLƏ GÖRÜŞ

*29 may 2018-ci il..........................................................................169*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SERCİO MATTARELLAYA

*30 may 2018-ci il..........................................................................170*

MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDAKI SƏFİRLƏRİNİN VƏ DİPLOMATİK NÜMAYƏNDƏLİK-
LƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*31 may 2018-ci il..........................................................................171*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ KÖMƏKÇİSİNİN MÜAVİNİ BRİCET BRİNK İLƏ GÖRÜŞ

*31 may 2018-ci il..........................................................................177*

AVROPA KOMİSSİYASININ KOMİSSARI GÜNTER OTTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 may 2018-ci il ..........................................................................178*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİ-
DENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏŞRƏF QANİYƏ

*1 iyun 2018-ci il...........................................................................180*

«ŞAHDƏNİZ MƏRHƏLƏ-2» ÜÇÜN İNŞA OLUNAN İKİ PLATFORMADAN BİRİNİN ÜST TİKİLİLƏRİNİN DƏNİZƏ YOLASALMA MƏRASİMİ

*1 iyun 2018-ci il...........................................................................181*

DANİMARKA KRALİÇASI ÜLYAHƏZRƏT II MARQRETEYƏ

*2 iyun 2018-ci il...........................................................................187*

İSVEÇ KRALI ƏLAHƏZRƏT XVI KARL QUSTAVA

*3 iyun 2018-ci il...........................................................................188*

BEYNƏLXALQ MÜLKİ MÜDAFİƏ TƏŞKİLATININ
BAŞ KATİBİ VLADİMİR KUVŞİNOV İLƏ GÖRÜŞ

*3 iyun 2018-ci il ........................................................................................189*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ
KRALLIĞININ BAŞ NAZİRİ XANIM TEREZA MEYƏ

*4 iyun 2018-ci il..........................................................................................190*

İRAN İSLAM RESPUBLİKASI PREZİDENT APARATININ RƏHBƏRİ
MAHMUD VAEZİ İLƏ GÖRÜŞ

*4 iyun 2018-ci il ........................................................................................191*

GORANBOY RAYONUNA SƏFƏR

*5 iyun 2018-ci il .........................................................................................193*

NAFTALAN ŞƏHƏRİNƏ SƏFƏR

*5 iyun 2018-ci il .........................................................................................211*

MÜDAFİƏ NAZİRLİYİNİN «N» SAYLI HƏRBİ HİSSƏSİ
ÜÇÜN İNŞA EDİLMİŞ HƏRBİ ŞƏHƏRCİKDƏ YARADILAN
ŞƏRAİTLƏ TANIŞLIQ

*5 iyun 2018-ci il .........................................................................................218*

RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR MƏRASİMİNDƏ
İŞTİRAK

*6 iyun 2018-ci il .........................................................................................223*

BEYNƏLXALQ VELOSİPEDÇİLƏR İTTİFAQININ
PREZİDENTİ DAVİD LAPPARTYEN İLƏ GÖRÜŞ

*6 iyun 2018-ci il .........................................................................................244*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*7 iyun 2018-ci il*.........................................................................................*246*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB MARSELO REBELO DE SUSAYA

*7 iyun 2018-ci il*.........................................................................................*247*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA
KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABETƏ

*7 iyun 2018-ci il*.........................................................................................*248*

METRONUN «SAHİL» STANSİYASININ ƏSASLI TƏMİR VƏ
YENİDƏN QURULMADAN SONRA
AÇILIŞI MƏRASİMİ

*7 iyun 2018-ci il* .......................................................................................*249*

AVROPADA MÜHAFİZƏKARLAR VƏ İSLAHATÇILAR
ALYANSININ BAKI SAMMİTİNİN İŞTİRAKÇILARINA

*8 iyun 2018-ci il*.........................................................................................*252*

QAMBİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ USAYNU
DARBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*8 iyun 2018-ci il* ........................................................................................*254*

AVROPA MÜHAFİZƏKARLAR VƏ İSLAHATÇILAR
ALYANSININ PREZİDENTİ, AVROPA PARLAMENTİNİN
BEYNƏLXALQ TİCARƏT KOMİTƏSİNİN VİTSE-PREZİDENTİ
YAN ZAHRADİL İLƏ GÖRÜŞ

*8 iyun 2018-ci il* ........................................................................................*256*
RUSİYA FEDERASİYASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*9 iyun 2018-ci il*.......................................................................................*258*

FİLİPPİN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RODRİQO DUTERTEYƏ

*9 iyun 2018-ci il*.......................................................................................*259*

BOLQARISTAN RESPUBLİKASININ AZƏRBAYCANDA
YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ
NİKOLAY YANKOV İLƏ GÖRÜŞ

*10 iyun 2018-ci il* ....................................................................................*260*

PERU RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ
MARİYA MİLAQROS KASTANYON SEOANE
İLƏ GÖRÜŞ

*10 iyun 2018-ci il* ....................................................................................*262*

RUSİYA FEDERASİYASININ AZƏRBAYCANDA YENİ
TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ
SƏFİRİ MİXAİL BOÇARNİKOV İLƏ GÖRÜŞ

*10 iyun 2018-ci il*.....................................................................................*264*

MÜDAFİƏ NAZİRLİYİ RAKET QOŞUNLARININ
«N» SAYLI HƏRBİ HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*11 iyun 2018-ci il*.....................................................................................*266*

TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR

*12 iyun 2018-ci il* ....................................................................................*269*
UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ

PETRO POROŞENKO İLƏ GÖRÜŞ

*12 iyun 2018-ci il .......................................................................................270*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
ROBERT DADLİ İLƏ GÖRÜŞ

*12 iyun 2018-ci il .......................................................................................271*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*12 iyun 2018-ci il .......................................................................................272*

TANAP – TRANS–ANADOLU QAZ KƏMƏRİNİN
İSTİFADƏYƏ VERİLMƏSİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ
MƏRASİMDƏ İŞTİRAK

*12 iyun 2018-ci il .......................................................................................273*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*12 iyun 2018-ci il .......................................................................................286*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR
PUTİN İLƏ GÖRÜŞ

*13 iyun 2018-ci il .......................................................................................287*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*13 iyun 2018-ci il........................................................................................289*

FUTBOL ÜZRƏ NÖVBƏTİ DÜNYA ÇEMPİONATININ
AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*14 iyun 2018-ci il .......................................................................................291*
XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ

XANIM KOLİNDA QRABAR-KİTAROVİÇƏ

*22 iyun 2018-ci il..........................................................................294*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BORUT PAHORA

*22 iyun 2018-ci il..........................................................................295*

MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB FİLİPE JASİNTO NYUSİYƏ

*22 iyun 2018-ci il..........................................................................296*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ,
BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ ƏLAHƏZRƏT
MƏHƏMMƏD BİN SALMAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*22 iyun 2018-ci il..........................................................................297*

ASİYA İNKİŞAF BANKININ İCRAÇI DİREKTORLAR
ŞURASININ ÜZVÜ KŞATRAPATİ ŞİVAJİNİN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 iyun 2018-ci il..........................................................................298*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ
ƏDLİYYƏ NAZİRİ TAYEB LOUHUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 iyun 2018-ci il..........................................................................301*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*24 iyun 2018-ci il..........................................................................303*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ
DÖVLƏT DUMASININ SƏDRİ VYAÇESLAV VOLODİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 iyun 2018-ci il..............................................................................305*

BELARUS RESPUBLİKASI TƏHLÜKƏSİZLİK ŞURASININ
DÖVLƏT KATİBİ STANİSLAV ZAS İLƏ GÖRÜŞ

*24 iyun 2018-ci il..............................................................................307*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BİRLƏŞMİŞ
QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİ ZÜBAİR
MAHMUD HAYAT İLƏ GÖRÜŞ

*25 iyun 2018-ci il..............................................................................308*

TÜRKİYƏ RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ
NURƏTTİN CANİKLİ VƏ SİLAHLI QÜVVƏLƏRİN
BAŞ QƏRARGAH RƏİSİ HULUSİ AKAR İLƏ GÖRÜŞ

*26 iyun 2018-ci il..............................................................................310*

İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ
İSLAMİ İRŞAD NAZİRİ SEYİD ABBAS SALEHİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*26 iyun 2018-ci il..............................................................................312*

AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN 100 İLLİYİ
MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ HƏRBİ
PARADDA İŞTİRAK

*26 iyun 2018-ci il..............................................................................314*
ABŞ DÖVLƏT KATİBİNİN KÖMƏKÇİSİ ELİS UELLS
İLƏ GÖRÜŞ

*27 iyun 2018-ci il* ........................................................................................*331*

KANADANIN GENERAL-QUBERNATORU XANIM JÜLİ PEYETTƏ

*28 iyun 2018-ci il*........................................................................................*333*

BURUNDİ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PYER NKURUNZİZAYA

*28 iyun 2018-ci il*........................................................................................*334*

QEYDLƏR.......................................................................................................*335*

*Şəxsi adlar göstəricisi*...................................................................................*366*

*Coğrafi adlar göstəricisi* ...............................................................................*370*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.